# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# YEDDİNCİ KİTAB

## NOYABR 2004 - YANVAR 2005

AZƏRNƏŞR
BAKI - 2011

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2011

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2010, 408 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycanın daha da inkişaf etdirilməsinə, insanların sosial həyat şəraitinin yaxşılaşmasına, ölkəmizin iqtisadi və siyasi cəhətdən daha müsair dövlətə çevrilməsinə, xüsusilə neft və qaz yataqlarının işlənilməsi ilə yanaşı iqtisadiyyatın digər sahələrinə sərmayələrin cəlb edilməsinə, mədəniyyət ocaqlarının yenidən qurulmasına aid, çıxışları, nitqləri ayrı-ayrı dövlət və hökumət başçılarına məktubları toplanmışdır.

Cilddə Qətər dövlətinə rəsmi səfəri zamanı iki dövlət arasında iqtisadi-siyasi və digər sahələrdə əlaqələrin möhkəmlənməsi, gələcəkdə münasibətlərin genişləndirilməsi üçün bütün imkanlardan istifadə edilməsindən bəhs edən materiallar da öz əksini tapmışdır.

Həmçinin, Prezidentin Böyük Britaniyaya rəsmi səfəri zamanı tanınmış dövlət xadimləri ilə görüşlərindəki söylədiyi nitqləri, «Azərbaycanda ticarət və sərmayə» konfransında çıxışı, Kütləvi İnformasiya Vasitələrinə verdiyi müsahibələri və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemini əks etdirən bəyanatları da bu cildin əsas mövzularından birini təşkil edir.

**İSBN 978-9952-8100-7-3**

$Ə\,\frac{0801000000}{M-651(07)-2011}$

**BBK-32**

© Azərnəşr, 2011

## «PREZİDENT HEYDƏR ƏLİYEV» TANKERİNİN İSTİSMARA VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*Bakı, «Yaxt-klub»*

*3 noyabr 2004-cü il*

Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!
Hörmətli cənab qubernator!
Hörmətli qonaqlar!

Bu gün çox əlamətdar bir gündür. Xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan tanker istismara verilir. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə öz xalqına sədaqətlə, ləyaqətlə xidmət etmişdir. 1970-ci illərdə Azərbaycanın müasir infrastrukturunun yaranmasında və güclənməsində çox böyük addımlar atılmışdır. Demək olar ki, Azərbaycanın sənaye potensialı məhz bu illərdə formalaşmışdır. Müxtəlif sənaye müəssisələri, sosial obyektlər məhz bu illərdə tikilmişdir. Azərbaycanda quruculuq işləri çox geniş vüsət almışdı və o, digər müttəfiq respublikalarla müqayisədə ən qabaqcıl yerlərdə idi. Deyə bilərəm ki, Azərbaycan çox az respublikalardan idi ki, iqtisadi cəhətdən özü-özünü təmin edə, hasil edilən məhsul hesabına müstəqil yaşaya bilərdi.

1990-cı illərin əvvəllərində Azərbaycan çox ağır vəziyyətdə olan zaman məhz Heydər Əliyevin müdrikliyi, qətiyyəti və siyasəti, xalqımızın bu siyasətə dəstəyi Azərbaycanı çox çətin vəziyyətdən qurtardı, inkişaf yoluna çıxardı. 1993-cü ildən başlayaraq bu günə qədər ölkəmiz ildən-ilə inkişaf edir. Azərbaycanda bütün sahələrdə tərəqqi var, iqtisadi potensial yaranır, sosial

məsələlərə böyük diqqət göstərilir. Azərbaycan dünyada öz mövqelərini möhkəmləndirmişdir. Bu gün qətiyyətlə deyə bilərik ki, Azərbaycan bölgədə ən qabaqcıl mövqelərə sahibdir, liderdir.

Ölkəmiz müxtəlif istiqamətlərdə çox böyük uğurlar əldə edibdir. 1993-cü ildən bu günə qədər ölkəmizdə hökm sürən ictimai-siyasi sabitlik, asayiş bizim iqtisadi nailiyyətlərimizin əsas səbəblərindən biridir. Tarixdən bilirik ki, sabitlik hər bir inkişafın təməlidir. O ölkədə ki sabitlik yoxdur, orada iqtisadi, yaxud hansısa başqa istiqamətdə inkişafdan söhbət gedə bilməz. Azərbaycanın müasir tarixi buna əyani sübutdur.

Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış neft strategiyası da məhz bu məqsədi güdür. Azərbaycanı xarici sərmayələr üçün cəlbedici məkana çevirmək, Azərbaycanda yeni infrastruktur yaratmaq, öz təbii ehtiyatlarını dünya bazarlarına çıxarmaq və beləliklə, həm iqtisadi, həm də siyasi baxımdan ölkəmizi gücləndirmək vəzifəsi qarşıda dururdu. Bu vəzifə çox şərəflə yerinə yetirilir, Heydər Əliyevin neft strategiyası Azərbaycana böyük faydalar gətirmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış "Əsrin müqaviləsi"nin bu gün həyata keçirilməsi, böyük neft kəmərlərinin tikintisi və digər layihələr ölkəmizə öz iqtisadi potensialını daha da gücləndirmək imkanı verir. Əlbəttə, gələcəkdə bu, daha böyük həcmdə hiss olunacaqdır. Çünki Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəndən sonra ölkəmizə daha böyük həcmdə valyuta ehtiyatı gələcəkdir. Bu da, öz növbəsində, qarşımızda duran bütün əsas məsələlərin həlli üçün yaxşı şərait yaradacaqdır.

Bir sözlə, Heydər Əliyevin Azərbaycan tarixində rolu və fəaliyyəti əvəzolunmazdır. Bu, bir həqiqətdir və bizim vəzifəmiz – mən bunu dəfələrlə, o cümlədən bir il bundan əvvəl prezident seçkiləri ərəfəsində demişdim ki, – bu siyasətə sadiq olmaq, onu davam etdirmək, yeni formalarla zənginləşdirmək və Azərbaycanı gələcəyə doğru aparmaqdır. Mən çox şadam ki, son bir il ərzində qarşımızda duran bütün vəzifələr, qəbul edilmiş bütün

proqramlar, verilmiş bütün vədlər uğurla yerinə yetirilir və son bir il ərzində Azərbaycan daha da güclənmiş, dünyada öz mövqelərini daha da möhkəmləndirmişdir. Əminəm ki, Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar ölkəmizi daha da, hərtərəfli inkişaf etdirir.

Azərbaycanda infrastrukturun inkişafına daim böyük diqqət göstərilir. Onu da qeyd etməliyəm ki, hələ Sovet İttifaqı zamanı Heydər Əliyev Moskvada Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini kimi həm də nəqliyyat məsələlərinə cavabdeh idi. Nəqliyyat təsərrüfatına o, kuratorluq edirdi və bu sahəni Sovet İttifaqı miqyasında çöx gözəl, yaxşı bilirdi. Əlbəttə, Azərbaycanda da bu sahəyə çox böyük əhəmiyyət verilirdi. Azərbaycanın coğrafi və siyasi vəziyyəti elədir ki, nəqliyyat infrastrukturunun güclü olması bizim üçün çox əhəmiyyətli bir amildir. Amma 1990-cı illərin əvvəllərində bu sahədə vəziyyət o qədər də ürəkaçan deyildi. Demək olar ki, bizim infrastrukturumuz bərbad vəziyyətdə idi. O cümlədən Xəzər Dəniz Gəmiçiliyi də çox ağır vəziyyətdə idi.

Ümumiyyətlə, deyə bilərəm ki, keçmiş sovet məkanında müxtəlif dəniz gəmiçilikləri var idi. Bu gün də var. Amma onların fəaliyyətinə baxsaq görərik ki, bir çox hallarda əvvəlki mövqelərini itirdilər. Böyük xoşagəlməz hallar baş verdi. Amma çox sevindirici haldır ki, Azərbaycanda Xəzər Dəniz Gəmiçiliyi və ümumiyyətlə, bütün nəqliyyat infrastrukturu nəinki dağılmadı, əksinə, daha da inkişaf etdi, müasirləşdi və biz bu gün bunu bütün sahələrdə əyani şəkildə görə bilərik.

Yenə də deyirəm, 1993-cü ildən başlayaraq Azərbaycanda bütün sahələr kimi, nəqliyyat sahəsinə də Heydər Əliyev tərəfindən göstərilmiş diqqət imkan verdi ki, indi o, bu gün çox yüksək səviyyədədir. Xəzər Dəniz Gəmiçiliyi çöx gözəl fəaliyyət göstərir, orada çox peşəkar kadrlar çalışır. Gəmiçilik mənfəətlə işləyir, sosial məsələlər öz həllini tapır, yüksək maaşlar verilir, burada çalışan insanlar üçün evlər tikilir. Yəni inkişafla yanaşı, sosial məsələlərə də böyük diqqət göstərilir və bu da bizim ümumi siyasətimizin məcrasında gedən proseslərdir. Biz dəfə-

lərlə bəyan etmişik ki, Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurulubdur və gələcək inkişaf perspektivlərini biz bu yöndə görürük. Eyni zamanda, sosial məsələlərə daim diqqət göstərilməlidir, bu məsələlər həmişə ön planda olmalıdır. Əgər indi müzakirəyə çıxarılmış dövlət büdcəmizə nəzər salsaq görərik ki, büdcəmiz də sosialyönümlüdür. Yəni insanların gündəlik həyatı, güzəranı hökumət üçün, prezident kimi mənim üçün ən ümdə məsələdir.

Gəmiçilikdə də bu məsələlər diqqət mərkəzindədir. Eyni zamanda, inkişafa da böyük diqqət göstərilir. Gəmiçilik öz vəsaiti hesabına böyük işlər görür, iri gəmilər alır. Keçən ilin sentyabr ayında biz burada 8 min ton yükgötürmə qabiliyyəti olan «Professor Əziz Əliyev» tankerinin istismara verilməsini qeyd edirdik. Ondan əvvəl yükgötürmə qabiliyyəti yenə 8 min ton olan «Cəlil Məmmədquluzadə» tankeri və quru yük daşıyan «Maestro Niyazi» gəmisi istismara buraxılmışdır. Növbəti, 13 min tonluq «Babək» tankeri bu yaxınlarda gətiriləcəkdir. Bilirəm ki, gəmiçiliyin proqramında daha böyük işlər nəzərdə tutulubdur. Yəni gəmiçilik öz infrastrukturunu müasirləşdirir. Bu, çox vacibdir. Çünki gələcəkdə Xəzər dənizində yükdaşımaların həcmi, xüsusilə neft və neft məhsullarının daşınması artacaqdır. Böyük İpək yolunun bərpası çərçivəsində Şərq–Qərb enerji dəhlizinin fəaliyyəti nəticəsində, əlbəttə, gəmilərə böyük ehtiyac olacaqdır. Əgər nəzərə alsaq ki, gələn il Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləcək, görərik ki, tankerlərə, doğrudan da, böyük ehtiyac var və biz bu işləri əvvəlcədən görürük.

Azərbaycanda bütün digər nəqliyyat infrastrukturu da çox uğurla inkişaf edir. Dəmiryol nəqliyyatında böyük işlər görülür. Mənə verilən məlumata görə, son beş il ərzində 200 kilometrdən artıq dəmiryol xətti, demək olar ki, yenidən qurulub, yeni sərnişin qatarları, dəmir, beton, şpal zavodu istismara verilibdir. Əlbəttə, bu da çox vacibdir. Çünki dəmiryolu həm sərnişin daşımaları, həm də yük daşımaları baxımından çox böyük əhəmiyyətə malikdir.

Hava nəqliyyatı sahəsində də böyük işlər görülür. Bilirsiniz ki, son illər ərzində Heydər Əliyev adına Bakı beynəlxalq hava limanı, Zabratda yerləşən vertolyot aerovağzalı yenidən qurulmuşdur, Naxçıvanda beynəlxalq hava limanı tikilmişdir. Gəncədə beynəlxalq hava limanının tikintisi bu yaxınlarda başlanmalıdır. Aviapark yeniləşir, Avropa istehsalı olan 6 ədəd vertolyot alınacaqdır. Dünyanın ən aparıcı şirkəti olan «Aerobus» şirkətindən 4 ədəd sərnişin təyyarəsinin alınması üçün lazımi müqavilələr bağlanıbdır. Bütün bunlar böyük vəsait tələb edir. Eyni zamanda, bunlar hamısı ölkəmiz üçün çox lazımdır. Həm ölkəmizin imici üçün, eyni zamanda, praktiki işlər üçün çox vacibdir.

Azərbaycanda bütün infrastruktur yeniləşməlidir. Mən bunu bir neçə dəfə demişəm, bir də demək istəyirəm ki, yeni yaradılan, yeni tikilən hər bir obyekt, infrastruktur ən yüksək dünya standartlarına cavab verməlidir. Azərbaycanda hər bir yeni iş elə görülməlidir ki, ən yüksək meyarlara cavab versin. Biz ölkəmizi inkişaf etdiririk, müasirləşdiririk. İstəyirik ki, Azərbaycan qüdrətli, müasir dövlətə çevrilsin. Əlbəttə, bunu etmək üçün hərə öz yerində buna böyük diqqət göstərməlidir.

Avtomobil yollarının çəkilməsində də böyük işlər görülür. Bilirsiniz ki, bu sahədə bizim planlarımız çox böyükdür. Bu planlar da bir il bundan əvvəl mənim tərəfimdən seçkiqabağı kampaniyada açıqlanmışdır. Bəyan etmişdim ki, növbəti 5 ildə Azərbaycanın ən əsas yol arteriyaları yenidən qurulmalıdır. Çox şadam ki, bu sahədə böyük işlər görülür. Gürcüstan sərhədinə qədər uzanan Bakı–Qazax yolunda gedən işlər məni çox sevindirir. Artıq o yolun bir hissəsi istismara verilmişdir, digər hissədə işlər gedir və bu, ən yüksək standartlara cavab verəcəkdir. Gələn il Bakı–Quba istiqamətində Rusiya sərhədinə qədər birinci dərəcəli yolun tikintisinə başlamaq nəzərdə tutulmuşdur. Bunun üçün müvafiq vəsait ayrılacaqdır. Eyni zamanda, bilirəm ki, Nəqliyyat Nazirliyi beynəlxalq maliyyə təşkilatları ilə danışıqlar aparır. Bu da çox vacibdir, biz bunu da etməliyik. İran sərhədinə qədər Bakı–Astara yolunun tikintisi də nəzərdə tutulur. Veri-

lən məlumata görə, bu barədə danışıqlar yekunlaşır və işlərə başlanacaqdır. Bütün bunlar Azərbaycanda avtomobil yollarını ən yüksək standartlara çatdırmağa imkan verəcəkdir. Bu problem Azərbaycanda mövcuddur və əlbəttə, bizim işimiz ancaq bu sadaladığım layihələrlə məhdudlaşmayacaqdır. İmkan olduqca, bütün digər yollar da yeniləşdirilməlidir.

Eyni zamanda, bu layihələr Azərbaycanda minlərlə yeni iş yerinin açılmasına gətirib çıxaracaqdır ki, bu da bizim iqtisadi proqramlarımızın əsas elementlərindən biridir. Bu gün onu da qeyd etmək istəyirəm ki, bu sahədə də, əgər belə demək mümkünsə, verilmiş vədlər, nəzərdə tutulmuş proqramlar uğurla icra edilir. Son məlumata görə, Azərbaycanda son bir il ərzində 70 minə qədər daimi, 100 mindən artıq mövsümi iş yeri açılıbdır.

Bir sözlə, əziz dostlar, bu gözəl tankerin istismara verilməsi ilə əlaqədar mən ürəyimdə olan sözlərin bəzisini sizə çatdırmaq istədim. Çox şadam ki, Azərbaycanda bu sahə, yəni nəqliyyat sahəsi uğurla inkişaf edir və bizim gələcək planlarımız çox genişdir. Mən heç şübhə etmirəm ki, qarşımızda duran bütün vəzifələri uğurla həyata keçirəcəyik. Son bir ilin təcrübəsi deməyə əsas verir ki, bizim nəzərdə tutduğumuz hər bir məsələ vaxtlı-vaxtında, yüksək səviyyədə öz həllini tapır.

Əziz dostlar, sizi bu münasibətlə, tankerin istismara verilməsi ilə əlaqədar bir daha ürəkdən təbrik etmək istəyirəm. Mən Nijni-Novqorod vilayətinin qubernatoru cənab Xodırevə bu gün bizimlə birlikdə olduğuna görə öz minnətdarlığımı bildirmək istəyirəm. Biz dünən görüşdük, çox geniş fikir mübadiləsi apardıq. Ümumiyyətlə, bizim Rusiya ilə əlaqələrimiz çox uğurla inkişaf edir. Biz dost ölkələrik. Aramızda həm siyasi, həm də iqtisadi əlaqələr çox sürətlə möhkəmlənir. Son müddət ərzində mənim Rusiya prezidenti ilə bir neçə görüşüm olubdur. Bu görüşlərdə biz məmnunluq hissi ilə qeyd etmişik ki, aramızda olan əlaqələr bütün sahələrdə inkişaf edir. İqtisadi-ticarət əlaqələri, mal dövriyyəsi ildən-ilə artır, keçən il bu artım 40 faiz, bu ilin 9 ayında 20 faiz olmuşdur. Əlbəttə, bu cür tankerlərin alınması da mal dövriyyəsinin artımına öz töhfəsini verir.

Rusiyada yaşayan azərbaycanlılar da, əminəm, çox şaddırlar ki, onların Konqresinin ikinci qurultayında mən və Rusiya prezidenti iştirak etmişdik. Bu da çox mühümdür. Rusiyada, başqa ölkələrdə azərbaycanlılar yaşayırlar. Baxmayaraq ki, o hansı ölkənin vətəndaşıdır, xaricdə yaşayan hər bir azərbaycanlı bizim üçün çox əzizdir. Bu baxımdan, ümumiyyətlə, iki ölkə arasında gələcək münasibətlərin inkişafı baxımından Konqresin qurultayının uğurla keçməsi və orada yüksək kürsüdən səslənən fikirlər, əminəm ki, həm Rusiyada yaşayan azərbaycanlılar üçün, həm də ikitərəfli münasibətlərimiz üçün çox mühümdür.

Eyni zamanda, Nijni-Novqorod vilayəti ilə bizim aramızda çox gözəl münasibətlər var. Dünən bu məsələ müzakirə olundu. Orada da Azərbaycan diasporu yaşayır. Demək olar ki, Rusiyanın hər bir vilayətində Azərbaycan icması artıq mövcuddur və bu çox müsbət haldır.

Bu fürsətdən istifadə edib, Gennadi Maksimoviç, sizi bir daha ürəkdən salamlayıram, xoş gəlmisiniz deyirəm. Mən sizi görməyimə çox şadam.

Əziz dostlar, bu gözəl bayram günündə sizi «Prezident Heydər Əliyev» tankerinin istismara verilməsi ilə əlaqədar bir daha ürəkdən təbrik edirəm. Tankerin ekipajına və Xəzər Dəniz Gəmiçiliyinin bütün kollektivinə yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

## *Təntənəli mərasim başa çatdıqdan sonra jurnalistlərin suallarına verdiyi cavab*

**S u a l: Cənab Prezident, ABŞ-da keçirilən prezident seçkilərindən sonra AmerikA–Azərbaycan əlaqələrinin inkişafından nə gözləyirsiniz?**

**C a v a b:** AmerikA–Azərbaycan münasibətləri çox yüksək səviyyədədir. Bizim aramızda yaxşı əməkdaşlıq var. Bilirsiniz ki, biz müttəfiqik. Amerika ilə müxtəlif sahələrdə əlaqələrimizə çox böyük önəm veririk. Amerika hökumətinin dəstəyi ilə Azərbaycanda neft, qaz sahəsində böyük layihələr həyata keçirilir, digər sahələrdə bizim aramızda çox gözəl münasibətlər vardır. Ümid edirəm və əminəm ki, bu əlaqələr bundan sonra da olduğu kimi qalacaq və AmerikA–Azərbaycan münasibətləri hər iki ölkənin marağına cavab verəcəkdir.

**S u a l: Cənab Prezident, Amerikanın yeni prezidentinə təbrik məktubu göndərəcəksinizmi?**

**C a v a b:** Əlbəttə, mən hər bir seçilmiş yeni prezidentə təbrik məktubları göndərirəm.

**S u a l: Cənab Prezident, BMT-nin Baş Məclisində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr keçiriləcəkdir. ATƏT-in Minsk qrupunun həmsədrləri bu müzakirələrin danışıqlar prosesinə mənfi təsir edəcəyini bildirmişlər. Çox maraqlıdır, Sizin münasibətiniz necədir?**

**C a v a b:** Mənim münasibətim belədir ki, biz dəfələrlə demişik, bu məsələ, Ermənistan-Azərbaycan münaqişəsi və Azərbaycan torpaqlarının işğalı məsələsi geniş beynəlxalq auditoriyaya nə qədər çox mümkündürsə, o qədər də çox çatdırılsın. Biz istəyirik ki, bütün beynəlxalq təşkilatlar bu məsələ ilə əlaqədar öz fikirlərini ortaya qoysunlar, bu məsələ müzakirə olunsun. Əlbəttə ki, biz Minsk prosesinə sadiqik, biz istəməzdik ki, hansısa başqa bir qurum Minsk qrupunu əvəz etsin. Biz buna getməyə hazır deyilik. Amma eyni zamanda, istəyirik ki, Avropa İttifaqı,

Avropa Şurası, BMT və digər beynəlxalq təşkilatlar bu məsələ ilə əlaqədar müzakirələr aparsınlar.

BMT dünyanın ən mötəbər təşkilatıdır, bu məsələyə dair dörd qətnamə qəbul edibdir. Baxmayaraq ki, Ermənistan buna məhəl qoymur, amma bu qətnamələrin qəbul edilməsi müsbət haldır. Mən inanmıram ki, bu məsələnin BMT-də müzakirəsi Minsk prosesinə hansısa bir ziyan vursun. Əksinə, bu, danışıqlara müsbət təsir edər. Hamı birmənalı olaraq bilməli, eyni zamanda, etiraf etməlidir ki, reallıq bundan ibarətdir. Yəni Ermənistan Azərbaycan torpaqlarını işğal edib və bu ədalətsizlik, beynəlxalq hüquq normalarının pozulması gərək aradan götürülsün.

**S u a l: Cənab Prezident, Siz özünüz demişdiniz ki, inhisarçılığa qarşı mübarizə aparılacaqdır. Bununla bağlı Sizə inhisarçıların hansısa siyahısı təqdim olunubmu və Siz bununla necə mübarizə aparacaqsınız? Çünki bəzi inhisarçıların arxasında dövlət məmurları dayanır. Siz bir dəfə onlara xəbərdarlıq etmisiniz.**

**C a v a b:** Bəli, mən xəbərdarlıq etmişəm. Sahibkarlarla ilk görüşümdə mən bu barədə öz fikirlərimi dedim. Bu hal təkcə Azərbaycan üçün deyil, bütün ölkələr üçün böyük problemdir. Amma inkişaf etmiş ölkələrdə bu məsələ qanunla tənzimlənir. Orada mövcud olan təsisatlar bu və ya digər sahədə fəaliyyət göstərən və həmin sahədə inhisarçılıq edərək rəqiblərinə ziyan vuran nəhəng bir şirkətə qarşı sanksiya tətbiq edirlər. Bu, bütün ölkələrdə mövcuddur.

Keçid dövrü yaşayan ölkələrdə isə bu özünü daha açıq göstərir. Bununla mübarizə metodları ondan ibarətdir ki, gərək sərbəst rəqabət olsun, qanunlar işləsin, qanunun aliliyi təmin olunsun. Bundan əlavə, özəlləşdirmə prosesi daha da sürətlə getməlidir. Bilirsiniz, inkişaf olmayan yerdə inhisarçılıqdan söhbət gedə bilməz. Onu da xatırlayaq ki, bir neçə il bundan əvvəl biz bu haqda heç danışmırdıq. Çünki nə istehsal var idi, nə də mal dövriyyəsi var idi. İndi isə idxal artıb, istehsal artıb. Bunun nəticəsi olaraq, bu cür xoşagəlməz hallar özünü büruzə verir.

İnhisarçılığa gəldikdə isə, siz bilirsiniz ki, Azərbaycanın bazarı bir o qədər böyük deyildir. Biz, sözsüz ki, inhisarçılıqla mübarizə aparırıq. Əgər biz istəyiriksə ki, yeni iş yerləri açılsın, dünya standartlarına cavab verən istehsal müəssisələri yaradılsın, onu da anlamalıyıq ki, bu müəssisələr iri olacaqdır. Böyük müəssisə yarananda isə aydın məsələdir ki, başqası onun istehsal etdiyi məhsullarla rəqabət apara bilməz. Bu reallıqdır. Amma idxala gəldikdə, burada biz ciddi tədbirlər görəcəyik. İnhisarçıların kimliyinə qaldıqda isə, mən istəməzdim ki, kiminsə adını hallandırım. Bunu etmək üçün gərək əsas olsun. Mən inanmıram ki, hansısa konkret ad çəkilərsə, bu məsələ öz həllini tapacaqdır. Bu, ümumi bir məsələdir. Onu da demək istəyirəm ki, Azərbaycan kimi balaca bazarı olan bir ölkədə hər bir sahibkar inhisarçıya çevrilə bilər. Dövlətin işi və inhisarçılığa qarşı fəaliyyət göstərən nazirliklərin vəzifəsi ondan ibarətdir ki, inhisarçılığın inkişafına imkan verməsin. Bununla da bu sahədə müəyyən sərbəstlik yaransın.

**S u a l: Cənab Prezident, bununla bağlı hansısa məmurların vəzifədən uzaqlaşdırılacağı gözlənilə bilərmi?**

**C a v a b:** Mən belə suallara cavab vermirəm. Belə məsələlər başqa cür həll olunur.

**S u a l: Cənab Prezident, qiymətlərin artırılmasına münasibətiniz necədir? Əhali daha çox Sizin buna münasibətinizi gözləyir. Ən çox da ərzaq məhsulları ilə bağlı.**

**C a v a b:** Kim istəyər ki, qiymətlər artsın? Bunu, ilk növbədə, hökumətin özü istəməz. Bu, əhalinin gündəlik həyatına təsir edən amildir. Amma bu reallıqdır. Bizimlə qonşu ölkələr də daxil olmaqla, dünyanın bütün dövlətlərində qiymətlər qalxır. Bu, təbii bir prosesdir. Azərbaycanda da bunu şərtləndirən bir neçə amil var. İlk növbədə, ölkəmizdə son bir il ərzində maaşların artması, insanların alıcılıq qabiliyyətinin artmasıdır. Bilirsiniz, bazar buna dərhal reaksiya verir. Bu, hər bir ölkədə mövcud olan bir məsələdir. Biz də öz növbəmizdə, maaşları artıranda bunları hiss edirdik. Belə fikirlər var idi ki, biz bunu ehtiyatla edək, çünki bu, qiymətlərin qalxmasına gətirib çıxaracaq və bu

belə də oldu. Amma onu da bilməliyik ki, maaşların artımı qiymətlərin artımından daha sürətlə gedir.

Digər tərəfdən, dünyada neftin qiymətinin qalxması idxal olunan bütün məhsullara öz təsirini göstərir. Çünki idxal olunan mallar Azərbaycana Avropadan gəlir, Rusiyadan gəlir. Bu ölkələrdə yanacağa qiymətlər sərbəstdir. Azərbaycandakı kimi deyil ki, dövlət onu tənzimləsin.

Neftin bir barrelinin qiyməti 20 dollardan 50 dollara qalxanda, əlbəttə ki, bütün məhsullar da bahalaşır, o cümlədən də idxal olunan məhsullar. Bu da təbii haldır. Kimlərinsə bundan sui-istifadə etmək istəkləri – mən buna inanmıram. İnanmıram ki, Azərbaycanda hansısa bir antimilli qüvvə olsun ki, qiymətlərin bahalaşmasına süni surətdə rəvac versin. Bir sözlə, bu, xoşagələn hal deyildir. Nə əhali, nə hökumət, nə də ki, mən bununla razı ola bilməzdim. Amma bundan faciə də düzəltmək lazım deyildir. Enerjidaşıyıcılarının qiymətlərinə gəldikdə isə, bu dözülməz vəziyyətlə biz nə vaxtsa qurtarmalıyıq. Ola bilməz ki, bir ildə 700 milyon ABŞ dolları məbləğində gizli şəkildə dotasiya verilsin. Hansı ölkədə bu var? Heç bir ölkədə!

Bizdə qazın min kubmetrinin qiyməti 8 ABŞ dolları, qonşu Gürcüstanda 110 dollardan yuxarıdır. Moldova prezidenti Bakıya gələndə mən ondan qazın qiymətini soruşdum. O, min kubmetr qazın qiymətinin 114 dollar olduğunu bildirdi. Mən ona deyəndə ki, bizdə 8 dollardır, zarafatla dedi ki, bunu heç yerdə demə, bu, dünyanın heç bir ölkəsində olmayan bir haldır. Əgər özümüz hasil etdiyimiz qaz bizə yetərli olsaydı, dərdyarıdır. Biz qazı 52 dollara alır, 8 dollara satırıq. Onun da pulunun yarısını yığa bilmirik. Belə olan halda dövlət, ölkə inkişaf edə bilməz. Bunu bilməliyik.

Misal üçün deyə bilərəm ki, Rusiyada istifadə olunan qazın ödəmələri 105–110 faiz təşkil edir, bu barədə mən Bakıya gələn məsul şəxslərlə söhbət etmişəm. Bizdə isə enerjidaşıyıcılarının qiyməti çox aşağıdır. Ona görə də heç kim pulunu vermir. Təbii qazın qiyməti gülünc səviyyədə olmasına baxmayaraq, ödəmələr yerinə yetirilmir. Dövlət bunları tənzimləyir. Bizdə liberal-

laşma getmir. Siz bəlkə də xatırlayırsınız, bir neçə il bundan əvvəl çörəyin qiyməti sərbəst buraxıldı. O vaxt da belə bir fikir var idi ki, bu, xoşagəlməz hallara gətirib çıxaracaqdır. Amma heç nə olmadı. Bazar özü bu məsələləri tənzimləyir. Əgər biz öz ölkəmizi inkişaf etdirmək istəyiriksə, bazar iqtisadiyyatının prinsiplərini daha geniş tətbiq etmək istəyiriksə, bu xoşagəlməz adlanan hadisələrin olması təbiidir.

Bütün məsuliyyəti hökumət və dövlət öz üzərinə götürməlidir. Mən bu məsuliyyətə hazıram, mən bilirəm ki, nə etmək lazımdır və necə etmək lazımdır. Amma yenə də demək istəyirəm ki, il ərzində əgər qiymətlərin artım dinamikası və əhalinin pul gəlirlərini müqayisə etsəniz, görərsiniz ki, maaşlar və digər ödəmələr daha sürətlə artır, nəinki qiymətlər.

**S u a l: Cənab Prezident, ictimai televiziyanın yaradılmasına nə vaxt başlanacaq və o hansı bazada yaranacaqdır?**

**C a v a b:** Artıq bu məsələ də öz həllini tapıbdır. Bu, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərdən biri idi. Gələn ilin büdcəsində bu məqsədlə vəsait nəzərdə tutulubdur. Yəqin ki, gələn ildən başlanacaqdır.

**S u a l: Cənab Prezident, Sizin fəaliyyətinizin bir ili tamam oldu. Prezident İlham Əliyev özünün və komandasının bir illik fəaliyyətinə beş ballıq cədvəl üzrə necə qiymət verərdi?**

**C a v a b:** Bunu gərək siz verəsiniz. Mən bu qiyməti verə bilmərəm. Ona görə də bu ərəfədə öz fəaliyyətimizi qiymətləndirən heç bir açıqlama vermədim, özümü tənqid etmədim, tərifləmədim. Bu mənim işim deyildir. Mən hesab edirəm ki, bir il ərzində nəzərdə tutulan bütün məsələlər icra olunubdur. Seçkilərdən əvvəl verdiyim bütün vədlər həyatda öz əksini tapıbdır. Mənim üçün ən böyük nəticə budur. Həmişə olduğu kimi, mən öz sözümə sadiq qaldım. Bu da, öz sözünə sadiq qalmaq rəhbər üçün ən başlıca şərtdir. Hesab edirəm ki, il ərzində müsbət meyllər daha da gücləndi. Amma qiymət vermək istəmirəm. Bunu gərək ictimaiyyət versin.

**S u a l: Cənab Prezident, mətbuat səhifələrində belə bir fikir hallandı ki, 18 oktyabrla bağlı prezident heç bir təbrik ünvanlamadı. Bunun səbəbi nədədir?**

**C a v a b:** Bilirsiniz, biz gərək tarixə ədalətli baxaq və tarixdə baş vermiş hər bir hadisəyə qərəzsiz yanaşaq. Mənim üçün şəxsən Azərbaycanımızın ən böyük bayramı 28 Maydır, Azərbaycanın birinci demokratik respublikasının yaranması günüdür. Bu, doğrudan da böyük bayramdır. Bu onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1990-cı illərin əvvəllərində, SSRİ dağılanda deyil, məhz 1918-ci ilin 28 Mayında yaranmışdır. Əgər xatırlayırsınızsa, bu ilin mayın 28-də tədbir də keçirildi, mən də orada iştirak etdim, nitq söylədim, öz fikirlərimi dedim. Mənim üçün bu, Azərbaycanın əsas bayramıdır. O ki qaldı digər bayramlara, hər bayramın öz tarixi var. Bir var ki, məcburiyyət qarşısında hansısa qərarı qəbul edirsən, bir də var ki, qərarın qəbul olunmasında insanlar özlərini qurban verir, həyatını risk altına qoyur. Bu bayramlar arasında fərqi mən görürəm.

**S u a l: Cənab Prezident, milli barışıqla bağlı Siz çoxlu addımlar atırsınız. Beynəlxalq təşkilatlar da bildirirlər ki, biz prezident İlham Əliyevdən bütün bunları gözləyirik. Yeni əfv fərmanı və həmin fərmanda 15-16 oktyabr hadisələri zamanı həbs olunanların adlarını gözləmək olarmı?**

**C a v a b:** Bilirsiniz, Azərbaycanda milli barışıq çoxdan həll olunubdur. Siz deyən siyasi barışıqdır. Bu barədə xalqımızın, cəmiyyətimizin fikri yekdildir. Bizdə heç bir ümummilli qarşıdurma yoxdur ki, biz milli barışıq axtaraq. Siyasi partiyalar arasında olan ziddiyyətlər, əlbəttə ki, xoşagələn hal deyil, baxmayaraq, bu da ictimaiyyətin əksəriyyətini maraqlandıran məsələdir. Bizim əhalinin 95 faizdən çoxu heç bir partiyanın üzvü deyil və öz gündəlik məsələləri ilə məşğuldur. Mən istəməzdim ki, Azərbaycan cəmiyyəti siyasiləşsin. Bu heç bir müsbət nəticəyə gətirib çıxarmayacaqdır. Eyni zamanda, siyasi partiyalar arasında ədavəti aradan qaldırmaq üçün mənim tərəfimdən çağırışlar da oldu, təkliflər də, praktiki addımlar da oldu.

Əgər xatırlayırsınızsa, mən demişdim ki, bu təklifləri daim verə bilmərəm. Mən bunu bir neçə dəfə edə bilərəm. Lakin bu o demək deyil ki, mən mütəmadi olaraq təkliflərlə çıxış edim. Bütün bu məsələlər əfv fərmanları ilə ölçülmür. Kifayət qədər əfv fərmanları oldu. Lazım gələrsə, ehtiyac olarsa, buna yenidən baxmaq olar. Bu belə bir prosesdir ki, hər ay əfv fərmanı vermək olmaz.

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRLİYİNİN HÖKMDARI ƏLAHƏZRƏT ŞEYX MƏKTUM BİN RƏŞİD ƏL-MƏKTUMA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin prezidenti Şeyx Zayid bin Sultan əl-Nəhəyyanın vəfatı xəbəri bizi son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin.*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 noyabr 2004-cü il*

**ƏBU-DABİ ƏMİRLİYİNİN HÖKMDARI**
**ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN**
**ZAYİD ƏL- NƏHƏYYANA**

Əlahəzrət!

Atanız – Birləşmiş Ərəb Əmirliklərinin prezidenti Şeyx Zayid bin Sultan əl-Nəhəyyanın vəfatı xəbərini kədər hissi ilə qarşıladıq.

Bu ağır anlarda Sizə, ailənizin bütün üzvlərinə səbir diləyir, öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin.*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 noyabr 2004-cü il*

## «AZSTANDARTSERVİS» LABORATORİYASININ AÇILIŞI MƏRASİMİ

*Bakı, Nərimanov rayonu*

*3 noyabr 2004-cü il*

*«Azstandartservis» laboratoriyası Britaniya Standartlar İnstitutunun maliyyə vəsaiti hesabına yaradılmışdır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyevə Bakıda açılan bu laboratoriyanın fəaliyyəti barədə geniş məlumat verilərək bildirildi ki, Qafqaz və Orta Asiya regionunda bu ilk və ən boyük laboratoriya istər respublikamızda, istərsə də regionda istehlak bazarlarının saxta, keyfiyyətsiz, təhlükəli və kontrafakt məhsullardan qorunmasında, ixrac potensiallı məhsulların rəqabətə davamlılığının artırılmasında mühüm rol oynayacaqdır. Eyni zamanda, istehlakçıların hüquqlarının qorunması da təmin olunacaqdır.*

*Laboratoriya ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya, İsveçrə və digər inkişaf etmiş ölkələrin ən qabaqcıl şirkətlərinin istehsalı olan və yüksək beynəlxalq standartlara cavab verən müxtəlif tipli və funksiyalı avadanlıqla təmin edilmişdir. Bu avadanlıq neftin, suyun, spirtli içkilərin, qida məhsullarının, metalın və digər məmulatların operativ və yüksək keyfiyyətli sınaqlarını həyata keçirməyə imkan verməklə, ölkəmizdə beynəlxalq standartlara cavab verən və təhlükəsiz məhsul istehsalına əlverişli şərait yaradır. Ölkəmizdə sahibkarlığın inkişaf etdiyi bir dövrdə yerli istehsal məhsullarının Britaniya Standartlar İnstitutunun sertifikatları ilə təmin olunması həmin məhsulların dünya bazarlarına maneəsiz ixrac edilməsinə əlverişli şərait yaradacaqdır. Bu isə respublikamızda beynəlxalq standartların*

*bütün istehsal sahələrində tətbiqinə və iqtisadiyyatın ən müasir təcrübə zəminində inkişafına təkan verəcəkdir.*

*Azərbaycan prezidenti İlham Əliyev laboratoriyanın ayrı-ayrı bölmələri ilə tanış oldu. İlk olaraq, ərzaq məhsullarının keyfiyyətini və tərkibini yoxlayan cihazlar barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, laboratoriyada quraşdırılmış avadanlıq 90 dəqiqə ərzində müxtəlif ərzaq məhsullarının tərkibindəki proteinin və digər maddələrin müəyyən edilməsinə imkan verir.*

*Sonra prezident İlham Əliyev Almaniyada istehsal olunmuş avadanlıqla təchiz edilmiş və metalların ilkin emalını sınaqdan keçirməyə imkan verən, Belçikadan gətirilmiş avadanlıq hesabına ət və süd məhsullarının tərkibindəki yağların miqdarını müəyyən edən bölmələrlə yaxından tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, avadanlığın quraşdırılması zamanı texniki təhlükəsizlik, əməyin və ətraf mühitin mühafizəsi məsələləri yüksək beynəlxalq standartlar səviyyəsində həll olunmuş və laboratoriya ixtisaslı mütəxəssislərlə tam təmin edilmişdir.*

*Prezident İlham Əliyev neft məhsullarının keyfiyyət göstəricilərinin müəyyən edilməsi ilə də tanış oldu.*

### *Prezident İlham Əliyev Britaniya Standartlar İnstitutunun* Bakıda bu mühüm laboratoriyanın yaradılması ilə bağlı səylərini yüksək qiymətləndirdi. Laboratoriya binası ilə tanışlıqdan sonra dövlətimizin başçısı jurnalistlərlə öz təəssüratını bölüşdü*

* Britaniya Standartlar İnstitutunun dünyanın 110-dan çox ölkəsində 170-ə yaxın nümayəndəliyi, 80-ə yaxın sınaq laboratoriyası və 4500-dən çox işçisi vardır. 1903-cü ildə Böyük Britaniya kraliçasının birbaşa dəstəyi ilə təsis olunmuş bu institut dünyada ilk dəfə olaraq təhlükəsizlik standartlarını yaratmışdır. Bakıda açılan və 4 mərtəbəli binada yerləşən, 2,5 min kvadratmetr sahəsi olan laboratoriyada 50-dək Azərbaycan vətəndaşı çalışır və yüksək əməkhaqqı alır.

**S u a l: Cənab Prezident, Azərbaycanda belə bir müasir və dünya standartlarına cavab verən laboratoriyanın açılması həm ölkəmizdə iqtisadiyyatın inkişafı ilə, həm də xarici şirkətlərin qeyri-neft sektoruna sərmayə qoyması ilə əlaqədardır. Siz bunu necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mən bunu yüksək qiymətləndirirəm. Laboratoriya xoşuma gəldi, burada çox gözəl avadanlıq quraşdırılıbdır. Mütəxəssislər də çox biliklidirlər. Çox şadam ki, Azərbaycanda belə gözəl, yüksək standartlara cavab verən laboratoriya yaradılıbdır. Mənə verilən məlumata görə, bu, bölgədə ən yüksək dünya standartlarına cavab verən ilk belə laboratoriyadır. Bu gün Azərbaycanda hər bir sahə inkişaf edir. Şübhəsiz ki, keyfiyyət nəzarəti də çox güclü olmalıdır. Azərbaycana daxil olan malların, xüsusilə yeyinti məhsullarının keyfiyyəti bəzi hallarda yüksək səviyyədə olmur. Bu cür laboratoriyanın fəaliyyət göstərməsi insanlarımızın sağlamlığına da xidmət edəcəkdir. Eyni zamanda, Azərbaycandan çıxarılan mallar, ixrac məhsulları da burada nəzərdən keçiriləcək ki, bu da məhsullarımızın dünya bazarlarında özünə daha geniş yer tapmasına imkan verəcəkdir. Laboratoriyanın yaranması hər cəhətdən çox müsbət haldır və yenə də qeyd etmək istəyirəm ki, bu, Azərbaycanda son illərdə gedən ümumi inkişafın bir əlamətidir. Çox şadam ki, buraya belə böyük miqdarda sərmayə qoyulubdur. Çox məmnunam ki, burada işləyən gənc mütəxəssislər peşəkardırlar. Onların mənə verdiyi izahatlar göstərdi ki, bu mütəxəssislərin biliyi, savadı çox yüksək səviyyədədir. Bu həm də bizim xarici tərəfdaşlarımızla əməkdaşlığımızın bariz nümunəsidir. Azərbaycanda qeyri-neft sektoruna sərmayələrin gətirilməsi prosesi davam edir, yeni sahələr açılır. Elə bu laboratoriya da yeni bir sahədir. Mən çox şadam ki, Bakıda, Azərbaycanda belə gözəl müəssisə yaradılmışdır. Uğurlar arzulayıram.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

İkinci müddətə Amerika Birləşmiş Ştatlarının prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir və uğurlar arzulayıram.

Əmin olduğumu bildirmək istəyirəm ki, dünyada sülhün və əmin-amanlığın bərqərar olması istiqamətində fəaliyyətinizi bundan sonra da davam etdirəcəksiniz.

Biz Amerika Birləşmiş Ştatları ilə dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk. Demokratik, hüquqi və dünyəvi cəmiyyət quran Azərbaycan Amerika Birləşmiş Ştatları ilə ikitərəfli münasibətlərini daha yüksək səviyyəyə qaldırmaq əzmindədir.

Xəzər dənizinin Azərbaycana aid zəngin enerji ehtiyatlarının Amerika Birləşmiş Ştatlarının və dünyanın aparıcı şirkətləri ilə işlənməsinə, dünya bazarlarına ixrac edilməsinə, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasına və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin reallaşmasına göstərdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

Azərbaycan Amerika Birləşmiş Ştatlarının etibarlı strateji tərəfdaşı kimi, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına, beynəlxalq terrorizmə qarşı mübarizəyə öz töhfəsini bundan sonra da verəcəkdir. Mən Azərbaycanın bu sahədə mövqeyinin dəyişməz olduğunu bir daha vurğulayıram. Azərbaycan ilk günlərdə olduğu kimi, beynəlxalq terrorizm və onun müxtəlif təzahürlərinə qarşı mübarizədə Amerika Birləşmiş Ştatları ilə bir sıradadır.

Eyni zamanda biz regionun, ilk növbədə isə Azərbaycanın ciddi problemlərindən biri olan Ermənistan–Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsinin ədalətli şəkildə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq norma və prinsiplərinə uyğun həllini tapmasında ATƏT-in Minsk qrupunun həmsədri olan Amerika Birləşmiş Ştatlarının və şəxsən Sizin səylərinizə böyük ümid bəsləyirik.

İnanıram ki, ölkələrimiz arasında dostluq, hərtərəfli strateji əməkdaşlıq münasibətləri xalqlarımızın qarşılıqlı mənafeyinə uyğun olaraq daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Amerika Birləşmiş Ştatlarının xalqına isə daim tərəqqi və çiçəklənmə arzulayıram.

*Səmimiyyətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 noyabr 2004-cü il*

## DÜNYA ŞÖHRƏTLİ MÜĞƏNNİ MONSERRAT KABALYE İLƏ GÖRÜŞ

*4 noyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında dünya şöhrətli müğənni Monserrat Kabalyeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev hörmətli qonağı səmimiyyətlə salamlayaraq onun Azərbaycana gəlməsindən məmnunluğunu söylədi və bütün dünyada məşhur olan opera müğənnisinə böyük hörmət bəslədiyini bildirdi.*

*Prezident İlham Əliyev xanım Monserrat Kabalyenin Bakıya səfərini yüksək qiymətləndirdi və bu səfər zamanı apardığı ustad dərslərində ölkəmizin gənc ifaçılarına dəyərli məsləhətlər verdiyinə görə təşəkkür etdi, ustad dərslərinin onlar üçün çox faydalı olacağına əminliyini söylədi. Dövlətimizin başçısı xanım Kabalyeyə müraciətlə dedi ki, Sizin bugünkü konsertiniz bizim üçün çox böyük hadisədir, ümumiyyətlə, hər hansı bir şəhər, teatr üçün olduqca böyük hadisədir. Siz hələ Bakıya gəlməzdən xeyli əvvəl şəhərin küçələrinə afişalar vurulmuşdu.*

*Prezident İlham Əliyev ilə görüşməyindən son dərəcə məmnun olduğunu xüsusi vurğulayan Monserrat Kabalye dedi ki, mən Sizinlə görüşə ən yaxşı paltarımda gəlməyə çalışdım. Sizin aranızda, ölkənizdə olmağımdan çox şadam.*

*Müğənni Bakıya hələ çoxdan gəlmək istədiyini, lakin xəstələndiyinə görə bu arzusunu həyata keçirə bilmədiyini təəssüflə bildirərək dedi ki, bu istəyimi, nəhayət, gerçəkləşdirdiyimə və artıq Azərbaycanla tanış olduğuma görə özümü xoşbəxt sayıram. Mənim azərbaycanlı dostlarım çoxdur. Onlardan biri mənim doğma Barselona şəhərimdə yaşayır, həkimdir. Özü də Bakıdandır.*

*Monserrat Kabalye ona göstərilən yüksək qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi.*

**ANQOLA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA**

Hörmətli cənab Prezident!

Anqola Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Anqola xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Anqola arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Anqola xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 4 noyabr 2004-cü il*

## NATO-nun BAŞ KATİBİ
## YAAP DE HOOP SXEFFERLƏ
## GÖRÜŞ

*Prezident sarayı*

*5 noyabr 2004-cü il*

*Görüş zamanı prezident İlham Əliyev NATO Baş katibinin Azərbaycana səfərini ölkəmizin bu təşkilatla əlaqələrinin daha da inkişaf etdirilməsi baxımından yüksək qiymətləndirmişdir.*

*Dövlətimizin başçısı ölkəmizin Avratlantik strukturlarla, o cümlədən Avropada sülhün və təhlükəsizliyin təmin edilməsi işində böyük rol oynayan NATO təşkilatı ilə əməkdaşlığının daim möhkəmləndiyini və genişləndiyini məmnunluqla qeyd etmişdir. Azərbaycanın bu təşkilatın «Sülh naminə tərəfdaşlıq» proqramında fəal iştirak etdiyini vurğulayan prezident İlham Əliyev hazırda NATO ilə fərdi tərəfdaşlıq planı əsasında konkret işlərin həyata keçirildiyini diqqətə çatdırmışdır. Azərbaycan prezidenti bununla bağlı ölkəmizin müvafiq qurumları tərəfindən fəal iş aparıldığını bildirmiş, Azərbaycan–NATO əlaqələrinin bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini vurğulamışdır.*

*Prezident İlham Əliyevlə görüşündən məmnunluq duyduğunu bildirən Yaap de Hoop Sxeffer dövlətimizin başçısının Brüsselə son səfərinin çox uğurlu olduğunu qeyd etmişdir. NATO ilə Azərbaycan arasında əlaqələrin daim inkişaf etməsini yüksək qiymətləndirən NATO-nun Baş katibi ölkəmizin bu təşkilatın fəal tərəfdaşlarından biri olduğunu vurğulamışdır.*

*Cənab Sxeffer rəhbərlik etdiyi təşkilatın ölkəmizlə əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əmin olduğunu bildirmişdir.*

*Görüşdə beynəlxalq, regional təhlükəsizlik məsələləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## BELARUS RESPUBLİKASININ BAŞ NAZİRİ SERGEY SİDORSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 noyabr 2004-cü il*

Belarus Respublikasının Baş naziri Sergey Sidorski noyabrın 5-də Bakıya rəsmi səfərə gəlmişdir.

*Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev Azərbaycan və Belarus arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.*

*Azərbaycanın Belarusda səfirliyinin açılması barədə qərar qəbul etdiyini nəzərə çatdıran prezident İlham Əliyev bunun ikitərəfli münasibətlərin daha da genişləndirilməsi işində mühüm rol oynayacağını vurğuladı.*

*Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Belarusun Baş nazirinin Azərbaycana səfəri ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edəcəkdir.*

*Qəbula və ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən cənab Sergey Sidorski Belarus prezidenti Aleksandr Lukaşenkonun səmimi salamlarını və xoş arzularını prezident İlham Əliyevə çatdırdı. Belarus hökumətinin yüksək səviyyəli rəsmilərinin təmsil olunduğu geniş tərkibdə nümayəndə heyətinin Bakıya səfərinin ilk günündən Azərbaycanda qonaqpərvərliklə qarşılanmasından məmnun qaldığını söyləyən qonaq ölkələrimizin bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrinin genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu vurğuladı. Cənab Sergey Sidorski dedi ki, Belarus rəhbərliyi və hökuməti ölkələrimizin əlaqələrinin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəkdir. Baş nazir əmin oldu-*

*ğunu bildirdi ki, Azərbaycan–Belarus əlaqələri bundan sonra da daim inkişaf edəcək və möhkəmlənəcəkdir.*

*Prezident İlham Əliyev prezident Aleksandr Lukaşenkonun səmimi salamlarına görə təşəkkürünü bildirdi və özünün də salamlarını, xoş arzularını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Görüşdə ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə də müzakirələr aparıldı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRİ SƏFİR STİVEN MƏNN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 noyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev ABŞ diplomatını səmimiyyətlə salamlayaraq, onunla bu il oktyabrın 16-da Ağstafa rayonunda, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi zamanı keçirilmiş görüşünü məmnunluqla xatırladı. Kəmərin birləşdirilməsi hadisəsini yüksək qiymətləndirən prezident İlham Əliyev bildirdi ki, Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsi regional əməkdaşlığa, sülh və təhlükəsizliyin təmin olunmasına xidmət edir.*

*Cənab Stiven Mənn prezident İlham Əliyev ilə bir daha görüşmək imkanından məmnun olduğunu vurğuladı. O, Azərbaycan–Gürcüstan sərhədində boru kəmərinin birləşdirilməsini mühüm hadisə kimi dəyərləndirdi və orada dövlətimizin başçısı ilə keçirdiyi görüşü məmnunluqla xatırladığını bildirdi.*

*Görüşdə beynəlxalq və regional məsələlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, habelə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə müzakirələr aparıldı.*

*ABŞ-ın ölkəmizdəki səfiri Rino Harniş qəbulda iştirak edirdi.*

**ƏFQANISTAN İSLAM DÖVLƏTİNİN
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstan İslam Dövlətinin prezidenti seçilməyiniz münasibətilə Sizi öz adımdan və bütün Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Əfqanıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Əfqanıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2004-cü il*

## BMT-nin «ÜMUMDÜNYA ƏRZAQ PROQRAMI»NIN AZƏRBAYCANDAKI SABİQ NÜMAYƏNDƏSİ ŞƏRİF AMİN ZAHİR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev cənab Şərif Amin Zahirin BMT-nin «Ümumdünya Ərzaq Proqramı»nın nümayəndəsi kimi, vaxtilə Azərbaycanda göstərdiyi fəaliyyətini yüksək qiymətləndirdi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yerindən-yurdundan zorla qovulmuş insanların sosial şəraitinin yaxşılaşdırılması işində şəxsi töhfəsinə görə ona minnətdarlığını bildirdi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident İlham Əliyev Ermənistanın ölkəmizə təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, 1 milyondan çox soydaşımızın qaçqın-köçkün vəziyyətinə düşdüyünü nəzərə çatdıraraq bildirdi ki, Azərbaycan rəhbərliyi bu insanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra mühüm tədbirlər görmüş, böyük əhəmiyyətli proqramlar qəbul etmiş, onların həyata keçirilməsi məqsədilə maliyyə vəsaiti ayırmışdır. Lakin təbii ki, bütün bu problemləri ölkəmizin öz gücü ilə yüksək səviyyədə həll etmək mümkün deyildir. Ona görə də beynəlxalq təşkilatların, donor ölkələrin Azərbaycana yardımı çox böyük əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev ölkəmizə göstərdiyi köməyə görə BMT-nin müvafiq strukturlarına minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı dedi ki, Azərbaycan rəhbərliyinin qarşısında duran ən mühüm vəzifə xalqımız üçün ağrılı problem olan*

*bu münaqişənin tezliklə aradan qaldırılması, torpaqlarımızın Ermənistan işğalından azad edilməsi, 1 milyondan çox qaçqın-köçkünün öz doğma yerlərinə, yurdlarına qayıtmasıdır.*

*Azərbaycan Respublikasında məcburi köçkünlərə ərzaq yardımının göstərilməsindəki səmərəli fəaliyyətinə görə BMT-nin «Ümumdünya Ərzaq Proqramı»nın Azərbaycandakı nümayəndəsi Şərif Amin Zahirin prezident Heydər Əliyevin 2003-cü il 28 avqust tarixli fərmanı ilə «Tərəqqi» medalına layiq görüldüyünü məmnunluqla xatırladan prezident İlham Əliyev həmin medalı cənab Zahirə təqdim etdi.*

*Vaxt tapıb onu qəbul etdiyinə və səmimi sözlərə görə minnətdarlığını bildirən qonaq Azərbaycan xalqının ümummilli lideri prezident Heydər Əliyevin fərmanı ilə «Tərəqqi» medalına layiq görülməsindən və bu yüksək mükafatı prezident İlham Əliyevin ona təqdim etməsindən böyük şərəf duyduğunu bildirdi.*

*Cənab Şərif Amin Zahir bildirdi ki, Azərbaycan torpaqlarının tezliklə Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi, yerindən-yurdundan zorla qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtması, onların üzləşdiyi bütün problemlərin tamamilə aradan qaldırılması onun ən böyük arzusudur.*

*Qonaq vaxtilə ölkəmizdə işləyərkən Azərbaycan rəhbərliyinin ona göstərdiyi böyük diqqət və qayğıya görə bir daha minnətdarlığını bildirdi.*

## ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ TADAO ÇİNONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti İlham Əliyev ölkəmizdə son illər iqtisadi və digər sahələrdə sürətli inkişafa nail olunduğunu bildirdi.*

*Respublikamızda iqtisadi inkişafla bağlı bir sıra mühüm proqramların qəbul edildiyini vurğulayan prezident İlham Əliyev Azərbaycan hökumətinin yoxsulluğun azaldılması, regionların inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirdiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı bildirdi ki, yeni iş yerlərinin açılması, iqtisadi infrastrukturun daha da möhkəmləndirilməsi Azərbaycan hökuməti qarşısında duran prioritet məsələlərdəndir.*

*Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Azərbaycanın Asiya İnkişaf Bankı ilə əlaqələri bundan sonra daha da inkişaf edəcək və möhkəmlənəcəkdir.*

*Səmimi qəbula görə təşəkkür edən cənab Tadao Çino dedi ki, biz bu gözəl ölkəyə səfərimizdən və Azərbaycan Prezidenti ilə görüşdən çox böyük şərəf duyuruq.*

*Asiya İnkişaf Bankının prezidenti vəzifəsindən əvvəl Yaponiya hökumətində çalışdığını diqqətə çatdıran qonaq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yaponiyaya səfərini məmnunluqla xatırladaraq bildirdi ki, o zaman ali qonağa çox yüksək səviyyədə qonaqpərvərlik göstərilmişdi. Yaponiyada hamı prezident Heydər Əliyevin bu səfərini böyük maraqla izləyir-*

di və həmin səfər Yaponiya ilə Azərbaycan arasında əlaqələrin əsasını qoymuşdur.

Ölkəmizlə Asiya İnkişaf Bankı arasında əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan qonaq dedi ki, 1995-ci ildə bankın üzvü olan Azərbaycan AİB-in ən fəal əməkdaşlıq etdiyi ölkələrdən biridir.

Noyabrın 8-də bankın Azərbaycanda daimi nümayəndəliyinin açıldığını yüksək qiymətləndirən qonaq bunun əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əmin olduğunu bildirdi.

Cənab Tadao Çino dedi ki, 2001–2004-cü illərdə bank tərəfindən ayrılmış və əsasən, yoxsulluğun azaldılmasına, özəl sektorun inkişafına yönəldilmiş kreditlərin ümumi həcmi 90 milyon ABŞ dolları olmuşdur. O bildirdi ki, 2005–2007-ci illər üçün bank Azərbaycana 7 kredit layihəsi nəzərdə tutmuşdur.

Ölkəmizdə gedən iqtisadi inkişafı, ümumi daxili məhsulun 10 faiz artımını yüksək nəticə kimi qiymətləndirən qonaq Azərbaycan hökumətinin yoxsulluğun azaldılması, regionların inkişafı, yeni iş yerlərinin yaradılması sahəsində çox böyük uğurlar əldə etdiyini məmnunluqla vurğuladı. O, əmin olduğunu bildirdi ki, rəhbərlik etdiyi bankla Azərbaycan arasında əlaqələr bundan sonra da inkişaf edəcəkdir.

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ YUSİF MƏMMƏDƏLİYEV ADINA NEFT-KİMYA PROSESLƏRİ İNSTİTUTUNA

Hörmətli institut əməkdaşları!

Sizi Azərbaycanda neft emalı və neft kimyası sahəsində aparıcı elmi mərkəzlərdən olan Neft-Kimya Prosesləri İnstitutunun 75 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

İnstitut alimlərinin ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən genişmiqyaslı elmi tədqiqatları onu tanınmış elm ocaqlarından birinə çevirmişdir. Katalitik krekinq prosesləri üçün yeni nəzəri əsasların və yeni tipli reaktorların yaradılması, yüksək oktanlı avtomobil benzinlərinin, müasir tələblərə cavab verən reaktiv və dizel yanacaqlarının, sürtkü yağlarının, müxtəlif kimyəvi əlavələrin, kənd təsərrüfatında tətbiq olunan kimyəvi maddələrin alınma prosesinin işlənib hazırlanması institut alimlərinə dünya söhrəti qazandırmışdır.

İnstitutun böyük nailiyyətlər əldə etməsində xidmətlər göstərərək Azərbaycanın elmi və iqtisadi inkişafı işinə mühüm töhfələr vermiş görkəmli alimlərimizin elmi fədakarlığı bu yubiley günlərində dərin ehtiram və minnətdarlıq hissi ilə yad edilir.

Fərəhli haldır ki, siz institutun zəngin ənənələrini bu gün də ləyaqətlə davam etdirərək ölkəmizdə təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının həyata keçirilməsində öz elmi tədqiqatlarınızla fəal iştirak edirsiniz.

Əminəm ki, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, sürətli iqtisadi tərəqqisinin təmin olunması, neft kimyası

elminin və sənayesinin inkişafı üçün öz təcrübənizi və biliyinizi bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə xoşbəxtlik, cansağlığı və işlərinizdə yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2004-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKANIN CƏNUB BÖLGƏSİNƏ SƏFƏRİ

*9 noyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev respublikanın cənub bölgəsində səfərdə olmuşdur.*

*Dövlətimizin başçısını Astara dəmir yolu vağzalında səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə Astara şəhərindəki Heydər Əliyev küçəsindəki mərkəzi meydana gəldi. Burada Astara rayonu ictimaiyyətinin nümayəndələri ilə görüş oldu.*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyev nitq söylədi.*

**İ l h a m Ə l i y e v:** Əziz astaralılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram.

Bu görüşə gəldiyinizə görə sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bir il bundan əvvəl prezident seçkilərində astaralılar mənə böyük etimad göstərdilər. Mən də çalışıram ki, bu etimadı gündəlik fəaliyyətimlə doğruldum. Çalışıram ki, seçkilərdən əvvəl verdiyim bütün vədləri yerinə yetirim. Təəssüflər olsun ki, seçkilər ərəfəsində mən Astaraya gələ bilməmişdim. Amma bu gün sizinlə birlikdəyəm. Demək olar ki, mən sizə, astaralılara prezident seçkilərindən keçən bu bir il ərzində görülən işlərin hesabatını verirəm.

Bu bir il ərzində Azərbaycanda çox böyük işlər görülmüşdür. Azərbaycan bütün istiqamətlərdə uğurla irəliyə getmişdir. Ölkədə aparılan islahatlar, sosial-iqtisadi proqramların həyata keçirilməsi, regional proqramların yerinə yetirilməsi bizə imkan verdi ki, ölkə iqtisadiyyatı müxtəlif istiqamətlərdə sürətlə inkişaf etsin.

Bilirsiniz ki, yeni iş yerlərinin açılması mənim seçkiqabağı proqramımın, demək olar, əsas istiqamətlərindən biri idi. Çox şadam ki, bir il ərzində 100 mindən artıq yeni iş yeri açılıbdır ki, onların da 70 minə qədəri daimi iş yerləridir.

Əlbəttə ki, iş yerlərinin açılması Azərbaycanda işsizliyin aradan götürülməsi üçün çox mühüm addım ola bilər. Eyni zamanda, ölkədə yeni istehsalın yaradılması, yeni müəssisələrin, fabriklərin işə düşməsi insanlarımızın rifah halını daha da yaxşılaşdıracaqdır. Mənim də vəzifəm məhz bundan ibarətdir. Öz əməyimlə, öz fəaliyyətimlə Azərbaycan xalqına xidmət göstərmək, Azərbaycan xalqının daha da yaxşı yaşaması üçün şərait yaratmaqdır. Bu siyasət bizim xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətidir. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycan 1990-cı illərin ortalarında tərəqqi, inkişaf yoluna qədəm qoymuşdur.

Ölkədə 1990-cı illərin əvvəlində baş vermiş xoşagəlməz hadisələrin inkişaf etməməsi məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Məhz o illər Azərbaycanın müstəqilliyi, ümumiyyətlə, gələcəyi, müqəddəratı təhlükə altında idi. O zaman gedən proseslər, vətəndaş müharibəsi, qarşıdurma ölkəmizi uçuruma aparırdı. Heydər Əliyevin müdrikliyi, qətiyyəti, cəsarəti və əlbəttə ki, xalqımızın onun siyasətinə böyük dəstək verməsi bütün xoşagəlməz halların qarşısını aldı və Azərbaycan sonradan çox sürətlə inkişaf etməyə başladı. Bu gün Azərbaycan inkişaf sürətinə görə nəinki bölgədə, demək olar ki, bütün dünyada ən sürətlə, ən dinamik şəkildə inkişaf edən ölkəyə çevrilmişdir. Ölkəmizdə aparılan iqtisadi islahatlar, siyasi islahatlar, həyata keçirilən böyük, irimiqyaslı enerji layihələri bizə imkan verdi ki, Azərbaycan dünya miqyasında öz yerini möhkəmləndirsin.

Bu gün Azərbaycan Dünya Birliyinin çox dəyərli üzvüdür, Azərbaycanla hesablaşırlar. Beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyi daha da dəstəklənir. Bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, torpaqlarımızın işğalı məsələsinə beynəlxalq təşkilatlar tərəfin-

dən daha diqqətlə yanaşılır. Əlbəttə, bu bizi qane etmir. Biz haqlı olaraq tələb edirik ki, torpaqlarımız azad olunsun, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın. Bu bizim ədalətli tələbimizdir və biz bu istiqamətdə öz fəaliyyətimizi davam etdirəcəyik. Mən dəfələrlə ən yüksək, ən mötəbər kürsülərdən bəyan etmişəm ki, bu münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Azərbaycan torpaqları işğaldan azad olunmalıdır. Yalnız bundan sonra sülh müqaviləsindən söhbət gedə bilər.

Amma bütün bu məsələlərə, məqsədlərə çatmaq üçün gərək ölkəmiz güclü olsun. Gərək ölkədə güclü iqtisadi potensial yaradılsın. Biz bu potensialı yaradırıq. Bu günlər Milli Məclisdə müzakirə olunan 2005-ci ilin dövlət büdcəsi onu göstərir ki, ölkə iqtisadiyyatı güclənir. 2004-cü illə müqayisədə 2005-ci ilin büdcəsi 25–30 faiz çox olacaqdır. O cümlədən də bütün xərclər daha da böyüyəcək, müdafiə xərcləri də, onlara ayrılacaq vəsait də çox böyük artımla artırılacaqdır.

Ölkə gərək güclü olsun, iqtisadiyyat güclü olsun. Bunu etmək üçün biz bütün işləri görürük. Regional inkişaf proqramı, sosial iqtisadi proqramlar bizə imkan verəcək ki, Azərbaycan ildən-ilə daha da güclənsin, xalqımız ildən-ilə daha da yaxşı yaşasın.

Bilirsiniz ki, son müddət ərzində əmək haqlarının qaldırılması da müşahidə olunur. Bu meyllər bundan sonra da müşahidə olunacaqdır. Deyə bilərəm ki, 2004-cü ildə əməkhaqqı orta hesabla 26 faiz artmışdır. Gələn il də artım nəzərdə tutulur. O cümlədən minimum əmək haqqının qaldırılması, pensiyaların artırılması – bunların hamısı bizim proqramlarımıza daxildir.

Bir sözlə, iqtisadi potensialı gücləndirməklə yanaşı, sosial məsələlərin həllinə də böyük diqqət göstərilir. Məhz bu istiqamətdə böyük addımlar atılır. Bizim büdcəmiz həmişə olduğu kimi, gələn il də sosialyönümlü büdcə olacaqdır.

Əlbəttə, ölkədə problemlər çoxdur. Biz bu problemləri bilirik. Yoxsulluqla mübarizə aparılır. Bu istiqamətdə müxtəlif beynəlxalq maliyyə qurumları bizə kömək göstərir. Biz çalışa-

cağıq ki, yoxsulluğun səviyyəsini ildən-ilə aşağı salaq. Bu istiqamətdə də müsbət tərəfə irəliləyiş var, müsbət meyllər var. Ən başlıcası odur ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir, hərtərəfli inkişaf edir.

Azərbaycanda qeyri-neft sektoru inkişaf edir. Bir rəqəmi də sizin diqqətinizə çatdırmaq istəyirəm. Bu il qeyri-neft məhsullarının ixracı 2,4 dəfə artmışdır.

Bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatının bütün sektorları inkişaf edir. Bu da çox vacibdir. Biz istəmirik ki, iqtisadiyyatımız yalnız neft amili üzərində qurulsun. Biz istəmirik ki, gələcəkdə də yalnız xalqımızın rifah halı neftin qiymətindən asılı olsun. Bunu etmək üçün hər bir bölgədə, hər bir rayonda, iqtisadiyyatın hər bir sahəsində böyük işlər aparılmalıdır, islahatlar davam etdirilməlidir. Biz çalışacağıq ki, bunu təmin edək.

Gələn il sahibkarlara yardımlar daha çox göstəriləcəkdir, sahibkarlara kredit şəklində 200 milyard manat vəsait ayrılacaqdır. Eyni zamanda, kənd təsərrüfatının gələcək inkişafını təmin etmək üçün «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Bu cəmiyyət tərəfindən kənd təsərrüfatı texnikası alınacaqdır. Hər bir bölgədə onun məntəqələri olacaq və kəndlilərə, fermerlərə texnika icarəyə veriləcəkdir.

Əlbəttə, görülən bütün bu işlər böyük vəsait tələb edir, böyük təşkilatçılıq tələb edir. Amma biz bunları edirik və bundan sonra da edəcəyik. Mən əminəm ki, Azərbaycan xalqı ildən-ilə daha da yaxşı, daha da firavan yaşayacaqdır.

Əziz dostlar!

Əziz astaralılar!

Astara Azərbaycanın qədim torpağıdır, Azərbaycanın ən gözəl guşələrindən biridir. Burada çox gözəl təbiət var, çox gözəl şərait var. Dəniz var, meşələr var, dağlar var, böyük nemətlər var.

Ancaq xalqımızın ümummilli lideri Heydər Əliyev demişkən, ən böyük nemət, ən böyük sərvət burada yaşayan insanlardır. Vətənpərvər, zəhmətkeş insanlardır. O insanlar ki, daim, bütün dövrlərdə Azərbaycanın dövlət müstəqilliyinin güclənmə-

si istiqamətində fəaliyyət göstərmişlər, bu işə öz əməyini vermişlər. Müstəqilliyimiz yolunda Azərbaycanın firavan gələcəyi uğrunda şəhidlər vermiş və həmişə Azərbaycanın gələcəyi naminə çox fəal işləmişlər.

Bu bu gün də belədir. Azərbaycan Respublikasının prezidenti kimi, mən bu gün ümumi işimizə verdikləri töhfələrə görə astaralılara öz dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Sizi əmin etmək istəyirəm ki, bundan sonra da Astaraya böyük diqqət göstəriləcəkdir. Burada görülən işlərə, gələcəkdə görüləcək işlərə dəstək veriləcəkdir. Yerli icra orqanlarına, eyni zamanda, burada fəaliyyət göstərən sahibkarlara da kömək göstəriləcəkdir ki, astaralılar daha da yaxşı yaşasınlar, həmişə olduğu kimi, Astara Azərbaycanın ən gözəl, ən yaraşıqlı yerlərindən biri olsun.

Mən sizin hamınızı bir daha salamlayıram, bağrıma basıram. Sağ olun, var olun!

* * *

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 9-da Astara şəhərinin Heydər Əliyev küçəsindəki mərkəzi meydanda tikilmiş dördulduzlu «ŞİNDAN» hotelinin açılışında iştirak etmişdir. Burada dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev hotelin açılışını bildirən qırmızı lenti kəsdi, ayrı-ayrı otaqlar, konfrans salonu və digər yerlərlə tanış oldu. Dövlətimizin başçısına burada ən müasir tələblər səviyyəsində tikilmiş 50 yerlik hotel barədə ətraflı məlumat verildi.*

*Hotelin qarşısına toplaşan ictimaiyyətin nümayəndələri ölkəmizin başçısını hərarətlə salamlayaraq, ürək sözlərini çatdırdılar. Son dövrdə respublikamızda, o cümlədən cənub bölgəsində həyata keçirilən quruculuq, aparılan abadlıq işlərini, yeni iş yerlərinin yaradılmasını yüksək qiymətləndirdilər. Ümummilli liderimiz Heydər Əliyevin siyasi və iqtisadi xəttini uğurla da-*

*vam etdirdiyinə görə prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.*

*Prezident İlham Əliyev sakinlərin hər birini diqqətlə dinləyərək onlarla səmimi söhbət etdi, qarşıya qoyulmuş vəzifələrin bundan sonra da uğurla həyata keçiriləcəyini vurğuladı.*

## «AZƏR-CƏNUB» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN BEYNƏLXALQ YÜK TERMİNALININ AÇILIŞI

*9 noyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Astarada «Azər-Cənub» Məhdud Məsuliyyətli Cəmiyyətinin beynəlxalq yük terminalının açılışında iştirak etmişdir.*

*Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov dövlətimizin başçısına məlumat verdi ki, 30 hektar sahədə yerləşən terminalda geniş anbarlar tikilmişdir. Təkcə soyuducu anbarların sahəsi 900 kvadratmetrdir. Bildirildi ki, Azərbaycana gətirilən və ölkəmizdən ixrac olunan mallar gömrük nəzarətindən keçərək bu anbarlarda yerləşdirilir və sonra avtomobillərlə təyinati yerlərə göndərilir. Xaricdən gələn iritonnajlı avtomaşınların yükləri də burada boşaldılır və Azərbaycanın yük avtomaşınları ilə təyinatı üzrə daşınır. İdxal olunan məhsullar da burada dəqiq yoxlamadan keçirilir və müvafiq qaydada sənədləşdirilir. Burada işin həcmindən asılı olaraq 500 nəfərdən çox astaralı işlə təmin ediləcəkdir.*

*Azərbaycan prezidenti «Azər-Cənub» MMC-nin yük terminalında İran İslam Respublikasından gəlmiş yük avtomaşınının boşaldılması prosesini izlədi.*

*Sonra prezident İlham Əliyev MMC-nin inzibati binası ilə də tanış oldu. Dövlətimizin başçısı terminalın tikintisi ilə bağlı görülmüş işləri yüksək qiymətləndirdi.*

## «ASTARA ÇAY-2» AÇIQ TİPLİ SƏHMDAR CƏMİYYƏTİNİN YENİ İSTEHSAL SAHƏSİ İLƏ TANIŞLIQ

*9 noyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev «Astara Çay-2» Açıq Tipli Səhmdar Cəmiyyətinin yeni istehsal sahəsi ilə tanış olmuşdur. Dövlətimizin başçısını cəmiyyətin binası qarşısında müəssisənin işçiləri böyük hörmət və məhəbbətlə, hərarətli alqışlarla qarşıladılar.*

*Respublikamızın rəhbərinə burada buraxılan müxtəlif növ çaylar barədə ətraflı məlumat verildi. Bildirildi ki, qədim çayçılıq ənənələrinə malik olan Astara və Lənkəranda torpaq sahibləri ilə birgə plantasiyalar yaradılır. Bu plantasiyalar gələcəkdə çay istehsalını artırmağa imkan verəcəkdir.*

*Prezident İlham Əliyev müəssisənin yeni istehsal sahələri ilə tanış oldu, burada yüksək səviyyədə hazırlanan «Final», «Məryəm», «Azərçay», «Qız qalası» və digər çay məhsullarının keyfiyyəti ilə maraqlandı və onlardan dəmlənmiş çayın tamından razı qaldığını bildirdi.*

*Azərbaycanın Kənd Təsərrüfatı naziri İsmət Abasov dövlətimizin başçısına məlumat verdi ki, mövsümdən asılı olaraq müəssisədə 100-dək işçi çalışır. Tezliklə istehsal gücünün artırılması da nəzərdə tutulmuşdur.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LƏNKƏRAN ŞƏHƏRİNDƏ

*9 noyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Astara rayonundan Lənkəran şəhərinə gəldi. Yol boyu kənd və qəsəbələrin sakinləri dövlətimizin başçısını hərarətlə salamlayır, hörmət və ehtiramlarını bildirirdilər.*

*Şəhərin baş meydanında Azərbaycan rəhbərini ictimaiyyətin nümayəndələri, ağsaqqallar böyük mehribanlıqla, sürəkli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrına gəldi. Dövlətimizin başçısına məlumat verildi ki, 460 yerlik salonu olan teatrın binası əsaslı, Avropa standartlarına uyğun təmir edilmişdir və təmir işlərinə 400 min dollar, yeni texniki avadanlığın alınmasına isə 250 min dollar xərclənmişdir.*

*Prezident İlham Əliyev aparılan yüksək səviyyəli təmir-bərpa işlərindən razılığını bildirdi, xidməti otaqlarla, tamaşa salonu ilə tanış oldu.*

*Dövlətimizin başçısı teatrın yaradıcı kollektivi ilə görüşərək səmimi söhbət etdi. Kollektivin üzvləri ümummilli lider Heydər Əliyevin sənət adamlarına, mədəniyyətə daim diqqət və qayğı göstərdiyini xatırlatdılar, prezident İlham Əliyevin bu xətti davam etdirəcəyinə əminliklərini bildirdilər.*

*Prezident İlham Əliyev teatrın yaradıcı kollektivi ilə xatirə şəkli çəkdirdi.*

*Sonra teatrın qarşısındakı meydanda şəhər ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi.*

**İlham Əliyev:** Hörmətli lənkəranlılar!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Mən növbəti dəfə Lənkərandayam. Çox şadam ki, burada sizinlə birlikdəyəm.

Bilirsiniz ki, bir müddət bundan əvvəl – ağsaqqal da bayaq qeyd etdi – mən Lənkəranda olmuşam. Bu mənim Lənkərana növbəti səfərimdir. Burada dəfələrlə olmuşam, çoxlu görüşlərim olubdur. Biz bir yerdə müəyyən mühüm məsələləri müzakirə, həll etmişik. Bu gün də buraya gəlməyimdən çox şadam. Çox şadam ki, bir il ərzində, prezident seçkilərindən keçən dövr ərzində Lənkəran daha da inkişaf etmişdir. Lənkəranda böyük quruculuq, abadlıq işləri görülür. O cümlədən Lənkəran Dövlət Dram Teatrının təmiri də buna əyani sübutdur.

İndi teatra baxdıq və gördüm ki, doğrudan da teatr çox böyük zövqlə, məhəbbətlə, demək olar, yenidən qurulub, ən yüksək dünya standartlarına cavab verir. Burada tamaşaçılar da, teatrın artistləri də özlərini çox rahat hiss edəcəklər. Bu inkişaf, bu istiqamətdə görülən işlər məni çox sevindirir.

Azərbaycanın hər sahəsi – iqtisadi, ictimai, siyasi, mədəni, həyatımızın hər sahəsi inkişaf edir. Lənkəranda böyük quruculuq işləri görülür. Bunu qeyd etdim. Şəhər meydanı, demək olar ki, yenidən qurulubdur. İstirahət üçün gözəl şərait var. Digər məsələlər də öz həllini tapır.

Bilirəm ki, son müddət ərzində yeni iş yerlərinin açılması istiqamətində böyük addımlar atılıbdır, böyük nailiyyətlər var. Bu məni çox sevindirir. Bir sözlə, Azərbaycan hərtərəfli inkişaf edir. Azərbaycanın hər bir regionu, bölgəsi inkişaf edir. Bizim bir müddət bundan əvvəl qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı proqramının məqsədi də məhz budur ki, təkcə paytaxt Bakı deyil, Azərbaycanın hər bir şəhəri, rayonu, kəndi inkişaf etsin. Bunu etmək üçün imkanlar var. Ölkə iqtisadiyyatı inkişaf edir, iqtisadi artım müşahidə olunur. Ölkəmizdə həyata keçirilən böyük layihələr imkan verəcək ki, Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşasın, ölkəmiz daha da güclənsin, öz iqtisadi potensialını daha da gücləndirsin.

Əlbəttə, hökumət tərəfindən atılmış addımlar, iqtisadi islahatların davam etdirilməsi bu məqsədi güdür. Çox sevindirici haldır ki, bütün istiqamətlərdə bu inkişaf göz qabağındadır. O cümlədən Lənkəranda da.

Lənkəranın, başqa bölgələrin problemləri də var. Bu problemlər öz həllini tapır. Yerli icra orqanları da bu məsələ ilə məşğul olurlar. Bir müddət bundan əvvəl Zeynal Nağdəliyev ilə Bakıda görüşərkən soruşdum ki, əsas problemlər hansılardır. O da, əlbəttə, mənə bu barədə məlumat verdi. Demək olar ki, problemlərin böyük əksəriyyətinin həlli mümkündür və bu istiqamətdə biz müvafiq tapşırıqlar vermişik və verəcəyik.

Bir məsələyə də toxunmaq istəyirəm. Lənkəranda yeni yolların tikintisinə vəsait ayrılacaqdır. Artıq mənim tərəfimdən Maliyyə nazirinə tapşırıq verilibdir. Vəsait ayrılacaqdır ki, Lənkəranda yeni, müasir yollar salınsın. Yol inkişaf deməkdir, infrastruktur, mədəniyyət deməkdir. Mən istəyirəm ki, Azərbaycanda yeni yaradılan, qurulan hər bir obyekt, hər bir müəssisə dünya standartlarına cavab versin. Azərbaycan, Azərbaycan xalqı buna layiqdir.

Kənd təsərrüfatı sektorunda da islahatlar davam etdirilir. Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən bir neçə il bundan əvvəl kənd təsərrüfatında böyük islahatlara başlandı. Bu islahatlar öz nəticəsini verdi, on minlərlə insan torpaq sahibi, fermer oldu. Əlbəttə, indi dövlətin vəzifəsi bu insanlara, fermerliklə, kənd təsərrüfatı istehsalı ilə məşğul olan insanlara daha da yaxşı şərait yaratmaqdan ibarətdir.

Bu məqsədlə gələn il çox mühüm addımların atılması nəzərdə tutulur. İlk növbədə, sahibkarlıqla məşğul olan şirkətlərə, iş adamlarına veriləcək kreditlərin həcmi artırılacaqdır. Əgər bu il bu məqsədlərə 100 milyard manat nəzərdə tutulmuşdusa, gələn il həmin məbləğ 200 milyard manat olacaqdır və ildən-ilə bu məbləğ artacaqdır. Bu da imkan verəcək ki, sahibkarlar kreditləri əldə edib yeni iş yerləri açsınlar, yeni müəssisələr, fabriklər, zavodlar yaratsınlar. Eyni zamanda bu bizim ümumi proqramımıza da gözəl töhfə olacaqdır.

Bilirsiniz ki, mən seçkilərdən əvvəl proqram təqdim etmişəm, ölkədə beş il ərzində 600 min iş yeri açılacaqdır. Bəziləri buna inanmır, bəziləri isə şübhə ilə yanaşırdı. Amma bu ilin təcrübəsi onu göstərir ki, bizim bəyan etdiyimiz hər bir məsələnin, hər bir vəzifənin əsası vardır. Bu günə qədər Azərbaycanda 100 mindən artıq yeni iş yeri açılıbdır ki, onlardan 70 minə qədəri daimi iş yeridir. İş yerlərinin açılması Azərbaycanı hərtərəfli inkişaf etdirəcəkdir. Ölkəmiz daha neft amilindən asılı olmayacaqdır. Bizim iqtisadiyyatımız təkcə neftin qiymətindən asılı olmayacaqdır. Ölkədə müxtəlif sahələrdə, müxtəlif istiqamətlərdə yeni müəssisələr, fabriklər yaranacaqdır.

Eyni zamanda, demək istəyirəm ki, yəqin bilirsiniz, bu yaxınlarda «Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaradılması haqqında qərar verilibdir. O, kənd təsərrüfatı ilə məşğul olan zəhmətkeşlərə texnikanı icarəyə verəcəkdir. İndi bu bizim ölkəmizdə aqrar sektorda həlli ən vacib olan məsələdir. Daha doğrusu, bu sahədə iki vacib məsələ vardır. Birincisi, maliyyə vəsaitinin, ikincisi, texnikanın çatışmamasıdır. Bu qərar hər iki məsələnin həlli yolunda çox önəmli addımdır. Nəzərə alsaq ki, texnikanın alınmasına da gələn il 100 milyard manat nəzərdə tutulub, 2006-cı ildə 150 milyard manat, ondan sonrakı illərdə, əminəm ki, daha böyük məbləğdə vəsait nəzərdə tutulacaq, bir neçə il ərzində biz bu sahədə də ciddi dönüşə nail olacağıq.

Ölkəmiz inkişaf edir. Azərbaycanda hökm sürən sabitlik bizim iqtisadi inkişafımızın başlıca əsasıdır. Azərbaycanda bu sabitliyi xalqımızın ümummilli lideri Heydər Əliyev təmin edibdir. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində yaşadığı çətin vəziyyətdən uğurla çıxa bildi. Ölkədə sabitlik bərqərar oldu, indi ictimai-siyasi asayiş hökm sürür. Azərbaycan xalqı rahat, təhlükəsizlik şəraitində yaşayır. Biz də hərə öz yerində çalışmalıyıq ki, ümumi işimizə öz töhfəmizi verək.

Seçkilərdən əvvəl mənim tərəfimdən müxtəlif istiqamətlərə dair bəyanatlar, vədlər verilmişdi. Mən çox şadam ki, bu gün si-

zin qarşınızda üzü ağ, alnı açıq hesabat verirəm. Nəzərdə tutulmuş bütün vəzifələr həyatda öz əksini tapıbdır.

Mən əminəm ki, gələcək illər də uğurlu olacaq, Azərbaycan çox böyük inkişafın astanasındadır. Bizim – hər bir vətəndaşın, prezidentin, bütün insanların borcu, vəzifəsi odur ki, ölkəmizi hərtərəfli gücləndirək, güclü dövlət yaradaq. Qarşımızda duran çətin məsələni – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini ancaq güclü dövlət həll edə bilər. Ancaq güclü ordu qarşıda duran vəzifəni ləyaqətlə yerinə yetirə bilər. Məqsədimiz də budur.

Azərbaycanın başqa heç bir problemi o qədər də böyük əhəmiyyət kəsb etmir. Yəni bütün başqa problemlər öz həllini tapacaq, işsizlik aradan götürüləcək, yoxsulluqla mübarizə davam etdiriləcək, yeni iş yerləri açılacaq, dünyada mövqelərimiz daha da möhkəmlənəcəkdir. Amma ən ağrılı problem, ən çətin problem Dağlıq Qarabağ problemidir. Bilirsiniz ki, bu istiqamətdə fəaliyyət göstərilir. Beynəlxalq təşkilatlar bu barədə, demək olar ki, öz mövqelərini daha da cəsarətlə ortaya qoyurlar.

İşğal olunmuş ərazilərdə vəziyyətlə əlaqədar məsələ Azərbaycanın təkidi ilə bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatında gündəliyə salınıbdır. Cəmi bir ölkə bu məsələnin gündəliyə salınmasına etiraz edibdir, o da Ermənistandır. Ermənistan yenə də özünü bütün dünyadan təcrid etdi. Bütün Dünya Birliyi yenə də Azərbaycanı, onun haqq işini dəstəklədi. Bu bizə lazımdır. Bu bizə lazımdır ki, Azərbaycan öz mövqelərini Dünya Birliyinə daha da açıq, dolğun, əsaslı, məntiqli şəkildə çatdırsın. Bu bizə lazımdır ki, bu məsələ ilə əlaqədar dünyadakı mövcud ictimai rəy daha da müsbət olsun. Bu bizə lazımdır, ona görə ki, bütün vasitələrdən istifadə etmək istəyirik ki, məsələni həll edə bilək. Amma görsək ki, atılmış addımlar, danışıqlar, beynəlxalq təşkilatların fəaliyyəti, beynəlxalq təşkilatlarda gedən müzakirələr heç bir nəticə vermir, onda biz bütün başqa vasitələrə əl ata bilərik. Bunu etmək üçün – yenə də iqtisadi məsələlərə qayıdıram – gərək güclü iqtisadiyyat olsun. Biz bu istiqamətdə işləri görürük. Azərbaycan xalqı bizim gördüyümüz işlərə öz qiyməti-

ni verir. Mən bu dəstəyi hiss edirəm, bu dəstəyə arxalanıram. Sizi də əmin etmək istəyirəm, bundan sonra da çalışacağam ki, doğma vətənimiz üçün, xalqımız üçün, Azərbaycanımız üçün əlimdən gələni əsirgəməyim, xalqla birlikdə öz ölkəmizi gücləndirək, onu yeni qələbələrə doğru aparaq.

Sizin hamınızı bir daha ürəkdən salamlayıram. Sizə xoşbəxtlik, səadət arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Lənkəran şəhərində bu ilin yanvarında qəza nəticəsində uçmuş binanın yerində inşa edilən yeddimərtəbəli yaşayış binasının tikintisi ilə də tanış oldu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MASALLIDA

*9 noyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Lənkəran şəhərindən Masallı rayonuna gəldi. Prezidenti İlham Əliyev Masallı şəhərində Olimpiya İdman Kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşmış ictimaiyyətin nümayəndələri, gənc idmançılar dövlətimizin başçısını mehribanlıqla, hərarətli alqışlarla qarşıladılar. Prezident İlham Əliyev onlarla səmimi görüşüb hal-əhval tutdu.*

*Sonra Olimpiya İdman Kompleksi barədə dövlətimizin başçısına ətraflı məlumat verildi. Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulmuş bu kompleksə idman oyunları, güləş, boks, ağır atletika və gimnastika salonları, iki örtülü üzgüçülük hovuzu, iki tennis kortu, futbol stadionu daxildir. Tikintisi 16 aya başa çatacaq kompleksin layihəsini "S.Modus" şirkəti vermiş, podratçı təşkilat isə EL tikinti şirkətidir.*

*Prezident İlham Əliyev «Bu kompleksin təməli 9 noyabr 2004-cü il tarixdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdur» sözləri yazılmış vərəqi imzalayaraq kapsulun içərisinə qoydu. Kapsul obyektin bünövrəsinə qoyuldu, dövlətimizin başçısı bünövrəyə beton məhlulu tökdü, tikintiyə öz xeyir-duasını verdi.*

* * *

*Noyabrın 9-da Azərbaycan prezidenti İlham Əliyev Masallı şəhərində yerləşən «EMBA WOOD» mebel fabrikində yeni istehsal sahəsi ilə tanış oldu.*

*Müəssisənin qarşısına toplaşmış şəhərin minlərlə sakini dövlətimizin başçısını səmimiyyətlə, hərarətli alqışlarla qarşıladı.*

*Müəssisənin rəhbəri Məşkur Məmmədov prezident İlham Əliyevə fabrikin fəaliyyəti və burada istehsal olunan müxtəlif çeşidli mebellər barədə ətraflı məlumat verdi. Bildirdi ki, 1996-cı ildən fəaliyyət göstərən müəssisədə ildə 25 milyard manatlıq 45 min dəst yüksək keyfiyyətli yumşaq və bərk mebellər istehsal olunur. Burada çalışanların minimum orta aylıq əmək haqqı 320 min manat təşkil edir və satış bazarı genişləndikcə fəhlələrin maaşı da artırılır. Fabrikdə istehsal olunan mebellərin kataloqları hazırlanmışdır.*

*Müəssisənin məhsulu Rusiyaya, Gürcüstana, Orta Asiya respublikalarına da ixrac edilir. Məhsulun keyfiyyətini yüksəlttmək üçün İtaliyadan, Bolqarıstandan, Rumıniyadan, Türkiyədən yarımfabrikatlar gətirilir. Müəssisə «İSO-9001» beynəlxalq keyfiyyət sertifikatı almış, bir sıra beynəlxalq sərgilərin diplomuna layiq görülmüşdür.*

*Prezident İlham Əliyev müəssisənin fəaliyyətinin genişlənməsindən və burada yeni iş yerlərinin açılmasından məmnun qaldığını söylədi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev müəssisə ilə tanışlıqdan sonra Masallı şəhərinin mərkəzi meydanına gəldi. Burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüş oldu. Meydana toplaşanların əllərində ümummilli liderimiz Heydər Əliyevin, dövlətimizin başçısı İlham Əliyevin portretləri, Azərbaycan prezidentinin daxili və xarici siyasətini dəstəkləyən şüarlar yazılmış transparantlar var idi.*

**İlham Əliyev:** Əziz masallılılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

Təxminən bir il bundan əvvəl, prezident seçkiləri ərəfəsində mən Masallıda olarkən çox gözəl görüşlər keçirdim. Xatırlayı-

ram ki, o görüşlər çox səmimi keçdi və görüşlər əsnasında təklif irəli sürülmüşdü ki, Masallıda Olimpiya Idman Kompleksi tikilsin.

Mənə müraciət olundu və mən də öz çıxışımda bildirmişdim ki, bir halda ki, belə bir təklif var, onu yerinə yetirəcəyəm. Bu gün buraya gələrkən həmin olimpiya kompleksinin təməl daşını qoydum. Bir il bundan əvvəl söz vermişdim ki, Masallıda idmanla məşğul olmaq üçün yeni tipli, müasir kompleks yaradılacaqdır və bu gün o yaradılır. Bu onu göstərir ki, bütün sahələrdə, bütün istiqamətlərdə verilən hər bir söz, bəyan edilən hər bir proqram həyatda öz əksini tapır. Bu, başlıca məsələdir. Əsas məsələ odur ki, xalq öz rəhbərinə inansın. Rəhbər də özünü elə aparmalı, elə işlər görməlidir ki, xalq onu dəstəkləsin. Azərbaycanda xalqla hökumət arasında bu birlik, vəhdət vardır və bu bizim bugünkü və gələcək inkişafımızın ən əsas, ən başlıca amillərindən biridir.

Mənim prezident seçkilərindən sonrakı bir il ərzində bütün fəaliyyətim xalqa xidmət etməkdən ibarət olmuşdur.

Hər bir atılmış addım, hər bir qəbul olunmuş qərar bir məqsəd güdür – Azərbaycanı daha da gücləndirmək, daha da zənginləşdirmək, aparılan islahatları daha dərinləşdirmək ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın. Görülən işlər deməyə əsas verir ki, bu istiqamətdə mühüm addımlar atılmışdır.

Regionların sosial-iqtisadi proqramının icrası onu göstərir ki, biz düz yoldayıq. Azərbaycanda bu müddət ərzində on minlərlə yeni iş yerləri açılmışdır. Azərbaycanda yeni müəssisələr, yeni fabriklər fəaliyyətə başladı. Köhnədən qalan fabriklər və müəssisələr də çox səmərəli işləyir. Bu gün mən Masallıda yerləşən «Emba Wood» mebel fabrikinə baş çəkdim, orada istehsalla tanış oldum və çox sevindim ki, Azərbaycanda, Masallıda ən yüksək standartlara uyğun istehsal mövcuddur və məhsullar nəinki daxili bazarın tələbatını ödəyir, eyni zamanda xaricdə də satılır, ixrac edilir.

Biz öz potensialımızı daha da gücləndirməliyik. Bunu etmək üçün hər bir əsas vardır. Azərbaycanın çox zəngin təbii ehtiyat-

ları vardır və bunlar Azərbaycan xalqına xidmət edir. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkəmizə milyardlarla dollar sərmayə qoyulubdur, minlərlə iş yeri açılıbdır. Azərbaycanda dünyanın ən böyük, ən nəhəng enerji layihəsi həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilir. Gələn il onun istismara verilməsini qeyd edəcəyik, bu, ölkəmizə böyük həcmdə valyuta ehtiyatı gətirəcəkdir. Eyni zamanda Azərbaycanda qeyri-neft sektoru inkişaf edir və çox məmnunluq hissi ilə deyə bilərəm ki, bu il qeyri-neft məhsullarının ixracı təxminən iki dəfə yarım artmışdır. Bu onu göstərir ki, Azərbaycanın iqtisadiyyatı çoxşaxəlidir.

Bizim də məqsədimiz ondadır ki, iqtisadiyyatımızı daha da şaxələndirək, xüsusilə regionlarda yeni iş yerləri açılsın. Kənd yerlərində bu məqsədlə fermerlərə, sahibkarlara ayrılacaq kreditlərin həcmi də gələn il iki dəfə artacaqdır. Əgər bu il 100 milyard manat kredit nəzərdə tutulubsa, gələn il bu, 200 milyard manat olacaq və heç şübhə etmirəm ki, gələcək illərdə bu məbləğ daha da artacaqdır. Yəni kənd təsərrüfatı istehsalı, sahibkarlıqla məşğul olmaq istəyən insanlara da dövlət tərəfindən kömək göstəriləcəkdir.

Kənd təsərrüfatı texnikasının çatışmaması aqrar bölmənin ən başlıca problemidir və problem də öz həllini tapacaqdır. Mənim tərəfimdən qəbul edilmiş qərarların əsasında «Aqrolizinq» Səhmdar Cəmiyyəti yaradılıbdır. Bu cəmiyyət tərəfindən gələn il 100 milyard manat dəyərində kənd təsərrüfatı texnikası gətiriləcəkdir. 2006-cı ildə 150 milyard manat dəyərində texnika gətiriləcəkdir ki, bu da kənd təsərrüfatı ilə məşğul olan insanlara icarəyə veriləcək, onlar da bundan səmərəli istifadə edib, məhsulların həcmini artıracaqlar.

Bir sözlə, Azərbaycan hərtərəfli inkişaf edir. Mənim vəzifəm, mənim borcum ondan ibarətdir ki, Azərbaycanın hər bir qəsəbəsi, hər bir kəndi, hər bir rayonu inkişaf etsin. Bölgələrə etdiyim səfərlər məhz bu məqsədi güdür. Mən şəxsən özüm, öz gözümlə vəziyyətlə tanış oluram, mövcud olan problemləri yerlərdə araşdırıb müvafiq qərarların qəbul olunması üçün addım-

lar atıram. Bu belə də olmalıdır. Azərbaycanın hər bir yeri, hər bir guşəsi mənim üçün doğmadır, əzizdir, mənim vətənimdir. Bilirsiniz ki, Masallıya da mənim xüsusi münasibətim var. Mən dəfələrlə Azərbaycanın bu gözəl guşəsində olmuşam, burada görüşlər keçirmişəm. Mən prezident seçkiləri ərəfəsində də burada olmuşam, amma Azərbaycan Respublikasının prezidenti kimi, ilk dəfədir Masallıdayam. Həmişə olduğu kimi, mən indi də masallılılardan böyük dəstək görürəm, böyük inam görürəm. Bu inam mənə daha da güc verir. Rəhbər o vaxt güclü olur ki, xalq onu dəstəkləyir. Mən çox şadam ki, bu bir il ərzində görülən bütün tədbirlər Azərbaycan xalqı tərəfindən dəstəklənir və çalışacağam ki, bundan sonra da bu yolla gedim. Seçkilərdən əvvəl demişdim ki, Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ siyasət yoxdur. Alternativ siyasət aparmaq istəyən qüvvələr çoxdan iflasa uğradılar və demək olar ki, siyasi səhnədən tamamilə silindilər. Xüsusilə son prezident seçkilərindən sonra bizim vəzifəmiz bu yolla getməkdir. Heydər Əliyevin yolu Azərbaycanı böyük nailiyyətlərə gətirib çıxaracaqdır. Azərbaycan on il ərzində gücləndi, iqtisadi, siyasi, hərbi cəhətdən daha da möhkəmləndi. Bizim vəzifəmiz bu yolu davam etdirmək, bu siyasəti davam etdirmək, Azərbaycanı zəngin, müasir, qüdrətli dövlətə çevirməkdir.

Əminəm ki, biz bu yolda istədiyimizə nail olacaq, uğurlar əldə edəcək, Azərbaycanı – müstəqil vətənimizi daha da gücləndirəcəyik.

Əziz masallılılar, sizin hamınızı bir daha ürəkdən salamlayıram. Bu gün mənimlə görüşə gəldiyinizə görə sizə öz dərin minnətdarlığımı bildirirəm və sizi əmin etmək istəyirəm ki, biz daim bir yerdə olacağıq, Azərbaycanı daim birlikdə inkişaf etdirəcəyik.

## «NUR-M» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN YENİ İSTEHSAL SAHƏLƏRİ İLƏ TANIŞLIQ

*9 noyabr 2004-cü il*

*Noyabrın 9-da Azərbaycan prezidenti İlham Əliyev Masallı rayonundakı «NUR-M» Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni istehsal sahələri ilə də tanış olmuşdur.*

*Cəmiyyətin sədri Nəriman Əliyev dövlətimizin başçısına məlumat verdi ki, 2000-ci ildən fəaliyyətə başlamış bu müəssisədə tomat, müxtəlif konservlər, habelə un məmulatları – makaron, vermişel istehsal olunur. Bu məhsullar Rusiyaya, Bolqarıstana və digər ölkələrə ixrac olunur. Məhsulların yüksək keyfiyyətinə görə müəssisə «İSO-9002» Avropa keyfiyyət sertifikatı almışdır. Hazırda müəssisədə 140 işçi çalışır. Konservlərin yüksək keyfiyyətini təmin etmək üçün 320 torpaq mülkiyyətçisi ilə bağlanmış müqavilə əsasında 300 hektar sahədə bostan-tərəvəz məhsulları əkilir. Buraxılan yüksək keyfiyyətli məhsulların 85 faizi müxtəlif ölkələrə ixrac olunur. Müəssisədə yeni mayonez sexinin tikilməsi də nəzərdə tutulmuşdur ki, burada da 50 nəfər rayon sakini daimi işlə təmin ediləcəkdir.*

* * *

***Azərbaycan prezidenti İlham Əliyevin müəssisə ilə tanışlıqdan sonra jurnalistlərin suallarına verdiyi cavab***

* * *

**S u a l: Cənab Prezident, Sizin imzaladığınız yeni fərmana əsasən, xarici ölkələrə səfər edən nümayəndə heyətləri səfərdən sonra rəsmi hesabat verməlidirlər. Belə fərmanın verilməsi hansı zərurətlə bağlıdır.**

**C a v a b:** Hesab edirəm ki, zərurət vardır. Çünki hər bir nümayəndə heyəti hansısa görüşlər keçirdikdən sonra bu görüşlər haqqında müzakirə olunan məsələlərə dair hesabat verməlidir. Biz bunları bilməliyik və eyni zamanda bunu digər müvafiq qurumlar da bilməlidir. Elə məsələlər var ki, birbaşa digər nazirliklərə aiddir. Ona görə də bu sistem imkan verəcəkdir ki, bütün nazirliklər, bütün dövlət orqanları hansı məsələnin müzakirə olunduğunu və hansı nəticəyə gəlindiyini bilsinlər. Hesab edirəm ki, bu, ümumi işimizə çox yaxşı töhfə verəcəkdir və müzakirə olunan məsələlər, çıxarılan qərarlar hamıya məlum olacaqdır.

**S u a l: Cənab Prezident, NATO Parlament Assambleyasının tədbirində erməni deputatlarının iştirakı ilə bağlı Qarabağ Azadlıq Təşkilatı yenidən etiraz bəyanatı veribdir. Bu məsələyə Sizin münasibətinizi öyrənmək istəyirik.**

**C a v a b:** İstənilən təşkilat istənilən məsələyə öz etirazını bildirə bilər. Bilirsiniz ki, Azərbaycanda demokratiya var, söz azadlığı var, sərbəstlik var və hər bir təşkilat bundan istifadə edib öz fikrini söyləyə bilər. Amma eyni zamanda Azərbaycanın maraqları var, Azərbaycanın ümumi siyasəti var. Demək istəyirəm ki, keçmişdə Ermənistandan müxtəlif vəzifəli şəxslər Azərbaycanda olmuşlar. O cümlədən Ermənistan parlamentinin deputatları da, Ermənistanın Baş naziri də bir neçə il bundan əvvəl gəlmişdilər. Nədənsə, o illərdə bu səfərlər dediyiniz təşkilatın etirazına səbəb olmamışdır. Bilirsiniz ki, Azərbaycan erməni hərbçilərini ölkəmizə buraxmadı. Baxmayaraq ki, bu, beynəlxalq təşkilatlar tərəfindən birmənalı qarşılanmamışdı, biz öz mövqeyimizdə çox qəti durmuşduq və bu qərarı şəxsən mən qəbul etmişdim ki, erməni hərbçiləri Azərbaycana gəlməsin. Bu, prinsipial məsələdir – işğalçı ordunun nümayəndəsi Azərbaycana gələ bilməz. O ki qaldı digər beynəlxalq tədbirlərə, axı biz özümüzü dünyada gedən proseslərdən təcrid edə bilmərik. Biz istəyirik ki, Azərbaycanda müxtəlif beynəlxalq tədbirlər keçirilsin. Müxtəlif konfranslar, seminarlar, o cümlədən beynəlxalq təşkilatların xətti ilə tədbirlər keçirilməlidir. Əgər biz bundan

imtina etsək, bundan ancaq Ermənistan faydalanacaqdır. Ona görə mən hesab edirəm ki, bu məsələ ilə əlaqədar lazım olmayan ajiotaj yaratmaq düzgün deyildir.

Hökumət hər şeyi bilir, prezident hər şeyi tənzimləyir. Biz prinsipial məsələlərdə heç vaxt güzəştə gedən deyilik. Ancaq əgər ermənilərə görə biz bu seminardan, bu görüşdən imtina etsək, bu bizim xeyrimizə olmayacaqdır.

**S u a l: Cənab Prezident, Siz tez-tez regionlarda olursunuz. Regionların sosial-iqtisadi inkişaf sürətini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Yüksək qiymətləndirirəm. Azərbaycanda iqtisadiyyat inkişaf edir, yeni iş yerləri açılır. Mən bu gün keçirdiyim görüşlərdə də bunu qeyd etdim. Bir il ərzində 100 mindən artıq iş yeri açılıbdır. Bu hansı ölkədə vardır? Bu, Azərbaycanda aparılmış siyasətin nəticəsidir. Ölkəmizdə çox vacib sosial-iqtisadi, regional proqramlar qəbul edilibdir. Sahibkarlara sərbəstlik verilib, onlara dəstək var. Sahibkarlar bu dəstəyi hiss edirlər. Əgər hiss etməsəydilər, bu il ərzində Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayə qoyulmazdı. Yerli sahibkarların, xarici şirkətlərin də bu barədə fikri qətidir. Azərbaycanın bu gününə, gələcəyinə böyük inam var. Biz bu inamı qazanmışıq və gərək bu inamı saxlayaq. Azərbaycan bundan sonra daha da yüksək sürətlə inkişaf edəcəkdir. Gələn il ümumi daxili məhsulun artımı da yüksək olacaq, minimum əmək haqqı, pensiyalar, sosial ödəmələr yenə də qaldırılacaqdır. Eyni zamanda bilirsiniz ki, Azərbaycanda gələn ildən sosial vergilər 5 faiz aşağı düşəcək ki, bu da sahibkarlığın inkişafına verilən böyük dəstəkdir. Yəni iqtisadi sahədə görülən tədbirlər deməyə əsas verir ki, ölkə düzgün istiqamətdə inkişaf edir və nəticə də göz qabağındadır. Sadəcə olaraq, bu siyasəti daha inamla davam etdirməliyik. Azərbaycanda bütün qurumlar – hökumət, özəl qurumlar, sahibkarlar, yerli icra orqanları gərək bu məsələdə yekdil olsunlar, bir nöqtəyə vursunlar.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏLİLABADDA

*9 noyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Cəlilabad şəhərinə gəldi.*

*Rayon ictimaiyyətinin nümayəndələri yol boyu dövlətimizin başçısını böyük hərarət və mehribanlıqla salamladılar. Onların əllərində ümummilli liderimiz Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, dövlətimizin xarici və daxili siyasətini dəstəkləyən şüar və transparantlar var idi.*

*Prezident İlham Əliyev Cəlilabad rayonunun Alar kəndinə gəldi. Burada 400 yerlik orta məktəb binasının və xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünün açılış mərasimi oldu.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünün üzərindən ağ örtüyü götürdü və büstün önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev yeni istifadəyə verilmiş məktəbin kompüter otaqları, fənn kabinələri ilə tanış oldu. Dövlətimizin başçısı kimya laboratoriyasında şagirdlərin keçdikləri təcrübəni müşahidə etdi və məktəbli idmançıların çıxışına tamaşa etdi.*

**İ l h a m Ə l i y e v:** Əziz cəlilabadlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm. Burada qeyd olundu ki, cəlilabadlılar Heydər Əliyevi çox sevirlər. Bu, həqiqətən də belədir. Mən də bunun şahidiyəm. Çünki yaxşı xatırlayıram ki, 1970–80-ci illərdə Heydər Əliyev Cəlilabada tez-tez gələrdi. Mən də onunla birlikdə Cəlilabada gəlirdim və cəlilabadlıların Heydər

Əliyevə qarşı olan hisslərini çox yaxşı xatırlayıram. Həqiqətən səmimi, mehriban münasibətlər var idi. Mən dəfələrlə bunu qeyd etmişəm və bu gün də demək istəyirəm ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq Heydər Əliyev bütün dövrlərdə, sözün əsl mənasında, xalqın rəhbəri, xalqın lideri idi. Sizə onu da demək istəyirəm ki, o da cəlilabadlılara eyni hisslər bəsləyirdi.

O da cəlilabadlıları çox sevirdi, çox istəyirdi ki, Cəlilabad inkişaf etsin. 1970-ci illərdə Cəlilabad rayonunda aparılmış böyük quruculuq işləri nəticəsində burada böyük üzüm bağları salınmışdı və o illərdə Cəlilabad Azərbaycanda ən çox üzüm istehsal edən rayon idi. Hətta onu da xatırlayıram ki, Cəlilabadın bu sahədəki uğurları bütünlükdə qonşu Ermənistanda olan uğurlardan daha böyük idi. Yəni Cəlilabadda yığılan üzümün həcmi bütün Ermənistanda yığılan üzümdən daha çox idi. Yaxşı xatırlayıram ki, Heydər Əliyev bu məqamı çox böyük ləzzətlə vurğulayırdı.

Xalqımızın ümummilli lideri 1970-ci illərdə olduğu kimi, 1990-cı illərdə, xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da Cəlilabada daim diqqət göstərirdi. O çox istəyirdi ki, burada yeni infrastruktur yaradılsın, insanlar daha da yaxşı yaşasınlar, sabitlik, əmin-amanlıq olsun və buna da nail oldu. Məhz onun fəaliyyəti nəticəsində ölkəmiz anarxiyadan, xaosdan çıxa bildi. Ölkədə sabitlik yarandı və iqtisadi inkişafın başlıca amili olan sabitlik bu gün də Azərbaycanda davam edir. Mən hesab edirəm ki, Azərbaycanın ən böyük nailiyyətlərindən biri də odur ki, bu ictimai-siyasi ab-hava, sabitlik bu gün də, prezident seçkilərindən sonra da davam edir, xalqımız rahat yaşayır, təhlükəsizlik şəraitində yaşayır. Azərbaycanı yenə də o böhrana, faciəyə sürükləmək istəyən qüvvələr xalq tərəfindən layiqli cavablarını aldılar. Azərbaycan Respublikasının prezidenti kimi, Heydər Əliyevin davamçısı kimi, onun siyasi xəttini bu gün Azərbaycanda həyata keçirən bir şəxs kimi, mən də sizə söz verirəm ki, Azərbaycanda bu əmin-amanlıq, bu asayiş, bu sabitlik nəyin bahasına olursa-olsun qorunacaqdır. Bu, Azərbaycan xalqının tələbidir, zəmanənin tələbidir, bu hər bir inkişaf üçün zəruridir. Xüsu-

silə gələcəkdə ölkəmizdə görüləcək işlər naminə biz sabitliyi qoruyub saxlamalıyıq. Həyat onu göstərir ki, sabitlik olan yerdə inkişaf da olur. Qeyd olundu ki, bu yaxınlarda, bu il imzalanmış proqramlar – regional inkişaf proqramı, sosial-iqtisadi inkişaf proqramı Azərbaycanda yeni bir mühitin yaranmasına gətirib çıxardı. Ölkəmizdə çox sürətlə yeni iş yerlərinin açılması prosesi gedir. Bu gün bu, bir növ ümummilli bir məsələyə çevrilibdir. Mən çox şadam, çünki bu təkliflə, bu proqramla bir il bundan əvvəl prezident seçkiləri ərəfəsində çıxış etmişdim və bəyan etmişdim ki, əgər xalq mənə inansa, əgər xalq məni dəstəkləsə Azərbaycanda yüz minlərlə iş yerləri açılmalıdır və açılacaqdır.

Çox şadam ki, Azərbaycan xalqı, o cümlədən cəlilabadlıların, demək olar ki, tam əksəriyyəti prezident seçkilərində məhz bu xəttə, bu siyasətə, Heydər Əliyev siyasətinə səs vermişdir və mən əminəm ki, bu gün onlar buna görə peşman deyillər. Bir il ərzində 100 mindən artıq iş yerinin yaradılması, o cümlədən 70 minə qədər daimi iş yerinin açılması çox böyük nailiyyətdir, çox böyük uğurdur. Bu gün mən bunları öz fəaliyyətimi tərifləmək üçün demirəm. Bu, həqiqətən də belədir.

Bu proses bütün bölgələrdə gedir. Bütün bölgələrdə sahibkarlara diqqət göstərilir, onlara ayrılan kreditlərin, vəsaitlərin həcmi artır. Gələn il də biz bunun artırılmasını nəzərdə tutmuşuq. Kənd təsərrüfatını dəstəkləmək üçün yeni proqramlar həyata keçirilir. Kənd təsərrüfatı texnikasının alınması nəzərdə tutulur. Cəlilabadda ənənəvi üzüm istehsalı bərpa ediləcəkdir. Bu sahədə də işlər görülüb və mənə verilən məlumata görə yüzlərlə hektar torpaq nəzərdə tutulmuşdur ki, 1970-ci illərdə olduğu kimi, Cəlilabadda biz üzüm bağlarının salınmasına kömək edək. Bilirsiniz ki, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin yarıtmaz fəaliyyəti nəticəsində, səhv siyasəti nəticəsində Azərbaycanda, demək olar ki, bütün üzüm bağları məhv edilmişdir. Azərbaycana çox böyük bir ziyan dəymişdir. Əlbəttə, bu istiqamətdə çox ciddi işlər aparılmalıdır ki, bu bağları, bu sahəni, Azərbaycan iqtisadiyyatının çox vacib sahəsini biz bərpa edək. Mən əminəm ki, biz buna nail olacağıq. Azərbaycanın bu-

günkü inkişaf sürəti, ölkədə gedən quruculuq işləri, sahibkarlığın inkişafı bunu deməyə əsas verir ki, biz bu vəzifəni də yerinə yetirəcəyik.

Mən bu gün Astarada, Lənkəranda, Masallıda və Cəlilabadda olarkən çox sevinc hissi keçirirəm. Sevinirəm ki, Azərbaycan inkişaf edir, yeni iş yerləri açılır, yeni müəssisələr fəaliyyət göstərir. Ölkəmizdə istehsal olunmuş məhsullar digər ölkələrə ixrac olunur. Biz də bunu istəyirik. İstəyirik ki, istehsal güclənsin, idxal əvəzinə yerli istehsal öz bazarımızı təmin etsin və məhsullarımız dünya bazarlarına çıxsın. Biz bunların hamısına nail olacağıq. Bunu etmək üçün hər bir imkan var, maliyyə vəziyyətimiz də ildən-ilə yaxşılaşır, sosial məsələlərin həlli üçün lazımi addımlar atılır. Bilirsiniz ki, bu yaxınlarda minimum əməkhaqqı qaldırılmışdır, pensiyalar artırılmışdır. Gələn il minimum əməkhaqqı, pensiyalar, əhaliyə çatan digər ödəmələr yenidən qaldırılacaqdır. Bu siyasət ildən-ilə daha da güclü aparılacaqdır. Azərbaycan xalqı, hər bir Azərbaycan vətəndaşı daha da yaxşı yaşamalıdır və yaşayacaqdır.

Buna Azərbaycan xalqının, Azərbaycan vətəndaşının haqqı var və biz də bunu təmin edəcəyik.

O cümlədən başqa sahələrdə də – təhsil sahəsində də böyük irəliləyişlər vardır. Mən çox şadam ki, Alar kəndindəki bu gözəl, müasir məktəbin açılışında iştirak edirəm. Onu da deməliyəm ki, Azərbaycanda Dövlət Proqramı çərçivəsində yeni məktəblərin tikintisi təşəbbüsü xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Son bir neçə il ərzində müxtəlif yerlərdə yeni məktəblər tikilir. Onlardan biri də bu gün burada istifadəyə verilir. Bu, ən müasir məktəbdir. Burada şagirdlər çox yaxşı oxuyacaqlar, əminəm ki, müəllimlər də çox yaxşı işləyəcəklər.

Təhsil sahəsinə də çox böyük diqqət göstərilir. Mənim tərəfimdən təsdiq edilmiş proqrama əsasən Azərbaycanda növbəti üç il ərzində hər bir məktəb – ölkəmizdə 4 mindən artıq məktəb vardır – kompüter sistemi ilə təchiz olunacaqdır. Hər bir məktəbdə kompüter sinfi yaradılacaqdır. Bu kompüterlər birbaşa in-

internetə qoşulacaqdır və bizim şagirdlərimiz gənc yaşlarından internetə, dünya məlumat şəbəkəsinə çıxacaqlar. Bu, üçillik proqramdır. Bu proqram gələn ilin əvvəlindən icra edilməyə başlanacaqdır. Əgər görsək ki, bu proqram uğurla icra olunur, biz bəlkə də bunu iki ilə təmin edə bilərik. Yəni bu sahəyə də, bütün digər başqa sahələrə də diqqət artırılacaqdır.

Azərbaycanın çox gözəl gələcəyi var. Azərbaycanın çox gözəl perspektivləri var. Çox zəngin neft, qaz yataqları var və bu gün bu yataqlar işə salınıbdır. Heydər Əliyevin adını daşıyan, onun əsəri olan Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla tikilir və gələn il istismara veriləcəkdir. Azərbaycan xalqı bundan çox böyük fayda görəcəkdir.

Əziz dostlar, mən bir daha sizi ürəkdən salamlayıram, görüşə gəldiyinizə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Bu gözəl məktəbin açılışı münasibətilə sizi bir daha təbrik edirəm.

## XALQ ARTİSTİ İSLAM RZAYEVƏ

Hörmətli İslam Rzayev!

Sizi – Azərbaycan musiqi ifaçılığı məktəbinin görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz sənət aləmində öz dəst-xətti ilə seçilən orijinal bir nəğməkar kimi tanınırsınız. Fitri istedad, özünəməxsus ifa manerası və böyük zəhmətsevərliyiniz sayəsində sənətdə əldə etdiyiniz uğurlar Sizə xalqımızın hörmət və məhəbbətini qazandırmışdır. Geniş səs diapazonu Sizə həm muğam dəstgahları və xalq mahnılarının, həm də Azərbaycan bəstəkarlarının lirik mahnıları, kantata və romanslarının mahir ifaçısı olmaq imkanı vermişdir. İfanızda səslənmiş bir çox muğam və xalq mahnıları, bəstəkarlarımızın əsərləri musiqi xəzinəmizin qızıl fonduna həmişəlik daxil olmuşdur. Xarici ölkələrə çoxsaylı səfərlərinizdə Azərbaycan musiqi mədəniyyətinin təbliği işinə də mühüm töhfələr vermisiniz. Muğam teatrının yaradıcısı, ansambl rəhbəri və pedaqoq kimi fəaliyyətiniz də təqdirəlayiqdir. Siz sənətin çətin yollarında qazandığınız təcrübə və biliyinizi, səhnə mədəniyyətinin incəliklərini gənc nəslə yorulmadan öyrədirsiniz. Əminəm ki, Azərbaycan musiqi mədəniyyətinin inkişaf etdirilməsi yolunda bundan sonra da var qüvvənizi sərf edəcək və sənətinizin pərəstişkarlarına həmişə gözəl anlar bəxş edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 noyabr 2004-cü il*

# MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN BAŞÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 noyabr 2004-cü il*

**İ l h a m Ə l i y e v**: Hörmətli səfirlər, mən sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Xahiş edirəm ki, mənim təbriklərimi və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Müqəddəs Ramazan bayramı Azərbaycanda bütün dövrlərdə xalq arasında çox geniş qeyd edilirdi. Ancaq Azərbaycan yalnız öz dövlət müstəqilliyini əldə etdikdən sonra bu bayram rəsmi bayram kimi qeyd olunmağa başladı. Ancaq Azərbaycanın hər bir yerində bütün dövrlərdə, keçmişdə bu bayram geniş qeyd edilirdi və insanlar bu bayramı həmişə öz ürəklərində yaşadırdılar.

Mən çox məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra müsəlman ölkələri ilə bizim aramızda olan əlaqələr çox yüksək səviyyəyə qalxıbdır və bu gün bu əlaqələr çox sürətlə inkişaf edir. Siyasi, iqtisadi, mədəni sahələrdə bizim əlaqələrimiz ildən-ilə güclənir və biz bu əlaqələrə çox böyük əhəmiyyət veririk. O cümlədən çoxtərəfli müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində də biz daim əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik və çox şadıq ki, bu dəstək hər bir müsəlman ölkəsinin qarşısında duran problemlərin həlli istiqamətində böyük əhəmiyyət kəsb edir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra İslam Konfransı Təşkilatına üzv olmuşdur və bu təşkilatda da biz daim böyük dəstəyi hiss edirik. Xüsusilə, Azərbaycan üçün, ümumiyyətlə, bölgə üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində biz bu dəstəyi daim hiss edirik. Mən bu fürsətdən istifadə edib, təmsil etdiyiniz bütün ölkələrin dövlət başçılarına, hökumət başçılarına bu dəstəyə görə öz minnətdarlığımı bildirirəm.

Yenə də bu fürsətdən istifadə edib, dünyada yaşayan bütün müsəlmanları müqəddəs bayram münasibətilə təbrik edirəm. Əminəm ki, bundan sonra da təmsil etdiyiniz ölkələrlə Azərbaycan arasında əlaqələr daha da sürətlə inkişaf edəcək və xalqlarımızın xoşbəxt gələcəyi üçün, rifahı üçün böyük imkanlar yaradacaqdır.

Bir daha bayramınız mübarək!

**Əbdüqafur Əbdürəhmanov**: Möhtərəm cənab Prezident!

Hər şeydən əvvəl, İslam aləminin ən əziz bayramlarından biri olan müqəddəs Ramazan bayramı münasibətilə bizi, Azərbaycanda təmsil olunan islam ölkələrinin səfirlərini qəbul etdiyinizə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Bu, Sizin müqəddəs, mənəvi dəyərlərə böyük sevgi və hörmət bəsləməyinizlə yanaşı, birlik və qardaşlıq dini olan islamın ümumbəşəri mahiyyətinə necə böyük önəm verməyinizin təzahürüdür. Belə bir əziz gündə burada təmsil olunan həmkarlarım adından Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını müqəddəs bayram münasibətilə təbrik etmək mənim üçün böyük şərəfdir.

Bu müqəddəs və əziz gündə müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edir, Ulu Tanrıdan ona rəhmət diləyirik.

Bu günlərdə bütün Azərbaycan xalqı ilə bərabər, biz – müsəlman ölkələrinin səfirləri Sizin adınızdan təşkil edilən iftar vaxtı Azərbaycan xalqının ümummilli lideri mərhum Heydər

Əliyevin ruhuna dua oxumuşuq. Dünya siyasətində bu nadir şəxsiyyət Azərbaycan dövlətinin bütün sahələrdə inkişafını təmin etmiş, öz müdrik əməli fəaliyyəti ilə Azərbaycanı dünyada tanıtmışdır. Həm də ümumbəşəri mədəniyyətin nailiyyətlərini dərindən bilən, onları qoruyub yaşadan bir lider kimi, Azərbaycanda demokratiyanın, insan haqlarının, eləcə də din və vicdan azadlığının əsasını qoymuşdur. Biz həmişə bunun şahidi olmuşuq.

Bu Ramazan ayında da ən müxtəlif dinlərin, millətlərin nümayəndələrinin bir araya gələrək, dost və qardaş kimi, iftar süfrələrində oturmaları müstəqil Azərbaycanda vicdan azadlığının, tolerantlığın bariz ifadəsidir.

Bütün müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da, adətən, dua ithaf edilən zaman «onun ruhu şad olsun!» deyirlər. Mən tam əsasla fikirləşirəm ki, mərhum Heydər Əlirza oğlunun ruhu onun qabaqcadan müəyyən etdiyi bütün işlər Sizin rəhbərliyiniz altında ləyaqətlə həyata keçirildiyi, eyni zamanda, Azərbaycan xalqının taleyi və gələcəyi etibarlı şəkildə qorunduğu üçün şad olur.

Cənab Prezident, burada qəbul otağına yığışanda mənim həmkarlarım tərəfindən belə bir fikir ifadə olunmuşdur ki, bu müqəddəs bayramın Sizin rəhbərliyinizin ilk ili ilə üst-üstə düşməsi, həqiqətən, qeyri-adi və əlamətdar bir hadisədir. Biz bu gün bunun şahidiyik ki, Siz keçən bir il ərzində siyasi, iqtisadi, sosial inkişafı təmin etməklə yanaşı, xalqın milli mənafeyinin qorunması, eləcə də demokratiyanın uğurla inkişafı üçün də hərtərəfli əlverişli şərait yaratmısınız.

Bununla birlikdə, bu gün Siz Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi üçün beynəlxalq aləmdə məqsədyönlü, müvəffəqiyyətli addımlar atırsınız. Mən burada olan səfirlər adından demək səlahiyyətindəyəm ki, ölkələrimizin rəhbərləri və xalqları Azərbaycanı bu ədalətli mübarizədə dəstəkləyirlər. Biz də Ermənistan–Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin sülh yolu ilə, Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində, yəni işğal olunmuş tor-

paqların azad edilməsi şərti ilə həllinin tərəfdarıyıq. İnanırıq ki, Azərbaycan xalqının sarsılmaz iradəsi, beynəlxalq təşkilatların dəstəyi və Sizin qətiyyətli siyasətiniz sayəsində ölkəniz buna nail olacaqdır. Biz öz dövlətlərimizin təmsilçiləri olaraq, Sizin çox böyük uğurla rəhbərlik etdiyiniz Azərbaycanla ölkələrimiz arasında hərtərəfli, qarşılıqlı əməkdaşlığın daha da inkişaf etməsinə çalışır və bundan sonra da bu yolda əzmlə fəaliyyət göstərəcəyik.

Zati-aliləri, icazə verin, bu görüşdə iştirak edən həmkarlarım adından Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edim, Sizə cansağlığı, uzun ömür, ölkənizin sabitliyi, inkişafı, əmin-amanlığı, əhalinin rifah halının yaxşılaşdırılmasını təmin etmək yolunda apardığınız ibrətamiz fəaliyyətinizdə böyük uğurlar arzu edim. Sizin simanızda bütün qardaş Azərbaycan xalqına xoşbəxtlik, sülh, firavanlıq diləyim.

**İlham Əliyev:** Xoş sözlərə görə sizə təşəkkür edirəm. Çox düzgün qeyd etdiniz ki, Azərbaycanda son bir il ərzində görülən işlər bizim ümumi strategiyamızın çərçivəsində həyata keçirilir. Bu strategiya Azərbaycanda 1993-cü ildən başlayaraq ardıcıl qaydada həyata keçirilir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti bu gün də Azərbaycanda yaşayır və deyə bilərəm ki, möhkəmlənir.

Mən də sizinlə razıyam ki, bu gün Heydər Əliyevin ruhu şad olur. Onun əsəri olan müstəqil Azərbaycan uğurla inkişaf edir, güclənir, dünyada öz mövqelərini daha da möhkəmləndirir. Ölkə daxilində gedən proseslər də çox müsbət istiqamətdə inkişaf edir. Bu çox vacib məsələdir. Hesab edirəm, Azərbaycanın xoşbəxt gələcəyi üçün başlıca şərtdir ki, Heydər Əliyev siyasəti, strategiyası Azərbaycanda yaşasın və Azərbaycan xalqına gələcəkdə də böyük xoşbəxtlik gətirsin. Azərbaycan xalqının rahat yaşaması üçün, firavan yaşaması üçün bu siyasət gərək bundan sonra da aparılsın. Mən böyük məsuliyyət hissi ilə bir il bundan əvvəl bu vəzifəyə başlayanda qarşımda duran əsas məsələ bu siyasəti bütün sahələrdə davam etdirmək və Azərbaycanı Heydər Əliyev yolu ilə inkişaf etdirmək idi. Çox şadam ki, bu bir il ər-

zində görülən işlər də xalq tərəfindən bəyənilir, dəstəklənir. Mən bu dəstəyi hiss edirəm və ona arxalanıram.

Siz yaxşı bilirsiniz ki, bizim ümummilli liderimiz beynəlxalq münasibətlərə də çox böyük əhəmiyyət verirdi. Xüsusilə, müsəlman ölkələri ilə olan əlaqələrin inkişafı üçün o çox böyük işlər gördü. Onun müsəlman ölkələrinə etdiyi səfərləri, müsəlman ölkələrinin dövlət və hökumət başçılarının Azərbaycana gəlmələri bizim aramızda olan əlaqələrin inkişafında çox mühüm rol oynamışdır. Bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də bizim siyasətimiz dəyişməz olaraq qalır. Biz, müsəlman ölkələri gərək həmişə bir-birimizi dəstəkləyək, bir-birimizə kömək göstərək, bir-birimizlə bütün sahələrdə yaxşı, səmərəli əməkdaşlıq edək ki, birliyimiz daha da möhkəm olsun. Bizim birliyimiz hər bir ölkə üçün, onun dünyadakı mövqelərinin gücləndirilməsi üçün çox mühüm amil olacaqdır. Azərbaycan bu siyasətə sadiqdir və bu siyasəti bundan sonra da aparacaqdır.

Sizi bir daha ürəkdən təbrik edirəm.

## SANKT-PETERBURQUN QUBERNATORU VALENTİNA MATVİYENKO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələr çox sürətlə inkişaf edir. Rusiya Federasiyasına son səfərindən söhbət açan prezident İlham Əliyev prezident Vladimir Putinlə və Rusiya dövlətinin yüksək vəzifəli şəxsləri ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı. Dövlətimizin başçısı dedi ki, ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin daha da gücləndirilməsi, bu baxımdan ticarət dövriyyəsinin iki dəfə artırılması hər iki ölkənin hökumətləri qarşısında bir vəzifə kimi durur.*

*Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələr bundan sonra da sürətlə inkişaf edəcəkdir. Dövlətimizin başçısı əmin olduğunu vurğuladı ki, Sankt-Peterburqun qubernatoru xanım Valentina Matviyenkonun Azərbaycana səfəri ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Səmimi qəbula, xoş sözlərə görə minnətdarlığını bildirən xanım Valentina Matviyenko Azərbaycan ilə Rusiya arasında əlaqələrin dinamik inkişafından məmnunluqla bəhs etdi. Azərbaycan ilə Sankt-Peterburq arasında da əlaqələrin uğurla inkişaf etdiyini nəzərə çatdıran qonaq bu əlaqələrin daha da möhkəmləndirilməsi üçün böyük potensial olduğunu vurğuladı.*

*Azərbaycan–Rusiya əməkdaşlığının indiki səviyyəyə yüksəlməsi və möhkəmləndirilməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük xidmətləri olduğunu bildirən Valentina Matviyenko hazırda prezident İlham Əliyevin bu siyasəti uğurla*

*davam etdirməsindən məmnunluqla söhbət açdı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtilə Sankt-Peterburqda SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin ali məktəbində təhsil aldığını böyük məmnunluqla xatırladan qonaq gələn il həmin məktəbin qarşısında prezident Heydər Əliyevin xatirə lövhəsinin açılmasının planlaşdırıldığını söylədi. Xanım Valentina Matviyenko imkan olarsa, həmin tədbirdə Azərbaycan prezidenti İlham Əliyevin iştirak etməsini çox arzuladıqlarını bildirdi.*

*Cənab Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi, çox yüksək vəzifədə çalışdığı dövrdə Sankt-Peterburqa daim böyük diqqət və qayğı göstərdiyini məmnunluqla vurğulayan qonaq bildirdi ki, Azərbaycan xalqının ümummilli liderinin xatirəsi Sankt-Peterburqda daim əziz tutulur.*

*Sankt-Peterburqda 400 minə yaxın azərbaycanlının yaşadığını söyləyən Valentina Matviyenko dedi ki, bu gün şəhərimizin ictimai həyatının bütün sahələrində azərbaycanlılar fəallıqla iştirak edirlər. Yaxın zamanlarda Sankt-Peterburqda yaşayan azərbaycanlılar üçün məktəb açılacaqdır. Azərbaycan ilə Sankt-Peterburq arasında mədəni əlaqələrin qədim tarixə malik olduğunu xatırladan qonaq bu sahədə əməkdaşlığın indi də sürətlə inkişaf etməsindən məmnunluqla söhbət açdı, bunun daim inkişaf edəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduğunu bildirdi.*

* * *

*Görüşdən sonra Sankt-Peterburqun qubernatoru Valentina Matviyenko şəhərin tarixi abidələrinin maketini prezident İlham Əliyevə təqdim etdi və onu Heydər Əliyev Fondunda yerləşdirməyi təklif etdi. Prezident İlham Əliyev bu təklifi bəyəndi. Qonaq Sankt-Peterburqdakı Azərbaycan mədəni-milli muxtariyyətin rəhbərini dövlətimizin başçısına təqdim edərək dedi ki, o, Azərbaycan diasporunun birləşməsi üçün çox iş görür. Sankt-Peterburqun qubernatoru Rusiya–Azərbaycan münasibətlərinin inkişafında ölkəmizin fəxri konsulunun fəaliyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın Sankt-Peterburqda baş konsulluğunun açılması haqqında Rusiya XİN-in müsbət qərarına görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı dedi ki, bu, Azərbaycan ilə Sankt-Peterburq arasında əməkdaşlığın daha da inkişaf etməsinə təkan verəcəkdir.*

## *Azərbaycan prezidenti İlham Əliyevin və Sankt-Peterburqun qubernatoru Valentina Matviyenkonun jurnalistlərin suallarına verdikləri cavab*

**S u a l: Sizin görüşünüz yarım saatdan çox çəkdi. Mümkünsə, bu görüşün, danışıqların yekunlarını qısaca ifadə edin.**

**İ l h a m  Ə l i y e v:** Bəli, nəticələr, əlbəttə, var. Biz Rusiya ilə Azərbaycan arasında istər dövlətlərarası səviyyədə əməkdaşlığa, istərsə də Rusiyanın və Azərbaycanın müxtəlif regionları arasında əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bu baxımdan Sankt-Peterburqla və vilayətlə əməkdaşlığımız öncül xarakter daşıyır.

Bilirəm ki, sabah da danışıqlar aparılacaq, konkret layihələr daha müfəssəl müzakirə ediləcəkdir. Əminəm ki, biz iqtisadi əlaqələrin, əmtəə dövriyyəsinin həcmini artıra biləcəyik və müştərək, maraqlı layihələr çox olacaqdır. Bunun üçün yaxşı şərait var, Azərbaycanın və Sankt-Peterburqun iqtisadi potensialı ildən-ilə artır. Dövlətə və şəhərə başçılıq etdiyimiz son bir ili – biz bu baxımdan da bir növ yaxınıq – müzakirə etdik. Ötən bu bir ildə iqtisadi sahədə böyük uğurlar qazanılmışdır. Sankt-Peterburqda da, bizdə də iqtisadiyyat inkişaf edir, deməli, biz daha güclü oluruq, yaxşı, qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün daha böyük şərait yaradılır. Bir sözlə, hesab edirəm ki, səfərin yekunlarına əsasən yaxşı nəticələr olacaqdır.

**S u a l: Peterburqun Azərbaycanla əməkdaşlığının perspektivləri necədir və biz hansı sahələrdə əməkdaşlıq edə bilərik? Sankt-Peterburqun neft-qazçıxarma sahəsində iştirakı mümkündürmü?**

**V a l e n t i n a  M a t v i y e n k o:** Sabah biz Sankt-Peterburq hökuməti ilə Azərbaycan hökuməti arasında saziş imzalayacağıq. Sazişdə əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirəcəyik. Söz yox ki, Peterburq Azərbaycana bir sıra layihələr təklif etməyə hazırdır. Biz onları gətirmişik və sabah müzakirə edəcəyik. Söhbət maşınqayırma, energetika maşınqayırması sənayemizin məhsulunun göndərilməsindən gedir. Azərbaycan təkliflərimizi qəbul etsə, Peterburq Azərbaycan energetikasının modernləşdirilməsində iştiraka hazırdır. Bizdə dünyada tələbat olan rəqabət qabiliyyətli məhsul buraxan güclü müəssisələr var. Peterburq qaz və neft emalı sənayesi üçün avadanlıq və bir çox digər məhsullar göndərə bilər. Eləcə də, biz istərdik ki, Azərbaycandan Peterburqa ixrac artsın.

Əlbəttə, bu gün qarşılıqlı əmtəə dövriyyəmizin səviyyəsi potensialımıza və ikitərəfli imkanlarımıza uyğun deyildir. Onu artırmağa real imkan var. Üstəlik, bizim çoxdan yaranmış və şəhərimizi Azərbaycanla birləşdirən əlaqələrimiz var. Şəhərimizdə ümummilli lider, görkəmli siyasi xadim və dövlət xadimi Heydər Əlirza oğlu Əliyevə böyük hörmət və ehtiramla, hətta deyərdim, xüsusi rəğbətlə yanaşırlar. Bizi bu da birləşdirir. Peterburqla Azərbaycan arasında mənəvi əlaqə də var.

Zənnimcə, biz nəinki iqtisadi əlaqələrimizi, həm də mədəniyyət, təhsil, elm sahəsində əməkdaşlığı fəal inkişaf etdirəcəyik. Bu baxımdan da çox böyük potensial var. Gələn il Rusiyada Azərbaycan ili keçiriləcəkdir. Biz bu hadisədə iştirak etməyə indidən hazırlaşırıq. Gələn il Heydər Əlirza oğlu Əliyevin təhsil aldığı binada onun xatirə lövhəsini açmaq istəyirik. Mən Azərbaycan prezidentini, əgər imkanı olarsa, Peterburqa gəlib, bu əlamətdar hadisədə iştirak etməyə dəvət etmişəm.

Bizi insani əlaqələr bağlayır. Peterburqda böyük Azərbaycan diasporu var – burada 400 minədək azərbaycanlı yaşayır. Peterburq çoxmillətli şəhərdir, müxtəlif millətlərdən, müxtəlif dini etiqadlardan olan adamlar burada həmişə dinc yaşamışlar. Azərbaycan diasporu şəhərin iqtisadiyyatında fəal iştirak edir. Odur ki, Peterburqu və Azərbaycanı bir-birinə bağlayan tellər çoxdur.

İndi vəzifəmiz bu münasibətləri yeni səviyyəyə qaldırmaqdır, çünki son vaxtlar Azərbaycan və Rusiya prezidentləri arasında yüksək siyasi səviyyədə dialoq çox fəal inkişaf edir. Bu, ikitərəfli dövlətlərarası münasibətlərin inkişafı üçün ciddi təkandır. Mənə elə gəlir ki, bu münasibətlər regional səviyyədə olan əlavə dövlətlərarası əməkdaşlığı praktiki məna ilə, qarşılıqlı surətdə faydalı real layihələrlə, real konkret işlərlə dolğunlaşdırmağa imkan verəcəkdir. Bir sözlə, böyük planlarımız var və ümidvaram ki, biz onları həyata keçirə biləcəyik.

**S u a l**: **Cənab Prezident, Sankt-Peterburqdakı Azərbaycan diasporunun üzvlərinə nə demək, nə arzulamaq istərdiniz?**

**İ l h a m  Ə l i y e v:** Onlara uğurlar arzulamaq istəyirəm. Biz çox şadıq ki, Rusiyadakı azərbaycanlılar təşkilatlanmışlar. Ümumrusiya Azərbaycan Konqresi də mövcuddur. Yeri gəlmişkən, bu yaxınlarda onun Moskvada Rusiya prezidentinin iştirakı və mənim iştirakımla qurultayı keçirildi. Biz bilirik ki, Rusiyanın müxtəlif regionlarında azərbaycanlılar yaşayırlar. Biz buna çox müsbət yanaşırıq. Mən həmişə deyirəm ki, onlar üçün orada pis olsaydı, yaşamazdılar. Buna görə də onlara arzulamaq istəyirəm ki, Peterburqda özlərini bundan sonra da evdəki kimi hiss etsinlər, Rusiyanın layiqli vətəndaşları olaraq qalsınlar, öz fəaliyyətləri və gündəlik əməkləri ilə ölkələrimiz və şəhərlərimiz arasında daha sıx əməkdaşlığa kömək etsinlər.

Eyni zamanda, demək istəyirəm ki, onlar bizə həmişə ümid bəsləyə bilərlər, çünki Azərbaycan onların vətənidir. Onlar bunu unutmurlar, əlbəttə ki, vətənlə əlaqələri itirmirlər. Düşünürəm ki, müvəffəqiyyətə aparan yol öz milli tarixi köklərini unutmamaqdan, eyni zamanda, vətəndaşı olduqları dövlətin qanunları ilə yaşamaqdan və bu dövlətin layiqli vətəndaşı olmaqdan ibarətdir.

* * *

*Sonra qubernator Valentina Matviyenko Sankt-Peterburqun 300 illik yubileyi münasibətilə buraxılmış medalı Azərbaycan*

*prezidenti İlham Əliyevə təqdim etdi. O bildirdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də vaxtilə bu medala layiq görülmüşdür. Xanım Valentina Matviyenko köhnə Bakının Sankt-Peterburqun arxiv və muzeylərində saxlanılan nadir foto-şəkillərinin surətlərini də dövlətimizin başçısına təqdim etdi.*

## MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AÇILMIŞ İFTAR SÜFRƏSİNDƏ NİTQ

*Qafqaz Müsəlmanları İdarəsinin İqamətgahı*

*11 noyabr 2004-cü il*

Hörmətli şeyx həzrətləri!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Ramazan bayramı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır. Azərbaycan xalqı bütün dövrlərdə bu müqəddəs bayramı qeyd edir. Ancaq təbii ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra bu bayram rəsmi bayram kimi qeyd olunmağa başladı. Bu çox gözəl bayramdır. Mən əminəm ki, bu bayram Azərbaycan xalqını, Azərbaycanda yaşayan bütün xalqları birləşdirəcək, bizim həmrəyliyimizi daha da gücləndirəcəkdir. Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır.

Azərbaycanın çox zəngin tarixi var, çox böyük nailiyyətləri var. Milli-mənəvi dəyərləri, ənənələri var. Bu ənənələr, bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün vacibdir və hər bir Azərbaycan vətəndaşının gələcəyi, inkişafı üçün böyük rol oynayır.

Azərbaycanda dövlət və din arasında bütün dövrlərdə çox gözəl münasibətlər olmuşdur. Xüsusilə son on il ərzində bu münasibətlər daha da güclənmişdir. Bunun səbəblərindən biri də odur ki, xalqımızın ümummilli lideri Heydər Əliyevi və şeyx həzrətlərini birləşdirən dostluq münasibətləri çox güclü idi. O cümlədən bu münasibətlərə görə də hesab edirəm ki, Azərbaycanda, ümumiyyətlə, din ilə dövlət arasında əlaqələr çox yüksək

səviyyədədir. Bu ənənə yaşayır, bütün sahələrdə olduğu kimi, Azərbaycanda bu sahədə də Heydər Əliyev siyasəti davam etdirilir.

Hesab edirəm ki, Azərbaycan xalqına xas olan dözümlülük, tolerantlıq müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biridir. Azərbaycanda heç vaxt milli, dini, etnik zəmində qarşıdurma olmamışdır, ayrı-seçkilik olmamışdır və bundan sonra da olmayacaqdır. Bu bizim siyasətimizin əsas prioritet istiqamətlərindən biridir. Azərbaycan xalqının gücü, Azərbaycanın xoşbəxt gələcəyi bunu tələb edir. Tələb edir ki, millətindən, dinindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları bir ailədə yaşasınlar, bir-birimizə daim kömək edək və bir-birimizi zənginləşdirək.

Azərbaycan dövlətində yaşayan bütün insanlar bizim üçün əzizdir. Azərbaycanda hökm sürən bu gözəl ab-hava, bu mühit, hesab edirəm ki, nadir mühitdir. Mən tam əminliklə deyə bilərəm ki, bizdə bu məsələdə olan vəziyyət başqa ölkələr üçün də yaxşı örnək ola bilər. Azərbaycanda bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Biz öz keçmişimizi, tarixi irsimizi daha da dərindən öyrənəcəyik. Eyni zamanda, Azərbaycandakı bütün başqa millətlər, xalqlar Azərbaycanda rahat, sərbəst yaşayacaqlar, bütün bu hüquqlardan bundan sonra da istifadə edəcəklər. Azərbaycanda son il ərzində bu yönümdə də mühüm addımlar atılmışdır və Heydər Əliyev siyasəti bu istiqamətdə də inkişaf etdirilmişdir.

Şeyx həzrətləri burada qeyd etdi, mən buraya gələrkən dedim ki, bir il necə tez keçdi. Həqiqətən, bir il bundan əvvəl burada buna bənzər görüş keçirilmişdi. O vaxt prezident seçkilərindən bir ay ötmüşdü. Əlbəttə, demək çətin idi ki, Azərbaycan necə inkişaf edəcək, Azərbaycanı nələr gözləyir, Azərbaycanın yeni rəhbərliyi vəzifənin öhdəsindən necə gələcəkdir. Əlbəttə, ölkə prezidenti kimi, Heydər Əliyevin siyasi xəttinin davamçısı kimi, mənim üçün çox vacib idi ki, Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı nəzərdə tutulmuş proqramları qiymətləndirsin, dəstəkləsin və bizim səsimizə səs versin.

Mən bu dəstəyi prezident seçkiləri zamanı hiss etdim. O cümlədən, dindarlar tərəfindən. Azərbaycanın bütün dindarlarına bu münasibətlə, mənə göstərdikləri dəstəyə görə, seçkilərdə verdikləri səslərə görə bir daha öz minnətdarlığımı bildirirəm. Çox vacib idi ki, prezident seçilməyimdən sonra birinci il ərzində Azərbaycan daha da inamla, uğurla inkişaf etsin. Bu gün çox şadam ki, nəzərdə tutulmuş bütün vəzifələr yerinə yetirilir. Hesab edirəm ki, görülmüş bütün tədbirlər Azərbaycanın gələcəyi üçün böyük zəmin yaradır.

Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, Azərbaycan xalqı rahat, sərbəst yaşayır, maddi rifah yaxşılaşır. Görülmüş tədbirlərin nəticəsində insanlarımızın real pul gəlirləri, əməkhaqları, pensiyaları artırılır. İqtisadi inkişaf baxımından ölkə çox böyük addım atmışdır və həm iqtisadi göstəricilər, eyni zamanda, reallıq, real həyat bunu göstərir.

Azərbaycan beynəlxalq səviyyədə öz mövqelərini möhkəmləndiribdir. Beynəlxalq təşkilatlarla əlaqələrimiz daha da səmərəli qurulubdur. Beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın mövqeyinin dəstəklənməsi daha da çox hiss olunur.

Azərbaycanın ən ağrılı probleminin – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində mühüm addımlar atılıbdır. Sizə deyə bilərəm ki, danışıqlar prosesində Azərbaycanın mövqeyi daha da möhkəmlənibdir. Azərbaycanın haqlı olması faktı artıq daha da geniş qəbul edilir. Bu bizə imkan verir ki, öz haqlı tələblərimizi daha da böyük qətiyyətlə ortaya qoyaq və bunu edirik. Biz bütün fürsətlərdən istifadə edib Ermənistanın işğalçı mahiyyətini ifşa edirik və beynəlxalq aləmdən də tələb edirik ki, bu məsələ ədalətli, beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın.

Mən iki gün bundan əvvəl bölgələrə ənənəvi səfər etmişdim, cənub bölgəsində olmuşdum. Mən seçkilərdən əvvəl də cənub bölgəsində oldum. Bir il keçəndən sonra istəyirdim ki, gedən prosesləri özüm öz gözlərimlə müşahidə edim və görülən işlərə baxım. Çox şadam ki, cənub bölgəsində işlər yaxşı gedir. Orada

görülən işlər, xüsusilə yeni iş yerlərinin açılması istiqamətində atılan addımlar məni çox sevindirir.

Burada qeyd olundu ki, Azərbaycanda bütün sahələrdə inkişaf var. Məscidlər, zavodlar, məktəblər, xəstəxanalar tikilir, bir sözlə, Azərbaycan cəmiyyətinin bütün təbəqələri bu inkişafdan fayda görməlidir. Hər bir Azərbaycan vətəndaşı gündəlik həyatında hiss etməlidir ki, onun həyatında müsbət dəyişiklik baş verir.

Əlbəttə, problemlər də çoxdur. Azərbaycanda əhalinin böyük hissəsi, hələ ki, yoxsulluq şəraitində yaşayır. Hələ ki, işsizlik bizim üçün böyük problemdir. Amma o da faktdır ki, son bir il ərzində görülən işlərin nəticəsində müsbət meyllər daha da güclənir. Bu onu göstərir ki, biz düz yoldayıq, düz istiqamətdə irəliləyirik. Görülən bu işlərin əsasında Azərbaycanda həyata keçirilən Heydər Əliyev siyasəti durur. Bu siyasət ölkəmizi 1993-cü ildə xaosdan, anarxiyadan, bəladan, vətəndaş müharibəsindən qurtardı. Bu siyasət Azərbaycanı inkişaf etdirdi, tərəqqi yoluna qoydu. Bu gün bu siyasət bizə imkan verir və gələcəkdə də imkan verəcək ki, zəngin, qüdrətli dövlət yaradaq. Azərbaycan xalqı daha da yaxşı yaşasın, Azərbaycan xalqının rifah halı daha da yaxşılaşsın. Bir sözlə, ölkəmiz həm beynəlxalq müstəvidə, eyni zamanda, ölkə daxilində daha da möhkəmlənsin, xalqımız daha da yaxşı yaşasın.

Xatırlayıram, keçən il şeyx həzrətləri mənə müraciət etdi və dedi, biz Sizi dəvət edirik ki, gələn il də gələsiniz. Əlbəttə, mən də dedim ki, gələcəyəm və bu gün də buradayam. Əminəm ki, indi şeyx həzrətlərindən bir daha dəvət alacağam. Gələn il də gələcəyəm.

Əziz dostlar, mən sizin hamınızı bir daha salamlayıram. Qarşıdan gələn Ramazan bayramı münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

**FƏLƏSTİN MUXTARİYYƏTİNİN MÜVƏQQƏTİ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAUHİ FƏTTUHA**

**FƏLƏSTİNİN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD QUREİYƏ**

**FƏLƏSTİN AZADLIQ TƏŞKİLATI İCRAİYYƏ KOMİTƏSİNİN BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA**

Fələstin Muxtariyyətinin prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri, görkəmli siyasi xadim Yasir Ərəfatın vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bütün həyatını öz doğma xalqının azadlıq ideallarının təntənəsi naminə fədakarcasına mübarizəyə həsr etmiş Yasir Ərəfat böyük vətənpərvər, həqiqi lider kimi, xatirələrdə yaşayacaqdır.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, mərhumun ailəsinə, bütün Fələstin xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin.*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 noyabr 2004-cü il*

## KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi – Azərbaycan vətəndaşlarını, bütün Azərbaycan xalqını Konstitusiya günü münasibətilə ürəkdən təbrik edirəm.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi hər bir azərbaycanlıda, bütün vətəndaşlarımızda qürur və iftixar hissi doğuran böyük hadisədir. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Konstitusiya ən qabaqcıl dünya təcrübəsinə, qanun yaradıcılığı prinsiplərinə, çoxəsrlik dövlətçilik ənənələrimizə əsaslanır, milli və ümumbəşəri dəyərləri üzvi surətdə ehtiva edir.

Əsas Qanunumuzun qəbul edilməsi dövlətçilik tariximizdə yeni bir mərhələ açdı, dövlət quruculuğunda, ictimai-siyasi, iqtisadi və mədəni həyatda dinamik proseslərə güclü təkan verdi. Dünyada ən demokratik konstitusiyalardan biri olan bu sənəd hakimiyyətlərin bölgüsü, insan hüquq və azadlıqlarının prioriteti prinsiplərinə əsaslanır, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaradır, Azərbaycan cəmiyyətində humanizm, milli həmrəylik və tolerantlıq ruhunu təsbit edir. Məmnunluq hissi ilə qeyd etməyi lazım bilirəm ki, Konstitusiyanın üçdə biri insan hüquq və azadlıqlarının təmin olunması ilə bağlı müddəalardan ibarətdir.

Konstitusiyanın qəbul olunmasından sonra keçən illər ərzində o öz həyati gücünü, humanizmini, dinamik bir sənəd olduğunu sübut etmişdir. Əsas Qanunumuzun əhatə etdiyi bütün sahələrdə, xüsusən hüquqi dövlət quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi, insan haqlarının qorunması ilə bağlı əldə olunmuş böyük nailiyyətlər göz qabağındadır. Konstitusiyamızın tələblərinə uyğun olaraq dövlət idarəetmə sistemi daim təkmilləşdirilir, vətəndaş cəmiyyətinin bərqərar olması üçün mü-

hüm addımlar atılır, demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları daha dolğun və real məzmun kəsb edir, insan hüquqlarının müdafiəsinin milli mexanizmləri formalaşır.

Bu gün qarşımızda duran əsas vəzifələrdən biri Konstitusiyamızın təbliği, onun prinsip və müddəalarının vətəndaşlar, xüsusən gənc nəsil tərəfindən dərindən öyrənilməsidir. Konstitusiyaya hamı tərəfindən ardıcıl olaraq və dönmədən əməl olunması, dövlət və cəmiyyət həyatının bütün sahələrinin Əsas Qanunumuzun tələblərinə uyğunlaşdırılması hər birimizin müqəddəs vətəndaşlıq borcudur.

Əziz həmvətənlər!

Əsas dövlət bayramlarımızdan biri olan Konstitusiya günü münasibətilə sizi bir daha ürəkdən təbrik edərək hər birinizə cansağlığı, səadət, dövlətimizin və cəmiyyətimizin inkişafı yolunda yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 noyabr 2004-cü il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMİL LƏHHUDA**

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış dostluq əlaqələri əməkdaşlıq imkanlarımızın genişlənməsinə öz müsbət təsirini göstərəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Livan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 noyabr 2004-cü il*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**

Hörmətli cənab Prezident!

Əlamətdar yubileyiniz – anadan olmağınızın 50 illiyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Dost Polşanın son illərdəki nailiyyətləri Sizin adınızla bağlıdır. Ölkənizin sosial-iqtisadi yüksəlişi, dünya miqyasında nüfuzunun artması, mötəbər beynəlxalq strukturlarda fəal iştirakı qazandığınız uğurlar sırasındadır.

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında ənənəvi dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi, əlaqələrimizin hərtərəfli genişləndirilməsi sahəsində xidmətlərinizi xüsusi qeyd etmək istərdim. Ümidvaram ki, əməkdaşlığımızın bütün səviyyələrdə inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə, hörmətli cənab Prezident, Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, ailə səadəti, dost Polşa xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 noyabr 2004-cü il*

**LATVİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**XANIM VAYRA VİKE-FREYBERQAYA**

Hörmətli xanım Prezident!

Latviya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi- qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Latviya arasındakı münasibətlərin ənənəvi olaraq dostluq və əməkdaşlıq zəminində inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 11 noyabr 2004-cü il*

**OMANIN SULTANI ӘLAHӘZRӘT
QABUS BİN SӘİDӘ**

Әlahәzrәt!

Oman Sultanlığının milli bayramı – Milli Gün münasibәtilә Sizi vә Sizin simanızda dost Oman xalqını şәxsәn öz adımdan vә Azәrbaycan xalqı adından ürәkdәn tәbrik edirәm.

Ümidvaram ki, Azәrbaycan ilә Oman arasındakı dostluq vә әmәkdaşlıq münasibәtlәrinin inkişafı daim xalqlarımızın mәnafelәrinә xidmәt edәcәkdir.

Sizә möhkәm cansağlığı, işlәrinizdә uğurlar, dost Oman xalqına әmin-amanlıq vә rifah arzulayıram.

*Hörmәtlә,*

**İLHAM ӘLİYEV
Azәrbaycan Respublikasının Prezidenti**

Bakı, *11 noyabr 2004-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ NƏQLİYYAT VƏ ENERGETİKA ÜZRƏ BAŞ DİREKTORU FRANSUA LAMURUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 noyabr 2004-cü il*

*Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev Avropa Komissiyasının nümayəndə heyəti ilə görüşdən məmnunluq duyduğunu bildirdi.*

*Prezident İlham Əliyev Avropa Komissiyasının təşəbbüsü ilə Azərbaycanda 11 dövlətin Energetika nazirinin və 14 dövlətin Nəqliyyat nazirinin iştirakı ilə iki konfransın keçirilməsinin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, bu tədbirlərdə müzakirə olunan məsələlər həm Azərbaycan, həm də region üçün xüsusi əhəmiyyət daşıyır.*

*Energetika və nəqliyyat sahələrinin Azərbaycanın gələcək iqtisadi inkişafı üçün əsas istiqamətlərdən biri olduğunu nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, bu sahələrdə ölkəmiz son illər böyük uğurlar əldə etmişdir.*

*Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanda həyata keçirilən, böyük həcmdə xarici sərmayələrin cəlb edildiyi qlobal enerji layihələrinin, o cümlədən ixrac boru kəmərləri layihələrinin gerçəkləşməsi regional əməkdaşlıq baxımından yaxşı nümunə olmaqla bərabər, eyni zamanda, müxtəlif ölkələrin səyləri birləşdirilərkən regional əməkdaşlığın uğurlu nəticələr verdiyini göstərir.*

*Azərbaycanın bu sahədə əldə olunmuş uğurlarla fəxr etdiyini vurğulayan prezident İlham Əliyev dedi ki, ölkəmizdə bu cür mühüm tədbirlərin həyata keçirilməsi həm gündəlikdə duran vacib iqtisadi məsələlərin geniş müzakirə edilməsi üçün imkan yaradır, həm də Azərbaycanda enerji və nəqliyyat infrastrukturunun daha da möhkəmləndirilməsi işinə xidmət edir.*

*Son illər Azərbaycanda nəqliyyat sahəsində, o cümlədən aviasiya, gəmiçilik, dəmir yolu və digər sahələrdə böyük inkişafa nail olunduğunu nəzərə çatdıran dövlətimizin başçısı bildirdi ki, ölkəmiz üçün müasir tipli sərnişin təyyarələrinin, neft tankerlərinin alınması, İpək Yolu üzərindəki avtomobil magistralının yenidən qurulması və sair işlər Azərbaycanda dünya standartlarına uyğun nəqliyyat infrastrukturunun olması üçün yaxşı əsaslar yaradır.*

*Azərbaycan ərazisindən tranzit daşımalar üçün mühüm dəhliz kimi fəal surətdə istifadə olunduğunu vurğulayan prezident İlham Əliyev bu baxımdan ölkəmizin Şərq–Qərb nəqliyyat dəhlizində əhəmiyyətinin gündən-günə artdığını nəzərə çatdırdı. Avropa Birliyi ilə əlaqələrimizin sürətlə inkişaf etməsindən məmnunluqla söhbət açan dövlətimizin başçısı ölkəmizin bu təşkilatın yeni qonşuluq siyasətinin fəal iştirakçılarından birinə çevrildiyini bildirdi.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, ölkəmizin bu siyasətdə fəal iştirakı Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığı çərçivəsində yaxın zamanda yeni konkret layihələrin və proqramların gerçəkləşməsi işinə xidmət edəcəkdir.*

*Dövlətimizin başçısı bildirdi ki, Avropa Birliyinin Azərbaycana, xüsusilə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və torpaqlarımızın işğaldan azad edilməsi məsələsinə diqqətinin artması çox müsbət haldır. Təşkilatın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin edilməsi bunu bir daha sübut edir.*

*Prezident İlham Əliyev dedi ki, Avropa strukturlarına, ümumiyyətlə, Avropa ailəsinə inteqrasiya Azərbaycanın xarici siyasətinin ən prioritet istiqamətlərindən biridir. Bizim ümumi inki-*

*şaf strategiyamız daim bu prinsiplərə əsaslanır. Çox məmnunam ki, ölkəmiz Avropa Komissiyasının təşəbbüsü ilə mühüm tədbirlərin keçirildiyi yer kimi seçilmişdir. Əminəm ki, bu tədbir uğurla başa çatacaq, Azərbaycanın Avropa Komissiyası ilə əməkdaşlığı bundan sonra da inkişaf edəcəkdir.*

*Səmimi qəbula və xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Fransua Lamuru əvvəllər müxtəlif vəzifələrdə çalışarkən prezident Heydər Əliyevlə keçirdiyi çox səmərəli görüşləri böyük məmnunluqla xatırladığını söylədi.*

*Prezident İlham Əliyevin Belçikaya səfəri zamanı Brüsseldə olmadığı üçün dövlətimizin başçısı ilə görüşə bilməməsindən təəssüfləndiyini bildirən qonaq dedi ki, Avropa Komissiyasının təşəbbüsü ilə Bakıda keçirilən tədbirlər öz mahiyyəti baxımından çox əhəmiyyətli hadisələrdir və bu cür tədbirlərin keçirilməsi Avropa Birliyinin Qafqazda və daha geniş məkanda regional əməkdaşlığı möhkəmləndirməsi işinə xidmət edir.*

*Azərbaycan ilə nəqliyyat və energetika sahəsində TRASEKA və İNOQEYT kimi mühüm proqramların həyata keçirildiyini nəzərə çatdıran cənab Fransua Lamuru dedi ki, Avropa Birliyi regionun enerji daşıyıcılarının təhlükəsiz ixracında birbaşa maraqlıdır.*

*Enerji daşıyıcılarının Avropaya ixracının çoxşaxəliliyinin təmin edilməsi baxımından Avropa Birliyinin Azərbaycan ilə əməkdaşlığa xüsusi maraq göstərdiyini vurğulayan qonaq bildirdi ki, Avropa Birliyinin məqsədi regionla uzunmüddətli əməkdaşlığın həyata keçirilməsindən ibarətdir. Bu işdə isə əsas təminatın regionda sabitliyin təmin edilməsindən ibarət olduğunu nəzərə çatdıran cənab Fransua Lamuru Ermənistan–Azərbaycan münaqişəsinin yaxın zamanlarda həll olunacağına böyük ümidlər bəslədiklərini söylədi.*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının müqəddəs Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı və ailə xoşbəxtliyi arzulayıram.

İlahi hikmətlər xəzinəsi olan Qurani-Şərifin insanlara gördərildiyi Ramazan ayı bəşəriyyətin yaddaşında dərin iz qoyan mübarək aylardandır. Bu bayram insanları gözəl niyyətli olmağa, səbirli davranmağa və savab işlər görməyə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır. İslam dünyasının ayrılmaz parçası olan Azərbaycanda da Ramazan ayı günlərində müsəlmanlarımız din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirməyə həmişə hazır olduqlarını nümayiş etdirirlər.

Öz dini-mənəvi dəyərlərinə tarixən həmişə sadiq qalan xalqımız bütün müsəlmanların birlik quyğusunu qoruyub saxlayan mübarək Ramazan bayramını xüsusi təntənə ilə qarşılayır. Ramazan ayının sınaqlarından alnıaçıq çıxmağın böyük fərəhlə qeyd olunduğu bu bayram, eyni zamanda, cəmiyyətdə həmrəylik və qarşılığın təntənəsinə çevrilir, insanların qəlblərində iman gücünü artırır.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini bu müqəddəs bayram günlərində bir daha dərin ehtiramla yad edir, şəhid ailələrinə səbir diləyirəm. Ölkəmizin hüquqlarından kənarda yaşayan soydaşlarımıza Ramazan bayramı münasibətilə ən xoş arzularımı çatdırıram.

Hörmətli həmvətənlər!

Daim yeniləşməkdə olan Azərbaycanımızın daha da çiçəklənməsi naminə apardığınız böyük işlərdə hamınıza uğurlar diləyir, Ulu Tanrıdan bütün saf niyyətlərinizin gerçək olmasını arzu edirəm.

*Ramazan bayramınız mübarək olsun!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 noyabr 2004-cü il*

## RUSİYA İNRAF AGENTLİYİNİN – İTAR-TASS-ın VƏ RUSİYANIN ORT TELEKANALININ BİRGƏ İSTEHSALI OLACAQ «HAKİMİYYƏT FORMULU» FİLMİNİN YARADICI HEYƏTİNİN RƏHBƏRİ, İTAR-TASS-ın BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANA MÜSAHİBƏ

*Bakı, Heydər Əliyev Fondu*

*16 noyabr 2004-cü il*

*Dövlətimizin başçısı İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin genişmiqyaslı fəaliyyətindən ətraflı bəhs etmiş, ölkəmizin gələcəyi, Azərbaycanın dünyaya, Avropa ailəsinə inteqrasiyası, Rusiya ilə münasibətlərin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı mülahizələrini bölüşmüşdür. Azərbaycan prezidenti İlham Əliyev habelə xalqımızın tarixi, adət-ənənələri, mədəniyyəti haqqında sualları da ətraflı cavablandırmışdır.*

*Sonra prezident İlham Əliyev və filmin yaradıcı heyətinin rəhbəri Mixail Qusman Heydər Əliyev Fondunda ümummilli liderimizin həyat və fəaliyyətini, bu dahi şəxsiyyətin dünyanın görkəmli siyasətçiləri və dövlət xadimləri ilə görüşlərini əks etdirən fotoşəkillərə və eksponatlara baxmışlar.*

*Azərbaycan prezidenti İlham Əliyev və Mixail Qusman Heydər Əliyev Fondunun binasının eyvanına çıxaraq Bakının mənzərəsini seyr etmişlər. Dövlətimizin başçısı «Hakimiyyət formulu» filminin yaradıcı heyətinə uğurlar arzuladı və Mixail Qusmana ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotoalbomu hədiyyə etmişdir.*

## AZƏRBAYCAN–TÜRKİYƏ BİZNES FORUMUNDA NİTQ

*Bakı, «Gülüstan sarayı»*

*18 noyabr 2004-cü il*

Hörmətli cənab nazir!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Mən, ilk növbədə, sizin hamınızı ürəkdən salamlayıram, «Azərbaycana xoş gəlmisiniz!» deyirəm.

Türkiyə ilə Azərbaycan arasında olan münasibətlər çox yüksək səviyyədədir. Bu əlaqələr bizim xalqlarımız arasında əsrlər boyu yaşamışdır. Ancaq Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr dövlət səviyyəsinə qalxmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyənin dəstəyini, yardımını hiss etmişik və bu gün də bunu hiss edirik.

Hörmətli cənab nazir qeyd etdi, Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk ölkə Türkiyə olmuşdur. O illərdən bu günə qədər bizim aramızda olan əlaqələr bütün sahələrdə çox uğurla inkişaf edir, güclənir. Bizim ölkələrimiz siyasi müstəvidə bütün məsələlərdə vahid mövqedən çıxış edirlər, Dünya Birliyində bir-birinin mövqeyini müdafiə edirlər. Əlbəttə, birliyimiz bizə imkan verir ki, haqlı mövqeyimizi daha cəsarətlə və açıq şəkildə ortaya qoyaq. Bizi narahat edən problemləri Dünya Birliyinin diqqətinə çatdıraq.

İqtisadi əlaqələr də sürətlə inkişaf edir. Mən son illər ərzində əldə edilmiş nailiyyətləri qeyd etmək istəyirəm. Eyni zamanda, əlbəttə ki, bu iqtisadi əlaqələr bizi qane etmir. Hər iki ölkənin iqtisadi potensialı ildən-ilə güclənir, ölkələrimiz daha da müasirləşir və iqtisadi cəhətdən daha da möhkəm olurlar. Belə olan

halda, ticarət əlaqələrimiz, əlbəttə, bizim real iqtisadi potensialımızı əks etdirmir. Düzdür, mal dövriyyəsində ildən-ilə artım müşahidə olunur və bu çox sevindirici hal onu göstərir ki, bu dinamika müsbət istiqamətdə inkişaf edir. Ancaq eyni zamanda mən hörmətli cənab nazirin fikri ilə tam razıyam ki, aramızda olan ticarət əlaqələrini daha da gücləndirmək üçün bizim gözəl imkanlarımız vardır.

Bütün dövrlərdə bizim aramızda səmimi münasibət, dostluq, qardaşlıq hissləri olmuşdur və bu gün də belədir.

İki ölkə arasında olan əlaqələrin bugünkü yüksək səviyyəyə çatmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fəaliyyəti, onun Türkiyə–Azərbaycan əlaqələrinə verdiyi önəm çox böyük əhəmiyyət kəsb edir. Hələ Heydər Əliyev Naxçıvanın rəhbəri vəzifəsində çalışarkən Türkiyə ilə daim əlaqə saxlamışdır, Türkiyə ilə Naxçıvan arasında o vaxt çox yüksək əlaqələr yaranmışdı. Türkiyə tərəfindən Naxçıvana edilmiş yardımlar Naxçıvanı o çətin, ağır illərdə, demək olar ki, böyük bəladan xilas etdi. Ümid körpüsünün tikintisi də Naxçıvanı Türkiyə ilə bağladı və bu körpü Naxçıvan üçün həyat körpüsünə çevrilmişdi. Biz bu yardımları, bu köməyi heç vaxt unutmayacağıq.

Azərbaycan xalqının təkidi və tələbi ilə 1993-cü ildə Azərbaycana rəhbərliyə gəldikdən sonra Heydər Əliyevin xarici siyasəti birmənalı şəkildə Türkiyə ilə daha da sıx, daha da möhkəm əlaqələrin qurulmasına yönəlmişdir. Bu istiqamətdə çox böyük işlər görülmüşdür. Həm ikitərəfli müstəvidə, həm də regional əməkdaşlıq çərçivəsində bizim ölkələrimizin əlaqələri başqa ölkələr üçün örnək, nümunə ola bilər. Məhz ölkələrimizin müştərək səyi nəticəsində dünyanın ən böyük enerji layihəsi həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla inşa edilir, bütün çətinliklərə, əngəllərə, xaricdən olan təzyiqlərə baxmayaraq, xalqlarımızın iradəsi və rəhbərlərimizin qətiyyəti imkan verib ki, vaxtilə əfsanə kimi təqdim edilən layihə gerçəkliyə çevrilir. Təsadüfi deyil ki, Bakı–Tbilisi–Ceyhan şirkətinin təşəbbüsü ilə bu kəmərə Heydər Əliyevin adı verilmişdir. Çünki Heydər Əliyev bu kəmərin çəkilməsinin təşəbbüskarı idi və de-

mək olar ki, bu kəmər onun əsəridir. Eyni zamanda, Türkiyə tərəfi Ceyhan terminalına da Heydər Əliyevin adını vermişdir. Mən bu münasibətlə də türk qardaşlarımıza öz adımdan bir daha dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bakı–Tbilisi–Ceyhandan sonra bizim aramızda enerji sahəsində daha bir böyük layihə – Bakı–Tbilisi–Ərzurum qaz kəməri vardır. Bu kəmər Azərbaycan qazını həm Türkiyəyə, eyni zamanda, Türkiyə üzərindən digər ölkələrə çatdıracaqdır. Bu qaz kəməri də bizim ölkələrimizi enerji baxımından dünya üçün, ilk növbədə Avropa üçün çox önəmli ölkələr kimi təqdim edəcək, enerji təchizatı baxımından ölkələrimiz Avropa istehlakçıları üçün çox böyük əhəmiyyət kəsb edəcəkdir. Ümid edirəm ki, bu layihə də vaxtında başa çatacaqdır. Beləliklə, bizim həm iqtisadi cəhətdən qüdrətimiz artacaq, həm də siyasi, təhlükəsizlik, regional əməkdaşlıq baxımından ölkələrimiz daha da güclü olacaqdır.

Bütün bunları etmək üçün, çətin, ağır vəziyyətdə etmək üçün, əlbəttə, çox böyük müdriklik, siyasi təcrübə və cəsarət tələb olunurdu. Mən çox şadam ki, Azərbaycanda son illər ərzində aparılmış siyasət, Heydər Əliyev tərəfindən müəyyən olunmuş xətt bu gün də uğurla davam etdirilir, həyata keçirilir. Bütün sahələrdə Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır. O cümlədən Türkiyə–Azərbaycan əlaqələrinin daha da güclənməsi istiqamətində də bu siyasət davam etdirilir.

Mən Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunandan sonra ilk xarici səfərim məhz qardaş Türkiyəyə olmuşdur. Prezident seçkilərindən sonra da Türkiyəyə etdiyim rəsmi səfərim çox uğurlu olmuş, çox önəmli ikitərəfli razılaşmalar, müqavilələr bağlanmışdır. Eyni zamanda, bizim ölkələrimiz arasında olan ənənəvi dostluq, qardaşlıq münasibətləri daha da güclənmişdir. Biz bu siyasətə sadiqik. Heydər Əliyevin şüarı, onun «Türkiyə–Azərbaycan bir millət, iki dövlətdir» kəlamı bu gün də bizim üçün ən əziz, ən mötəbər şüardır. Biz bu siyasətə sadiqik və əminəm ki, qardaş xalqlarımız bundan sonra da daim birlikdə olacaqlar, bir-birinə daim kömək edəcəklər və həmişə çalışacaqlar ki,

Türkiyə və Azərbaycan – iki qardaş ölkə bir-birinə daha da yaxın olsunlar.

Demək istəyirəm ki, iqtisadi baxımdan həm Türkiyə, həm də Azərbaycan çox sürətlə inkişaf edir. Artıq qeyd olundu ki, Azərbaycanda çox önəmli layihələr həyata keçirilir. Eyni zamanda, dövlət tərəfindən qəbul edilmiş sosial-iqtisadi və regional inkişaf proqramlarının həyata keçirilməsi də artıq öz ilkin nəticələrini verməkdədir.

Bir il bundan əvvəl, prezident seçkiləri ərəfəsində biz bəyan etmişdik ki, Azərbaycanda görüləcək tədbirlər nəticəsində beş ildə 600 min yeni iş yeri açılacaqdır. Düzdür, buna şübhə ilə yanaşılırdı, buna inanmırdılar. Bəziləri bizi günahlandırırdı ki, qeyri-real vədlər veririk. Ancaq biz inanırdıq ki, bunu həyata keçirmək üçün real imkanlar var. Birinci ilin nəticələri göstərir ki, biz həqiqətən düz yoldayıq.

Bir il ərzində Azərbaycanda 110 mindən artıq yeni iş yeri açılıbdır ki, onlardan da 70 mini daimi iş yeridir. Qalan hissəsi isə mövsümi iş yeridir. Demək olar ki, Azərbaycanın hər bir bölgəsində iş yerlərinin açılması prioritet məsələyə çevrilibdir. Regionlara etdiyim səfərlər mənə imkan verir ki, orada baş verən hadisələri öz gözümlə görəm. Çox şadam ki, Azərbaycanın hər bir bölgəsində indi böyük canlanma var, işlər görülür. Sahibkarlar daha da qətiyyətlə, cəsarətlə işləyirlər.

Azərbaycanda sahibkarlara çox gözəl münasibət var. Mən özəl sektorun nümayəndələri ilə dəfələrlə görüşlər keçirmişəm, onları dəstəkləmişəm və istəyirəm hamı bilsin ki, bu dəstək var və bundan sonra da olacaqdır. Azərbaycanın inkişafı bu istiqamətdə olmalıdır. Azərbaycan bazar iqtisadiyyatı prinsiplərinə sadiqdir və bu gün Azərbaycanda ümumi daxili məhsulda özəl sektorun payı 74 faiz təşkil edir. Baxmayaraq ki, Azərbaycanın əsas sahəsi neft sektorudur və o, dövlətin inhisarındadır. Yəni bu onu göstərir ki, Azərbaycanda özəl sektorun inkişafı çox sürətlə gedir və biz Azərbaycanın iqtisadi gələcəyini məhz bu istiqamətdə görürük. Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranır. Bizim

məqsədimiz ondadır – güclü orta sinif yaransın, Azərbaycan sahibkarları güclənsinlər.

Əlbəttə, biz xarici sərmayəyə də böyük önəm veririk. Bu baxımdan da çox məmnunluq hissi ilə deyə bilərəm ki, adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan bölgədə lider dövlətdir. Azərbaycanda xarici sərmayələrin qoyuluşu üçün çox gözəl şərait yaradılmışdır. Sərmayəçilər özlərini çox rahat hiss edirlər və xarici sərmayə dövlət tərəfindən lazımi səviyyədə qorunur. Azərbaycana son illər ərzində bütün mənbələrdən 20 milyard dollardan artıq vəsait qoyulmuşdur.

Amma, eyni zamanda, biz maraqlıyıq ki, Azərbaycanda yerli sahibkarlar daha böyük həcmdə sərmayə qoysunlar, bizim öz iş adamlarımız daha da güclənsinlər. Bunun üçün, lazımi məqsədə çatmaq üçün müvafiq tədbirlər görülür. Dövlət tərəfindən sahibkarlara ayrılan kreditlərin həcmi ildən-ilə çoxalır və gələn il bu məbləğ iki dəfə artacaqdır. Yəni özəl sektora diqqət daim olmuşdur və bundan sonra da olacaqdır.

Əlbəttə, biz çox istəyirik ki, Türkiyə–Azərbaycan iqtisadi əlaqələri iki ölkə arasında olan siyasi əlaqələrin səviyyəsinə çatsın. Bunu etmək üçün, əlbəttə, dövlət, hökumət öz üzərinə düşən funksiyaları, vəzifələri yerinə yetirəcəkdir. Ancaq eyni zamanda iş adamlarının özlərindən də çox şey asılıdır. Mən ümid edirəm ki, bugünkü görüş, toplantı bu istiqamətdə çox güclü təkan olacaqdır. Bizim iş adamlarımız bir-birilə daha sıx əlaqədə, ünsiyyətdə olacaqlar və Türkiyədən gəlmiş iş adamları Azərbaycanda daha da fəallaşacaq, yaxud da hələ ki, fəaliyyət göstərməyən iş adamları gəlib Azərbaycanda işləyəcəklər.

Azərbaycanda iş görmək üçün bu gün çox gözəl şərait vardır və bundan sonra da olacaqdır. Azərbaycan bütün mənbələrdən sərmayələri daha da fəal şəkildə cəlb edəcəkdir. Dövlət tərəfindən investisiya Proqramı təsdiq olunacaq və burada artıq qeyd edildi ki, Azərbaycana yalnız dövlət xətti ilə və dövlət tərəfindən alınan kreditlərin xətti ilə yüz milyonlarla dollar həcmində sərmayələr qoyulacaqdır.Əgər biz bütün başqa sərmayələri də nəzərə alsaq, görərik ki, gələcəkdə Azərbaycana milyardlarla dollar sər-

mayə qoyulacaqdır. Məndə olan məlumata görə, Azərbaycana bu il 3 milyard dollardan artıq vəsait qoyulubdur. Bu bir daha onu göstərir ki, Azərbaycan sərmayə qoyulması üçün çox əlverişli yerdir.

Azərbaycanda ictimai-siyasi sabitlik davam edir. Ölkədə asayiş mövcuddur. Azərbaycan cəmiyyəti yekdil fikirdədir. Bizim hamımızın məqsədi budur ki, ölkəmizi gücləndirək, müasirləşdirək, zəngin iqtisadiyyat yaradaq ki, xalqımız da yaxşı yaşasın. Hesab edirəm ki, son illər ərzində ölkədə sosial sahədə görülən işlər də təqdirəlayiqdir. Maaşlar, pensiyalar, əhaliyə çatan digər ödəmələr ildən-ilə artır. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.

Əziz dostlar!

Bir sözlə, mən ümid edirəm ki, bizim aramızda, habelə iş adamlarının arasında olan əlaqələr bundan sonra daha da güclənəcək və biz qarşımıza qoyduğumuz məqsədi, yəni mal dövriyyəsini bir milyard dollara çatdırmaq istəyimizi həyata keçirəcəyik. Mən də hörmətli cənab nazirlə razıyam ki, biz gərək bundan sonra da dayanmayaq, səylərimizi davam etdirək ki, aramızda olan iqtisadi əlaqələr daha da güclənsin.

Biz istəyirik ki, Türkiyə daha da güclü olsun. Türkiyə də istəyir ki, Azərbaycan daha da güclü olsun. Mən Türkiyədə olarkən dediyim sözlərə bir daha qayıtmaq istəyirəm: həqiqətən, bizim gücümüz birliyimizdədir. Gənc, müstəqil bir dövlət kimi, Azərbaycanın müstəqilliyinin ilk illərində, əlbəttə, müəyyən fərziyyələr var idi, müəyyən ümidlər var idi, amma vaxt keçdikcə, Azərbaycan dünyaya daha da sıx inteqrasiya olunduqca, biz açıq-aydın görürük ki, xoşbəxtliyimiz, gələcəyimiz bizim öz əlimizdədir. Biz gərək bir-birimizə dayaq olaq. Biz öz gücümüzə istinad edib, birgə fəaliyyətimizlə bir-birimizi zənginləşdirməliyik.

Azərbaycan bu baxımdan Türkiyə üçün və Türkiyə də Azərbaycan üçün bir nömrəli tərəfdaşdır, bir nömrəli dostdur, bir nömrəli qardaşdır. Mən sizi bir daha ürəkdən salamlayıram və hamınıza uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun.

## RUSİYA FEDERASİYASI TİBB ELMLƏRİ AKADEMİYASI ONKOLOGİYA ELMİ MƏRKƏZİNİN BAŞ DİREKTORU MİXAİL DAVIDOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev Rusiyanın Onkologiya Elmi Mərkəzi ilə Azərbaycan Elmi Onkoloji Mərkəzi arasında əməkdaşlığın daha da möhkəmlənməsindən məmnun qaldığını bildirdi. Prezident İlham Əliyev dedi ki, Azərbaycan Elmi Onkoloji Mərkəzində işləyənlərin bir çoxu vaxtilə Rusiya Onkologiya Elmi Mərkəzində çalışmışdır. Fərəhli haldır ki, Moskvada həmin mərkəzdə hazırda da azərbaycanlı mütəxəssislər fəaliyyət göstərir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ölkələrimizin onkoloji mərkəzləri arasında bu əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcəkdir.*

*Vaxt tapıb onu qəbul etdiyinə və xoş sözlərə görə minnətdarlığını bildirən Mixail Davıdov Bakıya səfəri zamanı ilk növbədə Fəxri xiyabana gedərək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini söylədi. Ulu öndərimizin məzarı ətrafında aparılmış abadlıq işlərinə heyran olduğunu vurğulayan qonaq qəbirüstü abidənin dahi şəxsiyyətin adına layiq yaradıldığını bildirdi.*

*Xalqımızın ümummilli liderinin Azərbaycanın tarixində misilsiz rol oynayan bir şəxsiyyət olduğunu vurğulayan cənab Mixail Davıdov dedi ki, prezident Heydər Əliyev bütün ömrünü doğma xalqının firavanlığı və xoşbəxtliyinə həsr etmişdir.*

*Bakıda Heydər Əliyev Fondunu da ziyarət etdiyini nəzərə çatdıran qonaq orada Azərbaycan xalqının ümummilli liderinin*

həyat və fəaliyyətinin müxtəlif sahələrini əks etdirən fotoşəkillərlə, eksponatlarla böyük maraqla tanış olduğunu söylədi.

Azərbaycanın və Rusiyanın onkologiya mərkəzləri arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan Mixail Davıdov rəhbərlik etdiyi mərkəzdə hazırda azərbaycanlı mütəxəssislərin yüksək səviyyədə çalışdıqlarını və təhsil aldıqlarını bildirdi.

Görüşdə MDB-nin üzvü olan ölkələrin onkoloqlarının IV qurultayının Bakıda keçirilməsi məsələsi də müzakirə olundu.

## TÜRKİYƏNİN İQTİSADİYYAT ÜZRƏ DÖVLƏT NAZİRİ GÜRŞAD TÜZMƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev ölkələrimizin iş adamları arasındakı səmərəli əməkdaşlıqdan məmnun qaldığını bildirərək dedi ki, biz bu əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu cür əməkdaşlıq Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə xidmət göstərir, iqtisadi əlaqələrimizin durmadan möhkəmləndirilməsinə öz töhfəsini verir.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimiz bundan sonra daha da inkişaf edəcəkdir. Bunun üçün hər bir şərait var, Azərbaycan və Türkiyə rəhbərliyinin siyasi iradəsi mövcuddur. İqtisadi potensialımız da buna tam imkan yaradır, eyni zamanda, iki ölkəni birləşdirən dostluq və qardaşlıq əlaqələri də bunun üçün böyük əsas yaradır.*

*Türkiyəyə son rəsmi səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı dedi ki, səfərdən sonra keçən dövr ərzində ölkələrimiz arasında bütün sahələrdə əlaqələr daha sürətlə inkişaf etməyə başlamışdır.*

*Ənənəvi dostluq və qardaşlıq münasibətlərimizin durmadan inkişaf etməsini yüksək dəyərləndirən, cənab Gürşad Tüzməni Azərbaycanda görməkdən şad olduğunu vurğulayan prezident*

İlham Əliyev onunla Ankarada keçirdiyi görüşü məmnunluqla xatırlatdı.

Dövlətimizin başçısı Azərbaycan–Türkiyə hökumətlərarası komissiyasının uğurla fəaliyyət göstərdiyini nəzərə çatdırdı.

Ölkəmizin böyük siyasi, iqtisadi inkişafı yolunda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin böyük əngəl törətdiyini vurğulayan dövlətimizin başçısı bu münaqişə ilə bağlı Türkiyə dövlətinə, hökumətinə və xalqına daim Azərbaycanın yanında olmasına görə minnətdarlıq etdi və bunun ölkəmiz üçün çox önəmli olduğunu bildirdi. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyinin yalnız və yalnız beynəlxalq hüquq normaları, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında ədalətli şəkildə həllindən ibarət olduğunu vurğuladı.

Dövlətimizin başçısı dedi ki, biz heç kimin torpağını işğal etməmişik, heç kimin torpağına təcavüz etməmişik. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz beynəlxalq aləmdən, xüsusilə bu münaqişə ilə bilavasitə məşğul olan qurumlardan tələb edirik ki, münaqişənin həllinə ədalətlə yanaşsınlar, ikili standartlara son qoyulsun.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, torpaqlarımız işğaldan azad olunacaq və insanlarımız öz doğma yurdlarına qayıdacaqlar.

Dövlətimizin başçısı İlham Əliyev səmimi salamlarını Türkiyə prezidenti Əhməd Necdət Sezərə, Baş nazir Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi və Türkiyəyə rəsmi səfəri zamanı ona göstərilən böyük diqqət və qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi.

Vaxt tapıb onları qəbul etdiyinə və xoş sözlərə görə dərin minnətdarlığını bildirən cənab Gürşad Tüzmən özlərini vətəndəki kimi hiss etdiklərini söylədi. O bildirdi ki, Bakıda keçirilən Azərbaycan–Türkiyə biznes forumu başa çatdıqdan dərhal son-

*ra Türkiyənin iş adamları konkret iqtisadi layihələrin həyata keçirilməsi üzərində çalışmağa başlayacaq.*

*Prezident İlham Əliyevin Azərbaycan–Türkiyə biznes forumundakı nitqində qarşıya qoyduğu vəzifələri yüksək dəyərləndirən qonaq dedi ki, biz ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması, iqtisadi əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində səylərimizi əsirgəməyəcəyik.*

*Ölkələrimizdən keçən tarixi İpək Yolunun yaxın zamanlarda enerji dəhlizi səviyyəsində də fəaliyyət göstərəcəyinə əmin olduğunu söyləyən dövlət naziri dedi ki, bütün bu işlərdə biz Azərbaycan prezidentinin iş adamlarına göstərdiyi dəstəyi yüksək qiymətləndiririk. İqtisadiyyatın bütün sahələrində əlaqələrimizin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu söyləyən qonaq prezident İlham Əliyevin təsdiq etdiyi iqtisadi proqramların və imzaladığı fərmanların, sərəncamların Azərbaycanın yaxın zamanlarda daha böyük iqtisadi inkişafına imkan verəcəyinə əminlik yaratdığını nəzərə çatdırdı. O dedi ki, Türkiyə Azərbaycanın bu inkişaf prosesində yaxından iştirak etməyə daim səy göstərəcəkdir. Türkiyənin burada çalışan digər iş adamları kimi, nümayəndə heyətinin tərkibində Bakıya gələn 120 iş adamı da bu prosesin gələcəyinə nikbinliklə baxır. Biz Azərbaycan iqtisadiyyatına sərmayə qoyulmasının daha da artırılacağına əminik.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri kimi qlobal layihələrin ölkələrimiz arasındakı strateji əməkdaşlığın bariz nümunəsi olduğunu bildirən qonaq dedi ki, prezident İlham Əliyevin daim türk iş adamlarının yanında olması iqtisadi layihələrin daha uğurla həyata keçirilməsində onlara böyük güc verir.*

*Avropa Birliyinin qonşuluq siyasətində Azərbaycanın fəal iştirak etdiyini vurğulayan nazir dedi ki, Türkiyənin Avropa Birliyi ilə əlaqələrinin sürətlə inkişaf etməsi ölkələrimizin bu beynəlxalq təşkilat çərçivəsində əməkdaşlığının daha da genişləndirilməsi üçün böyük perspektivlər açır.*

*Prezident İlham Əliyevin Türkiyəyə səfəri zamanı imzalanmış müqavilələrdə nəzərdə tutulmuş məsələlərin həyata keçirilməsi sahəsində görülən işlərdən bəhs edən qonaq Qars–Tbilisi və Samsun–Batumi dəmir yol xətti layihələrinin gerçəkləşdirilməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı. Cənab Gürşad Tüzmən dedi ki, ölkələrimiz arasında neft və qaz boru kəmərlərinin çəkilməsi də Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsinin qısa zamanda yüksək həddə çatdırılması üçün böyük imkanlar yaradacaqdır.*

*Qonaq bildirdi ki, prezident İlham Əliyevin sosial və iqtisadi sahələrdə islahatların uğurla aparılması ilə bağlı gördüyü işlər Azərbaycanda bir-birinin ardınca yeni mühüm layihələrin həyata keçirilməsinə imkan verir. Bu da öz növbəsində, Türkiyə iş adamlarının həmin istiqamətdə fəaliyyəti üçün yaxşı şərait yaradır.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bildirən qonaq dedi ki, biz bu münaqişənin tezliklə ədalətli şəkildə həll edilməsini arzulayırıq. Bununla bağlı Türkiyə Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyəcəkdir.*

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MÜAVİYƏ ULD SİDİ ƏHMƏD TƏYYAYA**

Hörmətli cənab Prezident!

Mavritaniya İslam Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mavritaniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2004-cü il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALFRED MOİSİUYA**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi- qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Albaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2004-cü il*

## BOSNİYA – HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ
## ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN TİHİÇƏ

Hörmətli cənab Sədr!

Bosniya – Herseqovinanın milli bayramı – Bosniya və Herseqovinanın yaradılması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bosniya və Herseqovina arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bosniya – Herseqovina xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2004-cü il*

## ƏFSANƏVİ NEFT DAŞLARININ 55 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*Neft Daşları*

*22 noyabr 2004-cü il*

*1949-cu il noyabrın 7-də Xəzər dənizinin Azərbaycan sektorunda – Qara daşlarda qazılmış ilk quyu fontan vurmuşdur. Bununla da dünya neft sənayesinin tarixində nadir hadisə olan dənizdən neft hasilatı erasının əsası qoyulmuşdur. Azərbaycanın dünyada neft sənayesinin beşiyi olması heç də təsadüfi deyil, əksinə, qədim neft diyarında neft elminin güclü inkişaf etməsinin, burada peşəkar neftçi mütəxəssislər ordusunun yetişməsinin ifadəsidir.*

*Neft Daşları texniki intellektin və titanik əməyin vəhdətidir. Biz bu gün böyük qürur hissi keçiririk ki, adı dünya neft sənayesinin tarixinə qızıl hərflərlə yazılmış Azərbaycan bu gün də öz şöhrətini yüksəltməkdədir.*

*150 ildən artıq tarixi olan, müxtəlif inkişaf mərhələlərindən keçmiş Azərbaycan neft sənayesi ən yüksək inkişaf dövrünü ümummilli liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə yaşamışdır. 1970-ci illərdə Azərbaycanda neft sənayesinin inkişafını sürətləndirmək məqsədi ilə görülən işlər – maddi-texniki bazanın gücləndirilməsi, bu sahəyə diqqətin artırılması, Xəzərdə kəşfiyyat-qazma işlərinin genişləndirilməsi, kapital qoyuluşunun artırılması ulu öndərimizin xalqımız qarşısında misilsiz xidmətləridir.*

*Dünyanın səkkizinci möcüzəsi adlandırılan Neft Daşlarının 55 illiyi münasibətilə əfsanəvi dəniz şəhərində yubiley mərasimi keçirilmişdir.*

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev təntənələrdə iştirak etmək üçün Neft Daşlarına gəldi. Dövlətimizin başçısı burada böyük hörmət və ehtiramla qarşılandı.

Prezident İlham Əliyev əvvəlcə müasir Azərbaycanın qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan parka gəldi. Dövlətimizin başçısı ulu öndərimizin burada ucaldılmış büstünün üzərindən ağ örtüyü götürdü, müəllifi Xalq rəssamı, akademik Ömər Eldarov olan abidənin önünə gül dəstəsi qoydu. Respublikamızın rəhbəri burada Neft Daşlarının əməkçiləri, o cümlədən veteran neftçilərlə səmimi görüşdü, onları bayram münasibətilə təbrik etdi.

Prezident İlham Əliyev 1957-ci il noyabrın 21-də Xəzərdə fırtına zamanı həlak olmuş qəhrəman neftçilərin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək gül dəstəsi qoydu, onların əziz xatirəsini ehtiramla yad etdi. Daha sonra 55 il əvvəl açıq dənizdə ilk neft fontanı vurmuş quyunun önündə mərasim iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

Azərbaycan prezidenti İlham Əliyev qaz kompressor stansiyasında «Çıraq» yatağından çıxarılan qazın təmizlənməsi prosesi ilə tanış oldu, «28 May» Neft və Qazçıxarma İdarəsinin işçiləri üçün tikilmiş evlərə baxdı, tibb məntəqəsi, yeməkxana və fəhlələrin məişət şəraiti ilə maraqlandı. Sonra aşağı təzyiqli qazın sıxılaraq quyulara vuran 4 nömrəli kompressor stansiyasında, Neft Daşlarındakı obyektləri, yaşayış binalarını həm istilik, həm də elektrik enerjisi ilə təmin edən qaz-turbin stansiyasında oldu. Dövlətimizin başçısı «Günəşli» yatağından çıxarılan alçaq və yüksək təzyiqli qazın yığımı və nəqli sistemi, Azneft İstehsalat Birliyi üzrə gözlənilən qaz hasilatının dinamikası, «Günəşli» yatağında 2004–2010-cu illər üzrə qaz hasilatının proqnozu cədvəlləri ilə də tanış oldu.

**Yavər Camalov** (*Azneft İstehsalat Birliyinin Baş direktoru*): Cənab Prezident! «Günəşli» yatağında qaz hasilatının artırılması ilə bağlı problemlər barədə məlumat verərək bildirmək istəyirəm ki, 22 quyu qazılması nəzərdə tutulmuşdur. Lakin onlardan çıxarılacaq qazı sahilə nəql etmək üçün yeni bo-

ru kəməri çəkilməlidir. Eyni zamanda hazırda «Günəşli» yatağından çıxarılan 1,3 milyon kubmetr qaz havaya buraxılır. Ona görə də 4 nömrəli özüldə kompressor stansiyası tikmək fikrimiz var. Bunun üçün 64 milyon dollar lazımdır.

**İ l h a m Ə l i y e v:** Nəticə nə olacaqdır?

**Y a v ə r C a m a l o v:** Cənab Prezident, nəticədə qaz hasilatı 3,5 milyard kubmetr artırılacaqdır.

**İ l h a m Ə l i y e v:** İldə?!

**Y a v ə r C a m a l o v:** Xeyr, 2010-cu ilə qədər.

**X o ş b ə x t Y u s i f z a d ə** (*ARDNŞ-in birinci vitse-prezidenti*): Cənab Prezident, tədricən, quyular qazıldıqca artırılacaqdır.

**İ l h a m Ə l i y e v:** Onda qaz hasilatı ildə nə qədər artacaqdır?

**Y a v ə r C a m a l o v:** İldə təqribən 400–500 milyon kubmetr artacaqdır.

**İ l h a m Ə l i y e v:** Bu da böyük artımdır.

**X o ş b ə x t Y u s i f z a d ə:** Bəli, böyük rəqəmdir.

**Y a v ə r C a m a l o v:** Sizin razılığınız gərəkdir ki, lazım olan vəsait ayrılsın.

**N a t i q Ə l i y e v** (*ARDNŞ-in prezidenti*): Cənab Prezident, biz həm də etibarlı bir sistem yaradırıq.

**İ l h a m Ə l i y e v:** Dünyada neftin qiyməti də yaxşıdır, Dövlət Neft Şirkətinin də imkanları artır, indi onun müxtəlif layihələri var – yeni quyuların qazılması və sair.

**N a t i q Ə l i y e v:** Cənab Prezident, bu ən mühüm layihələrdən biridir. Yəni bunlar olmasa, quyuların qazılması da əhəmiyyətsizdir. Biz bunları yaratmalıyıq.

**İ l h a m Ə l i y e v:** Misal üçün, biz gələn il bu işə başlasaq, ilin sonuna qədər başa çatdıracağıq və 2006-cı ildə artım olacaqdır?

**Y a v ə r C a m a l o v:** Bəli.

**N a t i q Ə l i y e v:** Biz bu barədə layihə hazırlamışıq. Onun üzərində işləyəcəyik.

**İ l h a m Ə l i y e v:** Onun maliyyə sxemini də hazırlayın.

**Y a v ə r C a m a l o v:** Cənab Prezident, ikinci problem Neft Daşları yatağının perspektivi məsələsidir. Hazırda burada 8 özül tikilməsini və yeni quyular qazmağı nəzərdə tutmuşuq. Onun hesabına neft hasilatını 821 min tondan 1,2 milyon tona çatdıracağıq.

**İ l h a m Ə l i y e v:** Nə vaxtdan?

**Y a v ə r C a m a l o v:** Hazırda 18 və 87 nömrəli özüllərin tikintisinə başlanıb və 2005-ci ildə qurtarmalıyıq. Onların smeta dəyəri 358 milyard manatdır və artıq 190 milyard manatlıq iş görülübdür. Bizə ancaq tikintiyə təqribən 38 milyon dollar vəsait lazımdır.

**İ l h a m Ə l i y e v:** Siz 38 milyon dollarla hasilatı 400 min ton artıracaqsınız.

**Y a v ə r C a m a l o v:** Bəli. 2006-cı ildə də iki platforma tikməliyik. Ümumilikdə, 8 platformanın tikintisinə 75 milyon dollar vəsait lazımdır.

**X o ş b ə x t Y u s i f z a d ə:** Bu işlər görülməsə, çətin olar. Bu platformalar həm neft hasilatının azalmasının qarşısını alacaq, həm də müəyyən qədər artıma gətirib çıxaracaqdır.

**İ l h a m Ə l i y e v:** Onda bunu da nəzərə alın, təklif verin, hamısını kompleks həll edək. Təxminən neft-qaz bir yerdə 100 milyon dollar kifayət edər.

Daha sonra prezident İlham Əliyev Neft Daşları Muzeyinə gələrək dəniz şəhərinin tarixini, keçmiş Sovet İttifaqı rəhbərlərinin, xarici qonaqların, alimlərin, xarici və yerli incəsənət ustalarının səfərlərini, tanınmış neftçilərin iştirakı ilə keçirilən mərasimləri, ümummilli liderimiz Heydər Əliyevin Neft Daşlarına səfərlərini, neftçilərə diqqət və qayğısını əks etdirən fotoşəkillərə baxdı.

**Prezident İlham Əliyevin muzeyin fəxri qonaqlar kitabına yazdığı ürək sözləri:**

*«55 il bundan əvvəl Neft Daşlarında dünyada ilk dəfə olaraq dənizdən neft çıxarıldı. Bu gün də Azərbaycan neftçiləri öz qəhrəmanlıq epopeyasını şərəflə davam etdirirlər.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin neft strategiyası uğurla həyata keçirilir. Dənizdə çalışan neftçilər Azərbaycanın iqtisadi potensialının güclənməsinə öz dəyərli töhfələrini verirlər. Bütün neftçilərə cansağlığı, xoşbəxtlik, yeni qələbələr arzulayıram.*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*22 noyabr 2004-cü il»*

* * *

*Dövlətimizin başçısı İlham Əliyev dəniz neftçilərinin yaşaması üçün 1949-cu il martın 3-də tikilmiş ilk evə baxdı, hazırda burada çalışan neftçilər üçün tikilmiş yataqxanaya baş çəkdi. Prezidentə məlumat verildi ki, hər cür şəraiti olan bu yataqxana 373 nəfərlikdir və 144 otağı vardır. Doqquzmərtəbəli binanın səkkiz mərtəbəsi neftçilər üçündür. Birinci mərtəbə isə yerli və xarici qonaqlar, tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev Neft Daşlarının mədəniyyət evinə gəldi. Burada şəhid olmuş neftçilərin şəkillərindən ibarət guşəyə baxdı, onların ruhuna dərin ehtiramını bildirdi.*

## NEFT DAŞLARININ 55-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*Neft Daşları*

*22 noyabr 2004-cü il*

Əziz neftçilər!
Əziz dostlar!
Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı Neft Daşlarının 55-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram.

Bu doğrudan da böyük, əlamətdar və tarixi hadisədir. 55 il bundan əvvəl dünyada ilk dəfə olaraq açıq dənizdən neft çıxarıldı. Əlbəttə ki, hər bir Azərbaycan vətəndaşı bu şanlı tarixi çox yaxşı bilir və haqlı olaraq qürur hissi keçirir. Xəzərdə neftin olması hələ qədim zamanlardan bəlli idi. Hələ XIX əsrdə burada neft yataqlarını kəşf etmək üçün müəyyən işlər aparılmışdır, alimlər işləmişlər. XX əsrdə artıq bu məsələyə daha ciddi yanaşma müşahidə olunurdu. Geoloqlar fəal işləyirdi, ekspedisiyalar təşkil edilmişdi. Nəhayət, 1949-cu ildə ilk neft fontan vurdu. Həmin gündən indiyə qədər Azərbaycanda neft sənayesi və əlbəttə ki, dənizdən neftin çıxarılması prosesləri çox sürətlə getdi və bu gün Azərbaycan dünyada neft ölkəsi kimi tanınır.

Neftin vətəni məhz Azərbaycandır. Bildiyiniz kimi, həm quruda, həm də dənizdə ilk neft Azərbaycanda tənəkə üsulu ilə hasil edilmişdir. Dəniz neftçiləri isə xüsusi, fəal bir təbəqədir. Azərbaycanda dəniz neftçilərinə, ümumiyyətlə, neftçilərə bütün zamanlarda böyük hörmət var idi, məhəbbət var idi. Bu gün də belədir. Bu, ən çətin, ən şərəfli peşədir. Mən çox şadam ki, mü-

asir Azərbaycanda da neftçilərə çox gözəl münasibət var, çox böyük hörmət var. Siz, həqiqətən, bu hörmətə layiqsiniz. Sizin əməyiniz, işiniz əsl mənada qəhrəmanlıqdır.

Azərbaycan müstəqil dövlət kimi, öz neft potensialını çox uğurla işə salıbdır. Amma, əlbəttə ki, 1949-cu ildən sonra əməli-praktiki tədbirlər görülməsəydi, Xəzərdə yataqların genişmiqyaslı işlənilməsi başlanmasaydı və müvafiq infrastruktur yaranmasaydı, müasir dövrdə Azərbaycanda neft yataqlarında işləmək daha da çətin olardı. Xüsusilə 1970-ci illərdə görülən işlərin nəticəsində ölkəmizdə həmin dövr üçün müasir infrastruktur yaranmışdır və o bü gün də Azərbaycana xidmət edir. Əgər biz 1970-ci illərdə yaradılmış müəssisələri nəzərdən keçirsək görərik ki, həm neft emalı sahəsində, böyük neft infrastrukturu istiqamətində, Neft Daşlarında və dənizdə yerləşən digər yataqlarda görülən işlərin nəticəsində Azərbaycanda həm güclü potensial, həm də infrastruktur yarandı. Məhz o illərdə bu gün ölkəmizin gələcəyi üçün işləyən qazma qurğuları, platformalar və digər vacib obyektlər yaranmışdır. Əlbəttə ki, bütün bu görülən işlərin səbəbkarı və təşəbbüskarı xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Bu bir daha göstərir ki, – mən bunu artıq bir neçə dəfə qeyd etmişdim və bu gün də demək istəyirəm – ictimai-siyasi quruluşdan asılı olmayaraq, əgər rəhbər öz xalqını sevirsə, əgər xalqın gələcəyi üçün fədakarcasına işləyirsə, o rəhbər bütün şəraitlərdə öz xalqına xeyir gətirəcəkdir. Heydər Əliyevin həyat və fəaliyyəti bunu bir daha təsdiq edir. Bütün dövrlərdə – 1970-ci illərdə Azərbaycan Sovet İttifaqının bir hissəsi kimi yaşayanda da, Azərbaycan müstəqil dövlət kimi yaşayanda da Heydər Əliyevin fəaliyyəti xalqa xidmət etməkdən, xalqına, öz doğma torpağına xeyir gətirməkdən ibarət idi. Bu gün müasir Azərbaycan Heydər Əliyevin əsəridir.

Biz 1990-cı illərin əvvəlini də çox yaxşı xatırlayırıq. O dövrdə Azərbaycanda təkcə neft sənayesində deyil, bütün başqa sahələrdə də çox ağır böhran yaşanırdı. Əlbəttə ki, neft sənayesində, neft sektorunda yaşanan böhran ən böyük təhlükə mənbəyi idi. Çünki o vaxt da, bu gün də, gələcəkdə də Azərbaycanın

iqtisadiyyatı neft amili üstündə fəaliyyət göstərir və hələ uzun illər ərzində neft amili Azərbaycanın iqtisadiyyatı, təkcə iqtisadiyyatı deyil, ümumiyyətlə, gələcəyi üçün çox mühüm rol oynayacaqdır. Bu reallıqdır və hesab edirəm ki, görülən işlər və atılan addımlar, xüsusilə neft sektorunda atılan addımlar Azərbaycanın bu günü və gələcəyi üçün çox müstəsna əhəmiyyət kəsb edir. Əgər 1994-cü ildə, çətin dövrdə, həm iqtisadi, həm də siyasi cəhətdən çox ağır dövrdə bütün təzyiqlərə və hədə-qorxulara baxmayaraq, Heydər Əliyevin təşəbbüsü ilə «Əsrin müqaviləsi» imzalanmasaydı, bu gün Azərbaycanda nəinki neft sektorunda, ümumiyyətlə, iqtisadi sahədə inkişafdan söhbət gedə bilməzdi.

Azərbaycan çox riskli bir yer idi. Azərbaycana sərmayə qoymaq istəyən şirkətlərin sayı çox az idi və Azərbaycan çox çətin vəziyyətdə qalmışdı: bir tərəfdən, iqtisadi böhran, digər tərəfdən, torpaqlarımızın işğal olunması, vətəndaş qarşıdurması. Bu şəraitdə xarici sərmayəçiləri inandırmaq, onları cəlb etmək, Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq yalnız və yalnız Heydər Əliyevin fəaliyyətinin nəticəsində mümkün oldu.

Çox şadam ki, bu ənənə, bu meyllər bu gün də davam edir. «Əsrin müqaviləsi»nin imzalanmasından 10 il keçir. Bu 10 il ərzində ölkəmiz daha da güclənib, ölkə iqtisadiyyatı inkişaf edib, ölkədə böyük sosial məsələlər öz həllini tapır. Azərbaycan dünyada çox möhkəm yerini tuta bilmişdir və Azərbaycan dünyada çox etibarlı, ciddi tərəfdaş kimi tanınır. Əgər belə olmasaydı, əgər Azərbaycanın bu gününə və sabahına inam olmasaydı, əlbəttə ki, Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulmazdı. Bu sərmayələr, görülən bu işlər bizə imkan verir ki, həm neft sektorunu, eyni zamanda, iqtisadiyyatın digər sahələrini də inkişaf etdirək. Çünki hamımız yaxşı bilirik və dünya təcrübəsi də bunu təsdiq edir ki, neft sektoruna yatırılmış hər bir dollar başqa sahələrə də cəlb edilir.

Azərbaycan bu gün təkcə regionda deyil, dünyada ən dinamik, ən sürətlə inkişaf edən ölkələrdən biridir. İnkişaf sürətinə görə biz, haqlı olaraq, bu liderliyi saxlayırıq. Azərbaycanda

dünyanın ən nəhəng enerji layihələri həyata keçirilir. Halbuki bu layihələr o zaman bəziləri tərəfindən inamsızlıqla və istehza ilə qarşılanırdı. Bu gün bu reallıqdır, həqiqətdir. Bu həqiqət isə boş yerdə yaranmayıbdır. Bəziləri tərəfindən əfsanə kimi təqdim olunan Bakı–Tbilisi–Ceyhan neft kəməri Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində bu gün reallığa çevrilibdir. Bu, Azərbaycan üçün, ölkəmizin gələcəyi üçün, iqtisadiyyatı üçün və Azərbaycanın mövqeyinin dünyada möhkəmlənməsi üçün çox böyük əhəmiyyət kəsb edən məsələdir. Yenə də deyirəm, dünyanın ən böyük enerji layihəsi həyata keçirilir və Azərbaycan da öz üzərinə düşən bütün vəzifələri çox şərəflə yerinə yetirir, bütün öhdəliklərini, o cümlədən maliyyə öhdəliklərini də vaxtlı-vaxtında yerinə yetirir. Bakı–Tbilisi–Ərzurum qaz kəməri də ölkəmizi qaz ixrac edən ölkəyə çevirəcəkdir. Bu gün Avropa istehlakçıları da bizim hasil edəcəyimiz təbii qazı gözləyirlər. Bu layihə də çox uğurla həyata keçirilir və 2006-cı ildə biz qaz kəmərinin istismara verilməsini də qeyd edəcəyik.

Son illər ərzində Azərbaycanda çox güclü neft infrastrukturu yaranıbdır. Qazma qurğuları, digər infrastruktur obyektləri – bütün bunlar Azərbaycan xalqına hələ uzun illər, onilliklər ərzində xidmət edəcəkdir. Əgər görülən bütün işləri ümumi inkişaf dinamikası ilə müqayisə etsək, görərik ki, Azərbaycanın inkişaf dinamikası məhz bu amillərdən asılı idi və bu gün də asılıdır.

Əlbəttə, biz çalışırıq və bundan sonra da çalışacağıq ki, Azəbaycan iqtisadiyyatının bütün sahələri inkişaf etsin. Bu sahədə işlər görülür və biz iqtisadiyyatımızı şaxələndirmək istəyirik. Yeni qəbul edilmiş proqramlar da məhz bu məqsədi güdür. Artıq neft sektorunda görülən işlərin böyük əksəriyyəti başa çatıbdır və indi bizim əsas fikrimiz qeyri-neft sektorunun inkişafına yönəlibdir. Bu sahədə də görülən işlər və nəticələr göz qabağındadır. Təkcə bunu demək kifayətdir ki, son bir il ərzində Azərbaycanda 110 mindən artıq yeni iş yeri açılıbdır ki, onun da 70 mini daimi iş yerləridir. Bir sözlə, 1994-cü ildə atılmış bu ad-

dım görün ölkəmizə nə qədər müsbət təsir göstərmişdir və əminəm ki, gələcəkdə daha da böyük təsir göstərəcəkdir. Nəzərə alsaq ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəndən sonra Azərbaycanda neft hasilatı ən azı üç dəfə artacaq, deyə bilərik ki, Azərbaycanı böyük işlər gözləyir. Ölkəmizə, xəzinəmizə daxil olacaq əlavə vəsait imkan verəcəkdir ki, sosial proqramlar daha da sürətlə icra olunsun, maaşlar, pensiyalar, digər sosial ödənişlər artsın. Bilirsiniz ki, bu istiqamətdə də işlər görülübdür. Minimum əməkhaqqı, demək olar ki, iki dəfə artırılıbdır. Gələn ildən yenidən artım nəzərdə tutulubdur və mən prezident seçkilərindən sonra demişdim ki, Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşamalıdır və daha da yaxşı yaşayacaqdır. Bu günə qədər nəzərdə tutulmuş bütün proqramlar, mənim tərəfimdən elan edilmiş, bəyan edilmiş proqramlar həyata keçirilibdir. Bir dəfə də olmayıbdır ki, hansısa məsələ qoyulsun, hansısa məqsəd bəyan edilsin və yerinə yetirilməsin. Əminəm ki, bütün başqa proqramlar, seçkilərdən əvvəl verilmiş vədlər həyatda öz yerini tapacaqdır, o cümlədən 600 min iş yerinin yaradılması, Azərbaycan iqtisadiyyatının inkişafı, regionların inkişafı və nəticədə xalqın rifah halının yaxşılaşdırılması. Bu, prezident kimi, mənim başlıca vəzifəmdir və əminəm ki, biz istəyimizə nail olacağıq.

Bu gün mən, ümumiyyətlə, neft sektorunun fəaliyyətinə də toxunmaq istəyirəm. Xüsusilə Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyətini də qeyd etmək istəyirəm. Bu fəaliyyət çox müsbət olubdur. Gərgin fəaliyyət nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti Heydər Əliyevin neft strategiyasının icrası istiqamətində çox böyük işlər görübdür. Bütün sahələrdə – həm xarici şirkətlərlə əməkdaşlıqda, eyni zamanda öz neft şirkətlərimizin sərəncamında olan layihələrdə, yataqların işlənməsində böyük işlər görülmüşdür. Bu gün Neft Daşlarında vəziyyətlə tanış olarkən mən bir daha gördüm və çox sevindim ki, burada inikişaf davam edir. Baxmayaraq ki, artıq 55 ildir Neft Daşlarında neft hasil edilir və əlbəttə, hasilatın zirvəsi keçmişdə qalıbdır, amma buna baxmayaraq, son illər ərzində burada hasilat artır, sosial

məsələlərə böyük diqqət göstərilir. Bu gün mən neftçilərin yaşayış şəraiti ilə tanış olmuşam və görürəm ki, burada yeni binalar tikilib, təmir olunub. Sosial məsələlərə böyük diqqət yetirilir, əməkhaqqı çox yüksəkdir. Əgər Azərbaycan üzrə ümumi əməkhaqqı ilə müqayisə etsək, görərik ki, burada əməkhaqqı ən azı 3 dəfə yüksəkdir. Əlbəttə, bu təbiidir. Çünki Azərbaycan neftçiləri bütün dövrlərdə olduğu kimi, bu gün də ən böyük hörmətə layiq olan insanlardır və əlbəttə, onların çətin əməyi, zəhməti daha da yüksək qiymətləndirilməlidir. Amma biz onu da bilirik ki, bu, keçmişdə də, bütün zamanlarda da belə olmayıbdır. Son zamanlar əməkhaqlarının artımı, sosial məsələlərə göstərilən daha böyük diqqət məni çox sevindirir. Bunu Dövlət Neft Şirkətinin tərkibində fəaliyyət göstərən bütün qurumlara şamil etmək olar. Azərbaycanda neft sənayesində doğrudan da, böyük addımlar atılıbdır, böyük nəticələr əldə edilibdir.

Mən müxtəlif nümunələr gətirə bilərəm və siz onları yaxşı bilirsiniz. 1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi" imzalanmışdır və o, dekabr ayında qüvvəyə minmişdir. 1997-ci ildə artıq bu müqavilə çərçivəsində ilkin neft çıxarılmışdır. Belə bir hal dünya təcrübəsində heç vaxt olmayıbdır. Müqavilənin bağlanmasından ilkin neftin çıxarılmasına qədər, ən yaxşı halda, ən azı 5-7 il vaxt keçir. Azərbaycanda bu müddət 3 ildən də az idi.

Mən başqa nümunələr də gətirə bilərəm. Bütün bunlar onu göstərir ki, Azərbaycanda Dövlət Neft Şirkətində çalışan, həqiqətən, çox peşəkar insanlar var. Biz böyük fərəh hissi ilə deyə bilərik ki, hasilatda, emalda, tikintidə, xarici şirkətlərlə danışıqların aparılmasında – bütün bu sahələrdə ölkəmizin səviyyəsi çox yüksəkdir.

Mənim də həyatımın böyük hissəsi Dövlət Neft Şirkəti ilə bağlıdır. Mən bu xoş sözləri ona görə demirəm ki, Neft Şirkətində işləmişəm. Burada mən özümü tərifləmək istəmirəm, lakin bu həqiqətdir.

Çox şadam və böyük qürur hissi keçirirəm ki, mən də həyatımın bir hissəsini neftçilər arasında keçirmişəm, Dövlət Neft Şir-

kətində işləmişəm. O illər mənim üçün həm çox əzizdir, həm də çox dəyərlidir. Çünki orada qazandığım təcrübə, biliklər, dostlar, əlbəttə, bu gün də mənim üçün gərəklidir və əzizdir. Əlbəttə ki, mən özümü bu yüksək prezident vəzifəsində neftçilərin nümayəndəsi kimi hesab edirəm və bundan sonra da belə hesab edəcəyəm.

Əziz dostlar, bu gün doğrudan da böyük bayramdır, əlamətdar tarixi hadisədir. Əminəm ki, Neft Daşları hələ uzun illər Azərbaycana çox ləyaqətlə xidmət edəcəkdir. Əlbəttə ki, indi Neft Daşlarında hasil edilən neftin həcmi, bəlkə də o qədər böyük deyildir. Amma hamımız yaxşı bilirik ki, Neft Daşları olmadan Azərbaycanda heç bir böyük neft və yaxud qaz hasilatı layihəsi mümkün deyildir. Bizim bütün xətlərimiz və gələcəkdə istismara veriləcək yeni layihələr hamısı Neft Daşlarında birləşir. Ona görə də Neft Daşlarının əhəmiyyəti heç vaxt aşağı düşməməlidir, biz hamımız bunu bilməliyik. Əlbəttə ki, Dövlət Neft Şirkətinin rəhbərliyi də bunu yaxşı bilir.

Bir məsələyə də toxunmaq istəyirəm. Bu gün burada olarkən müxtəlif qurğularla tanışlıq zamanı ayaqüstü bir fikir mübadiləsi də apardıq. Əlbəttə, biz bunu daha ciddi müzakirə edəcəyik. Artıq Dövlət Neft Şirkəti tərəfindən müəyyən təkliflər irəli sürüldü ki, həm qaz, həm də neft istehsalını artırmalıyıq. Əlbəttə ki, bunu etmək üçün çox böyük həcmdə maliyyə vəsaiti lazımdır və bu vəsaiti də biz tapacağıq. Əminəm ki, əgər biz gələn ildən bu layihələrin üzərində işləməyə başlasaq, qısa müddət ərzində Azərbaycanda neft və qaz hasilatını artıra bilərik. Bizim belə bir proqramlarımız var. Əlbəttə, Azərbaycanın ən böyük yataqları istismara verilibdir. «Çıraq» yatağından neft çıxarılır, «Azəri» yatağından gələn ilin əvvəlindən neft çıxarılmasına başlanacaqdır. Eyni zamanda biz digər yataqları da yaddan çıxarmamalıyıq. Dövlət Neft Şirkətinin bilavasitə özünün, heç bir tərəfdaşı olmadan işlədiyi yataqlara da böyük diqqət göstərməliyik.

Əziz dostlar, bir sözlə, mən gələcəyə çox böyük ümidlərlə, böyük nikbinliklə baxıram. Biz düz yoldayıq. Azərbaycan il-

dən-ilə güclənir, iqtisadi vəziyyət ildən-ilə yaxşılaşır. Dünyada Azərbaycanın mövqeləri möhkəmlənir. Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində də tədbirlər görülür. Bilirsiniz ki, Azərbaycan bu məsələni artıq müxtəlif təşkilatlarda gündəliyə gətirir. Avropa Şurası tərəfindən hazırlanmış məruzə və qətnamənin layihəsi reallığı əks etdirir, yəni Ermənistanı işğalçı dövlət kimi ifşa edir. Birləşmiş Millətlər Təşkilatında gündəliyə salınan məsələ – işğal olunmuş torpaqlarda vəziyyətlə bağlı məsələ Ermənistana çox böyük zərbə olmuşdur və onlar hər vəchlə çalışırlar ki, bu məsələni gündəlikdən çıxarsınlar, lakin çıxara bilmirlər. Səsvermə zamanı da Azərbaycanı çoxlu ölkə dəstəkləyibdir, Ermənistan isə həmişə, bütün başqa məsələlərdə olduğu kimi, təcrid edilmiş vəziyyətdə qalmışdır. Bu məsələnin əleyhinə bir səs verilmişdir ki, o da Ermənistanındır. Yəni bu sahədə də bizim işlərimiz yaxşı gedir. Biz bundan sonra da çalışacağıq ki, bütün vasitələrdən istifadə edib məsələni ədalətli şəkildə həll edək ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, torpaqlar geri qaytarılsın və soydaşlarımız – qaçqınlarımız və köçkünlərimiz öz doğma yurdlarına qayıtsın.

Mən sizi bu gözəl, əlamətdar yubiley münasibətilə bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik, yeni uğurlar, qələbələr arzulayıram.

## TÜRKİYƏNİN JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI, ORDU GENERALI FEVZİ TÜRKERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti İlham Əliyev general Fevzi Türkerinin respublikamızda bir sıra mühüm görüşlər keçirməsindən məmnun qaldığını bildirdi, Türkiyənin Jandarm Qüvvələri ilə Azərbaycanın Daxili Qoşunları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı.*

*Türkiyə Jandarm Qüvvələri Baş Komandanlığı tərəfindən respublikamıza göstərilmiş yardıma görə minnətdarlığını bildirən prezident İlham Əliyev dedi ki, ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, «bir millət, iki dövlət» arasında əlaqələr bütün sahələrdə sürətlə inkişaf edir.*

*Türkiyəyə rəsmi səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı dedi ki, həmin səfər zamanı keçirilmiş görüşlər, imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsi və genişləndirilməsi üçün gözəl şərait yaratmışdır.*

*Prezident İlham Əliyev bildirdi ki, bu yaxınlarda Bakıda keçirilmiş Azərbaycan–Türkiyə biznes forumu iqtisadi sahədə əlaqələrimizin də yüksək səviyyədə inkişaf etdiyini bir daha təsdiq etdi. Biz ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığa da böyük önəm veririk. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz bu sahədə də Türkiyənin yardımını daim hiss etmişdir. Azərbaycan ordusunun inkişafının müasir səviyyəyə çatmasında dost və qardaş Türkiyə dövlətinin yardımı bö-*

*yük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq bu gün uğurla inkişaf edir.*

*Azərbaycanda ordu quruculuğu sahəsində böyük işlər görüldüyünü nəzərə çatdıran dövlətimizin başçısı dedi ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş daxili ictimai-siyasi sabitlik daha da möhkəmlənir. Əfsuslar olsun ki, Azərbaycan üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı uzun illər danışıqlar aparılmasına baxmayaraq, bu heç bir nəticə vermir. Mən hesab edirəm ki, Azərbaycanda ordunun güclənməsi bölgədə sülhün və sabitliyin təmin olunması işinə və bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlarda ölkəmizin mövqeyinin möhkəmlənməsinə xidmət edir.*

*Ölkəmizdə ordu quruculuğunun daha da inkişaf etdirilməsi, o cümlədən Daxili Qoşunların yüksək səviyyədə təşkil olunması üçün dövlət tərəfindən mühüm tədbirlərin həyata keçirildiyini nəzərə çatdıran prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, cənab Fevzi Türkerinin respublikamıza səfəri bu əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Vaxt tapıb onu qəbul etdiyinə və xoş sözlərə görə minnətdarlığını bildirən general Fevzi Türkeri prezident İlham Əliyev ilə görüşdən, dost və qardaş Azərbaycana səfər etməkdən şərəf duyduğunu söylədi. Qonaq dedi ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələr tarixi köklərə söykənir, ümummilli lider Heydər Əliyevin ifadə etdiyi kimi, «bir millət, iki dövlət» səviyyəsində uğurla inkişaf edir.*

*Azərbaycan–Türkiyə əlaqələrinin bütün sahələrdə olduğu kimi, silahlı qüvvələr arasında da genişləndiyini və gündən-günə gücləndiyini nəzərə çatdıran qonaq Türkiyənin Jandarm Qüvvələri ilə Azərbaycanın Daxili Qoşunlarının əməkdaşlığından məmnunluq duyduğunu söylədi. O dedi ki, mən Azərbaycanın daxili qoşun hissələri ilə tanış olarkən onların hazırlığının yüksək səviyyədə olduğunu gördüm və bununla fəxr etmək olar.*

*Ölkələrimiz arasında bu sahədə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyini vurğulayan qonaq dövlətimizin baş-*

*çısını əmin etdi ki, Türkiyə həmişə olduğu kimi, dost və qardaş Azərbaycanı bundan sonra da dəstəkləyəcəkdir. Cənab Fevzi Türkeri dedi ki, Azərbaycan Silahlı Qüvvələrinin yüksək səviyyədə olması Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunması işinə xidmət edir və mən əminəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yaxın zamanlarda öz həllini tapacaqdır.*

*Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkökün səmimi salamlarını prezident İlham Əliyevə çatdıran general Fevzi Türkeri dövlətimizin başçısı ilə görüşdən və dost, qardaş Azərbaycanı ziyarət etməkdən xoşbəxtlik duyduğunu bir daha vurğuladı.*

*Səmimi salamlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkökə onun səmimi salamlarını və xoş arzularını çatdırmağı xahiş etdi.*

## «QLOBAL İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI – 2004» BAKI KONFRANSINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycanın paytaxtı Bakı şəhərində böyük məmnuniyyətlə salamlayır, konfransınızın işinə uğurlar, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

2003-cü ilin dekabrında Cenevrədə keçirilmiş ümumdünya sammitinin qəbul etdiyi Prinsiplər Bəyannaməsi və Fəaliyyət Planı informasiya cəmiyyətinin yaradılması yolunda olduqca uğurlu addım olaraq bəşəriyyətin qlobal problemlərinin həlli üçün möhkəm təməl yaratdı. Dünyada neft ölkəsi kimi tanınan Azərbaycan informasiya cəmiyyətinə doğru inamla irəliləyərək neft ehtiyatlarımızı ölkəmizin hər bir vətəndaşının real potensialına çevirməyə hazır olduğunu sammitdə bəyan etdi və bu istiqamətdə konkret tədbirlər həyata keçirməyə başladı.

Sammitdən sonra yaradılmış Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu sahədə aparıcı rol oynayaraq xüsusi dövlət proqramı çərçivəsində biliklərə əsaslanan iqtisadiyyata doğru müxtəlif layihələr gerçəkləşdirir. İnanıram ki, Azərbaycanın bir sıra beynəlxalq qurumlarla, o cümlədən BMT-nin İnkişaf Proqramı ilə birlikdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə bir çox sahələrdə uğurla həyata keçirilmiş işlərinin nəticələri konfrans iştirakçılarının marağına səbəb olacaqdır.

Regionun ən dinamik inkişaf edən ölkəsi kimi, Azərbaycan bu gün informasiya texnologiyaları sahəsinin genişləndirilməsi üçün böyük imkanlara malikdir. Lakin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən on ildən artıq davam edən işğalı və bir milyondan artıq qaçqının mövcud olması genişmiqyaslı proqramların həyata keçirilməsini çətinləşdirir. Bu baxımdan

konfransda müzakirə olunacaq «informasiya uçurumu» problemi bizim üçün olduqca böyük əhəmiyyət kəsb edir.

Ümidvaram ki, konfransınız informasiya cəmiyyətinin bərqərar olması işinə öz layiqli töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 noyabr 2004-cü il*

## TÜRKİYƏNİN TRT TELEVİZİYASININ SƏDRİ ŞENOL DƏMİRÖZ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ilə TRT arasındakı əməkdaşlıqdan məmnunluğunu bildirdi.*

*TRT televiziyasının Azərbaycanda, AzTV-nin isə Türkiyədə izlənməsini razılıqla vurğulayan prezident İlham Əliyev ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, humanitar, mədəni və hərbi sahələrdə əlaqələrin çox sürətlə inkişaf etməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı bildirdi ki, son zamanlar Azərbaycanın və Türkiyənin müxtəlif sahələr üzrə yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri bu əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edir.*

*AzTV ilə TRT-nin əlaqələrindən, ölkələrimiz arasında informasiya mübadiləsinin daha da yaxşılaşdırılmasından, Azərbaycanda və Türkiyədə baş vermiş hadisələrin tamaşaçılara çatdırılmasından məmnunluğunu bildirən prezident İlham Əliyev TRT sədrinin Bakıya səfərinin bu sahədə əməkdaşlığımızın daha da genişləndirilməsinə töhfə verəcəyinə əmin olduğunu vurğuladı.*

*Vaxt tapıb onu qəbul etdiyinə və xoş sözlərə görə minnətdarlığını bildirən Şenol Dəmiröz AzTV ilə TRT arasında əməkdaşlığın genişlənməsindən məmnunluqla söhbət açdı. O, Bakıya bu səfəri zamanı AzTV ilə TRT-nin əməkdaşlığına dair birgə protokol imzalanacağını söylədi.*

AzTV ilə müştərək proqramlar hazırlandığını, yaradıcı heyətlərin bir-birinə qarşılıqlı səfərlərinin nəzərdə tutulduğunu vurğulayan qonaq hazırda TRT-nin Azərbaycan dövlət televiziyası ilə və Yazıçılar Birliyi ilə sıx təmasda olduğunu bildirdi. O bu əlaqələrin nəticəsi kimi, «Dədə Qorqud» teleserialı üzərində birgə iş aparıldığını nəzərə çatdırdı. Cənab Şenol Dəmiröz Azərbaycanın dahi sənət adamları haqqında silsilə verilişlər üzərində işlənildiyini də bildirdi.

## BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ YOŞİO UTSUMİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti İlham Əliyev ötən il Cenevrədə İnformasiya cəmiyyəti üzrə dünya sammitinin böyük uğurla keçdiyini xatırladaraq dedi ki, həmin sammitdən iki ay sonra Azərbaycanda Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradıldı. Bu bir daha onu göstərir ki, Azərbaycan informasiya və rabitə sektorunun inkişafına çox böyük əhəmiyyət verir. Bu sahənin daha da inkişaf etdirilməsi üçün respublikamızda böyük imkanlar olduğunu vurğulayan prezident İlham Əliyev Azərbaycanda vətəndaşların və ölkənin həyatının müxtəlif sahələrini əhatə edən kommunikasiya sisteminin sürətlə inkişaf etdiyini, yeni texnologiyaların tətbiq olunduğunu nəzərə çatdırdı.*

*Prezident İlham Əliyev Bakıda «Qlobal informasiya-kommunikasiya texnologiyaları–2004» konfransının uğurla keçməsini yüksək qiymətləndirdi. Ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrinin sürətlə inkişaf etdiyini bildirən dövlətimizin başçısı dedi ki, rabitə və telekommunikasiya sisteminin durmadan inkişaf etdirilməsi müasir dünyanın əsas elementlərindən biridir. Yaxın zamanlarda dünyada bu sahənin daha da güclənəcəyi gözlənilir və məhz elə bu baxımdan Azərbaycan həmin sahənin inkişafına böyük əhəmiyyət verir. Çünki biz ölkəmizi bu proseslərin tərkib hissəsi kimi görmək istəyirik.*

*Prezident İlham Əliyev Azərbaycanda təkcə neft sektorunda deyil, digər sahələrdə də, o cümlədən informasiya və telekom-*

*munikasiya sahəsində də böyük inkişafa nail olunduğunu bildirərək dedi ki, biz Azərbaycanda neft sektorundakı inkişafın digər sahələrin inkişafını təmin etməsinə çalışırıq. Ölkəmizdə iqtisadi, sosial və digər sahələrdə, xüsusilə təhsil sistemində yeni informasiya texnologiyalarının tətbiq edilməsi üçün böyük işlər görülür. Bütün məktəblərin tam kompüterləşdirilməsi ilə bağlı proqram qəbul olunmuşdur. Azərbaycanda 4 mindən çox məktəb vardır, yaxın illərdə bunların hamısında, hətta ən ucqar kənd məktəblərində də kompüter siniflərinin yaradılması və onların beynəlxalq İnternet sistemınə qoşulması qərara alınmışdır. Üç il ərzində həyata keçirilməsi nəzərdə tutulan və təhsil sisteminin inkişafı üçün çox önəmli olan bu proqramın yerinə yetirilməsi Azərbaycan rəhbərliyi tərəfindən qarşıya qoyulmuş prioritet vəzifələrdən biridir.*

*Vaxt tapıb onu qəbul etdiyinə və xoş sözlərə görə təşəkkür edən cənab Yoşio Utsumi ötən il Cenevrə şəhərində sammitin keçirilməsinə verdiyi dəstək üçün prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi. O, dövlətimizin başçısına həmin sammitə həsr olunmuş broşür təqdim etdi.*

*Qonaq Cenevrə sammitindən keçən dövr ərzində Azərbaycanda rabitə, informasiya və telekommunikasiya sistemlərinin inkişafı sahəsində prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirləri yüksək qiymətləndirdi. Eyni zamanda, ölkədə təkcə neft sektorunda deyil, digər sahələrdə də, o cümlədən informasiya və telekommunikasiya sahəsində də böyük uğurlar əldə edildiyini söylədi.*

## İTALİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MARQARİTA BONİVER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan prezident İlham Əliyev xanım Boniveri yenidən Azərbaycanda görməyindən məmnunluq duyduğunu bildirdi, onunla bundan əvvəl keçirdiyi görüşləri xatırlatdı. Dövlətimizin başçısı ölkəmizin Avropa ailəsinə sürətlə yaxınlaşdığını və Avropa Birliyinin yeni qonşuluq siyasətinin fəal iştirakçılarından biri olduğunu nəzərə çatdırdı. Azərbaycanın İtaliya ilə ikitərəfli əlaqələrinin çox uğurla inkişaf etməsindən məmnun qaldığını vurğulayan prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, bu əlaqələr bundan sonra daha da genişlənəcəkdir.*

*Azərbaycan–İtaliya əlaqələrinin zəngin tarixi olduğunu xatırladan dövlətimizin başçısı iqtisadiyyat, xüsusilə neft və qaz sahəsində əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirərək dedi ki, biz bu əlaqələrin digər sahələri də əhatə etməsini, siyasi, sosial, mədəni və digər sahələrdə əlaqələrimizin daha da inkişaf etməsini istəyirik. Bunun üçün həm ikitərəfli münasibətlər, həm də ölkəmizin Avropa Birliyi ilə əməkdaşlığı çərçivəsində böyük imkanlar vardır.*

*Bu il Avropa Birliyinin tədbirində iştirakını məmnunluqla xatırladan prezident İlham Əliyev qurumun yeni qonşuluq siyasətinə ölkəmizin böyük ümidlər bəslədiyini, yeni qonşuluq siyasətinə Azərbaycanın daxil edilməsinin siyasi baxımdan böyük əhəmiyyət daşıdığını və bölgədəki ümumi vəziyyətə mühüm təsir göstərdiyini vurğuladı.*

*Ermənistanın Azərbaycana təcavüzü məsələsinə toxunan prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bölgədə sülhə və təhlükəsizliyə böyük zərbə vurduğunu bildirdi. Dövlətimizin başçısı Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü qeyd edərək bu münaqişənin həllində ölkəmizin mövqeyinin yalnız və yalnız beynəlxalq hüquq normalarından – dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərindən ibarət olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev qonaqları bir daha salamlayaraq əmin olduğunu bildirdi ki, bu səfər əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəkdir.*

*Səmimi qəbula görə minnətdarlığını bildirən, 2002-ci ildə Azərbaycanın dövlət başçısı ilə keçirilmiş görüşünü xatırladan xanım Boniver bundan sonra prezident İlham Əliyev ilə də görüşlərinin çox səmərəli olduğunu qeyd etdi. O, Azərbaycanın dövlət başçısının Romaya qarşıdakı rəsmi səfərinin yüksək səviyyədə təşkil olunması üçün İtaliya tərəfinin böyük səy göstərdiyini, ciddi hazırlıq işləri gördüyünü söylədi.*

*İkitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirən qonaq bu əməkdaşlığın təkcə iqtisadiyyat sahəsini deyil, digər sahələri də əhatə etməsinin vacibliyini vurğuladı, bu baxımdan kənd təsərrüfatı, turizm və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar olduğunu xatırlatdı.*

*Xanım Marqarita Boniver prezident İlham Əliyevin İtaliyaya qarşıdakı səfərinin Azərbaycan–İtaliya əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük əhəmiyyət daşıdığını nəzərə çatdırdı. Azərbaycanın Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil edilməsinin əhəmiyyətini vurğulayan qonaq yaxın illərdə bu əməkdaşlığın uğurlu nəticələr verəcəyinə və ölkəmizin yerləşdiyi qeyri-sabit bölgəyə öz müsbət təsirini göstərəcəyinə əminliyini bildirdi.*

**İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
BAŞ KATİBİ
CƏNAB ASXAT ORAZBAYA**

Hörmətli cənab Baş katib!

İqtisadi Əməkdaşlıq Təşkilatının günü – 28 noyabr münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, İqtisadi Əməkdaşlıq Təşkilatı regionuna sülh və əmin-amanlıq, üzv dövlətlərin xalqlarına səadət və tərəqqi arzulayıram.

Regionlaşma və qloballaşma proseslərindən faydalanmaq üçün biz təşkilatın gələcəkdə də uğurlu fəaliyyət göstərməsində maraqlıyıq. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın bütün sahələrdə genişlənməsinə səy göstərməyə hazırdır. İnanıram ki, qarşılıqlı əməkdaşlığımız nəticəsində xalqlarımızın rifahı yüksələcək, ölkələrimizin sabitliyi və təhlükəsizliyi daha da möhkəmlənəcəkdir.

*Sizə dərin hörmət və ehtiramımı bildirirəm.*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 noyabr 2004-cü il*

**ATƏT-in PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENMARKER İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*26 noyabr 2004-cü il*

*Qonağı salamlayan prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunaraq, ərazimizin 20 faizinin işğal edildiyini və bir milyondan artıq azərbaycanlının qaçqın-köçkün vəziyyətinə düşdüyünü vurğuladı və təəssüflə bildirdi ki, iki ölkənin xarici işlər nazirləri və dövlət başçıları arasında danışıqların aparılmasına baxmayaraq, bu hələlik heç bir nəticə vermir. Çünki Ermənistan münaqişənin həlli istiqamətində hansısa ciddi addımlar atmır, danışıqlar prosesinin yenə də təxirə salınmasına cəhd göstərir. Azərbaycan tərəfi bu məsələnin tezliklə sülh yolu ilə həllini istəyir. Lakin bu münaqişə yalnız və yalnız beynəlxalq hüquq normalarına əməl olunmaqla, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi əsasında həll edilə bilər. Biz ümidvarıq ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yaxın zamanlarda öz həllini tapacaqdır.*

*Prezident İlham Əliyev son vaxtlar Avropa Şurasının və digər beynəlxalq təşkilatların bu münaqişənin həllinə yaxından cəlb olunmasını müsbət hal kimi qiymətləndirdi. Eyni zamanda bildirdi ki, bu problemin həlli ilə bağlı ATƏT-in Minsk qrupu mandata malikdir və ümidvarıq ki, o, bu sahədə öz səylərini daha da artıracaqdır.*

*Səmimi qəbula görə minnətdarlıq edən cənab* Qoran Lenmarker *dövlətimizin başçısı ilə əvvəlki görüşünü məmnunluqla xatırlatdı, ölkəmizdə* ona *göstərilən səmimi münasibətə görə təşəkkürünü* bildirdi: *Mən Bakıya* indiki *səfərim zamanı təkcə Dağlıq Qarabağdan* deyil, *Azərbaycanın işğal edilmiş digər rayonlarından* olan insanlarla da *görüşlərimdən belə* bir *qənaətə gəlirəm* ki, bu *münaqişə tezliklə həll olunmalıdır, münaqişədən əzab çəkən adamların,* o *cümlədən qaçqın və məcburi* köçkünlərin *təcili köməyə ehtiyacı vardır,* onlar *tərk etdikləri doğma* yurd-*yuvalarını* daim *düşünürlər. Bu baxımdan beynəlxalq* birlik *və beynəlxalq təşkilatlar münaqişənin tezliklə sülh* yolu *ilə həll olunmasına diqqəti* daha da *artırmalıdırlar.*

**BMT-nin QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI RUUD LUBBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*26 noyabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı ötən il Cenevrədə İlham Əliyev cənab Ruud Lubberq ilə keçirdiyi uğurlu görüş zamanı səmərəli müzakirələr apardıqlarını məmnunluqla xatırlatdı.*

*Ali komissarın Azərbaycana səfərini, noyabrın 25-də nümayəndə heyətinin qaçqınların məskunlaşdığı yerlərə baş çəkməsini yüksək qiymətləndirən prezident İlham Əliyev qonaqların qaçqınlar üçün salınmış yeni qəsəbədə vəziyyətlə, yaradılmış şəraitlə yaxından maraqlandıqlarını, bu sahədə əldə edilən inkişafın şahidi olduqlarını vurğuladı.*

*Ölkəmizdə qaçqın və məcburi köçkün düşərgələrinin tamamilə ləğv olunması və həmin insanlar üçün yeni məskunlaşma yerlərinin təşkil edilməsi istiqamətində böyük işlər görüldüyünü nəzərə çatdıran dövlətimizin başçısı qaçqın və məcburi köçkünlərin cəmiyyətimizdə fəal iştirakı ilə bağlı xeyli tədbirlər görüldüyünü bildirdi.*

*Prezident İlham Əliyev dedi ki, Azərbaycan hökuməti bu məqsəd üçün daxili maliyyə vəsaitlərindən səmərəli istifadə edir.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunmasının, bir milyondan çox soydaşımızın yerindən-yurdundan zorla qovularaq qaçqın və məcburi köçkün vəziy-*

yətinə düşməsinin böyük humanitar fəlakət olduğunu vurğuladı. Prezident İlham Əliyev bütün bunların ciddi iqtisadi, sosial problemlər doğurduğunu bildirərək dedi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgədə sülhün, sabitliyin təmin edilməsinə böyük əngəl törədir. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu münaqişə tezliklə sülh yolu ilə aradan qaldırılacaq, doğma torpaqlarından zorla qovulmuş insanlar öz yerlərinə, yurdlarına qayıdacaqlar.

Prezident İlham Əliyev yerindən-yurdundan zorla qovulmuş qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin tamamilə yaxşılaşdırılması məqsədi ilə ölkəmizdə həyata keçirilən Dövlət Proqramlarından da söhbət açdı.

Azərbaycan hökumətinin bundan sonra da qaçqın və məcburi köçkünlərin vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayan prezident İlham Əliyev eyni zamanda beynəlxalq humanitar yardımın davam etdirilməsinin də zəruriliyini nəzərə çatdıraraq dedi ki, güman edirəm, sizin regiona səfəriniz ümumilikdə Azərbaycanda humanitar problemlərin həll edilməsi sahəsində görülən işlərin uğurla davam etdirilməsinə öz töhfəsini verəcəkdir.

Cənab Ruud Lubberq vaxt tapıb onları qəbul etdiyinə, səmimi sözlərə və onun başçılıq etdiyi nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə prezident İlham Əliyevə və Azərbaycan hökumətinə minnətdarlığını bildirdi. 2003-cü ilin dekabrında Cenevrədə dövlətimizin başçısı ilə keçirdiyi görüşü məmnunluqla xatırlayan qonaq Azərbaycana səfərinin ilk günündən nümayəndə heyətinin çox gərgin proqramla işlədiyini nəzərə çatdırdı və onlara yaradılmış şəraitə görə prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirdi.

O, dövlətimizin başçısına məlumat verdi ki, nümayəndə heyətinin üzvləri noyabrın 25-də Bərdədə, Biləsuvarda məskunlaşmış qaçqın və məcburi köçkünlərlə görüşmüş, onların həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işləri çox yüksək qiymətləndirmişlər. Cənab Ruud Lubberq bu sahədə görülən işlərdən böyük məmnunluq duyduqlarını söylədi. O dedi ki, bu

insanların vəziyyətinin daha da yaxşılaşdırılması ilə bağlı şəxsən prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən işlər BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndə heyəti tərəfindən çox yüksək qiymətləndirilmişdir. Qonaq bildirdi ki, Azərbaycanda görülmüş bütün bu işlər nümayəndə heyətinin hər bir üzvünə çox müsbət təsir göstərmişdir. O dedi ki, humanitar problemlərin həlli məsələləri Azərbaycanın hökumət rəsmiləri ilə müzakirə edilmişdir.

Rəhbərlik etdiyi Ali Komissarlığın fəaliyyəti barədə prezident İlham Əliyevə ətraflı məlumat verən cənab Ruud Lubberq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək, bu münaqişənin tezliklə sülh yolu ilə həll olunmasının vacibliyini xüsusi vurğuladı. Daha sonra o dedi ki, qaçqın və məcburi köçkün düşmüş insanlara, habelə Mesxeti türklərinə Azərbaycanda göstərilən dövlət qayğısı bir çox ölkələr üçün yaxşı nümunə ola bilər.

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Milli bayramınız – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin daim genişlənməsi məmnunluq doğurur. Ümidvaram ki, ikitərəfli münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Birləşmiş Ərəb Əmirliklərinin xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 noyabr 2004-cü il*

**RUMINİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İON İLİYESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Rumıniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, əlaqələrimizin hərtərəfli genişlənməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 noyabr 2004-cü il*

**TAİLANDIN KRALI ƏLAHƏZRƏT FUMİBOL ADULYADEAYA**

Əlahəzrət!

Tailand Krallığının milli bayramı – Kralın təvəllüd günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Tailand arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2004-cü il*

**TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TAKSİN ŞİNAVATRAYA**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Kralın təvəllüd günü münasibətilə Sizə və bütün xalqınıza öz təbriklərimi yetirirəm.

Ümidvar olduğumu bildirirəm ki, ikitərəfli əlaqələrimizin inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2004-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏTƏR DÖVLƏTİNƏ RƏSMİ SƏFƏRİ

*30 noyabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev noyabrın 30-da Qətər Dövlətinə rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Qətərin paytaxtı Dohə şəhərinə gəldi. Azərbaycanın və Qətərin dövlət bayraqları ilə bəzədilmiş beynəlxalq hava limanında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Qətər Dövlətinin əmiri şeyx Həməd bin Xəlifə əl-Tanı böyük mehribanlıqla və səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Azərbaycanın və Qətərin dövlət himnləri səsləndi. Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev Qətər əsgərlərini salamladı.*

*Azərbaycan nümayəndə heyətinin üzvləri Qətər əmiri şeyx Həməd bin Xəlifə əl-Taniyə təqdim olundu.*

*Ölkəmizin Qətərdəki səfiri Elman Araslı dövlətimizin başçısını qarşılayanlar arasında idi.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANI ARASINDA GÖRÜŞ**

*Dohə, «Əmiri-divan» sarayı*

*30 noyabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Qətər Dövləti əmirinin iqamətgahının yerləşdiyi saraya – «Əmiri-divan»a gəldi.*

*Dövlətimizin başçısını burada Qətər əmiri Həməd bin Xəlifə əl-Tani böyük hörmət və ehtiramla qarşıladı. Əmir Azərbaycan prezidenti İlham Əliyevi sarayla tanış etdi, ətraflı məlumat verdi. Dövlətimizin başçısı saraydakı qədim sənət incilərinə, rəsm əsərlərinə baxdı.*

* * *

*Prezident İlham Əliyevi öz ölkəsində görməyindən məmnunluğunu ifadə edən Həməd bin Xəlifə əl-Tani Azərbaycanla Qətər arasında əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi. Qətər Dövlətinin başçısı dedi ki, ölkələrimizin siyasi əməkdaşlığı yüksək səviyyədədir. Azərbaycan prezidentinin indiki səfəri isə iqtisadi və digər sahələrdə əməkdaşlığı genişləndirməyə imkan verəcəkdir.*

*Rəsmi səfərə dəvətə və ona göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Azərbaycan prezidenti İlham Əliyev vurğuladı ki, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlər vardır.*

Qətər əmiri bildirdi ki, bunun üçün ilk növbədə Dohədə səfirliyin açılması, xarici işlər nazirlərinin, habelə iş adamlarının qarşılıqlı səfərlərinin təşkili, əlaqələrin genişləndirilməsindən ötrü hər iki tərəfin imkanlarının öyrənilməsi zəruridir.

Səmimilik şəraitində keçən söhbət zamanı vurğulandı ki, Qətərin Azərbaycanda müəyyən sahələrə sərmayə qoymaq imkanları var və bu, tərəflərin müvafiq dövlət qurumlarının iştirakı ilə reallaşdırılmalıdır. Azərbaycandan müxtəlif sahələr üzrə mütəxəssislərin, o cümlədən həkimlərin, idman mütəxəssislərinin işləmək üçün Qətərə dəvət olunması barədə şifahi razılıq da əldə edildi.

Prezident İlham Əliyev Qətərin zəngin, böyük maliyyə imkanlarına malik ölkə olduğunu xatırladaraq dedi ki, birinci növbədə, müzakirə edilən konkret layihələri həyata keçirmək lazımdır. Qətərdə Azərbaycan səfirliyi də tez bir zamanda açılmalıdır və bunun üçün müvafiq tədbirlər görüləcəkdir. Eyni zamanda, nazirlərin qarşılıqlı səfərlərinin təşkili, birgə iqtisadi komissiyanın yaradılması üçün addımlar atılacaqdır.

Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxundu və problemin həlli ilə bağlı ölkəmizin mövqeyini açıqladı. Prezident İlham Əliyev beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də və İslam Konfransı Təşkilatında bu məsələnin müzakirəsi zamanı həmişə ölkəmizin mövqeyini dəstəklədiyinə görə, Qətər Dövlətinə minnətdarlığını bildirdi.

Əmir Həməd bin Xəlifə əl-Tani xüsusi vurğuladı ki, Qətər bütün sahələrdə Azərbaycanla əməkdaşlığı nəinki genişləndirməyə, hətta kömək etməyə də hazırdır.

Sonra hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev noyabrın 30-da Dohədə, onun üçün ayrılmış iqamətgahda İslam

*Konfransı Təşkilatının gələn* ilin *yanvarından fəaliyyətə baş-*layacaq *yeni Baş* katibi *Ekmələddin İhsanoğlunu* onun *xahişi ilə qəbul etmişdir.*

*Səmimilik şəraitində keçən görüşdə Azərbaycanla İslam Konfransı Təşkilatı arasında əməkdaşlıq məsələləri müzakirə* edildi, *qarşılıqlı* maraq *doğuran* bir *sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN–QƏTƏR SƏNƏDLƏRİNİN İMZALANMASI

*Dohə, «Əmiri-divan» sarayı*

*30 noyabr 2004-cü il*

*Azərbaycan–Qətər sənədlərinin imzalanması mərasimində Azərbaycan prezidenti İlham Əliyev və Qətər əmiri Həməd bir Xəlifə əl-Tanı iştirak edirdilər.*

*Səhiyyə sahəsində əməkdaşlıq haqqında anlaşma, mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası və Qətər Dövləti Xarici İşlər nazirlikləri arasında anlaşma memorandumu, Azərbaycan Respublikası və Qətər Dövləti arasında turizm sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu, Azərbaycan Respublikası və Qətər Dövləti arasında iqtisadi-ticarət və texniki əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və Qətər Dövləti Milli Olimpiya Komitəsi arasında idman sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalandı.*

*İmzalanmış sənədlər ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin, səhiyyə, mədəniyyət, turizm, idman sahələrində əməkdaşlığın inkişaf etdirilməsinə olan qarşılıqlı marağı əks etdirir. Səhiyyə və idmanla bağlı imzalanmış sənədlərdə Azərbaycan mütəxəssislərinin Qətərə dəvət olunması və yerli mütəxəssislərin hazırlanmasına kömək göstərməsi nəzərdə tutulur. 2005-ci ildə keçiriləcək ərəb ölkələri çempionatında və 2006-cı ildə Asiya ölkələri çempionatında çıxış edəcək Qətər idmançılarının yaxşı hazırlaşmasını təmin etmək baxımından milli olimpiya komitələri arasında imzalanmış memoranduma böyük əhəmiyyət verilir. Qətər tərəfi bu sahədə Azərbaycanın*

*idman mütəxəssislərinin təcrübəsi və köməyindən bəhrələnmək niyyətindədir.*

*Xarici işlər nazirlikləri arasında imzalanmış sənəd isə digər qurumların əməkdaşlığa cəlb olunması sahəsində çərçivə mexanizminin yaradılması məqsədi daşıyır.*

*Sənədlərin imzalanması mərasimindən sonra «Əmiri–divan» sarayında Qətər Dövlətinin əmiri şeyx Həməd bin Xəlifə əl-Tanının adından Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin şərəfinə nahar verildi .*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏTƏR DÖVLƏTİNƏ RƏSMİ SƏFƏRİ

*Dohə, «Əmiri-divan» sarayı*

*1 dekabr 2004-cü il*

*Qətər Dövlətində rəsmi səfərdə* olan *Azərbaycan* Respub*likasının prezidenti İlham Əliyevin bu ölkənin əmiri Şeyx Həməd bin Xəlifə əl-Tanı ilə qısa görüşü* oldu.

*Görüşdə bu səfərin Azərbaycanla Qətər arasında* iqtisadi-siyasi *və digər sahələrdə əlaqələrin möhkəmlənməsi üçün zəmin olduğu* bildirildi, *gələcəkdə münasibətlərin genişləndirilməsindən ötrü bütün* imkanlardan *istifadə edilməsinin zəruriliyi* bir daha *vurğulandı.*

*Bununla da Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Qətər Dövlətinə rəsmi səfəri başa çatdı.*

*Azərbaycan* prezidenti *İlham Əliyev və Qətər əmiri Şeyx Həməd bin Xəlifə əl-Tanı Dohə beynəlxalq* hava limanına *gəldilər.Qətərin və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş* hava *limanında respublikamızın rəhbərinin şərəfinə fəxri* qarovul *dəstəsi düzülmüşdü. Fəxri* qarovul *dəstəsinin rəisi dövlətimizin başçısına* raport verdi.

*Azərbaycan* prezidenti *İlham Əliyev Qətərin dövlət və hökumət nümayəndələri, Qətər əmiri Şeyx Həməd* bin *Xəlifə əl-Tanı isə Azərbaycan nümayəndə heyəti ilə sağollaşdılar.*

*Qətər Dövlətinin əmiri Şeyx Həməd* bin *Xəlifə əl-Tanı səfərə görə Azərbaycan* prezidenti *İlham Əliyevə minnətdarlıq* etdi, *dövlətimizin başçısına* bir daha *dərin hörmət və* ehtiramını *bildirərək* onu *təyyarənin pilləkənləri yanında böyük mehribanlıq və səmimiyyətlə* yola *saldı.*

**RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ BEYNƏLXALQ MƏSƏLƏLƏR KOMİTƏSİNİN SƏDRİ MİXAİL MARGELOV İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*1 dekabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti İlham Əliyev cənab Margelovla Avropa Şurasında birgə fəaliyyətini xatırlayaraq həm Avropa Şurası Parlament Assambleyasında, həm də onun bürosunda yaranmış dostluq və işgüzarlıq münasibətindən məmnunluqla söhbət açdı. Həmin ənənənin bu gün də davam etdiyini vurğulayan, Avropa Şurası Parlament Assambleyasının son iclasında Rusiya nümayəndə heyətinin Azərbaycan nümayəndə heyətini əvvəllər olduğu kimi, yenə də müdafiə etdiyinə görə təşəkkürünü bildirən prezident İlham Əliyev dedi ki, xatirlayıram, biz ölkələrimizə aid məsələlərin müzakirəsi zamanı həmişə birgə səs verirdik, bir-birimizi müdafiə edirdik. Bu olduqca vacibdir.*

*Son illər Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi sahələrdə, regional səviyyədə münasibətlərin daha da möhkəmləndiyini nəzərə çatdıran dövlətimizin başçısı bu əməkdaşlığın gələcəkdə də inkişaf etməsinin hər iki ölkənin maraqlarına uyğun olduğunu bildirdi.*

*Rusiya Federasiyasına səfərlərini məmnunluqla xatırlayan prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etməsini bir daha yüksək dəyərləndirdi.*

*Səmimi qəbula və xoş sözlərə görə təşəkkürünü bildirən cənab Mixail Margelov Avropa Şurası Parlament Assamble-*

yasında prezident İlham Əliyevlə birgə işləmələrindən şərəf duyduğunu, həmin dövrün yaxşı məktəb olduğunu vurğuladı.

Müstəqil Azərbaycan Respublikasının son illər böyük sürətlə inkişaf etməsini yüksək qiymətləndirən qonaq bildirdi ki, Azərbaycanın şəksiz demokratik ölkə olması Avropanın ciddi siyasətçilərinin heç birində sual doğurmur.

Avropa Şurası Parlament Assambleyasında Azərbaycan və Rusiya nümayəndə heyətləri arasında yaxşı münasibətlər yaranmasından məmnunluqla söhbət açan cənab Mixail Margelov bildirdi ki, həm qaldırılan məsələlərin, həm də onların müzakirəsinin, AŞ PA-nın sədri Piter Şiderin sözləri ilə desək, prosedur qaydalarının obyektiv olması bizi bu və ya digər məsələlərin obyektiv həllinə daha da yaxınlaşdırır. Bu mənada Azərbaycanın Rusiyaya, Rusiyanın Azərbaycana olan yaxşı münasibətləri obyektivliyi ilə seçilir və bu çox dəyərlidir, çünki biz bir-birimizə kömək edir, bir-birimizi dəstəkləyirik.

Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsinin böyük əhəmiyyət daşıdığını nəzərə çatdıran qonaq Avropa Şurası Parlament Assambleyasında ölkələrimizin nümayəndə heyətlərinin bundan sonra da bir-birini dəstəkləyəcəklərinə əmin olduğunu söylədi.

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM TARYA HALONENƏ**

Hörmətli xanım Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi- qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Finlandiya əlaqələrinin genişlənməsinə böyük əhəmiyyət veririk. Ümidvaram ki, ənənəvi dostluq və əməkdaşlıq münasibətlərimiz qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Finlandiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 2 dekabr 2004-cü il*

## «*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 dekabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev məmnunluqla qeyd etdi ki, bu gün o çox gözəl bir missiyanı yerinə yetirir. Prezident İlham Əliyev iki ay bundan əvvəl «Əsrin müqaviləsi»nin onilliyi ilə əlaqədar Azərbaycanda neft və qaz sektorunun inkişafındakı xidmətlərinə görə Devid Vudvordu «Şöhrət» ordeni ilə təltif olunması ilə bağlı təbrik edərək, bu yüksək mükafatı təqdim etdi.*

*Səmimi qəbula və Azərbaycan dövlətinin yüksək mükafatına görə prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən Devid Vudvord on il əvvəl Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasının artıq öz bəhrəsini verdiyini, bu strategiyanın həyata keçirilməsində onun təmsil etdiyi bp şirkətinin də fəal iştirak etdiyini vurğuladı. O qeyd etdi ki, tikintisi uğurla davam etdirilən və 2005-ci ildə istifadəyə veriləcək Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri, habelə «Şahdəniz» layihəsi Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi cəhətdən daha da güclənmələrinə təkan verəcəkdir.*

*Devid Vudvord bu siyasəti davam etdirdiyinə görə prezident İlham Əliyevə xüsusi təşəkkürünü bildirdi.*

*Ölkə prezidenti Azərbaycan hökumətinin və xarici neft şirkətlərinin sıx əməkdaşlığının səviyyəsindən, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin tikintisinin uğurla aparılmasından və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin inşasına*

*başlanmasından məmnunluğunu* bildirdi, *bütün* bu *layihələrin gerçəkləşməsində* bp *şirkətinin aparıcı* rolunu qeyd etdi.

Sonra *«*bp*–Azərbaycan»* *şirkətinin* prezidenti *Xəzər dənizinin Azərbaycan* sektorunda *həyata keçirilən digər layihələrə* dair *işlərin gedişi barədə* prezident *İlham Əliyevə ətraflı məlumat* verdi.

## İTALİYANIN ALİ MÜDAFİƏ ELMLƏRİ MƏRKƏZİNİN DİREKTORU PİETRO ERKOLE AQO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 dekabr 2004-cü il*

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev onu yenidən Azərbaycanda görməyindən məmnun olduğunu bildirdi.

Cəmimi qəbula görə prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən qonaq səfərinin məqsədinin lokal münaqişələrə dair ölkəmizdə seminarlar, müxtəlif müzakirələr keçirmək olduğunu söylədi. Cənab Pietro Erkole Aqo Avropa Şurası Nazirlər Komitəsinin Aqo qrupunun rəhbəri kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesini də yaxından izlədiyini, bu problemin tezliklə sülh yolu ilə həll olunmasını arzu etdiyini vurğuladı.

Sonra isə o, rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verərək bildirdi ki, İtaliya Silahlı Qüvvələrinin ali məktəbi olan bu Mərkəz hərbi sahədə siyasətlə bağlı yerli kadrlar hazırlanması ilə məşğul olur. Mərkəz dünyanın müxtəlif ölkələrində beynəlxalq təşkilatlarla birgə konfranslar, seminarlar keçirir və bu tədbirlərdə lokal münaqişələrin həlli yolları müzakirə edilir. Bu baxımdan Cənubi Qafqazın ən ağrılı problemlərindən olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ən mühüm vəzifələrdən biridir. Cənab Aqo rəhbərlik etdiyi mərkəzin bu münaqişənin həlli ilə bağlı məsələləri araşdırmağı qarşısına

*məqsəd qoyduğunu və* nizamlama *prosesinə yardımçı* olmaq *arzusunda olduğunu* bildirdi.

*Dövlətimizin başçısı münaqişələrin həllinə yönəlmiş hər hansı müzakirələrin, seminarların keçirilməsini müsbət* hal kimi *qeyd* etdi. *Prezident İlham Əliyev* Pietro Erkole Aqo qrupun *rəhbəri olduğu* zaman onunla *keçirdiyi görüşləri xatırladı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qonağa məlumat verərək, Azərbaycanın mövqeyinə* toxunan *dövlətimizin başçısı* bir daha *vurğuladı ki, həyata keçirilən uğurlu* daxili *və* xarici *siyasət nəticəsində Azərbaycanın nüfuzu artmış, mövqeyi* daha da *möhkəmlənmişdir.* Eyni zamanda, *münaqişənin beynəlxalq hüquq* normaları *və prinsipləri, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində danışıqlar yolu ilə həlli üçün səylər* davam etdirilir. Bu yolun alternativinin *olmadığını nəzərə çatdıran* prezident *İlham Əliyev bəyan* etdi ki, *münaqişənin həllinə yalnız Ermənistan rəhbərliyinin tutduğu* qeyri-konstruktiv *mövqe* mane olur.

Pietro Erkole Aqo *öz mövqeyini qəti və* konkret bildirdiyinə *görə Azərbaycan prezidentinə minnətdarlığını* bildirdi *və* onu *əmin* etdi ki, *rəhbərlik* etdiyi qurum *gələcək fəaliyyətində münaqişənin həllini* daim *diqqət mərkəzində* saxlayacaqdır.

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MVAİ KİBAKİYƏ**

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, ölkələrimiz arasında dostluq əlaqələrinin genişlənməsi əməkdaşlıq imkanlarımızı daha da artıracaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 dekabr 2004-cü il*

## «NƏ? HARADA? NƏ VAXT?» ZƏKA OYUNU ÜZRƏ 2004-cü İLİN DÜNYA ÇEMPİONATINDA QALİB GƏLMİŞ VƏ BU OYUN ÜZRƏ MÜTLƏQ ÇEMPİON OLAN AZƏRBAYCAN KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 dekabr 2004-cü il*

*Qələbə münasibətilə Azərbaycan komandasının üzvlərini təbrik edən prezident İlham Əliyev komandamızın çıxışlarına daim maraq göstərdiyini bildirərək dedi ki, siz öz peşəkarlığınızı, bilik və bacarığınızı bir daha nümayiş etdirdiniz. Üç ildir ki, çempionat Bakıda keçirilir, bu, artıq gözəl bir ənənəyə çevrilib, həm də bizi uzun illər izlədiyimiz və sevdiyimiz bu oyunla daha da yaxın etmişdir. Şübhəsiz, bu, imkan yaratdı ki, Azərbaycanda olan komandalar öz peşəkarlıqlarını daha da artırsınlar və beynəlxalq aləmə çıxsınlar. Bu, böyük qələbədir, böyük bayramdır və ümumilikdə Azərbaycanın yaxşı təbliğidir. Çünki Azərbaycan keçmiş sovet respublikalarından komandası mütləq çempion adını qazanmış yeganə ölkədir. Odur ki, mən sizi təbrik edir, gələcəkdə böyük nailiyyətlər arzulayıram. Siz Azərbaycanı layiqincə təmsil edirsiniz və mən bunu yüksək qiymətləndirirəm.*

*Komandanın kapitanı Balaş Qasımov onlara göstərdiyi diqqət və qayğıya görə prezident İlham Əliyevə təşəkkür etdi. O xatırlatdı ki, 1995-ci ildən keçirilən bu oyunun iştirakçılarını həmin vaxt ümummilli liderimiz Heydər Əliyev qəbul etmişdi. O zaman dünya çempionatının harada keçirilməsi müzakirə*

*olunanda bir çox ölkənin namizədliyi vardı. Lakin təşkilatçılar bildirdilər ki, bizi Azərbaycanda prezidentin özü qəbul edib, ona görə də çempionat burada keçirilməlidir.*

*Komandanın üzvü Rövşən Əsgərov isə dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, bu Sizin qələbənizdir, bizə göstərdiyiniz qayğı və diqqət sayəsində qalib gəlmişik.*

*Prezident İlham Əliyev bildirdi ki, bu bizim birgə qələbəmiz, nailiyyətimizdir. Biz çempionat iştirakçılarını qəbul edir, təşkilatçılar üçün lazımi şərait yaradırıq ki, onlar ölkəmizi yaxşı tanısınlar. Çox təəssüf ki, nəinki dünyada, hətta MDB məkanında da bəzən Azərbaycan haqqında məlumat kifayət qədər olmur. Ona görə də hərdən ölkəmiz barədə məlumat yanlış olur. Lakin Azərbaycanın zəka səviyyəsinin zirvəsində görünməsi bu baxımdan böyük əhəmiyyət kəsb edir.*

*Komandamızın üzvləri sonuncu dəfə keçirilən teleoyunda qələbəyə görə aldıqları medalı dövlətimizin başçısına təqdim etdilər və gələcəkdə daha da böyük uğurlar qazanacaqlarına söz verdilər.*

*Prezident İlham Əliyev Azərbaycana sevinc bəxş edən komandanı bir daha təbrik edərək əmin olduğunu bildirdi ki, istedadlı gənclərimiz Azərbaycanı bütün beynəlxalq yarışlarda layiqincə təmsil edəcəklər. Dövlətimizin başçısı komandanı bundan sonra da daim dəstəkləyəcəyini bildirdi.*

**BURKİNA–FASONUN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BLEİS KOMPAOREYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Burkina-Faso arasında yaranmış münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 dekabr 2004-cü il*

**BƏHREYN KRALI ƏLAHƏZRƏT**
**ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bəhreyn xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 dekabr 2004-cü il*

**QAZAXISTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişoviç!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün Qazaxıstan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Fərəhli haldır ki, xalqlarımız arasında tarixən yaranmış dostluq, əməkdaşlıq və mehriban qonşuluq münasibətləri bu gün uğurla inkişaf edir və genişlənir.

Əminəm ki, biz xalqlarımızın rifahı naminə, regionda sülh və sabitlik naminə ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da genişlənməsini birgə səylərlə təmin edəcəyik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Qazaxıstan xalqına isə tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 dekabr 2004-cü il*

**NİGER RESPUBLİKASININ PREZİDENTİ ZATİALİLƏRİ**
**CƏNAB MAMADU TANDCAYA**

Hörmətli cənab Prezident!

Niger Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Niger arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 dekabr 2004-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN 2004-cü İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASDA NİTQ

*Prezident sarayı*

*7 dekabr 2004-cü il*

2004-cü il başa çatır. Bu il bütövlükdə uğurlu il olubdur. Bu gün Nazirlər Kabinetinin geniş iclasında biz ilə yekun vuracağıq, 2004-cü ildə baş vermiş hadisələri təhlil edəcəyik, ümumiyyətlə, bu il görülən işlər haqqında məlumatları dinləyəcəyik, fikir mübadiləsi aparacağıq.

**2004-cü ildə Azərbaycan bütün istiqamətlərdə öz siyasətini daha da inamla, daha da uğurla aparmışdır. Xarici siyasətdə ölkəmiz Dünya Birliyinə daha da sürətlə inteqrasiya etmiş, öz milli maraqlarını yüksək səviyyədə müdafiə etmiş, bütün ölkələrlə ikitərəfli münasibətlərini daha da inkişaf etdirmişdir. Xüsusilə qonşularımızla münasibətlərdə, deyə bilərəm ki, çox böyük addımlar atılmışdır. İkitərəfli müstəvidə, regional və çoxtərəfli formatda da qonşularımızla münasibətlərimiz daha da inkişaf edibdir. Bu bizim üçün çox vacibdir. Azərbaycan regionda artıq çox önəmli güc mərkəzinə çevrilir. Regionda bizim mövqelərimiz güclənir. Regional layihələr uğurla həyata keçirilir və beləliklə, bizə imkan verir ki, öz milli maraqlarımızı daha da sürətlə və uğurla inkişaf etdirək, müdafiə edək.**

**Azərbaycan beynəlxalq təşkilatlarda da çox uğurlu iş aparıbdır. Beynəlxalq təşkilatlarda mövqelərimiz, demək olar ki, çox böyük həcmdə güclənibdir. Avropa Birliyi, Avropa Şurası və Birləşmiş Millətlər Təşkilatındakı fəaliyyəti-**

miz uğurlu olubdur. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində atılmış addımlar, hesab edirəm ki, danışıqlar prosesinə müsbət təsir etmişdir. Artıq danışıqlar biz istədiyimiz məcrada davam etdirilir və Azərbaycanın ədalətli mövqeyi beynəlxalq təşkilatlar tərəfindən daha da dərindən dərk edilir və nəticədə danışıqlarda, demək olar, müsbət meyllər güclənibdir.

Azərbaycan öz mövqeyini birmənalı şəkildə bəyan etmişdir. Bu mövqe dəyişməz olaraq qalır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusuna çevrilə bilməz. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxmalıdır. Ancaq bu prinsiplərin əsasında hər hansı bir sülh müqaviləsindən söhbət gedə bilər. Bu bizim prinsipial, dəyişməz mövqeyimizdir və çox sevindirici haldır ki, bu mövqe dünyada başa düşülür və demək olar, artıq danışıqlarda əsas prinsip kimi tutulubdur. Bəziləri bizi günahlandırırlar ki, Azərbaycan çox davakar mövqe tutur, çox hücumlar edir. Amma bu da təbiidir. Çünki biz münaqişədə zərər çəkmiş ölkəyik və hələlik, əgər belə demək olsa, "soyuq müharibə" aparırıq və deyə bilərəm ki, çox məharətlə aparırıq. Bütün istiqamətlərdə Ermənistana təzyiqlər etmək üçün biz əlimizdən gələni edirik. Beynəlxalq təşkilatlarda, ikitərəfli formatda təbliğat baxımından bizim fəallığımız artıbdır. Bütün bunlar, əminəm ki, nəticədə bizə imkan verəcək ki, istədiyimizə nail olaq. Yəni beynəlxalq hüquq normaları öz əksini tapmalıdır, işğalçı qüvvələr torpaqlarımızdan çıxmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İndi danışıqlar xarici işlər nazirləri səviyyəsində aparılır. Lazım gələndə prezidentlər də bu danışıqlarda iştirak edir. Bir də demək istəyirəm ki, danışıqların prinsipləri dəyişməz olaraq qalır. Mən hesab edirəm ki, biz gələcəkdə səylərimizi daha da gücləndirəcəyik.

Bilirsiniz ki, eyni zamanda, biz başqa ölkələrdə Azərbaycan səfirliklərinin açılması istiqamətində işlər görmüşük.

**Çox ölkələrdə yeni səfirlik açılıbdır və Azərbaycan haqqında həqiqətlər daha da dolğun şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırılacaqdır. Eyni zamanda, biz həmişə öz iqtisadi və hərbi potensialımızı da gücləndirməliyik. Bu istiqamətdə də böyük işlər görülübdür. Xüsusilə 2004-cü ildə ordu quruculuğu sahəsində böyük işlər görülüb, ordunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində böyük addımlar atılıbdır. Ordumuz müasirləşir, yeni müasir texnika ilə təchiz olunur. Buna böyük diqqət göstərilir və bu il ərzində müxtəlif hərbi hissələrə etdiyim səfərlər, keçirdiyim baxışlar, görüşlər bir daha onu göstərir ki, bizim ordumuz günü-gündən güclənir və qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Biz gələcəkdə bu sahəyə böyük diqqət göstərəcəyik.**

**Bilirsiniz ki, bu ilin büdcəsinə əlavələr ediləndə də, ilk növbədə, orduya ayrılan vəsaitin həcmi artırılıbdır. Gələn il orduya ayrılan vəsait təxminən 30 faiz artırılacaqdır. Lazım gələrsə, növbəti illərdə biz bunu 50 faiz, 100 faiz, 200 faiz də artıra bilərik. Azərbaycanın iqtisadi potensialı buna imkan verir və heç kim, xüsusilə bizim torpaqlarımızı zəbt edən Ermənistan bu baxımdan bizimlə rəqabət apara bilməz. Ermənistanın bugünkü büdcəsi cəmi 500 milyon dollardır. Halbuki Azərbaycanda orduya nəzərdə tutulan xərclər təxminən 250 milyon dollardır və öz torpaqlarımızı işğalçılardan azad etməyənə qədər biz bu məbləğləri artıracağıq və ondan sonra da biz həmişə ordumuzu çox yüksək səviyyədə saxlamalıyıq, gücləndirməliyik.**

Əlbəttə, bunu etmək üçün iqtisadi potensial, iqtisadi baza lazımdır, maliyyə imkanları lazımdır və bunlar da yaradılır. Hamımız yaxşı bilirik ki, Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmış və uğurla davam etdirilən iqtisadi islahatlar ölkəmizə böyük uğurlar gətirdi, bizim maliyyə bazamız gücləndi. 1995-ci ildən 2003-cü ilə qədər ümumi daxili məhsul 90 faiz artmışdır. Xarici ticarət dövriyyəsi 4 dəfə artmışdır. Orta əməkhaqqı 6 dəfə, pensiyalar 8 dəfə

artmışdır. Bütün maliyyə mənbələri hesabına Azərbaycana, Azərbaycan iqtisadiyyatına 22 milyard dollar sərmayə qoyulmuşdur. Uğurlu iqtisadi islahatların aparılması bu gün bizə imkan verir ki, həm ölkənin ehtiyaclarını daha böyük həcmdə ödəyək, həm də orduya daha da böyük məbləğdə vəsait ayıraq. Ümumiyyətlə, müstəqil siyasətin aparılması üçün iqtisadi potensial əsas şərtdir.

Bu gün Azərbaycan tam mənada müstəqil siyasət aparır, heç kimdən asılı deyil, heç bir başqa ölkədən asılı deyil və öz siyasətini yalnız və yalnız Azərbaycan xalqı naminə aparır. Əminəm ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da güclənməsinə yönəlmiş bu siyasət Azərbaycan xalqının maraqlarına tam cavab verir. Bir də demək istəyirəm ki, iqtisadi potensialımız olmasaydı, ola bilər ki, bəlkə biz də Ermənistan kimi müxtəlif ölkələrə, müxtəlif dairələrə yalvararaq, xahiş edərək yardımlar haqqında da fikirləşərdik. Halbuki biz onu da bilməliyik ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, Ermənistandan fərqli olaraq, bizə böyük yardımlar göstərilmirdi. Xalqımızın ümummilli lideri məhz öz potensialımıza istinadən, öz gücümüzə güvənərək Azərbaycanı anarxiyadan, böhrandan, iqtisadi tənəzzüldən bugünkü tərəqqi yoluna gətirib çatdırmışdır.

2004-cü ildə iqtisadiyyatda bu müsbət meyllər daha da güclənmişdir. Ümumi daxili məhsul təxminən 10 faiz artmışdır, əhalinin pul gəlirləri təxminən 20 faiz, orta əməkhaqqı 26 faiz artmışdır və bu gün 478 min manat təşkil edir. Yəni ilk dəfə olaraq, Azərbaycanda orta əməkhaqqı təxminən 100 dollara yaxınlaşır, gələn il bunu keçəcəkdir və gələcəkdə sürətlə artacaqdır.

Xarici ticarət dövriyyəsi 40 faiz artmışdır və ölkənin valyuta ehtiyatları bu gün 1 milyard 800 milyon dollara bərabərdir. Bütün bunlar onu göstərir ki, 2004-cü il bizim üçün uğurlu olubdur. Əlbəttə, bu uğurun da səbəbləri var. Bayaq qeyd etdiyim kimi, Azərbaycanda Heydər Əliyev tərəfindən yaradılmış çox güclü iqtisadi baza və gələcək inkişaf üçün yaradılmış çox əlverişli iqtisadi mühit vardır. 2004-cü ildə biz bu vəziyyətdən çox

uğurla istifadə etdik, görülən tədbirlərin nəticəsində bütün bu iqtisadi göstəricilərin əldə olunması mümkün olmuşdur.

2004-cü ildə struktur dəyişiklikləri aparılmışdır. Bildiyiniz kimi, yeni nazirliklər təşkil olunmuşdur. İlin əvvəlində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaranmışdır. Bilirsiniz ki, informasiya texnologiyaları bu gün dünyada çox böyük əhəmiyyət daşıyan bir sahədir. Böyük potensialı, perspektivləri olan bir sahədir. Azərbaycan da burada geri qalmamalıdır. Biz bu sahədə də böyük addımlar atmalıyıq.

Kənd Təsərrüfatı Nazirliyi yenidən təşkil olundu. Əminəm ki, bu, kənd təsərrüfatında proseslərin daha sürətlə getməsinə imkan verəcəkdir. Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olan insanların sayı çoxdur. Onlar üçün şəraitin yaradılması, xüsusilə «Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaradılması böyük sayda texnikanın gətirilməsinə imkan verəcəkdir. Gələn iki ildə bu məqsədlərə 250 milyard manat vəsait nəzərdə tutulub ki, bu da kəndlilərin texnika ilə təmin edilməsi üçün yaxşı şərait yaradacaqdır. Tam ödəməyəcək, amma təbii ki, biz də 250 milyard manatla kifayətlənməyəcəyik, bu məbləği artıracağıq və nəticədə texnika çatışmazlığı aradan götürüləcəkdir.

Dünən Sənaye və Energetika Nazirliyinin yaradılması haqqında Fərman imzaladım. Bu nazirliyin üzərinə də böyük funksiyalar düşür. Azərbaycanda sənaye potensialı çox güclüdür və keçmişdə də güclü olubdur. Son zamanlar bu sahə bir az diqqətdən kənarda qalmışdır və biz öz sənaye potensialımızı gücləndirmək üçün çox böyük addımlar atmalıyıq, investisiyalar cəlb etməliyik. Yeni iş yerlərinin yaradılması o cümlədən sənaye kompleksində də olacaqdır.

«Azərsu» Səhmdar Cəmiyyəti yaradıldı. Su təsərrüfatında olan pərakəndəlik aradan götürüləcəkdir. Artıq orada görülən işlər deməyə əsas verir ki, bu sahədə də nizam-intizam və bir sistem yaranacaqdır. Əfsuslar olsun ki, bu vaxta qədər heç bir sistem yox idi və heç kəs də bilmirdi ki, kim nə ilə məşğul olur.

Azərbaycan bazar iqtisadiyyatı prinsiplərinə sadiqdir. Biz bu prinsipləri yüksək tuturuq. Əlbəttə, sahibkarlara bundan sonra

da diqqət göstəriləcəkdir. Mən bu il sahibkarlarla keçirdiyim çoxlu görüşlərdə onlara birmənalı şəkildə öz dəstəyimi bildirdim. Bunu bu gün də təsdiq edirəm. Azərbaycanın ümumi daxili məhsulunda özəl sektorun payı 74 faizdir. Verilən məlumata görə, gələn il 77 faizə qalxacaqdır. Əlbəttə, bu, gələcəkdə daha da artmalıdır. Amma bunu deyəndə onu da nəzərdə tutmalıyıq ki, Azərbaycan iqtisadiyyatının əsas sahəsi olan neft sənayesi dövlət inhisarındadır. Əgər biz ümumi daxili məhsuldan neft amilini götürsək, görərik ki, sahibkarların payı, yəni özəl sektorun payı neftdən kənar ümumi daxili məhsulda daha da yüksəkdir.

Sahibkarlara kömək etmək məqsədilə bu il onlara verilən kreditlərin həcmi 100 milyard manat səviyyəsində olubdur. Gələn il biz bu məbləği iki dəfə qaldıracağıq. Sahibkarlara kredit şəklində 200 milyard manat veriləcəkdir. Çünki sahibkarlıqla məşğul olmaq istəyənlərin böyük əksəriyyətinin o vəsaitə ehtiyacı var. Yəni boş yerdən, vəsaitsiz heç bir sahibkarlıqla məşğul olmaq mümkün deyildir. Düzdür, bəzi qurumlar var, insanlar var, onların öz vəsaitləri var və onu sərmayə şəklində işlədirlər. Amma böyük əksəriyyətin belə imkanları yoxdur. Dövlət öz qayğısını bu sahədə də göstərməlidir və göstərir.

Son 10 ayda əsas kapitala yönəldilən investisiya 43 faiz təşkil etmişdir. Xarici investisiya 48 faiz artmışdır və bütövlükdə 4 milyard dollara bərabərdir. Bu gün və sabah Azərbaycan üçün ən önəmli sahə olan neft sektoru bu il uğurla inkişaf edibdir. Xarici tərəfdaşlarla birlikdə nəzərdə tutulmuş bütün layihələr, proqramlar, müqavilələr uğurla icra edilir. Heydər Əliyevin neft strategiyası uğurla həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisinin artıq başlanması bir daha onu göstərir ki, biz bu yolda uğurla addımlayırıq, Azərbaycan dünya üçün, ilk növbədə, özü üçün ən önəmli layihələri çox uğurla, vaxtlı-vaxtında icra edir. Əlbəttə, bu bizə imkan verəcək ki, gələcəkdə iqtisadi potensialımız daha da artsın, maliyyə imkanlarımız genişlənsin və Azərbaycan öz neft potensialını tam şəkildə işə sala bilsin.

Eyni zamanda, Dövlət Neft Şirkətinin özünün məşğul olduğu layihələr də mövcuddur. Biz artıq bu barədə müzakirələr aparmışıq. Hesab edirəm ki, gələn ildə yeni layihələr üzrə işlər gedəcək və beləliklə, Dövlət Neft Şirkətinin qaz və neft hasilatı artırılacaqdır. Bu sahədə də görülən işlər bizi tam mənada qane edir. Azərbaycan sübut edir ki, o çox etibarlı tərəfdaşdır. Xarici sərmayə üçün çox münasib yerdir.

Biz bu il Heydər Əliyevin neft strategiyasının 10-cu ildönümünü qeyd edərək bəyan etdik ki, bu strategiya, bu siyasi, prinsipial xətt davam etdiriləcəkdir. Azərbaycanın neft potensialı Azərbaycan xalqına xidmət edir və gələcəkdə Azərbaycana, Azərbaycanın xəzinəsinə daha böyük həcmdə valyuta ehtiyatlarının gətirilməsinə imkan verəcəkdir.

Regional inkişaf proqramı qəbul edilibdir. Bu, demək olar ki, ümumiyyətlə, bizim iqtisadi baxımdan görülən işlərin yeni bir istiqamətidir. Düzdür, həmişə bu sahəyə diqqət göstərilirdi, amma belə kompleks, sistem şəklində, düşünülmüş bir proqram çərçivəsində, demək olar, bu istiqamətin əsas parametrləri bu il müəyyən olunubdur. Deyə bilərəm ki, bizim bu sahədə gördüyümüz işlər də təqdirəlayiqdir. İndi regionlarda böyük canlanma var, böyük işlər – abadlıq, quruculuq işləri görülür.

**Yeni iş yerlərinin açılması da çox sevindirici haldır və onların böyük əksəriyyəti məhz regionlarda açılır. Yeni iş yerlərinin açılması istiqamətində atılmış bütün addımlar uğur gətirir. Son bir il ərzində 110 mindən artıq, bəlkə ondan da çox – çünki bu məlumatlar tez-tez dəyişir – iş yeri açılmışdır. İş yerlərinin açılması o qədər sürətlə gedir ki, demək olar, biz gərək hər ay bu rəqəmlərə düzəlişlər edək. Hər halda, mənə verilən son məlumata görə, 110 mindən artıq yeni iş yeri açılıbdır. Əhalisi 8 milyon olan ölkə üçün bir il ərzində 110 min iş yerinin açılması çox böyük uğurdur. Deyə bilərəm ki, bəlkə də analoqu olmayan bir nəticədir. Bu bir də onu göstərir ki, bizim bütün planlarımız, bəyan edilmiş bütün proqramlar reallıqlara söykənir. Sadəcə olaraq, işi düzgün qurmaq lazımdır. Qoyulmuş məqsədə uğurla,**

**inamla yaxınlaşmaq və bütün nəzərdə tutulan proqramları yerinə yetirmək lazımdır.**

Sosial məsələlərə də böyük diqqət göstərilibdir. Maaşlar, pensiyalar, digər sosial ödəmələr həm vaxtlı-vaxtında ödənilir, eyni zamanda, burada böyük artım müşahidə olunubdur. Minimum əməkhaqqı qalxıbdır. 2004-cü ilin əvvəlində minimum əməkhaqqı 45 min manat idi. Sonra 60 min manat oldu. Ondan sonra 100 min manat oldu və gələn il yanvarın 1-dən 125 min manat olacaqdır. Yəni bu meyl göstərir ki, artım davam edəcəkdir. Əlbəttə, 125 min manat böyük məbləğ deyildir. Biz bunun hamısını yaxşı başa düşürük və anlayırıq. Amma o da faktdır ki, müqayisədə bu bəlkə də iki dəfədən çox artıbdır. Minimum əməkhaqqının qaldırılması, ümumiyyətlə, Azərbaycan xalqının rifah halının yaxşılaşması bizim üçün çox önəmli məsələdir və mən bunu bir də demək istəyirəm ki, ildən-ilə Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır və daha da yaxşı yaşayacaqdır.

Sosial sahəyə bundan sonra da diqqət göstəriləcəkdir. Xüsusilə ən çətin vəziyyətdə yaşayan soydaşlarımız – qaçqınlar, məcburi köçkünlər üçün yeni şəraitin yaradılması da nəzərdə tutulubdur. Bu istiqamətdə də müvafiq fərmanlar verilibdir və bu gün onlar icra edilir. Ağdam rayonunun işğaldan azad olunmuş ərazisində yeni şəhərciklər salınır və Bərdə rayonunda ən çətin vəziyyətdə, çadır şəhərciklərində, vaqonlarda yaşayan soydaşlarımız yeni evlərə köçürüləcəklər. Orada bütün şərait yaradılacaqdır. Artıq bu təcrübə bizdə var. Xalqımızın ümummilli lideri Heydər Əliyevin tapşırığı ilə Azərbaycanın Dövlət Neft Fondundan ilk ödəmələr məhz ən çətin vəziyyətdə yaşayan qaçqınlar, köçkünlər üçün yeni şəraitin yaradılmasına yönəldilmişdir. Biz bütün başqa sahələrdə olduğu kimi, bu siyasəti də davam etdiririk.

2005-ci ildə görüləcək işlər haqqında artıq tam təsəvvür vardır. 2005-ci ilin büdcəsi artıq təsdiq edilibdir və artıq hamı bilir ki, bizi nələr gözləyir. İqtisadi proqnozlar da verilibdir. Çox sevindirici proqnozlardır. Proqnozlara görə, ümumi daxili məhsul, haradasa, 14 faiz artacaqdır. Büdcə gəlirləri 25 faiz, orta əmək-

haqqı 22 faiz artacaqdır. İxrac 70 faiz, xarici ticarət dövriyyəsi 53 faiz artacaqdır. Xarici sərmayələr və ümumiyyətlə, investisiya qoyuluşu 4,5 milyard dollar təşkil edəcəkdir. Bunlar proqnozlardır. Amma artıq biz öyrəşmişik ki, proqnozları həmişə, necə deyərlər, artıqlamasilə yerinə yetiririk. Mən ümid edirəm ki, bu proqnozlar da həyatda öz real əksini tapacaqdır və biz daha da böyük işlər görə biləcəyik.

Bütün bu uğurlara nail olmaq üçün, əlbəttə, gərək biz işimizi çox səmərəli quraq. Əlbəttə, ölkədə problemlər də az deyil, yoxsulluqla mübarizə davam etdirilir, işsizliklə mübarizə davam etdirilir. Digər iqtisadi və sosial problemlər cəmiyyətimizi narahat edir. Biz bunları bilirik və çalışırıq ki, bunları aradan götürək.

Əlbəttə, bir il ərzində, beş il ərzində böyük işlər görülübdür. Əgər biz son on ilə nəzər salsaq, görərik ki, Azərbaycan nə vəziyyətdə idi, bu gün nə vəziyyətdədir. Azərbaycan regionda, postsovet məkanında ən geridə qalmış ölkə idi. İqtisadiyyatı dağılmış, ərazisi işğal edilmiş, daxildə vətəndaş qarşıdurması baş vermişdi. Demək olar ki, Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən məhv olurdu. Bu gün Azərbaycan – bunu təkcə biz deyil, bütün beynəlxalq maliyyə qurumları və eyni zamanda, bütün dünya ictimaiyyəti etiraf edir – regionda aparıcı ölkədir. Artıq regionda Azərbaycan güc mərkəzinə çevrilibdir və başqa ölkələr üçün də örnək ola bilər.

Bütün bu müsbət meylləri gələcəkdə də gücləndirmək üçün bütün başqa amillərlə yanaşı, əlbəttə ki, ölkədə hökm sürən əmin-amanlıq, sabitlik, asayiş böyük rol oynayacaqdır. Biz buna nail olmuşuq. Yenə də xalqımızın ümummilli lideri Heydər Əliyevin qətiyyəti, uzaqgörənliyi, cəsarəti nəticəsində ölkədə tam mənada sabitlik, əmin-amanlıq bərqərar olunubdur. Vaxtilə əlində silah meydan oxuyan bütün qeyri-qanuni birləşmələr ləğv edildi. Artıq bunlar yoxdur və heç vaxt da olmayacaqdır. Qazandığımız bütün uğurlara gələcəkdə də nail olmaq üçün, qarşımızda duran planları yerinə yetirmək üçün sabitlik, əmin-amanlıq, sülh, asayiş olmalıdır və olacaqdır. Artıq buna cəmiyyətdə heç kimin şübhəsi yoxdur. Bizim, Azərbaycanı idarə edən

şəxslərin də borcudur ki, bu sabitliyi qoruyaq, saxlayaq. Elə edək ki, bundan sonra Azərbaycan xalqı daim sülh, əmin-amanlıq, rifah şəraitində yaşasın, xalqımızın rifah halı yaxşılaşsın. Azərbaycan dünyada daha da güclü mövqelərə sahib olsun. Bir sözlə, bizim doğma Vətənimiz daha da çiçəklənsin, inkişaf etsin.

## YEKUN NİTQİ

Yaxşı, biz işimizi yekunlaşdıraq. Hesab edirəm ki, çox lazımlı müzakirələr aparıldı, bu il ərzində görülən işlər təhlil olundu. Bir daha gördük ki, doğrudan da, iqtisadi uğurlar göz qabağındadır. Əlbəttə, bu bizi tam şəkildə qane edə bilməz. Çünki ölkədə hələ çoxlu problemlər var, həll olunmamış problemlər var, iqtisadi, sosial problemlər var. Ancaq əldə edilmiş nəticələr və bu dinamika onu göstərir ki, biz düz yoldayıq. Azərbaycan düz yolla gedir, inkişafımız da sürətlidir. Əgər indi regionla, ümumiyyətlə, başqa yerlərlə, başqa ölkələrlə müqayisə aparsaq, görərik ki, iqtisadi inkişafın dinamikasına görə Azərbaycan ən qabaqcıl yerlərdədir. Yəni bizim ölkəmiz çox dinamik şəkildə inkişaf edir, öz iqtisadi potensialını gücləndirir. Bu, bütün sahələrdə öz əksini tapır. Azərbaycana gələn hər bir qonaq, hər bir xarici vətəndaş, yaxud uzun müddət Azərbaycanda olmayan və sonra gələn hər bir insan burada gedən dəyişiklikləri də, müsbət dinamikanı da görür. Bunu biz də görürük. Amma, əlbəttə, bu bizi arxayın etməməlidir. Əksinə, əldə edilmiş nəticələr bizi daha da fəallaşdırmalıdır. Biz daha da fəal olmalıyıq, öz vəzifələrimizə daha da məsuliyyətlə yanaşmalıyıq ki, ölkəmiz daha da inkişaf etsin, daha da güclənsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın.

Bunu etmək üçün hər cür imkan var, şərait var. Qəbul edilmiş proqramlar, müəyyən edilmiş işlər düzgün istiqamətdə atılmış addımlardır. Bunu dünya praktikası təsdiq edir. Bizimlə bərabər işləyən beynəlxalq maliyyə qurumları da bunu təsdiq edir. Ən önəmlisi isə, Azərbaycan xalqı da bunu alqışlayır və dəstək-

ləyir. Əlbəttə, bütün bu iqtisadi islahatları aparmaq üçün çox böyük səylər lazımdır. İndi də bu səyləri göstəririk. Amma bizə güc, ruh verən amil odur ki, görülmüş bütün işlər Azərbaycan xalqı tərəfindən lazımınca qiymətləndirilir və əlbəttə, bizə imkan verir ki, bu yolla uğurla irəliləyək.

Mən əvvəldə qeyd etdim ki, bu yol yeganə düzgün yoldur. Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiya həm xarici siyasətdə, daxili siyasətdə, iqtisadiyyatda, həm də bütün başqa sahələrdə həyatda öz əksini tapıbdır. Yəni əldə edilmiş nailiyyətlərdə öz əksini tapıbdır və əminəm ki, bundan sonra bizi bu yoldan heç kim və heç bir qüvvə döndərə bilməz.

Mən hökumətin fəaliyyəti ilə bütövlükdə razıyam. Hesab edirəm ki, bunu həm iqtisadi göstəricilər, həm də real həyat göstərir. İnsanlarımızın rifah halının yaxşılaşması da onu göstərir ki, görülən işlər düz istiqamətdə atılmış addımlardır. Gələcəkdə daha da böyük işlər olacaqdır. Biz Azərbaycanı müasirləşdirməliyik, yeni infrastruktur layihələrini həyata keçirməliyik. Dövlət tərəfindən investisiya xətti ilə həyata keçirilən ən prioritet məsələ infrastruktur layihələridir – yollar, elektrik stansiyaları, su təminatı və digər infrastruktur layihələri. Onlar, ümumiyyətlə, iqtisadi inkişaf üçün, gələcək iqtisadi inkişaf üçün daha da güclü zəmin yaradacaqdır, sərmayələrin gətirilməsinə daha da gözəl şərait yaradacaqdır. Bütün bu layihələr, planlar gündəlikdə var. Əminəm ki, 2005-ci il bu baxımdan bizim üçün uğurlu olacaqdır.

2005-ci il, eyni zamanda, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi ilə də tarixdə qalacaqdır. Bu kəmər də xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinə Heydər Əliyevin adı verilmişdir. Onun işə düşməsi bizə gələcəkdə daha da böyük imkanlar, əlverişli şərait yaradacaqdır.

Amma eyni zamanda, biz iqtisadiyyatı, iqtisadi siyasətimizi elə qurmalıyıq ki – neft amili burada çox böyük rol oynayacaq, amma biz öz siyasi, iqtisadi planlarımızı bunu rəhbər tutub qurmamalıyıq – sanki Azərbaycanda neft yoxdur, sanki Azərbay-

can neft ölkəsi deyildir. Qeyri-neft sektorunun inkişafı, yeni texnologiyaların tətbiq olunması, müasir yanaşmanın həyatda öz əksini tapması bizim gələcək uğurlarımızın əsasını qoyacaqdır.

Neft böyük sərvətdir. Eyni zamanda, böyük başağrısıdır. Əgər biz neft hasil edən ölkələrə nəzər salsaq, görərik ki, neft o ölkələrin heç də hamısına xoşbəxtlik gətirməyibdir. Bunu tarix göstərir. Bu sərvəti necə işlədəcəyimiz, bundan necə istifadə edəcəyimiz bizim özümüzdən asılı olacaqdır. Bütün bunları əvvəlcədən, bəri başdan görən, təsəvvür edən xalqımızın ümummilli lideri Heydər Əliyevin göstərişi, tapşırığı əsasında Neft Fondu yaradılmışdır. Əgər Neft Fondu yaradılmasaydı, indi orada yığılan 900 milyon dollar vəsait harada olacaqdı, onu Allah bilir. Məhz bu məqsədlə bu fond yaranıb ki, xalqın vəsaiti, xalqın əmanəti şəffaf, açıq şəkildə orada saxlanılsın, Azərbaycanın inkişafına xidmət etsin və gələcək nəsillərə də xidmət etsin. Mən əminəm ki, nəzərdə tutulan bütün planlar həyatda öz əksini tapacaqdır.

Qeyd etdim ki, hökumətin fəaliyyətinə müsbət münasibət bəsləyirəm, görülən işləri də bəyənirəm. Bəzi hallarda hökumət üzvləri özlərinə aid olmayan məsələlərə qarışırlar, müdaxilə edirlər. Hərə ona tapşırılan sahəyə cavabdehlik daşıyır və ona tapşırılan sahə ilə məşğul olmalıdır. Əgər kiminsə iradı var, təklifi varsa, bu təbiidir. Bu iradı, təklifi ifadə etmək üçün münasib şərait var. Nazirlər Kabineti, Baş nazir, Prezidentin İcra Aparatı, prezident var. Hər bir hökumət üzvünün hansısa sahə ilə əlaqədar hansısa fikri ola bilər. Amma bu o demək deyil ki, biz bunu ictimaiyyət qarşısına çox yaramaz formada çıxarmağa başlayaq. Mən bunu bəyənmirəm. Bu mənim xoşuma gəlmir. Ümumiyyətlə, bizim iş prinsiplərimizə ziddir. Hər bir hökumət üzvü, hər bir nazir, hər bir məmur ona tapşırılan vəzifəni vicdanla, ləyaqətlə, peşəkarlıqla icra etməlidir. Vəssalam.

Hökumət üzvü məmurdur, siyasətçi deyildir. Kim siyasətçi olmaq istəyirsə, bu onun öz işidir. Amma məmur öz işi ilə məşğul olmalıdır. Yenə də deyirəm, mən hesab etmirəm ki, hansısa

başqa kürsülər, necə deyərlər, başqa forumlar bir-birinə, yaxud bir-birinin işinə verilən qiyməti səsləndirmək üçün məqbul yerdir. Xeyr, elə deyildir. Bu bəlkə də hansısa bir siyasətçi üçün, deputat üçün, ictimai xadim üçün mümkündür və ola bilər. Amma məmurun öz çərçivələri var. Yenə də deyirəm, bütün məsələləri Nazirlər Kabinetinin iclasında müzakirə etmək olar. Prezidentə, Baş nazirə öz iradını, təklifini şifahi, yaxud yazılı formada təqdim etmək, çatdırmaq olar. Mən bu prinsiplərin tərəfdarıyam, başqa prinsipləri qəbul etmirəm.

Əlbəttə, bilirsiniz, belə hallar istisna kimi baş verir. Amma təbii ki, belə hallar, ümumiyyətlə, cəmiyyətə çox yanlış bir mesaj göndərir. Biz, Azərbaycan iqtidarı seçkilərdən əvvəl də, seçkilərdən sonra da vahid bir komanda kimi fəaliyyət göstəririk. Mən də Baş nazir təyin olunandan və ondan sonra prezident vəzifəsinə seçiləndən bu prinsiplərlə yaşayıram və bunu açıq şəkildə bəyan etmişəm və bəyan etdiyim prinsiplərə sadiqəm. Bütün verilən sözlərə də sadiqəm. Bizim də gücümüz, bütün başqa amillərlə yanaşı, o cümlədən bizim birliyimizdədir. Əgər indi daxildə hansısa bir ziddiyyət baş verirsə, prezident kimi, mən məcburam ki, bunu istənilən yolla aradan götürəm.

Ona görə bir daha deyirəm ki, belə hadisələrin baş verməsi məni qane etmir. Təbii ki, bu, əks-reaksiya doğurur. Kimsə açıq, kimsə gizli formada müəyyən hallarda bəzi kütləvi informasiya vasitələrini də bu işlərə cəlb edərək bir-biri ilə mübarizə aparmaq istəyirlər. Mübarizə aparmaq istəyirsinizsə, buna çox gözəl qanuni yol var. O da ki, siyasətə qoşulmaq, vəzifədən getməkdir. Burada da heç bir faciə yoxdur. Kim istəyir, bu yol açıqdır. Kim siyasətlə məşğul olmaq istəyir, məşğul olsun, görək necə məşğul olacaq. Kim burada ictimai xadim olmaq istəyir, mən etiraz etmək istəmirəm.

İndi Azərbaycanda bu sahədə boşluq yaranıbdır. Prezident seçkilərindən sonra xüsusilə müxalifət özü-özünə vurduğu zərbədən hələlik ayıla bilmir. Faktiki olaraq, indi Azərbaycanda müxalifətin, demək olar ki, mövcudluğu hiss olunmur. Bunun da səbəbkarı elə müxalifətin özüdür. Hamı bilir ki, iqtidar tərə-

findən müxalifətə qarşı heç bir addımlar, yaxud tədbirlər görülmürdü və bizim belə fikrimiz də yoxdur. Ümumiyyətlə, gündəlik həyatda onlar haqqında heç fikirləşmirik. Çünki bu, artıq Azərbaycanın ictimai-siyasi həyatında bir amil deyildir. Sadəcə olaraq, bir fondur, yaxud görüntüdür. Yəni burada boşluq var.

İndi müxalifət liderləri ancaq xarici səfərlərdə, hansısa xarici təşkilatın onuncu dərəcəli məmuru ilə görüşdə özlərinə təsəlli tapırlar. Yaxud da xarici ölkələrdə boynuna bant bağlayaraq mitinqlərdə çıxışlarda. Gəlsin burada mitinqdə çıxış etsin. Hünəri varsa, gəlsin bir dəfə mitinq təşkil etsin, özü də çıxış etsin. İstəyir boynuna lap bant yox, başqa şey də bağlasın. Yoxdur, bu qurtardı. Bu da reallıqdır. Azərbaycan xalqı heç vaxt bir daha imkan verməz ki, Azərbaycanın əleyhinə, Azərbaycanın milli maraqlarına zidd hərəkətlər burada özünə hansısa bir meydan tapsın. Bu, mümkün deyildir. Azərbaycan xalqı bu cür müxalifətdən artıq bezibdir və prezident seçkiləri bunu açıq şəkildə göstərdi. Prezident seçkilərindən keçən dövr ərzində, bir ildən artıq vaxt keçib, bunlar yoxdur və olmayacaqlar. Çünki bu, xalqın sifarişidir, xalqın tələbidir.

Azərbaycanın inkişafı tam başqa istiqamətdə gedir. Biz yaradıcılıq, quruculuq işləri ilə məşğuluq. Ölkəmizi gücləndiririk, ölkənin iqtisadi potensialını, dünyadakı imicini qaldırırıq. Beynəlxalq məsələlərdə qətiyyətli mövqeyimiz daha da böyük dəyər qazanır. Yenə də deyirəm, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın prinsipial, qətiyyətli mövqeyi başa düşülür. Lap başa düşülməsə də, biz bu mövqedən çəkinməyəcəyik. Çünki bu, Azərbaycan xalqının maraqlarına cavab verir.

Yəni onu demək istəyirəm ki, o demək deyil ki, müxalifət olmayanda, burada kimsə kiminləsə daxildə mübarizə aparsın. Bu elə deyil və elə də olmayacaqdır. Ona görə məsləhətim budur ki, bu işlərdən uzaq olmaq lazımdır. Bu heç kimə siyasi kapital gətirə bilməz. Ümumiyyətlə, nazir siyasi kapital haqqında düşünməməlidir. Düşünməlidir ki, prezidentin etimadını necə doğrultsun. Öz fəaliyyətimizlə, işimizlə, xalqa xidmətimizlə,

Vətənə xidmətimizlə bu etimadı hər birimiz doğrultmalıyıq. Mən Azərbaycan xalqı qarşısında, Azərbaycan xalqı mənə inanıb məni seçibdir. Siz də sizə inanan prezidentin və xalqın qarşısında. Bu cür. Başqa cür ola bilməz.

Mən daha dərinə getmək istəmirəm. Hesab edirəm ki, dediyim kifayətdir. Əminəm ki, həmişə olduğu kimi, bundan sonra da bütün hökumət üzvləri arasında işgüzar münasibətlər olacaq və bu münasibətlər bizə imkan verəcəkdir ki, bütün iqtisadi planlarımızı uğurla həyata keçirək.

Sağ olun.

## MDB ÜZRƏ YƏHUDİ CƏMİYYƏTLƏRİ FEDERASİYASININ, İSRAİL–RUSİYA KOMMERSİYA-TİCARƏT PALATASININ PREZİDENTİ LEV LEVAYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 dekabr 2004-cü il*

*Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı İlham Əliyev onlarla görüşməkdən məmnun olduğunu bildirərək dedi ki, tarixən bizim ölkədə millətlərarası, konfessiyalararası münasibətlər qarşılıqlı hörmət və dostluq əsasında qurulmuşdur. Bu ənənədir və bizim dövlətimizin gücüdür. Belə vəziyyət ölkəmizin bütün tarixi boyu olmuşdur və əlbəttə ki, Azərbaycan dövləti müstəqilliyini əldə etdikdən sonra bu, dəqiq formasını almışdır.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda çoxlu millətlərin və dinlərin nümayəndələri yaşayır, biz həmişə bir-birimizə hörmət və məhəbbətlə yanaşırıq. Bizim ölkədə milli-dini tolerantlıq yüksək səviyyədədir və bunu hamı etiraf edir. Bunu çox qiymətləndiririk və hesab edirəm ki, bu bizim milli nailiyyətimizdir. Azərbaycanda yaşayan yəhudilərə tarixən, o cümlədən sovet dövründə də böyük hörmət bəslənmişdir. Biz həmişə sülh, əmin-amanlıq və qarşılıqlı hörmət olmasına çalışmışıq. Ümumiyyətlə isə, buna heç bir səy göstərməyə ehtiyac da yoxdur, çünki cəmiyyət özü belə dəyərlərlə yaşayır. Əlbəttə ki, biz istərdik ki, müsbət ənənələr davam etsin və Azərbaycanın yeni nəsli buna qayğı ilə yanaşsın.*

*Dövlətimizin başçısı dedi ki, bu gün də Azərbaycan və yəhudi xalqları arasında yaxşı anlaşma və yaxşı münasibətlər var.*

*Biz bunu qiymətləndiririk. Yəqin ki, sizin də bu məsələlərlə bağlı MDB çərçivəsində, dünyadan xəbəriniz var. Hökumətimiz, şəhər rəhbərliyi yəhudi icmasının möhkəmlənməsi üçün nə lazımdırsa edir.*

*Dövlətimizin başçısı ilə görüşdən çox şad* olduğunu bildirən qonaq dedi ki, *mən ilk dəfə Azərbaycana il yarım bundan əvvəl, ötən ilin aprelində dəvət* olunmuşdum. *Bakıda bir sıra görüşlərim oldu. Bizim nümayəndə heyətinin Azərbaycanın prezidenti Heydər Əliyevlə görüşü unudulmaz oldu. Onunla görüşən zaman əvvəl hansı problemin olduğunu bizdən soruşdu. Cənab prezident soruşdu ki, insan üçün həyatda ən əziz* olan *nədir? – Uşaq, deyə cavab verdik. Cənab prezident dedi ki, sizin məktəbiniz işləyəcək və inkişaf edəcəkdir. Mən cənab prezidenti yəhudi məktəbinin açılışına dəvət* etdim. *Mənim üçün böyük fəxrdir ki, Sizin atanızla tanış* olmuşam. *Biz onun vəfatı xəbərini eşidəndə çox məyus* olduq *və bütün* Rusiyanın *ravvinləri yığışıb buraya gəlmişdik. İndi də Sizinlə görüşdən* sonra *biz Heydər Əliyev Fondunu ziyarət etmək fikrindəyik. O, həqiqətən də* dahi *şəxsiyyət olub və uzun illər liderlik edibdir.*

*İctimai quruluşdan asılı* olmayaraq, *Heydər Əliyev həmişə – həm Sovet İttifaqı dövründə, həm də müstəqillik əldə ediləndən sonra xalqın lideri olubdur.*

*Qonaq xatırlatdı ki, iki gün əvvəl başlanmış Xanuka bayramı yəhudilərin ən əziz bayramıdır. 8 gün davam edən bayramın əsas mərasimi şamların yandırılmasıdır. Nümayəndə heyətinin Bakıda keçirdiyi bayram tədbirinə prezident İlham Əliyev də dəvət* olunub *və şamı yandırmaq şərəfinə layiq görülmüşdür.*

*Dövlətimizin başçısı şamı yandırdı və qonaqları bayram münasibətilə təbrik etdi, onlara uğurlar arzuladı.*

## XALQ ŞAİRİ NƏBİ XƏZRİYƏ

Hörmətli Nəbi Xəzri!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini anadan olmağınızın 80 illiyi münasibətilə səmimiqəlbdən təbrik edirəm, Sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Vətənə, xalqa, torpağa sonsuz sədaqətlə bağlı şair kimi, Sizin adınız XX əsr milli poeziyamızın nümayəndələri sırasında dərin ehtiramla çəkilir. Müasirlərimizin mənəvi aləmini, düşüncə və axtarışlarını yüksək bədiiliklə əks etdirən əsərləriniz bəşəriliklə milliliyi özündə üzvi şəkildə birləşdirmiş, milli ədəbiyyatımızı zənginləşdirən bir hadisə ola bilmişdir.

Sizin yaradıcılığınız dünya, insan və təbiət haqqında dərin fəlsəfi məzmunu, lirizmi, vətəndaşlıq qayəsi və milli koloriti ilə geniş oxucu kütləsinin böyük rəğbətini qazanmışdır. Şeirlərinizə çox sayda musiqi əsərlərinin yazılması sübut edir ki, siz dilimizin poetik imkanlarından ustalıqla bəhrələnmiş, poeziyanın həqiqi nümunələrini yaratmağa tam müvəffəq olmusunuz.

Bir dramaturq kimi, qələminizin məhsulu olan və bədii vasitələrinin əlvanlığı, ümumiləşdirmə gücü baxımından seçilən pyesləriniz Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuş, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinə öz töhfəsini vermişdir.

Uzun illər ərzində Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti Rəyasət Heyətinin sədri kimi göstərdiyiniz ictimai fəaliyyət də ədəbi-bədii əsərlərinizdəki fikir və düşüncələrin əməli surətdə gerçəkləşməsinin parlaq nümunəsidir.

İnanıram ki, Sizin zəngin ədəbi irsiniz bundan sonra da xalqımıza xidmət edəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 dekabr 2004-cü il*

## RUSİYANIN «LUKoyl» NEFT ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 dekabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan prezident İlham Əliyev onu Bakıda bir daha görməsindən məmnun olduğunu bildirdi.*

*Səmimi qəbula görə dövlətimizin başçısına təşəkkür edən Vahid Ələkbərov xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar Prezident İlham Əliyevə dərin hüznlə başsağlığı verərək dedi ki, Azərbaycanın iqtisadi potensialının və xarici investorların respublikamıza marağının gündən-günə artması, xüsusilə də ölkəmizdə uğurla həyata keçirilən neft strategiyası ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.*

*Daha sonra Vahid Ələkbərov «LUKoyl»un fəaliyyəti və gələcək perspektivləri barədə Prezident İlham Əliyevə məlumat verərək son dövr ərzində şirkət tərəfindən görülən işlərin qənaətbəxş olduğunu söylədi.*

*Başsağlığına və səmimi sözlərə görə minnətdarlığını ifadə edən Prezident İlham Əliyev təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının bu gün uğurla həyata keçirildiyini və gələcəkdə də Azərbaycan xalqının rifahına xidmət edəcəyini bildirdi. Dövlətimizin başçısı Rusiyanın «LUKoyl» şirkəti ilə olan əməkdaşlığı da yüksək qiymətləndirdi və şirkətin Azərbaycanda fəaliyyətini daha da genişləndirməsi üçün ölkəmizdə əlverişli şərait olduğunu xüsusi vurğuladı.*

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

*Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın müdrik rəhbəri, türk dünyasının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyevin vəfatından bir il keçir. Ulu öndərimizin, əbədiyaşar prezidentimizin Fəxri xiyabandakı məzarı xalqımızın müqəddəs ziyarətgahına çevrilmişdir.*

*Dekabrın 12-də xalqımızın dahi oğlunun əbədiyyətə qovuşmasının ildönümü günü də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, eləcə də xarici ölkələrdən gəlmiş çoxsaylı qonaqlar sübh tezdən Fəxri xiyabanı ziyarət edərək Azərbaycanın dahi oğlunun xatirəsini dərin ehtiramla yad etdilər, burada ucaldılmış əzəmətli abidə kompleksinin önünə əklillər, gül dəstələri qoydular, görkəmli şəxsiyyətə Allah-təaladan rəhmət dilədilər.*

*Dekabrın 12-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və onun ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmişlər.*

*Milli Məclisin üzvləri, nazirlər, komitə, şirkət, konsern və idarə rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri, xarici dövlətlərdən gəlmiş qonaqlar, Bakıdakı diplomatik nümayəndəliklərin rəhbərləri, müxtəlif ölkələrin təmsilçiləri də Fəxri xiyabana gəlmişdilər.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səsləndi.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ümummilli liderimizin ruhuna dua oxudu.*

*Azərbaycan prezidentinin ailə üzvləri, mərhumun yaxınları məzarın önünə gül dəstələri düzdülər.*

*Ulu öndərin məzarının ziyarət edilməsi mərasimində Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

* * *

## MƏN ONDAN ÇOX ÖYRƏNMİŞƏM

Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Əziz prezidentimiz cənab Heydər Əliyevin əsəri olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Heydər Əliyevin yolu ilə yeni qələbələrə doğru gedəcəyik.

... İnsan tarixə öz əməlləri ilə düşür. Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, ölkəmizdə demokratik cəmiyyət qurmaq. Bütün bu istiqamətlərdə işlər davam etdirilir. Hamımız, Azərbaycan xalqı bu siyasətə sadiqdir. Biz bu siyasəti davam etdirəcəyik. Azərbaycanda bu siyasətin alternativi yoxdur. Xalqımız da, beynəlxalq ictimaiyyət də bunu çox yaxşı bilir.

... Azərbaycan xalqına vəd etmişəm ki, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm, çünki o, yeganə düzgün siyasətdir. Bu siyasət ona gətirib çıxartdı ki, Azərbaycan xaos, hərc-mərclik, vətəndaş müharibəsi vəziyyətindən quruculuq və tərəqqi, sülh və sabitlik mərhələsinə keçdi. Mən ondan çox şeyi

öyrənmişəm və onun təcrübəsini, məsələlərə baxışını öyrənməklə hələ çox şeyi əxz edəcəyəm. Hər hansı bir qərar qəbul etməzdən əvvəl düşünürəm ki, bu vəziyyətdə Heydər Əliyev necə hərəkət edərdi. Çalışıram ki, mənə inanan, mənə səs verən adamlar məndən razı qalsınlar. Prezident üçün ən yüksək mükafat onun ideyalarına inamdır, bunsuz işləmək çox çətindir, ona görə də mən çalışacağam ki, Heydər Əliyevin bütün prinsipləri həyatda öz təcəssümünü tapmaqda davam etsin.

**İLHAM ƏLİYEV**

## DAĞISTAN DÖVLƏT ŞURASI SƏDRİNİN MÜŞAVİRİ SƏİD QURBANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 dekabr 2004-cü il*

*Cənab Səid Qurbanov xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar prezident İlham Əliyevə dərin hüznlə başsağlığı verdi. Heydər Əliyev ilə uzun illər şəxsi dostluq münasibətlərinin olduğunu diqqətə çatdıran qonaq onunla keçirdiyi çoxsaylı görüşləri həmişə böyük məmnunluqla xatırladığını söylədi. Səid Qurbanov ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini, vətənin xoşbəxt gələcəyinin təmin olunması istiqamətində həyata keçirdiyi siyasətin prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini söylədi.*

*Dərin hüznlə başsağlığına görə Səid Qurbanova minnətdarlığını bildirən dövlətimizin başçısı İlham Əliyev onun ümummilli liderimiz Heydər Əliyev ilə uzun illər davam etmiş dostluq münasibətlərini yaxşı xatırladığını vurğuladı, bu dostluğa sədaqətinə görə bir daha təşəkkür etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LONDONA RƏSMİ SƏFƏRİ

*12 dekabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dekabrın 12-dən 13-nə keçən gecə Londona gəlmişdir.*

*Hitrou hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Böyük Britaniyanın xarici işlər üzrə dövlət katibinin məsul nümayəndəsi Con Makdonald, hökumətin digər rəsmi şəxsləri hörmət və ehtiramla qarşıladılar. Azərbaycan prezidentinə və onun xanımına gül dəstələri təqdim edildi.*

*Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından mAşın karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## BÖYÜK BRİTANİYA KRALİÇASININ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*London*

*13 dekabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dekabrın 13-də onun üçün ayrılmış iqamətgahda Böyük Britaniya kraliçasının nümayəndəsi baronessa Sekombe ilə görüşmüşdür.*

Xanım Sekombe Böyük Britaniyanın kraliçası II Elizabetin səmimi salamlarını prezident İlham Əliyevə çatdırdı və onun adından dövlətmizin başçısına xoş gəlmisiniz dedi. Baronessa Sekombe Azərbaycan prezidentinin Böyük Britaniyaya əvvəlki səfərlərinin, o cümlədən 2003-cü ilin iyun ayında Baş nazir Toni Bleyrin təşəbbüsü ilə keçirilmiş «Hasilat sənayelərinin şəffaflığı» mövzusunda konfransda iştirakının xüsusilə əlamətdar olduğunu xatırlatdı.

Dövlətimizin başçısı İlham Əliyev səmimi salama və xoş sözlərə görə təşəkkür və minnətdarlığını Böyük Britaniyanın kraliçası II Elizabetə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan – Böyük Britaniya əlaqələrinin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dekabrın 13-də Böyük Britaniyaya rəsmi səfəri zamanı onun üçün ayrılmış iqamətgahda Azərbaycanın Londondakı diplomatik korpusunun üzvləri, ölkəmizdə fəaliyyət göstərən İngiltərə

şirkətlərinin təmsilçiləri, Londonda yaşayan soydaşlarımızla görüşüb söhbət etmişdir.

Prezident İlham Əliyevin Böyük Britaniyaya rəsmi səfərinin ilk gününün sonunda İngiltərə–Azərbaycan Cəmiyyəti adından dövlətimizin başçısının şərəfinə rəsmi qəbul təşkil olundu.

Əvvəlcə Böyük Britaniya kraliçasının nümayəndəsi, kral ailəsinin üzvü Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı salamlayaraq, rəsmi qəbulda iştirak edənlərə Böyük Britaniyanın Kraliçasının və Azərbaycanın dövlət başçısının şərəfinə badə qaldırmağı xahiş etdi.

Rəsmi qəbulda İngiltərə–Azərbaycan Cəmiyyətinin sədri lord Piter Freyzer və Böyük Britaniya Parlamentinin üzvü Patrik Kornaq çıxış etdilər.

Prezident İlham Əliyev səmimi və xoş sözlərə görə lord Freyzerə və Patrik Kornaqa təşəkkürünü bildirdi.

## BÖYÜK BRİTANİYANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞ

*London*

*13 dekabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Böyük Britaniyanın Müdafiə naziri Ceff Hun ilə görüşmüşdür.*

*Cənab Ceff Hun Azərbaycan prezidentini nazirliyin binası qarşısında böyük hörmət və ehtiramla qarşıladı. Prezident İlham Əliyev və Müdafiə naziri Ceff Hun burada xatirə şəkli çəkdirdilər.*

*Sonra görüş başladı. Böyük Britaniyanın Müdafiə naziri görüş üçün vaxt ayırdığına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Nazir ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsini vurğuladı və ikitərəfli əməkdaşlığın böyük perspektivləri olduğunu söylədi.*

*Söhbət zamanı ikitərəfli əlaqələrin genişləndirilməsinin zəruriliyi vurğulandı. Prezident İlham Əliyev Böyük Britaniya ilə əməkdaşlığın yüksək səviyyədə olmasından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya sahəsində uğurlar əldə olunduğunu və ölkəmizin NATO-ya fərdi tərəfdaşlıq planını təqdim etdiyini xatırlatdı. Eyni zamanda, ordunun müasirləşdirilməsi, treninqlərin keçirilməsi və ordunun müxtəlif strukturlarının təkmilləşdirilməsi baxımından da əməkdaşlığın geniş perspektivləri olduğunu bildirdi.Görüşdə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi barədə də fikir mübadiləsi aparıldı. Münaqişənin həll edilməsinin ölkəmizdə gərginlik yaratdığı qeyd olundu.*

*Daha sonra qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi edildi.*

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR VƏ MÜDAFİƏ KOMİTƏLƏRİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*London*

*13 dekabr 2004-cü il*

*Görüşdə hər iki komitənin rəhbərləri və parlamentin on nəfərədək deputatı iştirak edirdi.*

*Xarici əlaqələr komitəsinin sədri Donald Anderson görüşü açaraq Azərbaycan prezidentini salamladı və onun Londona səfərinin böyük əhəmiyyəti olduğunu vurğuladı. O, dövlətimizin başçısından görüş iştirakçılarına Azərbaycanda gedən proseslər, regional əməkdaşlıq və bunun perspektivləri barədə məlumat verməsini xahiş etdi.*

*Prezident İlham Əliyev ölkəmizdə gedən proseslər, regional əməkdaşlıq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onunla bağlı məsələlər haqqında ətraflı məlumat verdi.*

*Sonra parlament üzvləri dövlətmizin başçısına müxtəlif suallarla müraciət etdilər. Prezident İlham Əliyev Ermənistan – Azərbaycan münaqişəsinin regional əməkdaşlığa törətdiyi maneələr, münaqişənin həlli perspektivləri, Dövlət Neft Fondu, ölkəmizin beynəlxalq əlaqələri və qonşu dövlətlərlə münasibətləri barədə suallara ətraflı cavab verdi.*

## «CHATHAM HOUSE» KLUBUNDA GÖRÜŞ

*London*

*13 dekabr 2004-cü il*

*Görüşdə «Chatham House» klubunun üzvü olduqları məşhur siyasətçilər, diplomatlar, mətbuat nümayəndələri, Avropanın tanınmış publisistləri və ictimai xadimlər iştirak edirdilər.*

*Prezident İlham Əliyevi klubun binası önündə «Chatham House»nin sədri lord Hörd ehtiramla qarşıladı.*

### «Chatham House» klubunun sədri lord Hördün çıxışı

Zati-aliləri!

Xanımlar və cənablar!

Bu gün Azərbaycan Respublikasının prezidenti zati-aliləri İlham Əliyevin iştirakı ilə bizim çox əlamətdar tədbirimiz keçirilir. Prezidenti sizə rəsmi təqdim etməzdən öncə bildirim ki, əvvəlcə prezident çıxış edəcək, daha sonra isə sual vermək üçün imkan yaranacaqdır.

Xanımlar və cənablar!

Həqiqətən də, Azərbaycan prezidentini burada salamlamaq böyük şərəfdir. Yəqin bundan başlamaq yerinə düşər ki, dünən onun atası, mərhum prezident Heydər Əliyevin vəfatının birinci ildönümü idi və bu kədərli ildönümü ilə bağlı ona dərin hüznlə başsağlığı veririk.

Cənab Prezident, bu hadisənin kədəri xüsusilə Sizin atanızı yaxından tanıyanlar, həmişə onun söhbətlərindən, incə yumorundan həzz alıb, qətiyyətinə və iti zəkasına valeh olanlar üçün yaxşı məlumdur. Sizin buraya gəlişiniz çox vacib əhəmiyyət daşıyır və vaxtında edilmişdir. Açığını deyim ki,

«Chatham House»də son iki-üç il müddətində Yaxın Şərq haqqında həddindən artıq fikir mübadilələri, çıxışlar olmuşdur. İraq, Fələstin hadisələrinin və digər məsələlərin nəzərə alınması baxımından bu, başa düşüləndir. Amma Azərbaycanın yerləşdiyi ərazi, keçmiş SSRİ, indi isə müstəqil ölkələr məkanı böyük əhəmiyyətə malikdir və xüsusilə də Azərbaycanın özü. Bu ərazi regionu xarakterizə edən narahatlıqlar və geniş imkanlar məkanıdır, xüsusilə də Azərbaycan Avropa və Böyük Britaniya üçün müstəsna əhəmiyyət kəsb edir. Kommersiya baxımından bu, tamamilə təbiidir – ölkə zəngin təbii sərvətlərə malikdir, siyasi və strateji baxımdan onun əhəmiyyətini dərk etmək üçün xəritəyə baxmaq kifayətdir. Azərbaycanın hazırda qonşuları ilə münasibətləri və imkanları çox genişdir.

Cənab Prezident, Sizə dərindən minnətdarıq ki, əziyyət çəkib «Chatham House»yə gəlmisiniz və fikirlərinizi bölüşməyə razılıq vermisiniz. Azərbaycanın mövqeyi, hökumətinizin strategiyası, gələcəyə baxışınız, bizə verəcəyiniz məsləhətlər, bu məsləhətlər vasitəsilə münasibətlərimizi, dostluğumuzu genişləndirmək imkanları barədə verəcəyiniz məlumatlara görə, əvvəlcədən minnətdaram və Sizi böyük məmnuniyyətlə dinləyəcəyik.

Xanımlar və cənablar, Azərbaycan prezidentini sizə müraciət etməyə dəvət edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Çox sağ olun ki, sizinlə birlikdə olmağa, ölkəmizdəki vəziyyət, gələcək imkanlar, regional inkişaf və əlbəttə ki, Azərbaycanın gələcəyi ilə bağlı fikirləri sizinlə bölüşməyə imkan yaradırsınız.

Azərbaycan hazırda keçid dövrünü yaşayan ölkədir. Sovet İttifaqı dağıldıqdan sonra ölkə müstəqillik qazandı. Müstəqilliyin ilk illəri çox ağır idi. Bu, anarxiya, özbaşınalıq, xaos və iqtisadi tənəzzül və siyasi böhran illəri idi. Hər il hakimiyyət dəyişikliyi baş verirdi və ölkə, faktiki olaraq, süqut ərəfəsində idi.

1993-cü ildə vəziyyət xüsusilə ağırlaşanda və vətəndaş müharibəsi başlayarkən ölkə əhalisi ümummilli liderimiz Heydər Əliyevə müraciət etdi, bu çətin dövrdə ölkəyə rəhbərlik edib irəli aparmağı xahiş etdi. Həmin ildən, 1993-cü ildən başlayaraq, bu günədək ölkə inkişaf edir, onun beynəlxalq aləmdəki hadisələrdə, regional miqyasda rolu artmaqdadır. 1995-ci ildən başlayaraq bərqərar olmuş ictimai-siyasi və iqtisadi sabitlik həqiqi tərəqqi gətiribdir.

Azərbaycanın iqtisadi göstəricilərinə nəzər salsanız görərsiniz ki, 1995-ci ildən 2003-cü ilədək iqtisadi göstəricilər 90 faiz artmışdır. Azərbaycan bu gün regionda adambaşına düşən xarici sərmayənin həcminə görə aparıcı ölkədir. Genişmiqyaslı özəlləşdirmə proqramı, iqtisadi islahatlar, torpaq islahatı, özəl sektor üçün əlverişli şəraitin yaradılması bugünkü duruma gətirib çıxarmışdır, yəni Azərbaycan sürətlə inkişaf edən ölkədir. Bazar iqtisadiyyatı prinsipləri həyata keçirilir. Qətiyyətlə demək olar ki, ümumi daxili məhsulda özəl sektorun payı təxminən 75 faizdir. Xüsusilə, nəzərə alınsa ki, Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesi dövlət inhisarındadır, onda özəl sektorun Azərbaycan iqtisadiyyatındakı rolunu aydın görmək olar. Ölkə daha sabit olduqca, iqtisadi cəhətdən daha çox inkişaf etdikcə, Azərbaycanın regiondakı aparıcı rolu da artmağa başladı. Bu gün Azərbaycan sabitlik ölkəsidir, sosial və siyasi sabitlik və həmrəylik ölkəsidir, cəmiyyətin birliyi ölkəsidir.

Yerləşdiyimiz region təhlükəsizlərdən sayıla bilməz. Regionda bizim öz ölkəmiz də daxil olmaqla, çoxsaylı qaynar nöqtələr var. Ölkəmiz davamlı erməni işğalından əziyyət çəkir. Bu işğal on ildən artıqdır ki, davam edir. Ümumiyyətlə, regional sabitlik regionun gələcək inkişafı üçün əsas təşkil edən amildir. Regionun əhəmiyyəti artır və gələcəkdə də artacaqdır. Bu isə yalnız Xəzər hövzəsindəki təbii sərvətlərə görə deyil, yalnız enerji layihələrinə, boru kəmərləri layihələrinə görə deyildir. Regionun yerləşdiyi coğrafi-siyasi ərazi bir sıra nəqliyyat marşrutlarının kəsişdiyi yol ayrıcındadır və gələcəkdə çox şey-

lər və gələcək inkişaf indi bizim işlədiyimiz layihələrin nə dərəcədə müvəffəqiyyətlə həyata keçəcəyindən asılı olacaqdır.

Azərbaycanın Heydər Əliyevin əsasını qoyduğu xarici siyasəti və bu sahədə hələ 1993-cü ildə aydın elan edilmiş strateji məqsədləri dəyişməz olaraq qalır.

Bu, xarici sərmayələr üçün açıq qapı, mehriban qonşuluq, Avratlantik strukturlarına inteqrasiya siyasətidir. Son bir neçə il ərzində bu sahədə əsaslı nailiyyətlər əldə etmişik. Mən əldə etmişik dedikdə, özümüzü və tərəfdaşlarımızı nəzərdə tuturam. Bu inteqrasiya birtərəfli mümkün ola bilməzdi. Məmnuniyyətlə bildirirəm ki, bu müddət ərzində dünyanın aparıcı ölkələri ilə yüksək səviyyəli əməkdaşlığımız olmuşdur, münasibətlərimiz strateji əməkdaşlıq münasibətləridir. Bu münasibətlər müxtəlif sahələri – iqtisadiyyatı, siyasəti, hərbi sahəni, bütün mümkün sahələri əhatə etmişdir.

Azərbaycan hazırda Avropa İttifaqının yeni qonşuluq siyasətinin üzvüdür. Avropa İttifaqının bu siyasəti bizim üçün böyük əhəmiyyət daşıyır və münasibətlərimizin davam etməsi bizim üçün mühümdür. Azərbaycan həm də NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramının fəal üzvüdür. Hazırda biz fərdi tərəfdaşlıq planı üzrə işləyirik, bu da Azərbaycanla NATO arasında münasibətlərin ikinci və çox vacib hissəsidir.

Qonşularımızla çox səmimi münasibətlərimiz var. Çünki qonşularla münasibətlərin yaxşı səviyyədə saxlanılması böyük əhəmiyyət daşıyır. Regionumuzdakı vəziyyətin gərgin olmasına baxmayaraq, burada müxtəlif siyasi qüvvələrin və bir sıra ölkələrin maraqlarının bəzən üst-üstə düşməsinə, bəzən isə toqquşmasına baxmayaraq, biz Azərbaycanı hər hansı bir qarşıdurmadan uzaq saxlamağı bacardıq. Bu da çox mühüm və xeyirli amildir ki, biz qarşıdurma yox, əməkdaşlıq ruhu yarada bildik. Sizə deyim ki, bu sahədə uğurumuz göz qabağındadır. Bunun nəticəsidir ki, Azərbaycan hətta öz aralarında, bir-biri ilə yaxşı münasibətə malik olmayan ölkələrlə də yaxşı münasibətlər saxlayır. Biz heç bir ölkənin daxili işinə qarışmırıq və təbiidir ki,

öz ölkəmizi də hər hansı bir ölkənin müdaxiləsindən azad görmək istəyirik.

Məqsədimiz ölkəmizi inkişaf etdirmək, müasirləşdirməkdir. İqtisadiyyatı, siyasi sistemi, hüquq sistemini yaxşılaşdırmaq, əhalimiz üçün daha yaxşı şərait yaratmaq bizim məqsədimizdir. Biz çox vacib iqtisadi islahatlar həyata keçiririk. Ölkədə mühüm iqtisadi islahatlar keçiririk. Bu il qəbul olunmuş regionların inkişaf etdirilməsi proqramı uğurlu nəticələrə gətiribdir. Biz 8 milyonluq əhalisi olan ölkəyik və təkcə bu il ərzində 100 mindən çox iş yeri açmağa müvəffəq olmuşuq. Bu da bizim iqtisadi siyasətimizin əsas elementlərindən biridir. Həmin iş yerlərinin açılmasının əhəmiyyəti xüsusilə onunla səciyyələnir ki, yeni iş yerləri qeyri-neft sahəsini əhatə edir, Azərbaycanın rayonlarında açılmış iş yerləridir. Bu da ölkənin tarazlı inkişafını göstərir. Yalnız paytaxt deyil, rayonlar da uğurla inkişaf edirlər.

Əlbəttə ki, problemlərimiz də çoxdur. Ölkəmizdə bir sıra sahələrin səviyyəsi artırılmalıdır. Amma əsas budur ki, götürdüyümüz istiqamət və islahatların həyata keçirilməsi sürəti düzgündür. Hər şeyi vaxtlı-vaxtında etmək lazımdır. Ümid edirəm ki, gələcəkdə Azərbaycan bu siyasətini uğurla davam etdirəcək, iqtisadi, sosial şəraiti yaxşılaşdıracaq və Azərbaycan cəmiyyətinin daha da demokratikləşdirilməsini davam etdirəcəkdir.

Son il ərzində bu istiqamətdə, ölkədə müxtəlif siyasi qüvvələr arasında münasibətlər mühitinin, ab-havanın yaxşılaşdırılmasına doğru hökumətimiz tərəfindən vacib addımlar atılıbdır. Təəssüf ki, hələ bütün siyasi qüvvələrdən adekvat cavab almamışıq, amma ümid edirik ki, hamı tərəfindən qarşılıqlı anlaşma olacaqdır. Çünki Azərbaycanın əhalisi çox deyil, ölkəmiz ərazisinə görə də böyük deyildir. Biz mürəkkəb məkanda yerləşirik, ona görə də ölkəmizə uğur gətirmək üçün birləşməyimiz vacibdir.

Ölkəmizin üzləşdiyi ən ağır problemlərdən biri də qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə bağlıdır. Ölkəmizdə əhalinin bu təbəqəsi Ermənistan silahlı qüvvələrinin təcavüzündən və ərazilərimizin 20 faizinin işğalından sonra yaranmışdır. Ermə-

nistanın Azərbaycana qarşı təcavüzü ölkə ərazisinin işğalı və bir milyon əhalinin qaçqın və köçkün kimi əziyyət çəkməsi ilə nəticələnmişdir. Hökumətimiz əhalinin bu təbəqəsinin həyat şəraitinin yaxşılaşdırılması üçün əlindən gələni edir. Amma maliyyə resurslarımız məhduddur. Bununla belə, qaçqın və köçkünlər üçün nəzərdə tutulmuş evlərin tikilməsi üçün əsaslı vəsait ayrılmışdır və hazırda onlar yeni inşa olunmuş qəsəbələrdə evlə təmin olunurlar.

Əlbəttə ki, bu, problemin həlli deyildir. Məsələnin həlli yolu işğala son qoyulmasıdır, Ermənistanın işğalçı qoşunlarının ərazimizdən çıxarılmasıdır. Bizim bu tələbimizdə nə isə qeyri-adi bir şey yoxdur. Hər bir ölkənin haqqıdır ki, özünün ərazi bütövlüyünü qorusun, suverenliyini saxlasın və bu da ki, beynəlxalq hüquq normalarına əsaslanır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüquq normaları kobudcasına pozulmuşdur və beynəlxalq hüquq normalarına məhəl qoymamaq işğal və etnik təmizləmə ilə nəticələnmişdir. Bugünkü gün təkcə Dağlıq Qarabağ deyil, Dağlıq Qarabağdan ətrafdakı 7 digər rayon da işğal altındadır. Danışıqlar təəssüf ki, heç bir fayda verməmişdir, nəticə yoxdur. Amma biz münaqişənin sülh yolu ilə həlli variantına sadiqik və bu yola inanırıq. Biz istəyirik inanaq ki, məsələnin sülh yolu ilə həlli mümkündür. Amma eyni zamanda, Azərbaycan heç zaman bu işğalla barışmayacaq və bacardığımızı edəcəyik və əminəm ki, torpaqlarımız azad olunacaqdır.

Beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar və yalnız o təşkilatlar yox ki, bu məsələ ilə birbaşa məşğul olurlar, yalnız bu məsələnin həlli üzrə mandata malik olan ATƏT-in Minsk qrupu deyil – yeri gəlmişkən, biz bu mandatı dəstəkləyirik – digər beynəlxalq təşkilatlar da məsələnin həllində daha fəal rol oynaya bilərlər və oynamalıdırlar. Avropa İttifaqı, Avropa Şurası, BMT-də bu məsələ ilə bağlı dinamikanı görməkdən də məmnunam. Biz görürük ki, hazırda bu təşkilatlar Ermənistan–Azərbaycan münaqişəsini müzakirə edirlər və bəziləri tərəfindən məsələni araşdırmaq üçün xüsusi nümayəndələr də təyin olunub-

dur. Düşünürəm ki, beynəlxalq ictimaiyyətin daha geniş diqqəti və mövzunu daim gündəlikdə saxlaması ümumi məqsədimizə yardım edər.

Məsələnin həlli ilə bağlı Ermənistan və Azərbaycanın mövqeyindəki əsas müxtəlifliklər – bunu belə adlandırmaq olarsa – nədən ibarətdir? Bu mövqelərin hər ikisi beynəlxalq hüququn vacib bir elementləridir: ərazi bütövlüyü və insanların öz müqəddəratını həll etmək prinsipləridir. Müzakirələr zamanı Ermənistan daim Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququnu əsas gətirir. Amma biz düşünürük ki, məsələnin bu cür qoyuluşu düzgün deyildir. Çünki ermənilər millət kimi, öz müqəddəratını artıq müəyyən ediblər. Onların Ermənistan dövləti var. Nəzərə alsaq ki, bütün dünyada erməni icmaları mövcuddur, onda ermənilərin hər yerdə öz müqəddəratını təyin etməyə başlamasının nə ilə nəticələnəcəyini əvvəlcədən görmək olar. Dünyanın bütün ölkələrində milli azlıqlar var, muxtariyyətlər mövcuddur. Beynəlxalq təşkilatlar, Avropa Şurası muxtariyyətlərin təcrübəsini öyrənibdir.

Nəyə görə Dağlıq Qarabağ erməniləri Azərbaycanın bu hissəsini Azərbaycandan ayırmağa çalışırlar? Dağlıq Qarabağ tarixən azərbaycanlılara və Azərbaycana məxsus ərazi olubdur. Ermənilər bu əraziyə yalnız 1828-ci ildən sonra gəliblər və biz də onları qonaq kimi qəbul etmişik. Münaqişə başlayarkən ərazidə yaşayan əhalinin 75 faizi erməni, 25 faizi isə azərbaycanlılar idi. Tarixən bu ərazi heç zaman Ermənistanın tərkib hissəsi olmayıbdır. Hüquqi baxımdan Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və ölkəmizin ərazi bütövlüyü, BMT də daxil olmaqla, bütün beynəlxalq təşkilatlar tərəfindən tanınıbdır. Azərbaycan müstəqil ölkə kimi, BMT-yə üzv qəbul olunarkən, Dağlıq Qarabağ da daxil olmaqla, bütün ərazisi tanınmaqla qəbul edilibdir.

Hər bir nöqteyi-nəzərdən və hətta iqtisadi nöqteyi-nəzərdən, iqtisadi gələcək nöqteyi-nəzərindən də iki ölkə arasında müqayisə aparılarsa, görərik ki, Azərbaycanın mövqeləri günbəgün möhkəmlənir. Yenə də deyirəm ki, biz sülh prosesinə sadiqik.

Belə olmasaydı, Azərbaycan əhalisinin bir hissəsinin on ildən artıq ağır şəraitdə əziyyət çəkməsinə baxmayaraq, danışıqlar aparmazdı. Amma dözümlülüyümüzün də həddi var. Üstəlik, belə mühüm mövzulara ikili standartlarla yanaşmaq olmaz. Bu, keçmiş SSRİ məkanında müstəsna hal deyildir. Digər ərazilərdə də separatçı hərəkatlar, münaqişələr var. Gürcüstan ərazisindəki Abxaziyada separatizm, Cənubi Osetiyada separatizm, Moldova ərazisindəki Dnestryanı bölgədə separatizm və Azərbaycanda Dağlıq Qarabağdakı separatizm eyni səbəbi, eyni izahı olan hallardır. Bu, xarici dairələrin dəstəklədiyi təcavüzkar separatizmdir ki, müstəqil ölkələrin ərazi bütövlüyünün pozulması ilə nəticələnmişdir. Ona görə də, bütün bu münaqişələrə yanaşma da eyni olmalıdır və bu yanaşma da hissiyyatlara yox, hüquqa əsaslanmalıdır. Məsələ böyük təsir gücünə malik diasporların əsas gətirdiyi faktlara görə yox, hüquqi çərçivədə həll olunmalıdır. Biz danışıqlar prosesini davam etdiririk, beynəlxalq təşkilatların da iştirak etdiyi bu danışıqlar prosesində konkret nəticələr əldə etməyi gözləyirik.

Ölkəmizin böyük potensialı vardır. Bu potensial yalnız neft və qaza əsaslanmır. Yeri gəlmişkən, bu gün dünyada ən iri eneræi layihəsi Azərbaycanda həyata keçirilir. Xarici şirkətlər Azərbaycanın bu iqtisadi sahəsinə milyardlarla dollar vəsait yatırırlar. Bu şirkətlər özlərini Azərbaycanda rahat hiss etməsəydilər, yatırdıqları sərmayə lazımınca qorunmasaydı, onlar ölkənin gələcəyinə inanmasaydılar, şübhə edirəm ki, belə böyük həcmdə vəsait qoymağa risk edərdilər. Bizim əməkdaşlıq etmək arzumuz, ölkədəki münasibətlər qurmaq ruhu, etnik və dözümlülük ruhu – biz bunu Azərbaycanın ən böyük nailiyyətlərindən biri hesab edirik – bütün bunların toplusu işgüzar mühitin yaranmasına səbəb olmuşdu. Sərmayələr lazımınca qorunur, qanunvericiliyimiz buna ən yüksək səviyyədə təminat verir. Bu da ki, uğurun ən əsas elementlərindən biridir. Üstəlik, Azərbaycanda həyata keçirilən enerji layihələri regional əməkdaşlığın ən gözəl nümunələrindəndir. Bu göstərdi ki, boru kəmərinin keçdiyi region ölkələri – Azərbaycan, Gürcüstan və Türkiyə çox uğurla

əməkdaşlıq edə bilərlər. Üç ölkə arasında həm regional miqyasda, həm də ikitərəfli əməkdaşlıq sahəsində qarşılıqlı anlaşma yüksək səviyyədədir. Hər üç ölkədə əməkdaşlıq inkişafla müşayiət olunur və bu, regionun ümumi inkişafına da müsbət təsir edir. Biz ümid edirik ki, bu regional əməkdaşlığın müsbət təcrübəsi gələcəkdə də özlərini təcrid edənlərə, hadisələrin inkişafını digər istiqamətdə görənlərə, təcavüzkar işğalları ilə öz ölkələrini küncə sıxışdıranlara cazibədar görünəcəkdir.

Bu işğaldan ermənilər və Ermənistan nə qazandı? Ölkələrinə dünyada hörmət artdımı? Mən belə düşünmürəm. Dünya onlara indi təcavüzkar, separatçı, etnik təmizləmə aparan, özgə torpaqlarını işğal edən xalq kimi baxır. Əhalisi daha yaxşı yaşamağamı başladı? Yenə də xeyr. Bugünkü gündə Ermənistan regional layihələrdən tamamilə təcrid olunmuşdur və Ermənistanla Azərbaycanın iqtisadi göstəricilərinə baxsaq, arada böyük uçurum görərik. Bu uçurum getdikcə daha da artacaqdır. Çünki əməkdaşlıqsız, regional əməkdaşlıqsız – Azərbaycan isə bu əməkdaşlığın əsas elementidir – region ölkələri inkişaf edə bilməzlər.

Biz Avropaya inteqrasiya yolunu seçmişik. Mən bunu əvvəldə dedim – biz bu yola tamamilə sadiqik, bu siyasət davam etdirilir, bu yolumuzu sözdə yox, praktiki addımlarda göstəririk. Biz ölkəmizin gələcəyini inteqrasiyada görürük. Regionda da, dünyada da vacib, əhəmiyyəti olan ölkə olmaq istəyirik. Ona görə də əlimizdən gələni edəcəyik ki, Azərbaycanın standartlarını dünya standartlarına çatdıraq. Bütün sahələrdə inkişafa, iqtisadi inkişafa, sosial inkişafa, demokratik inkişafa nail olaq. Bizim siyasətimiz bundan ibarətdir, bizim siyasətimiz belədir. Əlbəttə ki, bizim seçdiyimiz yolun hər mərhələsində əldə edilən uğurlardan çox şey asılı olacaqdır. Azərbaycanın seçimi belədir. Azərbaycan rəhbərliyinin etdiyi seçim budur və ölkədə də, beynəlxalq aləmdə də apardığımız siyasətlə bağlı əhalimizin dəstəyini daim hiss edirik.

Çıxışımı bu nikbin notla bitirmək istəyirəm ki, Azərbaycan ildən-ilə dünyaya inteqrasiya olunacaq, inkişaf edəcəkdir. Ölkəmizin inkişafı Azərbaycana da, qonşularımıza da, xalqımıza da,

qonşu xalqlara da, bütün dostlara da, daha çox təhlükəsizlik, rahatlıq, firavanlıq gətirəcəkdir. Diqqətinizə görə çox sağ olun.

* * *

**L o r d  H ö r d:** Çox sağ olun, cənab Prezident. Məzmunlu və dolğun çıxışınıza görə Sizə minnətdaram. Girişdə qeyd etdiyim kimi, zati-aliləri cənab Prezident alicənablıq göstərərək bir neçə sualı cavablandırmağa razı olmuşdur. Xahiş edirəm, suallarınızı verəsiniz.

**S u a l: Cənab Prezident, Sizin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll etməklə bağlı bəyanatınız hamımızı valeh etmişdir. Lakin məlum olduğu kimi, tərəflər arasında etimadın, qarşılıqlı inamın səviyyəsi çox aşağıdır və tərəflərin hər birində digərinə qarşı davakar əhval-ruhiyyə hiss olunur. Azərbaycan mətbuatında və Azərbaycanın siyasətçiləri tərəfindən də belə davakarlıq vardır. Mənim sualım belədir: bunu yumşaltmaqdan ötrü Siz hansı tədbirlərə əl atırsınız?**

**C a v a b:** Çox sağ olun. Bu sual həm də bəzi məsələləri aydınlaşdırmağa imkan yaradır. Siz Azərbaycanda davakar ritorikanın olmasını dediniz. Bəzən bu fikirlərə Azərbaycanın kütləvi informasiya vasitələrində rast gəlinməsi, bəzi siyasətçilər və ümumiyyətlə, cəmiyyət tərəfindən səsləndirilməsi halları olduğunu dediniz. Bəzən ermənilər bundan Azərbaycanı günahlandırmaq üçün də istifadə edirlər. Amma məsələnin səbəblərinə, nəyə görə baş verməsinə baxsaq, çox şey aydın olar. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etdikdən, bir neçə Azərbaycan rayonunu dağıtdıqdan, şəhərləri, qəsəbələri, kəndləri tar-mar etdikdən sonra, bir milyon azərbaycanlını vəhşicəsinə, etnik təmizləmə nəticəsində daimi yaşayış yerindən məhrum etdikdən sonra təklif edir ki, gəlin əməkdaşlığa başlayaq. Bilirsinizmi, belə halda bəzilərinə elə görünə bilər ki, Ermənistan əməkdaşlıq istəyir, Azərbaycan isə yox. Bu doğrudur, amma bunun səbəbləri var. Bilirsinizmi, biz eyni vəziyyətdə deyilik, Azərbaycan bu münaqişənin qurbanıdır və münaqişədən əziyyət

çəkən Azərbaycan xalqıdır. Ona görə, əlbəttə ki, biz daha davakarıq və bu davakarlıq da həm mətbuatda, həm də bəzi siyasətçilərin çıxışlarında hiss olunur. Məsələnin izahı bu cürdür. Zaman keçdikcə, ermənilər daha qeyri-konstruktiv olduqca cəmiyyət arasında belə meyllər artacaqdır. Bu gün biz həmin meylləri tənzim edə bilmərik və tənzim etmək də istəmirik. Ermənilər bizim torpaqları tərk etdikdən sonra işğala son qoyduqdan sonra, mən əminəm ki, vəziyyət də dəyişəcək, davakarlıq ruhu da azalacaq, inam artacaqdır. İnamın yaranması üçün praktiki addımlar atmaq lazımdır. İndi isə kompromislər haqqında danışanda biz nəyin güzəştə gediləcəyini anlaya bilmirik. Biz ərazi bütövlüyümüzü güzəştə gedə bilmərik. Biz Dağlıq Qarabağı, Ermənistanın istədiyi kimi, ona verə bilmərik. Bizim güzəştə gedəcəyimiz məsələlər çox deyildir.

Biz təhlükəsizlik təminatına razılıq verə bilərik. Dağlıq Qarabağ üçün yüksək muxtariyyət verilməsinə – yəni bugünkü gündə dünyada mövcud olan muxtariyyətlər içərisində ən yüksəyinə razı ola bilərik. Amma bu bizim edəcəyimiz güzəştlərin axırıdır. Ermənistan ilk addımları atmalıdır, çünki onlar bizim torpaqları işğal ediblər. Onlar işğala son qoymalıdırlar. İrticaçı ordunu zəbt olunmuş ərazilərdən çəkməlidirlər. Sizə deyim ki, bu, inam yaratmağın ən vacib elementlərindən olacaqdır.

**S u a l: Əla çıxışınıza görə çox sağ olun. Mən Sizin ölkə ilə yaxından tanışam, ölkənizin əldə etdiyi tərəqqi də mənə məlumdur. Siz Azərbaycanın Avropa İttifaqının yeni qonşuluq siyasətindəki rolunu necə görürsünüz və necə düşünürsünüz? Həmin siyasət vasitəsilə Ermənistan–Azərbaycan münasibətlərinə təsir etmək olarmı? Xüsusilə də nəzərə alaraq ki, Ermənistan və Azərbaycan da həmin qonşuluq siyasəti ilə əlaqədar tərəfdaşdırlar.**

**C a v a b:** Biz bu layihəyə, bu proqrama böyük əhəmiyyət veririk. Halbuki, həmin yeni qonşuluq siyasətinin hansı çərçivədə həyata keçiriləcəyi bizə hələ məlum deyildir. Amma ümid edirik, həmin siyasətin sanballı praktiki elementləri olacaqdır ki, Cənubi Qafqaz ölkələri bundan bəhrələnə bilsin. Biz Avropa

İttifaqının həm də Ermənistan–Azərbaycan münaqişəsi prosesini öyrənən Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etməsini yüksək qiymətləndiririk. Mən, Avropa İttifaqının iqamətgahının yerləşdiyi Brüsselə çox uğurlu səfər etmişəm. Orada müzakirələrimiz həm iqtisadi sahəni, həm siyasi sahəni, həm də ki, enerji sahəsini əhatə edib, tərəflər üçün faydalı olubdur. Biz Avropa İttifaqının münaqişənin həllinə qoşulmasına böyük hörmətlə yanaşırıq. Bir daha təkrar etmək istəyirəm ki, ATƏT-in Minsk qrupuna əvəzedici axtarmırıq, baxmayaraq ki, bu qurumun fəaliyyətini qənaətbəxş saymırıq. Qənaətbəxş saymamağımızın səbəbi də odur ki, nəticə yoxdur. Əksinə, ermənilər Minsk qrupunun fəaliyyətindən çox razıdırlar və erməni siyasətçiləri Minsk qrupunu tərifləməkdən doymurlar. Başa düşmürəm, nəyə görə? Yəqin elə eyni səbəbə görə. Nəticənin olmaması – nə müharibə, nə sülh şəraitinin və Azərbaycan ərazilərinin işğalının davam etməsi, görünür, Ermənistan hökumətini qane edir. Ona görə də biz, ATƏT-in Minsk qrupunun əvəz olunmaması şərtilə, beynəlxalq təşkilatların da, əsas etibarilə Avropa İttifaqının bu məsələdə fəal iştirakını istəyirik. Çünki Avropa İttifaqının mexanizmləri var, Avropa İttifaqının gücü var və bu gün Avropa İttifaqı genişlənməsi ilə dünyada böyük qüvvəyə çevrilir. Qurumun maliyyə resursları vardır ki, bu da məsələni sülh yolu ilə həll etmək istəyənlər üçün yaxşı ruhlandırıcı amildir. Ona görə də biz prosesdən razıyıq, ümid edirik ki, yeni qonşuluq siyasəti özlüyündə elə mexanizmlərə malik olacaqdır ki, həmin mexanizmlər vasitəsilə Cənubi Qafqazda münaqişənin həll olunması yolunda praktiki addımlar atılsın və tammiqyaslı regional əməkdaşlıq qurulsun.

**S u a l: Zati-aliləri, Rusiya ilə münasibətlər haqqında nə deyə bilərsiniz? Xüsusilə də, Rusiyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi, Bakı–Tbilisi–Ceyhan kəmərinə, Xəzərin enerji ehtiyatlarından istifadənin inkişaf etdirilməsinə münasibəti, Rusiyanın Ermənistanla münasibətləri ilə bağlı. Siz xarici siyasətinizin əsas üç prinsipindən birini**

**qeyd etdiniz – Avratlantik strukturlarına inteqrasiya. Bu, Moskva ilə münasibətlərinizə necə təsir edir?**

**C a v a b:** Bir çox illər Rusiya ilə Azərbaycan arasında münasibətlər dostluq münasibətlərindən çox uzaq idi. Faktiki olaraq, Azərbaycan müstəqillik qazandıqdan sonra münasibətlər gərginləşmişdi və 1990-cı illərin sonuna qədər gərgin qalırdı. Səbəb də 1990-cı illərin əvvəllərində, Ermənistan–Azərbaycan münaqişəsi, müharibəsi dövründə Rusiyanın Ermənistana dəstək verməsi idi. Bu, artıq gizli deyil, biz bu haqda açıq və aydın danışırıq və əgər siz də, biz də Rusiya ilə yaxşı münasibətlərin olmasını istəyiriksə, keçmişdə baş verənləri təhlil etməli və çalışıb həmin səhvləri təkrarlamamalıyıq. Ermənistana qeyri-qanuni surətdə bir milyard dollarlıq silah ötürülməsi hətta Rusiyanın daxilində də böyük narazılığa səbəb olmuşdu. Rusiya Dövlət Duması bu məsələni araşdırdı. Silah ötürülməsi faktı etiraf olundu, amma təəssüf ki, heç kəs cəzalandırılmadı.

Bu gün isə vəziyyət fərqlidir. İndi Azərbaycanla Rusiya arasında münasibətlər əsaslı surətdə yaxşılaşmışdır. Xüsusilə də, prezident Vladimir Putin hakimiyyətə gəldikdən sonra. Bizim mübahisələrimiz çox idi, məsələn, elə Xəzər dənizində sektorların bölünməsi ilə bağlı. Lakin razılığa gəldik və hər iki tərəfi qane edəcək sazişə imza atdıq. Bakı–Tbilisi–Ceyhan kəmərinin tikilməsi, nədənsə Rusiyanın bəzi dairələrində düzgün anlaşılmamışdı, düzgün qiymətləndirilməmişdi. Bakı–Tbilisi–Ceyhan kəmərinin digər ölkələrin maraqları ilə heç bir əlaqəsi yoxdur. Bu layihə Azərbaycanın maraqlarına xidmət edir və sadəcə, xəritəyə baxsanız və ya coğrafiya haqqında elementar bilikləriniz varsa, görərsiniz ki, Bakı–Tbilisi–Ceyhan kəməri olmadan Aralıq dənizinə çıxmaq mümkün deyil, Azərbaycanın Xəzər dənizindəki nəhəng enerji ehtiyatlarının işlənilməsini inkişaf etdirmək mümkünsüzdür. Amma qeyd etdiyim kimi, bu məsələ də həll olundu.

Bizim Rusiya ilə münasibətlərimiz ölkələrimizin digər dövlətlərlə əlaqələrinə toxunmur, təsir etmir. Biz hər mövzuya ayrılıqda baxırıq. Düşünürəm ki, Avropaya inteqrasiya istəyimiz

Rusiya ilə də yaxşı münasibətlər qurmaq arzumuza zidd deyildir. Hesab edirəm ki, ölkələrimiz arasında bugünkü münasibətlərdə qarşılıqlı hörmət elementləri, bir-birinin işinə qarışmamaq, hər iki ölkənin maraqlarına xidmət etmək prinsipləri əsas götürülür. Ermənistan uzun müddət Rusiya ilə xüsusi münasibətlərin olması, keçmiş Sovet İttifaqında Rusiyanın yeganə tərəfdaşı olması və sair bu kimi faktlarla manipulyasiya edirdi. Bu gün onlar, doğrudan da, yaxşı tərəfdaşdırlar. Rusiyanın Ermənistan ərazisində hərbi baza saxlaması, həm Rusiyanın, həm də Ermənistanın eyni kollektiv təhlükəsizlik müqaviləsinin iştirakçısı olması bu ölkələr arasında ikitərəfli hərbi münasibətlərin səviyyəsini göstərir. Amma eyni zamanda, bu o demək deyil ki, Rusiya digər ölkələrlə pis münasibətdə olmalıdır.

Biz bütün qonşularımızla yaxşı münasibətlərin olmasını istəyirik. Mənim prezident Putinlə çox yaxşı şəxsi münasibətlərim var. Bizim ölkələr arasında yaxşı iqtisadi əlaqələr var. Rusiyada böyük Azərbaycan icması yaşayır. Azərbaycanda rus icması yaşayır. Mən elə bilirəm ki, münasibətlərin bugünkü səviyyəsi hər iki tərəfi qane edir. İstərdik ki, münasibətlərimizi genişləndirək və əlbəttə ki, bu münasibətlər suverenlik, müstəqillik, bir-birinin işinə qarışmamaq prinsiplərinə əsaslanacaqdır.

Ermənistandan fərqli olaraq, Azərbaycan nə iqtisadi, nə də siyasi cəhətdən heç bir ölkədən asılı deyildir. Bu bizim üstünlüyümüzdür və faktiki olaraq, prezident Heydər Əliyevin verdiyi böyük töhfədir. O, ölkəsini elə idarə etmişdir ki, hakimiyyətinin cəmi 10 ili ərzində Azərbaycanı həqiqi müstəqil ölkə səviyyəsinə çatdırmağa müvəffəq olmuşdu. Müstəqillik yalnız hüquqi status deyil, Azərbaycanın atdığı hər bir addım ölkənin və onun xalqının milli maraqlarına uyğun olaraq atılır. Qonşularla yaxşı münasibətlər xarici siyasətimizin əsas elementlərindəndir və mən məmnunam ki, bu gün ölkələrimiz arasındakı münasibətlər müsbət istiqamətdə inkişaf edir.

**S u a l: Xahiş edirəm, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri ilə bağlı Azərbaycanda və Gürcüstanda gedən tikinti işləri barədə məlumat verə-**

**siniz. Gürcüstan–Azərbaycan sərhədindəki vəziyyətlə, yüklərin Gürcüstandan Ermənistana daşınması ilə bağlı məlumat daxil olmuşdur. Azərbaycanın daxili siyasəti ilə əlaqədar müxalifətin şikayəti haqqında da məlumat verməyinizi xahiş edirəm.**

**C a v a b:** Bakı–Tbilisi–Ceyhan layihəsi uğurla həyata keçirilir. Bir vaxt bu layihəyə əfsanə, yuxu kimi baxırdılar. İndi isə o, reallığa çevrilibdir. Hazırda bu, dünyada ən böyük enerji layihəsidir və əvvəldə də qeyd etdiyim kimi, regional əməkdaşlığın çox gözəl nümunəsidir. Tikinti işləri başa çatır. Bir neçə ay bundan əvvəl Gürcüstan prezidenti və mən Azərbaycan–Gürcüstan sərhədində boru kəmərinin birləşdirici qaynağı mərasimində iştirak etdik. Azərbaycanda tikinti işləri başa çatıb, Gürcüstanda başa çatmaqdadır. Türkiyədə tikinti davam etdirilir, bu da təbiidir. Bildiyiniz kimi, kəmərin Türkiyə ərazisindən keçən hissəsi məsafəcə ən uzunudur. Əlbəttə, bir neçə milyard dollarlıq layihələr həyata keçirilən zaman gecikmə halları da ola bilər, dəyişikliklər də olur. Amma prinsip etibarilə, biz tikinti işlərindən razıyıq. Ümid edirəm ki, tezliklə layihəni tamamlayacağıq.

Azərbaycan qazını Avropaya daşıyacaq Cənubi Qafqaz boru kəməri də inşa edilir. Hesab edirəm ki, tikinti işlərinin 40–50 faizi görülüb və Azərbaycan qazı vaxtında, 2006-cı ildə Türkiyəyə, oradan da Yunanıstana, daha sonra isə digər Avropa ölkələrinə nəql ediləcəkdir. Danışıqlar bu istiqamətdə aparılır.

Gürcüstan və Azərbaycan arasındakı münasibətlərə gəldikdə, bu, dostluq münasibətləridir. Çox səmimi, yaxın münasibətlərdir. Sovet dövründə də, müstəqillik dövründə də prezident Heydər Əliyev və prezident Şevardnadze arasındakı yaxın münasibətlər iki ölkənin münasibətlərinin inkişafında çox mühüm rol oynamışdır. İndi də ölkələrin yeni liderlərinin necə münasibətlər qurması, necə siyasət aparması vacibdir. Mən aramızda yaranmış münasibətlərdən razıyam. Əminəm ki, həmkarım, Gürcüstan prezidenti də belə münasibətlərin olmasına şaddır. Bu gün Gürcüstan və Azərbaycan yaxın dost, yaxın tərəfdaşlardır. Həm ikitərəfli münasibətlərdə, həm də regional səviyyələr-

də, inteqrasiya siyasətində çox yaxındırlar və bir-birini həmişə dəstəkləyirlər.

Hazırda sərhəddə baş verən məsələnin səbəbi var. Bizə məlumat daxil olmuşdur ki, Xəzərin şərqindən gələn yüklər Ermənistana daxil olur. Biz bunu qeyri-qanuni hesab edirik. Çünki Azərbaycan Şərq–Qərb dəhlizinin bir hissəsi olan TRASEKA proqramına qoşulubdur. Özü də bu şərtlə qoşulub ki, Azərbaycan ərazisindən keçən yüklər Ermənistana daxil olmasın. Biz isə saxta sənədlər aşkar etmişik, həmin saxta sənədlər əsasında, Türkmənistandan Avropaya getməsi nəzərdə tutulan yüklər Ermənistana daxil olur. Ona görə də gürcüstanlı həmkarlarımızla birlikdə araşdırmağa başladıq. Bu araşdırma zamanı da hər bir yük yoxlanılır. Buna görə də sərhəddə bəzi tıxaclar əmələ gəldi. Amma oraya adamlarımızı göndərmişik və gürcüstanlı həmkarlarla birlikdə işləyirlər. Ümid edirik ki, tezliklə məsələ aydınlaşacaqdır. Azərbaycandan Ermənistana bir qram da yük gedə bilməz. Yaxud da, başqa bir ölkədən gəlməklə Azərbaycan ərazisindən keçib Ermənistana daxil ola bilməz. Səbəbi də Ermənistanın işğalının davam etməsidir. İşğala son qoyulduqdan sonra, əlbəttə ki, bütün kommunikasiya vasitələri və yalnız bu marşrut deyil, digərləri də açıla bilər.

Daxili siyasətlə bağlı. Siyasi ab-hava çox yaxşıdır. Bizim cəmiyyətimiz vahiddir. İslahatlar siyasətimiz xalq tərəfindən dəstəklənir. Prezident seçkiləri, seçkilərdən sonrakı dövr göstərir ki, hökumət verdiyi sözlərə əməl edir. İqtisadi göstəricilər çox yaxşıdır. Ümumi daxili məhsul bu il 10 faiz artıbdır. Sərmayələr 40 faizdən artıq artmışdır. Dövlət idarələrində işləyənlərin maaşlarını nəzərəçarpacaq qədər artırmışıq. Büdcədən maliyyələşən təşkilatlarda maaşlar qaldırılmışdır. Minimum əməkhaqqı bir neçə dəfə artıb. Sosial problemlərin həllinə böyük diqqət yetirilir. İnsanlar müsbət dəyişiklikləri görərkən, makroiqtisadi göstəriciləri gündəlik həyatda hiss edərkən (çünki insanların çoxu ümumi daxili məhsulun 10 faiz artmasının nə demək olduğunu bilmir), daha çox maaş, daha çox sosial yardım alarkən, daha yaxşı münasibət görərkən, bu, hökumətin də gücünü artırır.

Müxalifət prezident seçkilərindən sonra və təəssüf olsun ki, küçələrdəki iğtişaşlardan sonra özünə gələ bilmir və sizə deyim ki, tərəfdarlarının çoxunu itiribdir. Özü də təkcə bizim siyasətimizə görə yox. Mən dəfələrlə çıxışlarımda açıq-aydın müxalifəti siyasi dialoqa çağırmışam. Bu bəyanatlar həm prezident seçkilərindən əvvəl, həm də seçkilərdən sonra olubdur. Amma təəssüf ki, mən hələ də heç bir cavab almıram. Onların cəmiyyətdə rolu çox aşağıdır, müxalifətin siyasi həyatın vacib amili olması, rolu gözə görünmür. Sual olunsa ki, bu məni sevindirir, yoxsa yox, cavab verərəm ki, əlbəttə, yox.

Çünki hər bir cəmiyyətdə müxalifət olmalıdır. Bu müxalifət yaradıcı müxalifət olmalıdır. Təəssüf ki, bu gün bizdə belə hal müşahidə edilmir. Düşünürəm ki, on ildən artıq bir müddətdə müxalifətdə eyni adamların olması, onların eyni sözləri deməsi cəmiyyətin ona inamını xeyli azaldıbdır və belə hal müxalifətə kömək etmir. Hökumətdə də, Azərbaycan hakimiyyətində də, mənim mənsub olduğum partiyada da dəyişikliklər baş verir. Yeni prezident gəlib. Hökumətin yeni üzvləri gəliblər. Bizim düşərgədə dəyişiklik var. Müxalifətdə isə hər şey olduğu kimi qalır. 1993-cü ilədək Azərbaycan hakimiyyətində olanlar, həmin hakimiyyəti, on il müddətində bütün prezident və parlament seçkilərini uduzanlar indi müxalifətdədirlər.

Dekabrın 17-də bizdə bələdiyyə seçkiləri keçiriləcəkdir. Müxalifət indidən həmin seçkiləri boykot edir. Səbəb nədir? Səbəb sadədir. Onların namizədləri yoxdur. 38 min namizəd bələdiyyə seçkilərinə qeydiyyatdan keçib və onların yalnız 5 faizi müxalif partiyalarındandır. Rayonlarda adamları yoxdur. Bir çox rayon təşkilatları fəaliyyətlərini dayandırıblar. Çünki bu gün Azərbaycanın inkişafında yeni dövr başlayıbdır. Bu gün Azərbaycan hökuməti də, lideri də – bəlkə bunu demək təvazökarlıqdan uzaqdır – xalq tərəfindən dəstəklənir. Bu dəstəyi doğrultmaqdan ötrü, sözümüzün üstündə dayanmaqdan ötrü, seçicilərimizin bizdən gözlədiklərini yerinə yetirməkdən ötrü əlimizdən gələni edəcəyik.

Bugünkü müxalifət dağıdıcı müxalifətdir, Sovet İttifaqının dağılması dövründən qalan müxalifətdir. Onlarda yaradıcılıq çatışmır. Bizə yəqin ki, yeni adamlar, yeni qüvvələr lazımdır. Amma biz bu prosesə təsir edə bilmərik. Mən şəxsən təəssüf edirəm ki, Azərbaycanda müxalifətin səviyyəsi bu cür aşağıdır.

**S u a l: Mən Ermənistanın səfiriyəm. Siz çıxışınızda mənim ölkəmi o qədər günahlandırdınız ki, mən Sizə cavab verməliyəm. Birincisi, bu, işğal yox, özünü müdafiə etmək üçün yaranmış bufer zonasıdır. Nə Yerevanda və nə də Stepanakertdə hələ heç bir rəsmi deməyibdir ki, bu ərazilər status və təhlükəsizlik təminatları alındıqdan sonra da saxlanılacaqdır. Dediniz ki, Azərbaycanın dözümü hədsiz deyildir. Bu, hərbi əməliyyatların başlanma ehtimalı mənasını verirmi? Yoxsa başqa variantları nəzərdə tutursunuz?**

**C a v a b:** Bugünkü dünya dəyişən dünyadır, heç bir variantı kənara tullamaq olmaz və bütün variantlar mümkündür. Mən dedim ki, sülh yolu ilə həllə sadiqik və bizim sadiqliyimiz yalnız sözlər deyil, əsl şəraitdir. On ildən artıqdır ki, biz heç bir nəticəsiz danışıq aparırıq. Sizə deyə bilərəm ki, camaatımız bu danışıqlardan artıq doyubdur. Mən prezident seçiləndən sonra açıq bəyan etdim ki, biz danışıqlar xatirinə danışıqlar aparmayacağıq. Nə vaxt görsək ki, danışıqlar yüz faiz əhəmiyyətsizdir, Ermənistan tərəfi bu danışıqları yalnız vaxt udmaq, vaxtı uzatmaq xatirinə aparır, biz bu lazımsız işdən əl çəkəcəyik. Bir səfir kimi, sizə əsl vəziyyət yaxşı məlumdur. Yəqin ki, baş vermişlərlə bağlı Ermənistana bəraət qazandırılmasının nə dərəcədə çətin olması da sizə məlumdur. Beynəlxalq ictimaiyyətin gözündə təcavüzkar imicində yaşamağın da nə dərəcədə çətin olması sizə məlumdur.

Əlbəttə, 1990-cı illərin əvvəllərində, Azərbaycan informasiya blokadasında olduğu bir vaxtda Azərbaycan hökumətinin əhali qarşısında, ölkədə gözdən düşməsi dövrü Ermənistan üçün əlverişli dövr idi. Dünyadakı mövqelərindən istifadə edərək, xüsusilə də Moskva, Paris və Vaşinqtondakı lobbidən istifadə edərək, Azərbaycanı pis tərzdə göstərməyə müvəffəq olmuşdu.

O zaman ermənilər Azərbaycan haqqında və ümumiyyətlə, vəziyyətlə bağlı saxta məlumat yaya bildilər. Həmişəki kimi, yenə özlərini qurban kimi qələmə verə bildilər. Amma nəyin qurbanı? 250 min azərbaycanlı Ermənistandan qovuldu. Azərbaycanda Dağlıq Qarabağa qonşu olan 7 rayonun azərbaycanlı əhalisi etnik təmizləməyə məruz qaldı. 7 rayon mərkəzi yerlə-yeksan edildi. Dağıdılmayan nə vardısa Ermənistana daşındı. Minlərlə adamımız öldürüldü, yaralandı. İndi bir milyon qaçqın-köçkünümüz var.

Əlbəttə, indi Ermənistan üçün beynəlxalq ictimaiyyətin üzvü kimi fəaliyyət göstərmək çətindir. Ermənistan işğalçı ölkədir. Bu indi bir çox ölkələr tərəfindən də, beynəlxalq təşkilatlar tərəfindən də yaxşı anlanır. Biz torpaqlarımızın azad olmasını tələb edirik. Ermənistana qarşı ərazi iddiamız yoxdur. Baxmayaraq ki, tarixən bugünkü Ermənistan ərazisində əhalinin çoxunu azərbaycanlılar təşkil edib, XIX əsrdə də indiki Ermənistan əhalisinin 50 faizindən çoxu azərbaycanlılar olub. Hətta sovet ensiklopediyalarında belə Ermənistan ərazisindəki şəhərlərin çoxunun Azərbaycan adları olmasını görərsiniz.

Bizim heç bir ölkəyə ərazi iddiamız yoxdur, amma öz ərazilərimizin özümüzə qaytarılmasını istəyirik. Bizə ölkəmizin ərazi bütövlüyünün bərpası lazımdır. Ermənistan bunu sülh yolu ilə eləsə, lap yaxşı, sülh yolu ilə eləməsə, biz özümüz ərazimizi geri qaytararıq. Amma bu, regionda vəziyyətin çox ciddi xarakter almasına gətirəcəkdir. Azərbaycan öz ərazilərinin itirilməsi ilə heç vaxt, heç vaxt barışmaz. Biz hansı yolla olursa-olsun, torpaqlarımızı azad edəcəyik. Biz hazırda müdafiə layihələri üzərində işləyirik. Gələn il üçün müdafiə büdcəmizi 30 faiz artıracağıq. Ərazilərimizi geri qaytarana qədər büdcədə bu xərclər daha da artacaqdır. Mənim sizə cavabım belədir.

* * *

**L o r d H ö r d:** Zati-aliləri cənab Prezident, gözəl çıxışınıza görə sağ olun. Suallara cavabınıza görə minnətdaram. Sizə həm də ona görə minnətdarıq ki, bizim dildə danışdınız. Mənə

elə gəlir ki, prezidentin öz ölkəsinin gələcəyini necə təsəvvür etməsi çıxışında aydın göründü. Prezidentin çıxışından sonra münaqişə ilə bağlı Azərbaycan tərəfinin mövqeyi də bizə bəlli oldu. Elə bilirəm ki, bu məsələdə hər bir tərəfin fikrini öyrənməsəydik, bu, reallıqdan uzaq olardı.

Cənab Prezident, hamımız Sizə uğur diləyir, məsələnin sülh yolu ilə həll olunmasını arzulayır, ölkənizə gələcək firavanlıq arzu edirik. Biz, buradakı dostlarınız isə bu yolda əlimizdən gələni etməyə hazırıq. Buraya gəldiyinizə görə Sizə bir daha minnətdarıq. Çox sağ olun, cənab Prezident.

## «AZƏRBAYCANDA TİCARƏT VƏ SƏRMAYƏ» KONFRANSINDA NİTQ

*London,*
*Avropa Yenidənqurma və İnkişaf Bankı*

*14 dekabr 2004-cü il*

Hörmətli cənab Prezident!
Hörmətli xanımlar və cənablar!

Burada olmağımdan və Azərbaycan iqtisadiyyatının gələcək inkişafına güclü təkan verəcək konfransda nitq söyləməyimdən çox məmnunam. Eyni zamanda, Azərbaycanla sıx əməkdaşlığa görə Avropa Yenidənqurma və İnkişaf Bankına minnətdarlığımı bildirirəm.

Bizim münasibətlərimiz çox yaxşıdır. Bu gün burada gələcək əməkdaşlığımızı müzakirə edərkən və keçmişdəki münasibətlərimizə nəzər salarkən böyük məmnuniyyətlə Avropa Yenidənqurma və İnkişaf Bankının bizim iqtisadiyyatın qeyri-neft sektoruna xüsusi diqqət yetirəcəyini öyrəndim. Bu bizə iqtisadiyyatı hərtərəfli inkişaf etdirmək imkanı verəcəkdir. Ölkə elə inkişaf edəcəkdir ki, hər bir rayon, hər bir vətəndaş iqtisadi artımın faydasını hiss edə bilsin.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bir sıra çətinliklərdən keçmişdir. İlk vaxt ölkə tamamilə iqtisadi və siyasi böhran, hərc-mərclik dövrünü yaşayıb və sərmayəçilər üçün cəlbedici olmayıbdır. Həmin çətin dövrdə – 1993-cü ildə hakimiyyətə gəlmiş ümummilli liderimiz Heydər Əliyevin cəsarəti və müdrikliyi Azərbaycanı sərmayəçilər üçün ən rahat, ən cəlbedici məkana çevirdi. Hazırda ölkədə adambaşına düşən xarici sərmayənin həcmi regionda ən yüksək həddə çatmışdır. Xarici sərmayələr lazımi qədər qorunub, bu gün də qorunur və gələcəkdə də qorunacaqdır. Əlbəttə ki, neft və qaz sektorunun

bu işdə əsas və həlledici rolu olmuşdur. 1994-cü ildə potensial sərmayəçini cəlb etmək üçün Azərbaycanın başqa imkanları yox idi. Bu imkanlar yalnız təbii sərvətlərimizlə – neft və qazla bağlı idi.

Amma bu ehtiyatların olması hələ o demək deyildi ki, təbii sərvətlərimiz ölkəyə və xalqa xidmət edəcək, onun mövqeyinin, siyasi xəttinin möhkəmləndirilməsinə yardımçı olacaqdır. Beləliklə, bizim üçün neft və qaz yataqlarının işlənməsi başqa bir mühüm məna kəsb edirdi. Biz məsələyə fərqli müstəvidən baxırdıq. Bügünkü gündə xarici sərmayələrin cəlb olunması üzrə göstəricilər Azərbaycanda çox müsbətdir. Əminəm ki, neft və qaz sənayesinə sərmayə yatıranlar bizimlə əməkdaşlıqdan razıdırlar. Biz də öz razılığımızı ifadə edirik. Çünki ölkəmiz, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və xarici sərmayəçilər arasında gözəl işbirliyi, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət mövcuddur. Biz onların Azərbaycan iqtisadiyyatında iştirakını yüksək qiymətləndiririk.

Azərbaycan neft və qaz amilindən istifadə edərək, regionda daim nüfuzu artan bir ölkəyə çevrildi. Bu gün regiondakı heç bir layihə Azərbaycansız, ölkəmizin birbaşa iştirakı olmadan həyata keçə bilməz. Azərbaycan neft və qaz sektorunun inkişafından istifadə edərək, həm də özünün iqtisadi vəziyyətini gücləndirdi ki, bu da ölkəmizin siyasi mövqelərinin möhkəmlənməsinə gətirib çıxardı. Dünyanın bizim olduğumuz regionunda müstəqillik yalnız hüquqi statusun müəyyən etdiyi çərçivə ilə ölçülmür. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir və həyata keçirdiyi siyasət yalnız və yalnız Azərbaycanın və Azərbaycan xalqının maraqlarına uyğun şəkildə aparılır. Ona görə də Azərbaycanın son on ildə keçdiyi yol müstəsna əhəmiyyət kəsb edir.

Biz müasir dövrü 1993–94-cü illərlə müqayisə etsək, böyük fərqin olduğunu görərik. Bugünkü Azərbaycan sürətlə inkişaf edən ölkədir. Ümumi daxili məhsulun həcmi böyükdür, makroiqtisadi göstəricilərə dair nailiyyətlərimiz dünyaya məlumdur. 1995-ci ildən 2003-cü illədək ümumi daxili məh-

sulun həcmi 90 faiz artıbdır. Bu il isə artım 10 faiz olubdur. Gələn il biz daha çox artım gözləyirik.

Makroiqtisadi fəaliyyətlə yanaşı, biz əhalinin gündəlik həyatının yaxşılaşdırılmasına da böyük diqqət yetiririk. Çünki insanlar ümumi daxili məhsul üzrə göstəriciləri öz gündəlik həyatlarında hiss etməlidirlər. Onlar gündəlik həyatlarında həqiqi dəyişikliklər hiss etməlidirlər. Biz çalışırıq ki, insanlarımıza daha yaxşı həyat bəxş edək, onların gündəlik problemlərini həll edək, qayğılarını azaldaq. Eyni zamanda, infrastrukturun, xidmət sahələrinin inkişaf etdirilməsinə çalışırıq. Bunu etmək üçün isə iqtisadi potensial olmalıdır, biz beynəlxalq ictimaiyyət arasında yaxşı imicə malik olmalıyıq.

Biz beynəlxalq maliyyə qurumları arasında etibarlı tərəfdaş adı qazanmalıyıq. Avropa Yenidənqurma və İnkişaf Bankı da daxil olmaqla, beynəlxalq maliyyə qurumları ilə münasibətlərə xüsusi əhəmiyyət veririk və bu münasibətləri yüksək qiymətləndiririk. Ümid edirik ki, gələcəkdə bu münasibətlər davam etdiriləcək və güclənəcəkdir. Bu sahədə yeni addımlar atmağımızın vaxtı gəlib çatmışdır.

Ölkənin strateji yolu, siyasi xətti, iqtisadi inkişaf prioritetləri dəyişməz olaraq qalır. Bu bizim ümummilli liderimiz Heydər Əliyevin başladığı dəyişməz siyasətdir və həmin siyasət özünün səmərəli olmasını sübuta yetiribdir. Amma həyat yerində dayanmır, statik vəziyyətdə deyil, dünya dəyişir, region dəyişir. Azərbaycanın özü də dəyişir. Biz yeni çətinliklərlə də üzləşirik. Bütün bu inkişafdan necə istifadə etməli? Hazırkı sosial, siyasi, iqtisadi sabitlikdən, iqtisadi inkişafdan ölkənin müasirləşməsi üçün necə istifadə etməli? Ölkəyə hansı texnologiyaları gətirməli? Müasir infrastruktur və xidmət növlərini necə yaratmalı?

Biz insanlar üçün daha yaxşı şərait yaratmalıyıq. Rayonları inkişaf etdirməsək, qeyri-neft sahəsini inkişaf etdirməsək uğurlar əldə edə bilməyəcəyik. Cənab Prezident doğru dedi ki, neft həm xeyir verə bilər, həm də ziyan. Əlavə edim ki, neft həm də daimi başağrısıdır. Neftin varsa, müxtəlif istiqamətdən sənə daha çox diqqət yetirilir, amma bizim üçün qeyd etdiyim kimi, neft məqsəd

olmayıbdır. Neft, sadəcə, məqsədimizə çatmaq üçün vasitə olubdur. Biz gündəliyimizdəki vəzifələri uğurla həll etməkdən ötrü neft amilindən istifadə etmişik. Bu gün iqtisadiyyatı hərtərəfli inkişaf etdirmək əsas prioritetdir. Biz rayonlara sərmayə gətirməliyik. Qəbul etdiyimiz regionların inkişafı proqramı vəziyyəti yaxşılaşdıracaqdır.

2004-cü ildə Azərbaycanda 100 mindən çox yeni iş yerləri açılıbdır ki, onların da çoxu qeyri-neft sahəsində, əsasən rayonlarda yaradılıbdır. Amma hələ də paytaxtla rayonlar arasında fərq böyükdür. Qeyri-neft sahəsində güclü iqtisadiyyat yaratmasaq, bu fərq daha da artacaqdır. Bunun da xoşagəlməz sosial və iqtisadi nəticələri olacaqdır. Məqsədimiz bu fərqi azaltmaqdır. Əlbəttə, buna paytaxtda imkanları azaltmaqla yox, rayonlarda imkanları artırmaqla nail olmalıyıq. Bu gün mən məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycanda rayonların inkişafı hiss olunur. Mən daim rayonlara səfər edirəm və insanların dəyişikliklərə nə qədər böyük həvəs göstərdiyini, nikbin olduğunu hiss edirəm. Onların yeni şərait yaratmaq, yeni infrastruktur yaratmaq hissini duyuram. Elə bilirəm ki, yeni infrastruktur layihələri, yeni elektrik stansiyalarının tikilməsi, yolların salınması, su və qazpaylayıcı sistemlərin quraşdırılması həm xarici, həm də yerli sərmayələrin artımına imkan yaradacaqdır.

Azərbaycan hökuməti özəl sektora daim dəstək verməyə çalışır və biz bunu yalnız sözdə deyil, əməli işimizlə də göstəririk.

Əgər hökumət, prezident özəl sektoru sözdə və işdə dəstəkləyirlərsə, bu həm də biznes icması üçün mənəvi dəstəkdir. Gələn il üçün hökumətin özəl sektora yardımı daha da artacaqdır və bu özünü konkret rəqəmlərlə göstərəcəkdir. Kənd təsərrüfatına yeni infrastrukturun tətbiq olunması da nəzərdə tutulur. Kənd təsərrüfatı bizim iqtisadiyyatın böyük hissəsidir və bu sahədə güclü potensial vardır. İqtisadi inkişaf və sosial inkişafa bu sahənin güclü təsir qüvvəsi vardır. Çünki Azərbaycan əhalisinin böyük bir hissəsi kənd yerlərində yaşayır. Ona görə də Azərbaycan hökuməti bu təşəbbüsləri dəstəkləyir. Biz anlayırıq ki, rayon yerlərində biznes fəaliyyətinə başlamaqdan ötrü ilkin kapital lazımdır. İlkin kapitalı

olan biznesmenlər, iş adamları vardır, amma əhalinin böyük hissəsi bu kapitala malik deyildir. Biz çalışırıq ki, sahibkarları ilkin kapitalla təmin edək. Lakin hökumət bunu təkbaşına edə bilməz. Burada beynəlxalq maliyyə qurumlarının iştirakı lazımdır. Onların fondları, məsləhətləri gərəkdir. Onların təcrübəsi, məsləhətləri faydalıdır.

Biz strateji seçimimizi etmişik. İstəyirik ki, Azərbaycanın güclü iqtisadiyyatı olsun. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri ilə inkişaf etdiririk. Bu gün ümumi daxili məhsulda özəl sektorun payı 74 faizdir. Yeni ildə bu payın 77 faiz olacağı nəzərdə tutulur. Neft və qaz sənayesinin iqtisadiyyatın əsasını təşkil etdiyini və dövlət inhisarında olduğunu nəzərə alsaq, bu rəqəmləri uğurlu hesab etmək olar. Elə bilirəm ki, bügünkü müzakirələrdə əsas söhbət iqtisadiyyatın digər sahələrinə yatırıla biləcək sərmayələrdən getməlidir. Mən bu müzakirələrin praktiki nəticələrini görmək ümidindəyəm. Kənd təsərrüfatı, telekommunikasiya, turizm, neft kimyası sənayesi, xidmətlər, bank və sığorta sektoru – bu sahələrin hamısı bizim iqtisadiyyat üçün əhəmiyyət daşımaqla bərabər, xarici sərmayəçilər üçün də cəlbedicidir. Nəzərə alsaq ki, adı çəkilən sahələr hələ tammiqyaslı işlənməyib, burada fəaliyyət üçün geniş imkanlar vardır.

Ölkənin iqtisadi sabitliyi, siyasi sabitliyi, regionda rolunun artması, əlverişli coğrafi şəraiti nəqliyyat infrastrukturunun yaranması üçün geniş imkanlar yaradır. Bu gün biz Böyük İpək Yolu, Şərq–Qərb nəqliyyat dəhlizi layihələri üzərində işləyirik. Azərbaycan Şimal–Cənub dəhlizi layihəsinə də qoşulubdur. Regiondakı bütün yollar bizim ölkəmizdən keçir. Bunların hamısı sərmayəçilər üçün vacib amildir.

Bütün bunların nəzərə alınması və Azərbaycan xalqının, xarici sərmayəçilərin ölkənin gələcəyə inamı, gələcəkdə şəraitin daha da yaxşılaşacağına olan əminlik, elə bilirəm ki, sərmayəçilər üçün əlavə stimul olacaqdır. Azərbaycan hökuməti olaraq biz sərmayələri qorumağı və mümkün əlverişli şəraiti yaratmağı öz üzərimizə götürürük.

Cənab Prezident, neft və qaz mövzusuna qayıdaraq deməliyəm ki, bu sektorun təcrübəsində biz sərmayələrin qorunması ilə bağlı qanunlar işləyib hazırladıq, artıq bu danılmaz faktdır. Neft müqavilələrinin hamısı parlamentdə ratifikasiyadan keçirildi, sonra isə qanun statusu aldı. Bu da ki, sərmayəçilər üçün əlavə rahatlıq, əlavə təhlükəsizlikdir.

Neft və qaz sahəsində uğurlu əməkdaşlığın 10 ili ərzində Azərbaycan tərəfinin və yaxud qarşı tərəfin hansısa bir şərti yenidən müzakirə etmək, dəyişmək arzusu yaranmamışdır. Biz yaxşı anlayırıq ki, xarici sərmayəçilərin inamını, etibarını qazanmaqdan ötrü biz illərlə, bəzən isə on illərlə çalışmalıyıq. Amma düzgün atılmayan bircə addım hər şeyi korlaya bilərdi. Xoşbəxtlikdən, biz səhv addım atmadıq və əminəm ki, bundan sonra da səhvə yol verməyəcəyik. Ona görə də bir daha sizi, bütün potensial sərmayəçiləri Azərbaycan iqtisadiyyatının bütün sahələrinə sərmayə yatırmağa dəvət edirəm. Azərbaycana gəlin, şəraiti öyrənin, iqtisadi, sosial, siyasi vəziyyətlə tanış olun. Ölkəmiz xaricilərin yaşaması üçün də rahat bir ölkədir. Digər millətlərin, digər dini icmaların nümayəndələrinə bizim ölkədə böyük dözümlülük göstərilir. Bu nöqteyi-nəzərdən düşünürəm ki, Azərbaycan aparıcı mövqedədir. Bəlkə də bu, iqtisadi inkişafdan da vacib bir elementdir. Sülh, təhlükəsizlik, cəmiyyətdə müxtəlif millətlər, müxtəlif etnik, dini icmalar arasında qarşılıqlı inam bizim ən çox dəyərləndirdiyimiz bir nemətdir. Biz bu neməti qoruyuruq, bunun olması ölkədə xüsusi ab-hava yaradır.

Mən ölkəmi çox sevirəm. Azərbaycan haqqında çox danışmaq olar. Amma bu, vaxtınızı çox alar, ona görə də qoy Azərbaycanla maraqlanan bütün dinləyicilər müvafiq suallar versinlər, onları düşündürən məsələlərlə maraqlansınlar.

Bir daha sizə, Avropa Yenidənqurma və İnkişaf Bankına bu konfransı keçirdiyinə görə minnətdarlığımı bildirirəm. Eyni zamanda, Azərbaycana milyardlarla dollar sərmayə yatırmış sərmayəçilərə də minnətdaram. Azərbaycana yeni sərmayəçiləri dəvət edirəm, bizim ölkəyə gəlin və birlikdə çalışaq!

## «ŞAHDƏNİZ» KREDİT SAZİŞİNİN İMZALANMA MƏRASİMİ VƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MƏTBUAT KONFRANSI

*London,*
*Avropa Yenidənqurma və İnkişaf Bankının binası*

*14 dekabr 2004-cü il*

*Sənədləri Azərbaycan tərəfindən Baş nazirin müavini Abid Şərifov, ARDNŞ-in prezidenti Natiq Əliyev və AYİB-in biznes qrupunun direktoru Piter Rayninger imzaladılar.*

*İmzalanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyev jurnalistləri maraqlandıran suallara cavab verdi.*

**S u a l: Cənab Prezident, Siz çıxışlarınızda təhlükəsizlik məsələlərini həmişə ön plana çəkirsiniz. Amma Azərbaycanın özünün təhlükəsizliklə bağlı problemləri var, işğaldan əziyyət çəkir. Əsas etibarilə Britaniya rəsmiləri ilə söhbətlərinizdə Siz bu mövzunu irəli çəkmisiniz. Amma bu məsələ biznes nümayəndələrini də narahat edir. Əlavə edəcəyiniz bir şey varmı?**

**İ l h a m Ə l i y e v:** Bu mövzu Azərbaycan prezidenti kimi, daim mənim gündəliyimdədir. Dünən parlamentdəki görüşlərim zamanı da, «Chatham House»də görüşlərim zamanı da bu məsələ müzakirə olundu. Bu mövzu yalnız Azərbaycan üçün deyil, bütün region üçün təhlükəsizlik baxımından çox vacibdir.

Azərbaycan torpaqlarının işğalının davamı və eləcə də 1 milyon qaçqın-köçkünün mövcudluğu regionda daimi siyasi, iqtisadi, sosial və təhlükəsizlik problemi mənbəyidir. Azərbaycan beynəlxalq hüquq normaları və prinsiplərinə möhkəm sadiq olan ölkədir. Bu, o deməkdir ki, hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır və xarici ölkələrlə sərhədləri pozulmazdır. Buna

görə tələb edirik ki, Ermənistanın işğalçı qüvvələri bizim ərazilərdən geri çəkilsinlər. Biz ümid edirik ki, danışıqlar nəticə verəcəkdir, regionda sülh və təhlükəsizlik təmin olunacaqdır. Amma eyni zamanda, nəzərinizə onu da çatdırım ki, bu fakta baxmayaraq, yəni müharibə vəziyyətində olmağımıza baxmayaraq – çünki indiki vəziyyətdə atəşkəs razılığı olsa da, sülh vəziyyəti də deyil – bu, potensial investorları qorxutmur. Onları ölkəmizə gəlməzdən əvvəl bir neçə dəfə düşünməyə vadar etmir. Bu çətinliklərə baxmayaraq, Azərbaycanda ciddi sərmayəçi marağı mövcuddur, əminəm ki, gələcəkdə bu investisiya potensialı artacaqdır. Amma Qafqaza sülh və təhlükəsizlik gəlməlidir. Ümid edirik ki, bu, sülh yolu ilə baş verəcəkdir. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

**S u a l: Ölkənizdə demokratiyanın inkişafı, korrupsiya ilə mübarizə haqqında nə deyə bilərsiniz? Praqada keçirilmiş danışıqlar hansısa konkret nəticələr verə bilərmi?**

**İ l h a m Ə l i y e v:** Azərbaycan həyatın bütün sahələrində inkişafa can artır. Elə bilirəm ki, bizim şəffaflıq siyasətimiz, neft və qaz sənayesində şəffaflığa yönəlmiş səylərimiz və həyata keçirdiyimiz tədbirlər bu sahədə əldə etmək istədiyimiz tərəqqiyə işarədir. Bu yaxınlarda korrupsiyaya qarşı mübarizə ilə bağlı qanun qəbul edilmişdir ki, bu da korrupsiya ilə mübarizəni daha da sürətləndirəcəkdir. Amma bu mövzu yalnız bizim ölkəyə aid deyil, ümumiyyətlə, regionu da, daha geniş ərazini də, elə bütün dünyanı da narahat edən mövzudur. Mən elə düşünürəm ki, iqtisadiyyatın liberallaşması, genişmiqyaslı özəlləşdirmə, güclü müstəqil orta sinfin yaranması bu məsələnin həlli üçün ən yaxşı çıxış yoludur. Təəssüflər olsun ki, bu sahədə görülmüş inzibati tədbirlər uğur gətirmir, vəziyyəti çox dəyişmir. Ona görə də, struktur dəyişiklikləri, cəmiyyətin demokratikləşdirilməsi, iqtisadi və siyasi azadlıqlar korrupsiya xəstəliyinin ən yaxşı dərmanlarıdır.

İkinci sualla bağlı, artıq Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşləri mütəmadi xarakter alıbdır, görüşlər zamanı çox vacib mövzular müzakirə olunur. Amma bir daha

təkrar etmək istəyirəm ki, Dağlıq Qarabağ mövzusu barədə istənilən razılıq yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipi əsasında ola bilər. Azərbaycanın ərazi bütövlüyü güzəştli danışıqların mövzusu ola bilməz.

Digər mövzularda, məsələn təhlükəsizlik təminatları, Dağlıq Qarabağın gələcək muxtariyyət statusu mövzularında güzəşt ola bilər. Amma ərazi bütövlüyü məsələsində heç cür ola bilməz. Ona görə sizə deyirəm ki, bu mövzu danışıqlarda müzakirə olunmur və heç zaman da müzakirə obyektinə çevrilməyəcəkdir. Budur bizim mövqeyimiz. Mövqeyimiz belədir və bir daha deyim ki, bu mövqe beynəlxalq hüquq normaları və prinsiplərinə əsaslanıbdır. Hər bir ölkə də bu prinsiplərə hörmətlə yanaşmalıdır.

**S u a l**: **Siz «Şahdəniz» layihəsi ilə bağlı məlumat verərsinizmi?**

**J a n L e m y e r:** Bəlkə, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev cavab versin?

**N a t i q Ə l i y e v:** Çox sağ olun. «Şahdəniz» layihəsi Azərbaycan üçün çox mühüm bir layihədir. Bildiyiniz kimi, «Şahdəniz» yatağında böyük qaz ehtiyatları aşkar olunmuşdur. Hazırda yataqda iş gedir, bu işlərin maliyyələşdirilməsindən çox şey asılıdır. Bu layihədə Azərbaycan Dövlət Neft Şirkətinin payı 10 faiz təşkil edir. Şirkətə aid olan hissə bizim öz maliyyə ehtiyatlarımız hesabına ödənilirdi. Bu məqsədlə «Azəri»–«Çıraq»–«Günəşli» yataqlarının işlənilməsindən alınan gəlirdən istifadə olunurdu, maliyyə vəsaiti bunun hesabına ödənilirdi. İndi isə «Şahdəniz» yatağının işlənilməsində yeni mərhələyə qədəm qoyuruq. Ona görə də bir qədər əvvəl yatağın işlənilməsinə dair maliyyə vəsaiti ayrılması ilə bağlı Avropa Yenidənqurma və İnkişaf Bankı ilə saziş imzalandı. Gələn il Cənubi Qafqaz boru kəməri ilə bağlı tikinti işləri davam etdiriləcək və artıq 2006-cı ildə ilk qazı Türkiyəyə ixrac edəcəyik. Bu layihə 30 il üçün nəzərdə tutulubdur.

**S u a l: Bakı–Tbilisi–Ceyhan kəmərinin payçıları ilə bağlı deyilir ki, layihənin ümumi qiymətində artım olacağı gözlənildiyi üçün onlar əlavə vəsait yatırılmasını müzarikə edirlər. Bununla bağlı sizinlə banklar arasında hansısa əlavə danışıqlar aparılırmı?**

**İ l h a m Ə l i y e v:** İndiyədək layihəni maliyyələşdirməklə bağlı problem olmayıbdır. Bilirsiniz ki, biz layihələrin banklar tərəfindən maliyyələşdirilməsinə xüsusi diqqət yetiririk. Çünki bu, Azərbaycanda həmin layihələrə münasibəti və inamı göstərir. Bundan əlavə, bu həm də Azərbaycana bu imkanları digər layihələr üçün də istifadə etməyə şərait yaradacaqdır. Xüsusilə də bu gün səhər müzakirə etdiyiniz qeyri-neft sahəsində. Əlbəttə ki, Bakı–Tbilisi–Ceyhan kimi çoxmilyardlıq bir layihənin həyata keçirilməsi zamanı dəyişikliklər mümkündür. Tikinti prosesində yeni şərait yarana bilər. Lakin indiyədək beynəlxalq maliyyə qurumları ilə işimizdə çətinlik yaranmayıbdır. Mən düşünmürəm ki, bununla bağlı hər hansı bir problem olsun.

Çünki boru xəttinin tikintisi, demək olar ki, tamamlanmaqdadır. Ən azı, Azərbaycan ərazisində işlər başa çatıb və ümid edirik ki, digər ölkələrdə – Gürcüstan və Türkiyədə də tezliklə başa çatacaqdır. Ona görə də biz bunu əsas problem kimi görmürük. Belə layihələrdə bu cür hallar baş verir və elə bilirəm, Bakı–Tbilisi–Ceyhan layihəsinin payçılarının hamısı öz töhfələrini verməyə hazırdırlar ki, planlaşdırdığımız, nəzərdə tutduğumuz kimi, ümumi məqsədə vaxtında çataq. İşlərin vaxtında başa çatması Ceyhan terminalından ilk nefti gələn ilin ortalarında yola salmağa imkan verəcəkdir.

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ (AYİB) PREZİDENTİ JAN LEMYER İLƏ GÖRÜŞ

*London*

*14 dekabr 2004-cü il*

*Cənab Jan Lemyer dövlətimizin başçısı İlham Əliyevi AYİB-in binası önündə böyük hörmət və ehtiramla qarşıladı.*

*Azərbaycan prezidenti İlham Əliyev bankın fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Görüşdə prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, sosial proqramlar barədə ətraflı məlumat verərək, ölkəmizin neft sektorunun inkişafı sahəsində böyük uğurlar əldə etdiyini vurğuladı və eyni zamanda, qeyri-neft sektorunun inkişafının, regionların iqtisadi cəhətdən güclənməsinin Azərbaycan hökumətinin fəaliyyətinin əsas istiqamətlərindən biri olduğunu qeyd etdi. O bu sahədə Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndirdi.*

*Bankın prezidenti Jan Lemyer rəhbərlik etdiyi qurumun Azərbaycanla uğurlu əməkdaşlıq etdiyini vurğuladı, ölkəmizdə iqtisadi layihələrin həyata keçirilməsi üçün ayrılacaq vəsaitin həcminin 280 milyon ABŞ dollarına çatacağını və bunun, əsasən, bank sektorunun inkişafına və infrastrukturun yenidən qurulmasına yönəldiləcəyini söylədi. O habelə, Azərbaycanın hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulmasını alqışlayaraq, ölkəmizdə Neft Fondunun fəaliyyətinin şəffaflıq prinsipi əsasında həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Cənab Lemyer prezident İlham Əliyevin ölkədə regionların inkişafı ilə bağlı siyasətinin Avropa Bankı tərəfindən alqışlandığını bildirdi və qurumun bu siyasəti bundan sonra da*

dəstəkləyəcəyini söylədi. O bu məqsədlə Azərbaycan hökuməti tərəfindən 50 milyon dollar vəsait ayrılmasını müsbət hal kimi dəyərləndirdi. Avropa Bankının xətti ilə Dövlət Neft Şirkətində aparılacaq struktur dəyişikliklərinə Azərbaycan prezidentinin dəstəyinin gələcəkdə də davam edəcəyinə əminliyini vurğulayan Jan Lemyer bu proseslərin ümumilikdə ölkə iqtisadiyyatının inkişafı üçün əhəmiyyətli olduğunu söylədi.

Prezident İlham Əliyev ölkəmizdə neft sektorunun şəffaflıq prinsipi əsasında inkişaf etdiyini qeyd etdi. Dövlətimizin başçısı dedi ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Neft Fondunun yaradılması ölkəmizin neft sektorunda şəffaflıq prinsipinin uğurla həyata keçirilməsi üçün etibarlı zəmin yaratmışdır. Təsadüfi deyil ki, Azərbaycan hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən olmuşdur.

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığın gələcəkdə daha yüksək səviyyəyə qalxacağına ümidvar olduğunu söylədi.

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ LONDON ŞƏHƏRİNİN MERİ ADINDAN VERİLƏN ZİYAFƏT

*14 dekabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dekabrın 14-də London şəhər meriyasının yerləşdiyi «Mansion House»a gəldi. Böyük Britaniya paytaxtı meri lord Maykl Savori prezident İlham Əliyevi və xanım Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladı. Dövlətimizin başçısı meriyanın fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Sonra London şəhərinin meri lord Maykl Sayorinin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə ziyafət verildi.*

*Lord Maykl Savori ziyafətdə çıxış edərək Azərbaycan prezidentini öz ölkəsində görməsindən məmnunluğunu bildirdi və dövlətimizin başçısının Böyük Britaniyaya səfərinin əhəmiyyətindən danışdı.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ziyafətdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Lord mer, xanım lord mer!

Əziz dostlar!

Xanımlar və cənablar!

İlk növbədə, bu səfər zamanı göstərdiyiniz qonaqpərvərliyə görə sizə minnətdaram. Biz bunu Londona gəlişimizin ilk dəqiqəsindən hiss edirik.

Biz bu səfərə böyük önəm veririk. Düşünürəm ki, bu səfər Birləşmiş Krallıqla Azərbaycan arasında uğurla davam edən əməkdaşlığa daha bir əlavə olacaqdır. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji sahələrində yüksək səviyyədə əməkdaşlıq mövcuddur. On ildən artıq davam edən bu əməkdaşlıq dövründə hər iki tərəf özünü etibarlı tərəfdaş kimi göstəribdir. Böyük Britaniya və Britaniya şirkətləri bizim ən böyük

sərmayəçilərimizdir. Biz bu töhfəyə və sadiqliyə görə minnətdarıq. Bu töhfə yeni müstəqillik qazanmış Azərbaycana imkan verdi ki, neft və qaz sənayesini inkişaf etdirsin və bu potensialı ölkə əhalisinin, bütövlükdə regionun firavanlığı naminə yönəltsin. Dünən və bu gün mənim parlamentdə, Müdafiə Nazirliyində, «Chatham House»da mühüm görüşlərim oldu. Bu gün Azərbaycanda sərmayə yatırımı imkanları ilə bağlı konfrans keçirildi. Biz ümid edirik ki, belə konfranslar vasitəsilə Azərbaycanın ən prioritet sahəsi olan qeyri-neft sektoruna sərmayələr cəlb etmək mümkün olacaqdır.

Neft və qaz sənayesində uğurlarımız məlumdur. Xarici neft şirkətləri ilə, *bp* ilə səmərəli əməkdaşlıq edirik. Bu şirkətin iştirakı ilə Azərbaycanda dünyanın ən böyük enerji layihəsi həyata keçirilir. Hazırda tikilən boru xətti Azərbaycana, onun qonşularına və dostlarına regional əməkdaşlığı artırmaq və əhali üçün daha yaxşı həyat şəraiti yaratmaq imkanı verir.

Biz ölkəmizi müasirləşdiririk, iqtisadi, siyasi, demokratik islahatlar həyata keçiririk və dostlarımızın dəstəyini hiss etmək bizim istəyimizi, qətiyyətimizi artırır.

Londonun bizim üçün xüsusi əhəmiyyəti vardır. Mən əvvəlki vəzifəmi icra edərkən, Azərbaycan Dövlət Neft Şirkətində işləyərkən Londona tez-tez gəlirdim. İndi Azərbaycanı inkişafa aparan, iqtisadi potensialını tam açmağa imkan verən bütün vacib məsələlərlə bağlı danışıqlar məhz Londonda, britaniyalı həmkarlarımızla keçirilirdi. Mən ümid edirəm ki, bu səfər bizim ənənəvi dostluq münasibətlərinə daha bir əlavə olacaqdır. Bu gün olduğu kimi, gələcəkdə də Böyük Britaniya ilə Azərbaycan əməkdaşlıq edəcəklər və bu əməkdaşlıqdan ölkələrimiz və xalqlarımız bəhrələnəcəkdir.

Qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Hamınıza uğur, xoşbəxtlik və firavanlıq arzulayıram.

## BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ TONİ BLEYR İLƏ GÖRÜŞ

*14 dekabr 2004-cü il*

*Cənab* Toni Bleyr *Böyük* Britaniya *hökuməti başçısının* Dauninq *Stritdəki iqamətgahı önündə Azəbaycan* prezidenti *İlham Əliyevi böyük səmimiyyətlə və* ehtiramla *qarşıladı.*

*Prezident İlham Əliyev və Baş nazir Toni Bleyr xatirə şəkli çəkdirdilər.*

*Prezident İlham Əliyev və Baş nazir Toni Bleyr arasında keçirilən görüşdə Azərbaycan –* Böyük Britaniya *əlaqələrinin perspektivləri,* regional *əməkdaşlıq, beynəlxalq məsələlər və ölkəmizin* Avropa *Birliyinə inteqrasiyası məsələləri ətraflı müzakirə* olundu. *Tərəflər Azərbaycan –* Böyük Britaniya *əlaqələrinin yüksək səviyyəsini xüsusi vurğulayaraq əməkdaşlığın gözəl perspektivləri olduğunu bildirdilər. Görüşdə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və* qarşılıqlı maraq *doğuran digər məsələlər ətrafında* da geniş *fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ CEK STRO İLƏ GÖRÜŞ

*London*

*14 dekabr 2004-cü il*

*Prezident İlham Əliyev və cənab Cek Stro görüşdən əvvəl xatirə şəkli çəkdirdilər.*

*Görüşdə Azərbaycan – Böyük Britaniya əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri barədə, beynəlxalq, regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev və dövlət katibi Cek Stro ölkələrimiz arasındakı əlaqələrin indiki vəziyyətindən məmnunluqlarını ifadə edərək bildirdilər ki, Böyük Britaniya Azərbaycanın Avropa Birliyinə inteqrasiyasına, Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutmasına töhfəsini verir.*

## *bp* ŞİRKƏTİNİN PREZİDENTİ CON BRAUN İLƏ GÖRÜŞ

*London*

*14 dekabr 2004-cü il*

*Azərbaycan prezidentini bp şirkətinin binası önündə cənab Con Braun və şirkətin digər əməkdaşları ehtiramla qarşıladılar.*

bp şirkətinin prezidenti Con Braun Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar prezident İlham Əliyevə bir daha başsağlığı verdi. O dedi ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri vasitəsilə Azərbaycan neftinin Ceyhan terminalına yola salınmasını görmək bu dahi şəxsiyyətin ən böyük arzularından biri idi. Bütün bunlar bu yaxınlarda həyata keçəcək və biz Heydər Əliyevin bu arzusunu yerinə yetirəcəyik.

Şirkətin prezidenti sonra Azərbaycan prezidentinə ölkəmizdə neft və qaz yataqlarının işlənilməsi sahəsində gördükləri işlər barədə ətraflı məlumat verdi. Layihələr üzrə işlərin qrafikə uyğun aparılmasını böyük məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev öz növbəsində bildirdi ki, bp şirkəti ilə ölkəmiz arasında sıx əməkdaşlıq münasibətləri formalaşmışdır. Azərbaycan prezidenti ölkəmizdə həyata keçirilən irimiqyaslı neft və qaz layihələrində, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin inşasında, «Şahdəniz» layihəsinin işlənilməsində bp şirkətinin xüsusi fəallıq göstərdiyini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının həyata keçirilməsinə verdiyi töhfələrə görə bp şirkətinin rəhbərlərinə təşəkkürünü bildirdi.

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dekabrın 14-də, Böyük Britaniyaya rəsmi səfərinin sonunda Avropa və dünyada ən nüfuzlu iqtisadi telekanal olan «Bloomberg»ə müsahibə vermişdir. «Bloomberg» telekanalının saytında dövlətimizin başçısının müsahibəsinə geniş yer ayrılmış, prezident İlham Əliyevin «2005-ci ildə Azərbaycan iqtisadiyyatında 14 faiz artım olacaqdır» sözləri sərlövhəyə çıxarılmışdır.*

*Telekanalın müxbiri Azərbaycan prezidentinə istinadən bildirir ki, yaxın iki ildə ölkədə neft və qaz hasilatı üç dəfə artacaq, gələn il isə birbaşa xarici sərmayələrin həcmi 4 milyard dollar olacaqdır. Prezident İlham Əliyev qeyd etmişdir ki, biz geniş neft və qaz ehtiyatlarının işlənilməsi ilə yanaşı, iqtisadiyyatın digər sahələrinə də sərmayələrin cəlb olunmasını artıracağıq. Dövlətmizin başçısının belə bir fikri də vurğulanır ki, ən azı 7 milyard barrel neft ehtiyatlarına malik olan Azərbaycan Xəzərdəki neft yataqlarının işlənilməsi ilə yanaşı, şirkətləri qurudakı yataqların işlənməsinə də cəlb etmək istəyir.*

*«Biz hazırda ildə 100 milyon barrel neft hasil edirik və qarşıdakı üç ildə bu rəqəm üç dəfə artırılacaqdır» deyən prezident İlham Əliyev 2005-ci ildə ilk dəfə olaraq ölkəmizin 100 milyon dollarlıq istiqrazları satışa çıxara biləcəyini vurğulamışdır. O habelə bildirmişdir ki, «biz bu prosesə gələn il az bir məbləğlə başlayacağıq və əgər görsək ki, iqtisadiyyatımız bundan mənfəət əldə edir, onda bu işi daha geniş miqyasda davam etdirəcəyik».*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Böyük Britaniyaya rəsmi səfərini başa çatdıraraq, dekabrın 15-də səhər Vətənə qayıtmışdır.*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – İmperatorun təvəllüd günü münasibətilə Sizi və dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Yaponiya münasibətlərinin bugünkü inkişaf səviyyəsindən məmnunuq. Ümidvaram ki, qarşılıqlı maraq doğuran bir çox sahələrdə əməkdaşlığımızın dərinləşdirilməsi üçün səylərimizi daha da artıracağıq.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yaponiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 dekabr 2004-cü il*

**YAPONİYANIN İMPERATORU**
**ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Yaponiyanın milli bayramı – İmperatorun təvəllüd günü münasibətilə Sizi və Sizin simanızda bütün Yaponiya xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yaponiya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *15 dekabr 2004-cü il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndiririk. Əminəm ki, əlaqələrimizin hərtərəfli genişlənməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqımızın rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *15 dekabr 2004-cü il*

**MOLDOVA RESPUBLİKASI QAQAUZİYA MUXTAR ƏRAZİ QURUMUNUN BAŞQANI CƏNAB GEORGİ TABUNŞİKƏ**

**MOLDOVA RESPUBLİKASI QAQAUZİYA MUXTAR ƏRAZİ QURUMU XALQ MƏCLİSİNİN SƏDRİ CƏNAB STEPAN YESİRƏ**

Hörmətli cənab Başqan!

Hörmətli cənab Sədr!

Sizi və Sizin şəxsinizdə bütün qaqauz xalqını əlamətdar hadisə – Qaqauziya (Qaqauz Yeri) Muxtar Ərazi Qurumunun yaradılmasının 10 illiyi münasibətilə təbrik edirəm.

Müstəqil Moldovanın tam və bərabərhüquqlu vətəndaşları kimi, qaqauzlar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir, yaşadıqları ölkə qarşısında vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Əmin olduğumu bildirmək istəyirəm ki, Qaqauziya bundan sonra da Moldova Respublikasının bütövlüyü və dövlət müstəqilliyinin möhkəmləndirilməsi işində mühüm rol oynayacaqdır.

Azərbaycanlılarla qaqauzlar eyni tarixi soy-kökə, milli-mədəni dəyərlərə malik qohum xalqlardır. Azərbaycan və Moldova dövlət müstəqilliyini əldə etdikdən sonra xalqlarımız bir-birini daha yaxından tanımağa başlamış, ictimai-mədəni əlaqələrimiz genişlənmişdir. İnanıram ki, hazırda Azərbaycan və Moldova dövlətləri arasında dostluq və əməkdaşlıq münasibətlərinin yüksələn xətt üzrə inkişafı xalqlarımızın milli-mədəni əlaqələrinin daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Bir daha milli bayramınızı təbrik edir, Moldova cəmiyyətinin ayrılmaz tərkib hissəsi olan qardaş qaqauz xalqına əmin-amanlıq, firavanlıq və tərəqqi arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 dekabr 2004-cü il*

## BELARUS RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ LEONİD MALTSEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 dekabr 2004-cü il*

*Qonağı səmimiyyətlə* salamlayan *dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etməsindən məmnun qaldığını* bildirdi.

Belarusun *Baş* naziri Sergey Sidorskinin *Azərbaycana səfərini xatırladan* prezident *İlham Əliyev həmin səfərin Azərbaycan–*Belarus iqtisadi *əməkdaşlığının genişləndirilməsi üçün yaxşı zəmin yaratdığını vurğuladı. Dövlətimizin başçısı, ümumiyyətlə, ölkələrimiz arasında* iqtisadi *əlaqələrin inkişafı üçün yaxşı perspektivlər olduğunu* bildirdi.

*Prezident İlham Əliyev Azərbaycan ilə* Belarus *arasında hərbi* sahədə *də əməkdaşlıq* edildiyini *nəzərə çatdıraraq, cənab* Leonid Maltsevin *ölkəmizə səfərinin* bu *sahədə əlaqələrin inkişafına xidmət edəcəyinə əmin olduğunu vurğuladı.*

Belarusda *Azərbaycan səfirliyinin açılması barədə qərar qəbul* etdiyini *nəzərə çatdıran dövlətimizin başçısı Minskdə fəaliyyətə başlayacaq səfirliyimizin ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin inkişafına xidmət göstərəcəyini* bildirdi. *Prezident İlham Əliyev* Belarusda *Azərbaycan icmasının* Belarus *cəmiyyətinə sıx* inteqrasiya edildiyini *vurğuladı. Dövlətimizin başçısı bütün bunların ölkələrimiz arasında əlaqələrin inkişafına xidmət göstərəcəyinə əmin olduğunu* bildirdi.

*Səmimi qəbula görə minnətdarlığını bildirən* qonaq *Azərbaycanda keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi. İki ölkənin müdafiə nazirlikləri arasında uğurlu*

*əməkdaşlığın mövcud olduğunu nəzərə çatdıran nazir Azərbaycan ilə Belarusun iqtisadi və digər sahələrdə əlaqələrin inkişafı üçün yaxşı imkanlar olduğunu vurğuladı.*

*Cənab Leonid Maltsev əmin olduğunu bildirdi ki, ölkələrimiz arasında əlaqələr gələcəkdə daha da inkişaf etdiriləcəkdir.*

**RUMINİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TROYAN BASESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Rumıniya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın mənafelərinə uyğun olaraq daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Rumıniya xalqının rifahı naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 dekabr 2004-cü il*

## BAKI ŞƏHƏRİ, SƏBAİL RAYONU «İNTELLEKT» MƏKTƏB-LİSEYDƏ YERLƏŞƏN 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏ

*17 dekabr 2004-cü il*

*2004-cü il dekabrın 17-si müstəqil Azərbaycanın tarixinə növbəti bələdiyyə seçkiləri günü kimi daxil olacaqdır. Həmin gün milyonlarla seçici seçki məntəqələrinə gələrək, qarşıdakı beş ildə onların yerlərdəki problemlərinin həlli ilə məşğul olacaq özünüidarə orqanlarına üzvlüyə ən layiqli namizədlərə səs vermişlər. Qəbul olunmuş yeni Seçki Məcəlləsi əsasında vətəndaşların öz iradələrini sərbəst ifadə etmələri üçün bütün tədbirlər görülmüşdür. Bunu hələ seçki günündən əvvəl Azərbaycana gəlmiş beynəlxalq müşahidəçilər də təsdiq etmişdir.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev səhər saat 11-də xanımı və qızı ilə birlikdə buraya səs verməyə gəldi. Dövlətimizin başçısını seçki məntəqəsinin önündə gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev səsvermə otağına gəlib, seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izləyirdilər.*

*Azərbaycan prezidentinin xanımı Mehriban Əliyeva və qızı Leyla da səs verdilər.*

*Səsvermədən sonra dövlətimizin başçısı vaxtilə oxuduğu məktəblə tanış oldu, ayrı-ayrı otaqlara baxdı. Prezident İlham Əliyevə məktəbin tədris və təlim prosesi barədə məlumat verildi.*

***Seçki məntəqəsində yerli və xarici kütləvi informasiya vasitələrini təmsil edən müxbirlərin suallarına cavab:***

**S u a l**: **Cənab Prezident, bələdiyyə seçkilərinin gedişini necə qiymətləndirirsiniz? Ümumiyyətlə, bu seçkilərdən sonra bələdiyyələrin statusunun artırılması məsələsinə necə baxırsınız?**

**C a v a b:** Seçkilər çox normal şəraitdə keçir. Əminəm ki, seçkilər yaxşı keçəcəkdir. Azərbaycanda bələdiyyə seçkiləri ikinci dəfədir keçirilir, müəyyən təcrübə var. Yəqin ki, bu seçkilərdən sonra bələdiyyələrin statusu daha da artacaq, onlar yerlərdə daha da konkret işlərlə məşğul olacaqlar. Beləliklə, bu təsisat Azərbaycanda artıq formalaşıbdır, gələcəkdə də inkişaf edəcəkdir.

**S u a l: Cənab Prezident, müxalifətin, bəzi partiyaların bu seçkidə iştirak etməməsini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mən hesab edirəm ki, hər bir siyasi qüvvə istənilən seçkilərdə iştirak etməlidir. Xüsusilə, nəzərə alsaq ki, indi Azərbaycanda seçkilərdə kvorum məsələsi yoxdur, ona görə boykotun heç bir mənası yoxdur. O ki qaldı onların iştirak etməməsinin səbəblərinə, bunlar da sirr deyildir. Müxalifətin ümumi vəziyyəti, əlbəttə, onlara imkan vermir ki, yerlərdə öz namizədlərinə kömək etsinlər. Ümumiyyətlə, yerlərdə indi müxalifətin nümayəndələri də çox azdır. Müxalifətin indiki zəif vəziyyəti ona gətirib çıxarıb ki, onlar yəqin öz gücünü, yaxud da zəifliyini gizlətmək üçün boykot taktikaları seçiblər. Amma bu onların öz işləridir, mən bu məsələyə qarışmıram.

**S u a l: Cənab Prezident, Siz Londonda da bildirdiniz ki, fəal və konstruktiv müxalifət istəyirsiniz. Yəni təəssüflə qeyd etdiniz ki, Azərbaycanda belə bir müxalifət yoxdur. Buna nail olmaq üçün nə etmək lazımdır və belə bir müxalifət nə vaxt ola bilər?**

**C a v a b:** Bilirsiniz, bu məsələ təkcə iqtidardan, yaxud da hansısa siyasi partiyadan asılı deyildir. İndi Azərbaycanda, ümumiyyətlə, siyasi fəaliyyətlə məşğul olmaq üçün hər cür şərait var. Azərbaycanda demokratikləşmə prosesi gedir, cəmiyyə-

timizin birləşməsi istiqamətində çox mühüm addımlar atılır və beynəlxalq təşkilatlar da bunu görür və dəstəkləyirlər.

Azərbaycan beynəlxalq təşkilatlar qarşısında bütün öhdəliklərini yerinə yetirir. Yəni ki, normal müxalifətin fəaliyyəti üçün ölkəmizdə hər cür şərait var. O ki qaldı bunlar nə vaxt daha da fəal olacaqlar, bu onların fəaliyyətindən asılıdır. Mən dəfələrlə demişəm ki, on il ərzində bütün prezident və parlament seçkilərini uduzan siyasi qüvvələr, əlbəttə, cəmiyyətdə böyük rəğbətə malik ola bilməzlər. Müxalifət yeniləşməlidir, Azərbaycan müxalifətinə yeni qüvvələr, yeni simalar gəlməlidir. Ədavət keçmişdə qalmalıdır, konstruktiv münasibətlər lazımdır. Təəssüf edirəm ki, bizim bütün cəhdlərimizə baxmayaraq, indiki müxalifətin liderləri ilə normal dialoqun yaranması mümkün olmayıbdır. Gələcək göstərər, hər halda, indiki vəziyyət məni qane etmir. Hesab edirəm ki, prezident seçkilərindən sonra müxalifət özü-özünə vurduğu bu zərbədən hələ ki, özünə gələ bilmir. Nə vaxt özünə gələcək, bunu zaman göstərəcəkdir.

**S u a l: Cənab Prezident, Sizin yaxın zamanlarda İrana səfəriniz gözlənilir. Azərbaycan Yaxın Şərq problemi ilə bağlı, Yaxın Şərq siyasətində İranın həssaslığını nəzərə alır. Amma son günlər görünən odur ki, İran Ermənistan barədə siyasətində Azərbaycanın Dağlıq Qarabağ məsələsi ilə bağlı həssaslığını o qədər də nəzərə almır. Bu səfəriniz zamanı həmin məsələ diqqətdə olacaqmı?**

**C a v a b:** Bilirsiniz, Azərbaycan öz xarici siyasətini müstəqil şəkildə aparır. Bizim ikitərəfli münasibətlərimiz də hər iki ölkənin maraqlarına cavab verməlidir. İranla Azərbaycan arasında son müddət ərzində yaranmış dialoq da onu göstərir ki, ölkələr bir-birinin daxili işinə qarışmayanda yaxşı əlaqələrin yaranması da mümkün olur. Biz bu prinsiplərə sadiqik. Mən çox şadam ki, İranla Azərbaycan arasında son müddət ərzində əlaqələr məhz bu zəmində yaradılır. Biz öz münasibətlərimizi qarşılıqlı hörmət, anlaşma əsasında qururuq. Yəqin görürsünüz ki, İranla Azərbaycan arasında son zamanlar dialoq intensivləşibdir. İran prezidentinin Azərbaycana uğurlu səfəri çərçivəsində

imzalanmış sənədlər deməyə əsas verir ki, artıq real işlərin görülməsinə də imkan olacaqdır.

O ki qaldı Ermənistan–Azərbaycan münaqişəsinə, İran dəfələrlə birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyibdir. Ümumiyyətlə, Azərbaycanı bu münaqişədə dəstəkləyibdir və bütün beynəlxalq təşkilatlarda, o cümlədən son dəfə BMT-də də İranın mövqeyi müsbət olubdur. O ki qaldı İranın hansısa başqa ölkələrlə əlaqələrinə, əlbəttə, Ermənistanla, yaxud başqa ölkə ilə əlaqələri onların öz işidir.

Eyni zamanda, biz bu həssas regionda yaşayırıq və Azərbaycanın ərazi bütövlüyü pozulubdur, Ermənistan Azərbaycana qarşı təcavüz edibdir. Bu təcavüzün nəticəsində bir milyondan artıq soydaşımız qaçqın-köçkün vəziyyətinə düşübdür. Bütün bu amillər, əlbəttə, regionda gedən qarşılıqlı münasibətlərdə nəzərə alınmalıdır. Mən ümid edirəm ki, burada sülhün, sabitliyin yaranması üçün təcavüzkar dövlət birmənalı şəkildə qınaq obyektinə çevrilməlidir və beynəlxalq təşkilatlar, region dövlətləri də bu məsələdə öz mövqeyini bildirməlidir.

**S u a l: Cənab Prezident, Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ probleminin nizamlanmasına dair danışıqların ikinci mərhələsinin başlanması haqqında xarici işlər nazirləri arasında razılıq oldu. Birinci mərhələ Azərbaycana nə verdi və Azərbaycan ikinci mərhələdən nə gözləyir?**

**C a v a b:** Mən bunu mərhələlərə bölməzdim. Hesab edirəm ki, danışıqlar prosesi, ümumiyyətlə, davam edir. Əgər danışıqların tarixinə nəzər salsaq görərik ki, son il ərzində bəzi yeni çərçivələr müəyyən edilibdir. Xüsusilə Praqa prosesi adlandırılan proses mövcuddur və artıq ATƏT-in sənədlərində də Praqa prosesinə istinad edilir. Praqa prosesi nədir? Sadə desək, mərhələli həll deməkdir. Bilirsiniz ki, bu məsələ ilə əlaqədar Azərbaycanın mövqeyi birmənalıdır və qətidir. Çox sevinirəm ki, məsələ ilə məşğul olan qüvvələr də artıq bu mövqeyə yaxınlaşır. Mərhələli həll bu məsələnin həllinə çarədir. Ona görə gələcəkdə danışıqlar da məhz bu çərçivədə aparılmalıdır. Hesab edirəm ki,

əgər danışıqlar konstruktiv keçirilərsə, Ermənistan tərəfi keçmişdə olduğu kimi, razılaşdırılmış mövqelərdən geri çəkilməzsə, biz müəyyən razılaşmaya gələ bilərik.

Amma bir məsələyə də diqqətinizi cəlb etmək istəyirəm. Bilirsiniz, bu yaxınlarda Rusiya Dövlət Dumasının sədri Ermənistanda olarkən demişdir ki, Ermənistan Rusiyanın Cənubi Qafqazdakı forpostudur. Biz həmişə hesab edirdik ki, Ermənistan bir dövlətdir, sən demə, bu, forpost imiş. Ona görə indi biz bilmirik ki, forpostla danışıqlar aparaq, yaxud forpostun yiyəsi ilə danışıqlar aparaq. Əgər Ermənistanda bu məsələ aydınlaşarsa, danışıqların uğurlu aparılması üçün daha da gözəl şərait yaranacaqdır.

**S u a l: Cənab Prezident, «Şahdəniz» layihəsinin 25 faiz bahalaşması beynəlxalq maliyyə təşkilatları ilə müzakirə olunubmu?**

**C a v a b:** Bu məsələlər müzakirə edilibdir. Londonda olarkən *bp* şirkətinin rəhbərliyi ilə də bu məsələ müzakirə olunubdur. Əlbəttə, bu bizi də narahat edir, investisiya qoyan tərəfi də. Amma neft sahəsində belə hallar olur. Layihə də çox böyük layihədir. Azərbaycanın gələcəyi üçün, Azərbaycan üçün çox önəmli layihədir. Hər iki tərəf maraqlıdır ki, xərclər çoxalmasın. Amma çoxalanda da ümumi işləri yarı yolda qoya bilmərik. Ona görə «Şahdəniz» layihəsi də mütləq və mütləq həyata keçirilməlidir. Azərbaycan öz neft-qaz potensialını tam miqyasda işə salacaqdır.

**S u a l: Cənab Prezident, mən daxili məsələ ilə əlaqədar bir məqama toxunacağam. Bu, Azərbaycanın təhsil sistemi ilə bağlıdır. Azərbaycanın təhsilində problem olsa da, ölkədə təhsil haqqında qanun artıq neçə ildir qəbul edilə bilmir. Hər dəfə soruşanda da parlamentin rəhbərliyi, komissiyanın sədri deyir ki, çox vacib məqamlar var, prezidentlə razılaşdırmalıyıq. Siz bu məsələni yaxın günlərdə diqqətdə saxlayacaqsınızmı və ümumiyyətlə, Siz bu sistemi necə görmək istəyərdiniz?**

**C a v a b:** Bilirsiniz ki, mən bu sahədə mütəxəssis deyiləm. Əlbəttə, burada mütəxəssislərin rəyi mənim üçün həlledici olacaqdır. Mən parlamentin rəhbərliyi ilə də bu barədə danışmışam və fikir mübadiləsi aparmışam. Amma istəyirəm ki, mütəxəssislər öz rəylərini versinlər. O qanun layihəsində bəzi məqamlar var ki, onlar birmənalı qarşılanmır. Yenə də deyirəm, mən dərindən bilmədiyim məsələ ilə heç vaxt məşğul olmuram.

İstəyirəm ki, geniş müzakirələr keçirilsin, müxtəlif rəylər ortaya qoyulsun, bu məsələ təfsilatı ilə öyrənilsin. Ondan sonra mənim də mövqeyim bəlli olacaqdır. İndiki mərhələdə hesab edirəm ki, geniş müzakirəyə ehtiyac var və bütün mübahisəli məqamlar da gərək təhlil edilsin və təkliflər irəli sürülsün.

**S u a l: Cənab Prezident, Gürcüstan–Azərbaycan sərhədindəki vəziyyətlə bağlı Siz bildirmişdiniz ki, şübhələr aradan qaldırılmayınca, araşdırmalar davam edəcəkdir. Hazırda vəziyyət nə yerdədir?**

**Cənab Prezident, bu sualın ikinci hissəsi olaraq, Gürcüstanda yaşayan azərbaycanlılarla bağlı baş verən hadisələrə Prezident kimi, Sizin münasibətinizi bilmək istərdik. Orada baş verən hadisələr Sizi narahat edirmi?**

**C a v a b:** Orada sərhəddə məsələ aydınlaşıb, müxtəlif tədbirlər görülübdür. Azərbaycanın müvafiq qurumlarının nümayəndələri artıq Gürcüstandadır və oradakı həmkarları ilə birgə araşdırmalar aparırlar. Qeyd etdiyim kimi, tam əmin olandan sonra ki, bir qram da yük Ermənistana keçə bilməz, ondan sonra sərhəddə bütün problemlər aradan qaldırılacaqdır. Gürcüstan tərəfi də bu məsələni, bizim mövqeyimizi anlayır. Çünki bilirsiniz ki, Gürcüstanda da qaçaqmalçılıqla mübarizə güclü gedir və Azərbaycanda da eyni səviyyədədir. Qaçaqmalçılıq olub, saxtakarlıq, dələduzluq olubdur və nəticədə Azərbaycan üzərindən Ermənistana yüklərin daşınması mümkün olubdur. İndi bu, mümkün olmayacaq. Biz buna son qoymuşuq və nəyin bahasına olursa-olsun, buna bir daha imkan verməri. Əgər orada normal iş re;imi yaranarsa, əlbəttə, sərhəd açılacaqdır. Yox, yaranmasa, sərhəd bağlı olaraq qalacaqdır. Anlayırıq ki, bu bizə də ziyan

vurur, Gürcüstana da müəyyən mənada ziyan vurur. Amma bizim başqa əlacımız yoxdur.

O ki qaldı sizin ikinci sualınıza, əlbəttə, azərbaycanlıların xaricdə rahat yaşaması bizim üçün çox vacib bir məsələdir. Azərbaycanlıların sıx məskunlaşdığı bütün ölkələrə səfər edərkən həmişə onların nümayəndələri ilə görüşlər keçirmişəm, öz ürək sözlərimi demişəm və o ölkələrin rəhbərləri ilə də bu məsələ daim müzakirə olunur. Ukrayna, Rusiya, Gürcüstan – harada bizim diasporumuz böyükdür, soydaşlarımız çoxdur, bu ölkələrin rəhbərliyi ilə həmin məsələ müzakirə olunubdur. Məsələn, Rusiyaya gəldikdə, xatırlayırsınız ki, ilk dəfə olaraq Ümumrusiya Konqresinin toplantısında Rusiyanın prezidenti və mən iştirak etmişdik. Ondan sonra azərbaycanlıların orada rahat yaşaması üçün daha yaxşı şərait yaradılmışdır.

Gürcüstanda olarkən deyə bilərəm ki, tarixdə ilk dəfə olaraq, Azərbaycanın rəhbəri Gürcüstan prezidenti ilə birlikdə azərbaycanlıların məskunlaşdıqları yerlərə baş çəkmişdir. Bu məsələ dəfələrlə bütün səviyyələrdə müzakirə olunur. Əlbəttə, azərbaycanlılar Gürcüstanda bütün başqa insanlarla bərabər bütün məsələlərdə eyni hüquqlara malikdirlər. Amma o da faktdır ki, Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstan vətəndaşlarıdır. Əlbəttə, Gürcüstanın qanunlarına da hörmətlə yanaşmalıdırlar, qanun pozuntularına yol verməməlidirlər, fitnəkarlıq törədilməsinə yol verməməlidirlər. Bəzi qüvvələr var, istəyirlər ki, Gürcüstanla Azərbaycan arasında münasibətlərə zərbə vursunlar. Biz bilirik ki, bu qüvvələr kimdir. Əfsuslar olsun ki, Azərbaycanın daxilində də bu qüvvələr var. Amma əsas qüvvələr Azərbaycanın xaricindədir. Biz imkan verə bilmərik ki, Gürcüstanla Azərbaycan arasında strateji tərəfdaşlığa ziyan vurulsun. İmkan verə bilmərik ki, bizim birgə fəaliyyətimizə hansısa maneçilik yaransın. Heç bir təxribata, heç bir fitnəkarlığa uymamalıyıq.

Bizim səfirliyimiz Gürcüstanda çox fəal işləyir. Bütün rəhbər işçilərlə mütəmadi qaydada görüşlər keçirir. Biz bütün səviyyələrdə əlaqələr saxlayırıq və əminəm ki, yaranmış müəyyən narazılıq aradan götürüləcəkdir.

**S u a l: Cənab Prezident, bu gün Türkiyənin Avropa Birliyi ilə danışıqlar prosesinə başlamasına dair müzakirələrin tarixinə dair qərar veriləcəkdir. Həmin tarixin müəyyən edilib-edilməməsindən asılı olmayaraq, bölgə siyasəti baxımından Siz bunu necə dəyərləndirirsiniz?**

**C a v a b:** Yox, necə yəni edilməsə, elə şey ola bilməz. Mütləq edilməlidir. Mən dəfələrlə demişəm ki, Türkiyəyə qarşı bəzi dairələr tərəfindən edilən bu ədalətsizliyə yol vermək olmaz. Türkiyə çoxdan Avropa Birliyinin üzvü olmalı idi. Buna Türkiyənin bütün imkanları var və haqqı da çatır. Amma görürük ki, dünyada ikili standartlar mövcuddur və bu, müxtəlif məsələlərdə özünü büruzə verir. Mən əminəm və ümid edirəm ki, bu gün bu tarixi qərar veriləcək və Türkiyə də Avropa Birliyi ilə danışıqlara başlayacaqdır. Əlbəttə, danışıqların nəticəsində Türkiyə Avropa Birliyinin tamhüquqlu üzvü olmalıdır və olacaqdır. Burada hansısa şərtlər ola bilməz. Eyni yanaşma olmalıdır. Əgər eyni yanaşma olmazsa, onda, ümumiyyətlə, dünyada ədalətdən, insan haqlarından, demokratiyadan söhbət gedə bilməz. Bəzi hallarda görürük ki, bu məsələlərdə ayrı-seçkilik var. Bizim bölgəmizə münasibətdə demokratiya adı altında, insan haqları adı altında müəyyən siyasi məqsədlər güdülür. Amma əgər həqiqi demokratiya sınağa çəkilirsə, onda görürük ki, burada başqa yanaşmalar olur. Ona görə bütün məsələlərə vahid yanaşma olmalıdır. Ərazi bütövlüyü məsələsində, Türkiyənin Avropa Birliyinə qoşulmasında, Ermənistan–Azərbaycan münaqişəsində vahid mövqe olmalıdır. Əgər belə olmazsa, onda qoy, bizə də heç kim irad tutmasın.

**S u a l: Cənab Prezident, sonuncu sualı vermək istəyirəm. Prezident seçkilərinizdə gənclər çox fəal rol oynayıb, Sizin əsas dayaqlarınızdan biri olubdur. Amma bu gün gənclər ölkədə bəzi problemlərin həllini Sizdən gözləyirlər. Ölkədə sabit iş yeri və sabit maaşı olan gənclər də ciddi ev problemləri ilə üz-üzə qalırlar. Amma ölkədə ipoteka qanunu qüvvəyə minmir, gənclər bunu Sizdən gözləyirlər. Bu Sizin diqqətinizdədirmi?**

**C a v a b:** Bəli, bəli, düz deyirsiniz. Bu məsələ, təəssüflər olsun, hələ ki, həyatda öz əksini tapmayıbdır. Halbuki, biz bilirik, başqa şəhərlərdə, başqa ölkələrdə bu layihələr çox uğurlu gedir. İpoteka xüsusilə gənclərə imkan verəcək ki, onlar evlə, mənzillə təmin olunsunlar.

Bilirsiniz ki, mənim gənclərə münasibətim həmişə çox yaxşı olubdur. Düzdür, artıq mən gənclik dövründən çıxmışam, amma buna baxmayaraq, ürəyim yenə də gənclərlədir. Çalışıram və bundan sonra da çalışacağam ki, Azərbaycanda yetişən yeni nəsil daha da savadlı, bilikli olsun, daha da vətənpərvər olsun. Bunu etmək üçün əlimdən gələni edirəm. Keçmiş fəaliyyətimdə – idman sahəsində də bu öz əksini tapıbdır.

İndi misal üçün, bilirsiniz ki, qəbul edilmiş proqrama əsasən, Azərbaycanda növbəti üç il ərzində bütün məktəblər kompüterlə təmin olunacaqdır. Hətta ən ucqar rayonda ən balaca məktəb də kompüter sinfi ilə təmin ediləcəkdir. Bu, bilik deməkdir, savad deməkdir, gələcək deməkdir. Yəni bütün bu məsələlər mənim daim diqqət mərkəzimdədir. Yəni ipoteka sahəsində də bizim müəyyən addımlarımız olacaqdır. Müvafiq tapşırıqlar verilibdir, indi məsələ öyrənilir. Ümid edirəm ki, biz tezliklə buna başlayacağıq. Sağ olun.

## MDB PARLAMENTLƏRARASI ASSAMBLEYA ŞURASININ BAŞ KATİBİ MİXAİL KROTOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan prezident İlham Əliyev Azərbaycanda yerli özünüidarə orqanlarına seçkilərin ikinci dəfə keçirildiyini bildirdi. Azərbaycanda bu təsisatın formalaşmaqda olduğunu diqqətə çatdıran prezident İlham Əliyev dedi ki, bələdiyyələr ölkələrin ümumi inkişafı üçün çox əhəmiyyətli bir qurumdur. Əsas məsələ yeni seçiləcək bələdiyyə orqanlarının vətəndaşların qarşılaşdığı sosial-məişət problemlərinin vaxtında aradan qaldırılmasına çalışmasından ibarətdir.*

*Azərbaycanın regionlarında böyük sosial və iqtisadi inkişaf proqramlarının həyata keçirildiyini nəzərə çatdıran dövlətimizin başçısı bu sahədə qarşıda böyük planlar durduğunu bildirdi.*

*Səmimi qəbula görə minnətdarlığını bildirən qonaq Rusiya Federal Məclisi Federasiya Şurasının, MDB Parlamentlərarası Assambleya Şurasının sədri Sergey Mironovun və MDB ölkələri parlament sədrlərinin salamlarını və ehtiramını dövlətimizin başçısına çatdırdı.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümünün bir neçə gün bundan əvvəl dünyanın müxətlif yerlərində qeyd edildiyini vurğulayan qonaq bu kədərli günün Sankt-Peterburqda «Tavriya» salonunda MDB Parlamentlərarası Assambleyası tərəfindən də yad olunduğunu söylədi. O, dekabrın 17-də xalqımızın ulu öndəri Heydər Əliyevin məzarı önünə MDB Parlamentlərarası Assambleyasının*

adından əklil qoyduğunu bildirdi, bu kədərli ildönümü ilə əlaqədar dövlətimizin başçısına bir daha dərin hüznlə baş-sağlığı verdi.

Xalqımızın ümummilli liderinin MDB Parlamentlərarası Assambleyasına daim xüsusi diqqət yetirdiyini vurğulayan qonaq qurumun fəaliyyəti ilə bağlı Heydər Əliyev tərəfindən çox önəmli tövsiyələr verildiyini xatırlatdı və bunların yerinə yetirilməsi üçün böyük səylər göstərdiklərini bildirdi.

Dekabrın 17-də üç rayonda bir sıra seçki məntəqələrində olduğunu söyləyən MDB PA Şurasının Baş katibi ölkəmizdə bələdiyyələrə seçkilərin Azərbaycanın Seçki Məcəlləsinə və beynəlxalq standartlara uyğun təşkil edildiyini nəzərə çatdırdı. Cənab Mixail Krotov bələdiyyə seçkilərində insanların böyük fəallığının və yüksək seçki mədəniyyətinin şahidi olduğunu söyləyərək dedi ki, mən bir sıra ölkələrin Bakıdakı səfirləri və ATƏT-in nümayəndələri ilə təmaslarım zamanı öyrəndim ki, onlar da bu fikirdədirlər.

MDB Parlamentlərarası Assambleyasının son iclasının gedişi barədə dövlətimizin başçısına məlumat verən qonaq həmin tədbirdə Azərbaycan nümayəndələrinin çox fəallıqla iştirak etdiklərini vurğuladı. O dedi ki, həmin iclasda MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Astana zirvə görüşündə qəbul etdikləri qərarlarla bağlı konkret məsələlər müzakirə olunmuşdur.

## SƏUDİYYƏ ƏRƏBİSTANININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏLİ HƏSƏN ƏHMƏD CƏFƏR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 dekabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev səfiri səmimiyyətlə salamladı.*

*Cənab Əli Həsən Əhməd Cəfər iki müqəddəs ocağın xadimi, kral Fəhd ibn Əbdüləziz al Səudun Səudiyyə Ərəbistanına rəsmi səfərə dəvəti barədə məktubunu dövlətimizin başçısına təqdim etdi. Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirən səfir prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərini səbirsizliklə gözlədiklərini nəzərə çatdırdı. O, prezident İlham Əliyev ilə kral Fəhd ibn Əbdüləziz al Səud arasındakı səmimi dostluq münasibətlərinin Azərbaycan–Səudiyyə Ərəbistanı əməkdaşlığının inkişafına böyük töhfə verdiyini qeyd etdi. Diplomat bu səfərin əlaqələrimizin daha da inkişafına xidmət edəcəyinə əmin olduğunu söylədi.*

*Səudiyyə Ərəbistanına rəsmi səfərə dəvətə görə minnətdarlığını bildirən dövlətimizin başçısı iki müqəddəs ocağın xadimi, kral Fəhd ibn Əbdüləziz al Səudla səmimi dostluq münasibətlərinin ölkələrimizin əlaqələrinin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini vurğuladı.*

*Səudiyyə Ərəbistanının beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanın mövqeyini daim dəstəklədiyini məmnunluqla vurğulayan prezident İlham Əliyev bütün bunlara görə bir daha təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Səudiyyə Ərəbistanının beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əmək-*

daşlıq etdiyini də xatırlatdı, ümumiyyətlə, ölkələrimizin bir-birlərinin mövqelərini dəstəkləməsini çox müsbət hal kimi dəyərləndirdi. Ümummilli liderimiz Heydər Əliyevin Səudiyyə Ərəbistanına 1994-cü ildə rəsmi səfərini məmnunluqla xatırladan səfir Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında müasir dövrdəki əlaqələrin əsasının məhz o vaxt qoyulduğunu nəzərə çatdırdı. Səfir özü də həmin səfərdə ümummilli liderimiz Heydər Əliyevi müşayiət etdiyini həmişə məmnunluqla xatırladığını söylədi, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etməsindən məmnun olduğunu bildirdi.

Cənab Əli Həsən Əhməd Cəfər bir daha əmin olduğunu bildirdi ki, prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına qarşıdakı rəsmi səfəri ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin daha da möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olacaqdır.

## İRAN İSLAM RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏFŞAR SÜLEYMANİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 dekabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti İlham Əliyev ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin daim genişləndiyini və möhkəmləndiyini vurğuladı, son vaxtlar müxtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycana səfərlərinin bu əlaqələrin genişlənməsinə yaxşı nümunə olduğunu bildirdi.*

*Səmimi sözlərə görə minnətdarlıq edən səfir Azərbaycan–İran əlaqələrinin müxtəlif sahələrdə möhkəmlənməsindən böyük məmnunluqla söhbət açdı. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın inkişafına, tərəqqisinə yönəlmiş siyasətinin hazırda prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğuladı.*

*Daha sonra səfir bu yaxınlarda İranın müxtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycana uğurlu səfərləri zamanı səmərəli görüşlər keçirildiyini, danışıqlar aparıldığını qeyd etdi. Hazırda ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin möhkəmləndiyini bildirən səfir bir sıra iqtisadi layihələr üzərində iş aparıldığını xatırlatdı.*

*Cənab Əfşar Süleymani Azərbaycan prezidentinin İran İslam Respublikasına qarşıdakı rəsmi səfəri ilə əlaqədar ölkəsində görülən hazırlıq işləri barədə məlumat verdi. O bu səfərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi və genişləndirilməsinə xidmət edəcəyinə əminliyini söylədi.*

*Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, İrana qarşıdakı rəsmi səfəri ölkələrimizin münasibətlərinin gələcək inkişafında mühüm rol oynayacaqdır.*

## TÜRKİYƏ RESPUBLİKASININ DİNİ İŞLƏR VƏQFİNİN SƏDRİ PROFESSOR ƏLİ BARDAKOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 dekabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin son illər çox sürətlə inkişaf etdiyini nəzərə çatdırdı. Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq münasibətlərinin qarşılıqlı dəstəyə əsaslandığını vurğulayan prezident İlham Əliyev ölkəmiz müstəqillik qazandıqdan sonra Türkiyənin Azərbaycana göstərdiyi köməyi bir daha yüksək qiymətləndirdi.*

*Hər iki ölkədə sabitliyin, tərəqqinin və iqtisadi inkişafın mövcudluğunu diqqətə çatdıran dövlətimizin başçısı İlham Əliyev Türkiyənin prezidenti Əhməd Necdət Sezər, Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə şəxsi dostluq münasibətləri olduğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimizin yüksək vəzifəli rəsmi şəxsləri, habelə dövlət, hökumət strukturları arasında da qarşılıqlı surətdə faydalı əlaqələrin daim genişlənməsindən məmnun qaldığını vurğuladı.*

*Türkiyənin uğurlarının Azərbaycanın uğurları olduğunu qeyd edən dövlətimizin başçısı Türkiyə ilə Avropa Birliyi arasında aparılmış danışıqlarda əldə edilmiş müsbət irəliləyişləri yüksək dəyərləndirdi.*

*Cənab Əli Bardakoğlunun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycanın müxtəlif bölgələri ilə yaxından tanış ola biləcəyinə əmin olduğunu vurğulayan prezident İlham Əliyev*

bildirdi ki, səfər ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə kömək edəcəkdir.

Vaxt tapıb onu qəbul etdiyinə görə minnətdarlığını bildirən qonaq Türkiyə dövlətinin, xalqının Azərbaycan Respublikasının prezidentinə məhəbbətini, ehtiramını və səmimi salamlarını çatdırdı. Azərbaycan prezidentinin Türkiyə xalqı tərəfindən sevildiyini bir daha vurğulayan cənab Əli Bardakoğlu dövlətimizin başçısı İlham Əliyevə Türkiyədə çox böyük hörmət və ehtiram bəsləndiyini vurğuladı.

Cənab Əli Bardakoğlu dedi ki, bütün Türkiyə xalqı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatı ilə əlaqədar çox böyük kədər hissi keçirdi. Böyük dövlət adamı olan Heydər Əliyevin Azərbaycanın inkişafı naminə parlaq yolunun prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Türkiyədə böyük məmnunluqla qarşılanır. Bir millət, iki dövlət olan Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafından məmnunluqla bəhs edən qonaq onun ölkəsində dünyəvi cəmiyyət çərçivəsində dini dəyərlərin uğurla qorunduğunu söylədi və bunu Atatürk ideyalarının yaşaması kimi dəyərləndirdi.

Cənab Əli Bardakoğlu əmin olduğunu bildirdi ki, onun başçılıq etdiyi nümayəndə heyətinin respublikamıza səfəri qardaş ölkələrimizin əməkdaşlığının daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

## İRAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ ƏLİ ŞAMXANİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 dekabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev qonağı salamlayaraq, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin son illər daha da genişləndiyini və möhkəmləndiyini qeyd etdi. Prezident İlham Əliyev İranın müxtəlif səviyyəli rəsmi nümayəndə heyətlərinin son zamanlar Azərbaycana bir sıra səfərlərinin ölkələrimizin əlaqələrinin daha da genişlənməsinin yaxşı nümayədəsi kimi qiymətləndirdi.*

*İran İslam Respublikasının prezidenti cənab Seyid Məhəmməd Xatəminin Azərbaycan Respublikasına rəsmi səfərinin uğurla həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı həmin səfər zamanı aparılmış səmərəli danışıqlarda əldə olunmuş razılaşmaların, imzalanmış sənədlərin reallaşması üzərində konkret işlər görüldüyünü vurğuladı.*

*Prezident İlham Əliyev İran İslam Respublikasına qarşıdakı səfərinin də uğurlu keçəcəyinə və bu səfərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan–İran münasibətlərinin uğurlu inkişafının həm ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsinə, həm də regionda sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət etdiyini nəzərə çatdırdı.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, İranın Müdafiə nazirinin ölkəmizə səfəri dövlətlərimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi baxımından faydalı olacaqdır.*

Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Əli Şamxani prezident İlham Əliyevi qarşıdan gələn ad günü münasibətilə təbrik etdi. O, İran prezidenti Seyid Məhəmməd Xatəminin dərin ehtiramını və səmimi salamlarını dövlətimizin başçısı İlham Əliyevə çatdırdı. Qonaq prezident İlham Əliyevin İrana rəsmi səfərinin uğurlu keçəcəyinə əminliyini bildirdi. Ölkələrimiz arasındakı əlaqələrin inkişafından məmnunluğunu vurğulayan nazir dost Azərbaycan Respublikasına səfərinin ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu söylədi. Qonaq Azərbaycan–İran əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni və digər sahələrdə inkişafını yüksək qiymətləndirdi.

Səmimi salamlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da dərin ehtiramını və xoş arzularını İran prezidenti Seyid Məhəmməd Xatəmiyə çatdırmağı xahiş etdi.

## GÜRCÜSTANIN SƏFİRİ, RESPUBLİKAMIZDAKI DİPLOMATİK KORPUSUN DUAYENİ ZURAB QUMBERİDZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 dekabr 2004-cü il*

*Cənab Zurab Qumberidze Azərbaycanda fəaliyyət göstərən diplomatik korpus adından prezident İlham Əliyevi ad günü münasibətilə səmimi-qəlbdən təbrik etdi, güc rəmzi olan kiçik şir heykəli bağışladı, dövlətimizin başçısına möhkəm cansağlığı, Azərbaycanın tərəqqisi naminə ali dövləti fəaliyyətində yeni-yeni uğurlar, xalqımıza isə firavanlıq arzuladı.*

*Prezident İlham Əliyev səmimi təbrikə görə diplomatik korpusa minnətdarlığını bildirdi. Cənab Zurab Qumberidzenin Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun duayeni olmasından məmnun qaldığını vurğulayan, bu il ölkəmizin xarici siyasətinin uğurla davam etdirildiyini nəzərə çatdıran prezident İlham Əliyev respublikamızda xarici səfirliklərin, o cümlədən Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin sayının artmasını xarici siyasətimizin fəal surətdə həyata keçirilməsinin yaxşı nümunəsi kimi dəyərləndirdi. Cənab Zurab Qumberidzenin həm də dost və qardaş Gürcüstanın ölkəmizdəki səfiri kimi fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı İlham Əliyev Azərbaycan ilə Gürcüstan arasında həm ikitərəfli səviyyədə, həm də regional səviyyədə əməkdaşlığın daim genişlənməsini və inkişaf etməsini yüksək qiymətləndirdi.*

*Səmimi sözlərə görə təşəkkür edən diplomat Azərbaycanda fəaliyyət göstərən səfirliklər üçün yaradılmış yaxşı imkanlara və onlara göstərilən diqqətə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, xarici ölkələrin respublikamızda fəaliyyət*

göstərən diplomatik nümayəndələrinin Azərbaycan prezidenti ilə mütəmadi olaraq əlaqə saxlamaq imkanı yaratdığına görə də dövlətimizin başçısına təşəkkür etdi. Azərbaycan ilə Gürcüstan arasında da əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən səfir bu əlaqələrin daim möhkəmləndiyini məmnunluqla vurğuladı.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SİYƏZƏN RAYONUNDA**

*24 dekabr 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Siyəzən rayonuna gəlmişdir.*

*Şəhərin mərkəzində toplaşmış minlərlə siyəzənli – rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar İlham Əliyevi və ailə üzvlərini böyük hörmət və ehtiramla qarşıladılar. Onların əllərində ümummilli liderimiz Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, respublikamızın dövlət bayraqları, ölkəmizin rəhbərinin xarici və daxili siyasətini dəstəkləyən şüarlar yazılmış transparantlar var idi.*

*Prezident İlham Əliyev rayon sakinlərini səmimi salamladı, ona göstərilən hörmət və ehtirama görə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Siyəzən şəhərində əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilən Mərkəzi klinik xəstəxanaya gəldi. İlham Əliyev xəstəxananın foyesində xalqımızın ümummilli lideri Heydər Əliyevin səhiyyə işçiləri ilə görüşlərini əks etdirən fotostendlə, sonra isə müalicə ocağının ayrı-ayrı şöbələri ilə tanış oldu, görülmüş işlərdən, xəstələrin müalicəsi üçün yaradılmış şəraitdən razı qaldığını bildirdi.*

* * *

*Siyəzən şəhərində Mərkəzi klinik xəstəxananın açılış mərasimi oldu. Xəstəxananın hələ 1989-cu ildə istifadəyə verilməsinə baxmayaraq, burada tikinti işləri yarımçıq qalmışdı. Prezident seçkiləri ərəfəsində Siyəzənə səfəri zamanı dövlətimizin başçısı xəstəxananın tikintisinin tamamlanması və bu müalicə ocağının müasir standartlar səviyyəsində yenidən*

*qurulması barədə göstərişlər vermişdi. Bu göstərişə uyğun olaraq, ARDNŞ-in vəsaiti hesabına burada geniş yenidənqurma işləri aparılmış, yeni şöbələr – doğum, reanimasiya, fizioterapiya şöbələri, habelə cərrahiyyə əməliyyatı otaqları, laboratoriyalar, əhaliyə ambulator xidməti göstərəcək poliklinika istifadəyə verilmişdir. Eyni zamanda, xəstəxanada idmanla müalicə otağı da yaradılmışdır. 100 çarpayılıq bu xəstəxana 25 min əhaliyə müasir standartlar səviyyəsində tibbi xidmət göstərəcəkdir.*

*Xəstəxananın təcili tibbi yardım şöbəsi gün ərzində 150 çağırışı qəbul etmək imkanına malikdir. Almaniya və İtaliyadan gətirilmiş ən müasir tibbi avadanlıq rayon əhalisinə, habelə qonşu Dəvəçi, Xaçmaz, Quba və Qusar rayonlarının sakinlərinə yüksək səviyyədə müayinə və müalicə xidməti göstərməyə şərait yaradacaqdır. Hazırda xəstəxanada 56 tibb işçisi çalışır, yeni şöbələrin yaradılması nəticəsində tibb personalının sayı artırılacaqdır.*

*Xəstəxananın qarşısına toplaşmış tibb işçiləri və rayon sakinləri prezident İlham Əliyevi səmimiyyətlə və hərarətli alqışlarla qarşıladılar.*

## SİYƏZƏN RAYON MƏRKƏZİ KLİNİKİ XƏSTƏXANASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*24 dekabr 2004-cü il*

Əziz siyəzənlilər!

Əziz dostlar!

Mən ilk növbədə sizin hamınızı səmimi-qəlbdən salamlayıram və bu gözəl xəstəxananın açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu, son bir il ərzində mənim Siyəzənə üçüncü səfərimdir. Xatırlayıram ki, prezident seçkiləri ərəfəsində burada olarkən xəstəxananın tikintisi ilə maraqlanmışdım və öz tövsiyələrimi vermişdim. Mən ümid edirdim ki, xəstəxana yüksək səviyyədə tikilib istifadəyə veriləcəkdir. Amma burada qeyd olunduğu kimi, iyul ayında burada olarkən gördüm ki, işlər lazımi səviyyədə qurulmayıbdır. Çox şadam ki, mənim tənqidi fikirlərimdən sonra tikintidə dönüş yarandı və xəstəxana bu gün istifadəyə verilir, həm də o, ən yüksək dünya standartları səviyyəsindədir.

Xatırlayıram ki, iyul ayında qeyd etmişdim ki, Azərbaycanda tikilən və gələcəkdə tikiləcək hər bir müəssisə, xüsusilə səhiyyə müəssisəsi ən yüksək standartlara cavab verməlidir. Fərqi yoxdur, bu, ölkəmizin paytaxtında tikilir, yaxud hər hansı bir rayonda. Azərbaycan xalqı, Azərbaycan vətəndaşları yaşadıqları yerdən asılı olmayaraq, bütün sahələrdə, xüsusilə səhiyyə sahəsində ən yüksək xidmətlə təmin olunmalıdırlar. Xalqımızın ümummilli lideri Heydər Əliyev də daim səhiyyəyə böyük diqqətlə yanaşırdı. Onun təşəbbüsü ilə Azərbaycanda bu sahədə böyük işlər görülmüşdür. Ölkəmiz bu sahədə böyük uğurlara nail ola bildi. Bütün başqa sahələrdə olduğu kimi, bu istiqamətdə də onun siyasəti uğurla davam etdirilir. Bu gün açılışını etdiyimiz bu gözəl xəstəxana buna əyani sübutdur.

Azərbaycanda, ümumiyyətlə, sosial sahəyə böyük diqqət göstərilir. Baxmayaraq ki, indi ölkəmiz bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir – bu da təbiidir və bizim başqa yolumuz da yoxdur, dünya praktikası da göstərir ki, bütün başqa yollar uğur gətirə bilməz – eyni zamanda, sosial məsələlərə böyük diqqət göstərilir. Çünki sosial məsələlər insanlarımızın daim təmasda olduğu məsələlərdir. Biz istəyirik ki, bütün sosial məsələlər tezliklə öz həllini tapsın. Bu məsələlərin ölkəmizdə öz həllini tapacağına şübhə etmirəm. Bizim iqtisadi inkişafımız onu göstərir ki, yaxın zamanlarda Azərbaycanda mövcud olan problemlərin tam əksəriyyəti öz həllini tapacaqdır.

Arzu edirəm ki, bu, tezliklə olsun. Azərbaycan qarşıda duran bütün məsələlərini tezliklə həll etsin.

Bu istiqamətdə işlər görülür. Burada qeyd olunduğu kimi, regionların inkişafı proqramının, sosial-iqtisadi inkişaf proqramının məqsədi də məhz budur: insanlarımızın həyat səviyyəsini yaxşılaşdırmaq, yeni iş yerləri açmaq, sosial məsələləri həll etmək, xalqımızın rahat yaşaması üçün şərait yaratmaq. Bilirsiniz ki, bu istiqamətdə işlər görülür. Bütün bu işlərin görülməsi üçün, gələcəkdə uğurların qazanılması üçün Azərbaycanda ictimai-siyasi sabitlik olmalıdır, asayiş olmalıdır, qayda-qanun olmalıdır. Bütün bunlar ölkəmizdə vardır. 1993-cü ildə xalqımızın ümummilli lideri tərəfindən başlanmış siyasət bu gün uğurla davam etdirilir. Harada ki, sabitlik yoxdur, asayiş pozulur – orada heç vaxt inkişaf ola bilməz, quruculuq işləri ilə məşğul olmaq mümkün olmaz. Ona görə də mən çox şadam ki, prezident seçkilərindən keçən dövr ərzində Azərbaycan uğurla inkişaf edir, hərtərəfli inkişaf edir, öz iqtisadi potensialını gücləndirir, sosial məsələlərə diqqət yetirilir. Eyni zamanda, ölkəmizdə hökm sürən əhval-ruhiyyə, şərait deməyə əsas verir ki, Azərbaycan gələcəkdə də öz potensialını tam şəkildə işə salacaqdır.

Mən çox şadam ki, bizim nəzərdə tutduğumuz bütün proqramlar uğurla həyata keçirilir. Bilirsiniz ki, minimum əməkhaqqının artırılması mənim seçkiqabağı proqramımın bir hissəsi idi və çox şadam ki, bu istiqamətdə işlər görülür. Minimum

əməkhaqqı, demək olar ki, il ərzində iki dəfə artırılmışdır və gələn il bunun yenə artırılması nəzərdə tutulur. Bir sözlə, Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşayacaqdır. Biz bu siyasəti davam etdirəcəyik. Gələcəkdə də minimum əməkhaqqının artırılması nəzərdə tutulubdur və ümumiyyətlə, büdcə təşkilatlarında işləyən insanların əməkhaqlarının qaldırılması bizim prioritet məsələmizdir.

Azərbaycan sürətlə inkişaf edir. Bizim iqtisadi potensialımız güclənib, gələn ilin büdcəsində bütövlükdə böyük artım – təxminən 25 faiz artım nəzərdə tutulur. Amma onu da deməliyəm ki, burada qeyd olunduğu kimi, 2005-ci ildə səhiyyəyə ayrılacaq vəsaitin həcmi 40 faizdən çox artırılacaqdır. Bu onu göstərir ki, bu sahə təkcə sözdə deyil, əməldə, işdə daim diqqət mərkəzindədir. Biz bilirik ki, bu sahəyə daha çox vəsait ayrılmalıdır. Amma imkanlarımız hələlik buna çatır. Lakin bu da böyük göstəricidir ki, bir il ərzində hansısa sahəyə yönəldilən vəsaitin artımı belə sürətlə getsin. Bundan sonra daha da sürətlə gedəcək, buna bənzər xəstəxanalar, digər infrastruktur obyektləri, sosial obyektlər tikiləcəkdir.

Mənim buna şübhəm yoxdur, bu il ərzində görülmüş işlər göstərir ki, biz düz yoldayıq. Azərbaycanın regionları inkişaf edir, regional inkişaf proqramı öz bəhrəsini verir. Artıq regionlarda yüz mindən çox yeni iş yerləri açılmışdır. Mən prezident seçkilərindən əvvəl bu bəyanatla çıxış edəndə bəziləri buna inanmırdı, bunu bir şüar kimi qəbul edirdi. Bu da təbiidir. Çünki həqiqətən, səkkiz milyon əhalisi olan ölkə üçün beş il ərzində 600 min iş yerinin yaradılması, demək olar ki, dünyada görünməmiş bir haldır. Amma həyat onu göstərdi ki, biz həmişə olduğu kimi, öz sözümüzə əməl edirik və heç vaxt boş vəd vermirik. Bir il ərzində yüz mindən çox iş yerinin yaradılması da bunu göstərir. Bizim işimiz əməli, praktiki işlərdir və nəticəsi göz qabağındadır. Bundan sonra da belə olacaqdır. Qarşımızda duran bütün məsələlər öz həllini tapır.

Şadam ki, bu gün açılışını etdiyimiz bu xəstəxana da insanlara gözəl xidmət edəcəkdir. Burada yerli əhali müalicə olunacaq,

qonşu rayonlardan da buraya gələcəklər. Əlbəttə ki, biz bu xəstəxananı gərək yaxşı saxlayaq, səmərəli istismar edək. Burada yaxşı mütəxəssislər işləməlidirlər ki, insanlarımıza yüksək səviyyədə xidmət göstərsinlər. Arzu edirəm ki, heç kim xəstələnməsin, amma xəstələnəndə də müalicə üçün yaxşı şərait olsun.

Bu gün mən Dövlət Neft Şirkətinin fəaliyyətini də qeyd etmək istəyirəm. Bildiyiniz kimi, Azərbaycanda 1994-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən ölkənin yeni neft strategiyası bəyan edilmişdir və həmin ildən bu günədək uğurla həyata keçirilir. İndi neft sektorundakı bütün uğurları sadalamaq üçün, yəqin ki, saatlar lazım olacaqdır. Amma nəticələr göz qabağındadır. Azərbaycan nefti Azərbaycan xalqına xidmət edir. Bu gün Azərbaycanın büdcəsi artır, valyuta ehtiyatları artır. Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Neft Fondunun vəsaitləri təxminən 1 milyard dollara çatmışdır. Halbuki, 1993-cü ildə anarxiya, hərc-mərclik hökm sürəndə ölkə xəzinəsində bir manat da pul yox idi.

Neftdən gələn gəlir bizim iqtisadi potensialımızı gücləndirir. Eyni zamanda, neft sektorunda görülən işlərin nəticəsində və əldə olunan vəsaitin hesabına insanlarımızın daha da yaxşı yaşamasına imkan yaranır. İldən-ilə artırılan təqaüdlər, əməkhaqları, digər sosial ödəmələrin əksəriyyəti Neft Fondunun hesabına həyata keçirilir, Azərbaycanda neft strategiyasının uğurla icrasından irəli gəlir.

Bu strategiya Azərbaycanı regionda böyük güc mərkəzinə çeviribdir. Azərbaycanın dünyadakı mövqeləri güclənibdir. Azərbaycan artıq regionda həlledici sözə malikdir və uğurla inşa edilən neft-qaz kəmərləri bizə imkan verəcəkdir ki, bir neçə ildən sonra ölkəmizə çox böyük həcmdə valyuta vəsaitləri daxil olsun. Bu vəsaitlər Azərbaycan xalqının mənafeyinə, onun rifah halının yaxşılaşmasına xidmət edəcəkdir. Bizim başqa məqsədimiz yoxdur. Əsas məqsəd ölkəmizi daha da gücləndirmək, iqtisadi potensialı artırmaq, Azərbaycanı hərtərəfli inkişaf etdirmək, iqtisadiyyatımızı şaxələndirmək, insanların həyat səviyyəsini yaxşılaşdırmaqdır. Biz bunu bəyan etmişik, biz bunu edirik və əminəm ki,

bundan sonra da qarşımızda duran bütün məsələləri uğurla icra edəcəyik.

2004-cü il başa çatır. Hesab edirəm ki, bu il Azərbaycanın müasir tarixində çox böyük əhəmiyyətə malik bir ildir. Bu ili biz xalqımızın ümummilli lideri Heydər Əliyevsiz yaşamışıq. Bu, Azərbaycan üçün, Azərbaycanın rəhbərliyi üçün, xalqımız üçün sınaq ili idi. Nə qədər çətin olsa da, biz bütün səylərimizi birləşdirərək və ölkəmizdə səfərbərliyə nail olaraq, Azərbaycanı inamla irəliyə aparmışıq. Heydər Əliyev Azərbaycanın tarixində müstəsna xidmətlərə malik olan şəxsiyyətdir, dahi şəxsiyyətdir və Azərbaycanı böyük bəlalardan xilas edən şəxsiyyətdir. O, bütün ömrünü, bütün həyatını xalqa həsr etmiş bir lider idi. Otuz beş ildən artıq Azərbaycana bu və ya digər formada rəhbərlik edən şəxsiyyətdir. Azərbaycanı Heydər Əliyevsiz və Heydər Əliyevi də Azərbaycansız təsəvvür etmək mümkün deyildir. Ona görə də, bizim hamımızdan asılı idi ki, biz 2004-cü ildə ölkəmizi onun yolu ilə irəliyə aparaq, onun istədiyi kimi inkişaf etdirək. Azərbaycanda böyük çətinliklərlə əldə edilmiş bu şəraiti saxlayaq, ictimai-siyasi sabitliyi qoruyaq, Azərbaycanın müstəqilliyini möhkəmləndirək, iqtisadi potensialını gücləndirək. Ölkəmizdə həyata keçirilən irimiqyaslı, dünya əhəmiyyətli layihələri, neft-qaz kəmərləri layihələrini uğurla davam etdirək. Bu, böyük bir sınaq idi. Hesab edirəm ki, biz qarşımızda duran bütün məsələlərə nail olduq, bu ili Azərbaycan və Azərbaycan xalqı çox ləyaqətlə yaşadı. Əminəm ki, bundan sonra da ölkəmiz çox inamla inkişaf edəcəkdir. Azərbaycan 1993-cü ildə təməli Heydər Əliyev tərəfindən qoyulmuş yolla inkişaf edəcəkdir. Bizim başqa yolumuz yoxdur.

Bu yol ölkəmizi anarxiyadan, xaosdan, iqtisadi böhrandan, tənəzzüldən, təhlükədən xilas edərək, on il ərzində bugünkü vəziyyətə gətirib çıxarmışdır. Bu gün Azərbaycan sürətlə, ən dinamik şəkildə inkişaf edən ölkədir. O ölkədir ki, sabitlik hökm sürür, o ölkədir ki, vətəndaşlarımız rahat yaşayır, ildə yüz mindən artıq iş yeri açılır, o ölkədir ki, regionda ən qabaqcıl mövqelərə malikdir. Bu mövqelər ildən-ilə daha da möhkəmlənəcək və regionda

Azərbaycanın iştirakı olmadan heç bir layihə, heç bir əməkdaşlıq mümkün deyil və olmayacaqdır.

Bu fürsətdən istifadə edərək, mənə göstərdiyi etimada görə, mənə inandığına görə və məni dəstəklədiyinə görə bütün Azərbaycan xalqına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, mən bu etimadı bundan sonra da doğrultmağa çalışacağam, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm.

Əziz dostlar, bu gözəl xəstəxananın açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Qarşıdan gələn Yeni il münasibətilə və Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə sizi bir daha təbrik edirəm. Sağ olun.

**NEPALIN KRALI ƏLAHƏZRƏT QYANENDRA BİR BİKRAM ŞAH DEVƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Kralın təvəllüd günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Nepal krallığı ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Nepal xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 dekabr 2004-cü il*

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ DAİMİ BEYNƏLXALQ KATİBLİYİNİN BAŞ KATİBİ TEDO CAPARİDZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 dekabr 2004-cü il*

*Qonağı səmimiyyətlə salamlayan Azərbaycan prezidenti İlham Əliyev yeni məsul vəzifəyə seçilməsi münasibətilə cənab Caparidzeni təbrik etdi və bu işdə ona uğurlar arzuladı.*

*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin daha da genişləndirilməsinə Azərbaycanın böyük əhəmiyyət verdiyini bildirən prezident İlham Əliyev ölkəmizin bu təşkilat çərçivəsində həyata keçirilən iqtisadi layihələrin gerçəkləşməsində fəal rol oynadığını vurğuladı. Dövlətimizin başçısı eyni zamanda, bu təşkilatın fəallığının artırılması məqsədi ilə yeni maliyyə mexanizmləri yaradılmasının vacibliyini nəzərə çatdırdı. Prezident İlham Əliyev dedi ki, belə olan təqdirdə, bu təşkilatın təşəbbüsü ilə irəli sürülən iqtisadi layihələr daha çox reallaşa bilər.*

*Dövlətimizin başçısı bu təşkilatın strukturunun təkmilləşdirilməsi, maliyyə mexanizminin yeni tələblərə uyğun şəkildə qurulması prosesinə ölkəmizin hər cür kömək göstərəcəyini bildirdi.*

*Səmimi qəbula görə minnətdarlığını bildirən qonaq yeni vəzifəyə seçilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə dövlətimizin başçısına təşəkkür etdi. Cənab Tedo Caparidze ad günü münasibətilə prezident İlham Əliyevi səmimi-qəlbdən təbrik etdi, Azərbaycanın tərəqqisi, xalqımızın rifahı naminə ali fəaliyyətdə ona yeni-yeni uğurlar arzuladı.*

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin geniş coğrafi məkanı əhatə etdiyini söyləyən qonaq bu ölkələrin böyük iqtisadi potensiala malik olduğunu vurğuladı. O, təşkilatın strukturunun yeni müasir tələblərə uyğun təkmilləşdirilməsinin vacibliyini qeyd etdi. Böyük iqtisadi potensiala malik Azərbaycanın qlobal enerji və nəqliyyat dəhlizlərində mühüm rol oynadığını xatırladan cənab Tedo Caparidze əmin olduğunu bildirdi ki, Azərbaycan bu təşkilatla əməkdaşlığı bundan sonra daha da genişləndirəcəkdir.

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNU-LABDİN ƏBDÜL KALAMA**

Hörmətli cənab Prezident!

Cənub–Şərqi və Cənubi Asiyada baş vermiş təbii fəlakətin ölkənizdə çoxsaylı insan tələfatına və irimiqyaslı dağıntılara səbəb olmasından son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün Hindistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 dekabr 2004-cü il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Cənub–Şərqi və Cənubi Asiyada baş vermiş təbii fəlakətin ölkənizdə çoxsaylı insan tələfatına və irimiqyaslı dağıntılara səbəb olmasından son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün İndoneziya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 dekabr 2004-cü il*

## ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA BANDARANAYKE KUMARATUNQAYA

Hörmətli xanım Prezident!

Cənub–Şərqi və Cənubi Asiyada baş vermiş təbii fəlakətin ölkənizdə çoxsaylı insan tələfatına və irimiqyaslı dağıntılara səbəb olmasından son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün Şri-Lanka xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 dekabr 2004-cü il*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Cənub–Şərqi və Cənubi Asiyada baş vermiş təbii fəlakətin ölkənizdə çoxsaylı insan tələfatına və irimiqyaslı dağıntılara səbəb olmasından son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün Maldiv xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 27 *dekabr 2004-cü il*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlarımız!

Sizə Azərbaycan xalqının ən mühüm bayramlarından biri olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə müraciət edirəm. 31 dekabr Azərbaycan xalqının müstəqillik əldə etdiyi vaxtdan bütün dünyada yaşayan soydaşlarımıza bəxş etdiyi və ümummilli əhəmiyyət kəsb edən bir gündür. Bu bayramın əsas qayəsini dünya azərbaycanlılarının birliyi və həmrəyliyi, Azərbaycan dövlətçiliyi, xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, tarixi Vətənə bağlılıq hissi və ideyaları təşkil edir.

Xalqımız bütün tarixi boyu milli birlik və həmrəylik arzuları, ideyaları ilə yaşamışdır. Lakin 31 dekabrın bütün dünya azərbaycanlılarının ümümmilli bayramı kimi qeyd olunması və dövlət bayramları sırasında şərəfli yer tutması müstəqil Azərbaycan Respublikası ilə bağlıdır. Ümummilli liderimiz Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən ilk dəfə, 16 dekabr 1991-ci il tarixli sərəncamla 31 dekabrı dünya azərbaycanlılarının həmrəylik və milli birlik bayramı elan etmiş, sonra isə bu tarix bütün Azərbaycan xalqının, dünya azərbaycanlılarının milli bayramına çevrilmişdir.

Dünya azərbaycanlılarının təşkilatlanması, onların milli birlik və həmrəyliyinin güclənməsi də məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, dünyada yaşayan azərbaycanlıların milli birlik və həmrəylik hisslərinin yüksəlməsi, onların Azərbaycan dövlətçiliyi ətrafında sıx birləşməsi üçün özünün bütün imkanlarından, bilik və bacarığından istifadə etmişdir. Onun təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakıda Dünya azərbaycanlılarının I qurultayının yüksək səviyyədə keçirilməsi və Azərbaycan rəhbərliyinin sonrakı məqsədyönlü siyasəti dünya azərbaycanlılarının

milli-mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına, azərbaycanlıların tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsinə ciddi təsir göstərmişdir.

Bir toplum kimi, dünya azərbaycanlıları qarşısında duran vəzifələr Heydər Əliyev tərəfindən aydın və dəqiq müəyyənləşdirilmişdir. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, ilk növbədə, öz milli kimliklərini hifz etməli, xalqımızın dilini, mədəniyyətini, mütərəqqi adət-ənənələrini, tarixini yaşatmalı, inkişaf etdirməlidir. Bu, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin mühüm şərtidir.

Digər mühüm vəzifə dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin möhkəmləndirilməsi, bu əlaqələrin hüquqi, mədəni və mənəvi əsaslarının gücləndirilməsidir. Hər bir azərbaycanlı dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, Azərbaycan dövlətinin, cəmiyyətinin problemləri ilə yaşamalı, onların həlli üçün mənəvi məsuliyyət hiss etməlidir. Eyni zamanda, Azərbaycan hökuməti də Vətənimizin getdikcə artan maddi və mənəvi potensialından, siyasi nüfuzundan bütün dünya azərbaycanlılarının bəhrələnməsinə şərait yaratmalı, onların milli və vətəndaş hüquqlarının qorunması üçün istifadə etməlidir.

Bu gün Azərbaycan diasporu böyük iqtisadi, mədəni, intellektual qüvvəyə malikdir. Yaşadıqları ölkələrin ictimai-siyasi həyatına onların təsiri getdikcə daha artıq hiss olunur. Məmnunluq hissi ilə qeyd edirəm ki, Müstəqil Dövlətlər Birliyi ölkələrində, Avropada, Amerikada Azərbaycan icmaları və cəmiyyətləri əvvəlki dövrlərlə müqayisədə xeyli səmərəli fəaliyyət göstərirlər. Lakin o da xüsusi vurğulanmalıdır ki, onların geniş imkanları, istifadə olunmamış potensialı vardır və bu potensialdan milli maraqlar naminə maksimum yararlanmaq lazımdır.

Hazırda azərbaycanlıların həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, ümummilli ideyalar ətrafında birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Azərbaycan dövləti nüfuzlu iqtisadi və siyasi gücə çevrilmiş, bütün dünyada yaşayan soy-

daşlarımız qarşısında parlaq perspektivlər açılmışdır. İndi biz dünya azərbaycanlılarının ümumbəşəri və milli-mədəni hüquqlarının, beynəlxalq konvensiyalarda təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikik. Azərbaycanın siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənimizə və xalqımıza mənsubluq hissini gücləndirmək, onların ölkəmizin iqtisadi, mədəni həyatında hərtərəfli iştirakını təmin etmək üçün bütün zəruri tədbirləri görəcəkdir. 2005-ci ildə bizim qarşımızda yeni-yeni işlər, həlli vacib olan çoxlu mühüm vəzifələr durur. Əmin ola bilərsiniz ki, Azərbaycan iqtidarı bütün bu işlərin öhdəsindən layiqincə gələcəkdir.

Əziz azərbaycanlılar, hörmətli soydaşlar!

Bu əziz bayram günündə sizi ürəkdən təbrik edir, hər birinizə cansağlığı, firavanlıq, əmin-amanlıq və Vətənimizin tərəqqisi yolunda uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 dekabr 2004-cü il*

## SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

Hörmətli cənab Prezident!

Sudan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Sudan əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sudan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 dekabr 2004-cü il*

## KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTRO RUSA

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 27 dekabr 2004-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN (MOK) IV BAŞ MƏCLİSİNDƏ

*28 dekabr 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə MOK-un inzibati binasında təşkil edilmiş «Heydər Əliyev və Olimpiya hərəkatı» sərgisi ilə tanış oldu.*

*MOK-un Baş Məclisinin iştirakçıları prezident İlham Əliyevi hərarətli alqışlarla qarşıladılar. Gənclər, İdman və Turizm naziri, MOK-un birinci vitse-prezidenti Əbülfəs Qarayev gündəlikdə duran məsələlər barədə məlumat verdi, müasir Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyevin ölkəmizdə idmanın və Olimpiya hərəkatının inkişafında göstərdiyi əvəzsiz xidmətlərini xüsusi vurğuladı.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Sonra gündəlikdəki məsələlər ətrafında müzakirələr aparıldı.*

*Azərbaycan prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Baş Məclisdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Milli Olimpiya Komitəsinin üzvləri!

Sidney Olimpiya Oyunlarından sonrakı dövr Azərbaycan üçün, ümumiyyətlə, Azərbaycanda idmanın inkişafı üçün çox əhəmiyyətli dövr olmuşdur. Ölkəmiz bu dövr ərzində daha da inkişaf etmiş, ölkədə gedən proseslər müsbət istiqamətdə davam etmişdir.

Ümumiyyətlə, Azərbaycan son illər ərzində öz mövqelərini daha da möhkəmləndiribdir. İqtisadi potensial güclənibdir, ölkə-

mizin dünyadakı mövqeləri möhkəmlənibdir. Bir sözlə, Azərbaycan sürətlə və hərtərəfli inkişaf edibdir. O cümlədən idman sahəsində də böyük işlər görülübdür. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra idmana diqqət daim yüksək idi. Baxmayaraq ki, ölkəmiz müstəqilliyimizin ilk illərində iqtisadi cəhətdən o qədər də güclü deyildi, ölkədə çoxlu çətinliklər var idi, problemlər var idi. Ümumiyyətlə, iqtisadi inkişafdan söhbət getmirdi, ölkə iqtisadiyyatı tənəzzülə uğrayırdı. Buna baxmayaraq, xalqımızın ümummilli lideri Heydər Əliyevin daim idmana, olimpiya hərəkatına diqqəti çox yüksək səviyyədə idi. Azərbaycanın iqtisadi cəhətdən ən çətin məqamlarında idmana xüsusi münasibət var idi. İdmançılar da bunu hiss edirdilər. Məhz bu diqqətin, qayğının nəticəsində Azərbaycanda idman inkişaf edirdi.

Bu gün burada son dörd il ərzindəki fəaliyyət haqqında hesabat təqdim edildi, müzakirələr aparıldı. Deyə bilərəm ki, dörd il ərzində idmanın inkişafı istiqamətində də böyük işlər görülmüşdür. Ümumiyyətlə, bu gün Azərbaycan dünyada tam mənada idman ölkəsi kimi tanınır. Azərbaycan Beynəlxalq Olimpiya Komitəsinin çox dəyərli üzvüdür. Azərbaycan Milli Olimpiya Komitəsi öz xarici əlaqələrini genişləndirir. Azərbaycanda çoxlu beynəlxalq yarışlar keçirilir, dünya, Avropa çempionatları, beynəlxalq idman konfransları, beynəlxalq idman təşkilatlarının seminarları və digər tədbirlər keçirilir.

Bir sözlə, Azərbaycan özünü beynəlxalq idman aləminə tanıda bilibdir. Bu gün beynəlxalq idman ailəsində Azərbaycanın adı gələndə – biz bunun dəfələrlə şahidi olmuşuq – Azərbaycanda idmanda gedən proseslərə həmişə çox böyük rəğbətlə münasibət göstərilir. Beynəlxalq qurumlarda bizdə olan vəziyyət və idmanda gedən inkişaf – bir tərəfdən, burada keçirilən tədbirlər, digər tərəfdən, idmançılarımızın uğurlu çıxışları – haqqında kifayət qədər məlumat var.

Hər bir ölkənin idman potensialını nümayiş etdirən, ilk növbədə, idmançıların çıxışlarıdır, uğurlu nəticələridir. Bu istiqamətdə görülən bütün işlər – həm idmanın maddi-texniki bazası-

nın gücləndirilməsi istiqmətində görülən işlər, həm də təlim-məşq toplanışlarının yüksək səviyyədə keçirilməsi, idmançılara lazımi şəraitin yaradılması öz bəhrəsini verir. Sadaladığım bütün bu amillər uğurlu nəticələr əldə etmək üçün başlıca şərtdir. Çox şadam ki, Azərbaycanda bütün bu amillər mövcuddur.

Buna əlavə etsək ki, Azərbaycanda idmana cavabdehlik daşıyan qurumlar arasında da çox işgüzar münasibətlər var, onda görərik ki, həqiqətən, Azərbaycan bu gün idmanda inkişaf dövrünü yaşayır. Milli Olimpiya Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi, federasiyalar, idman cəmiyyətləri – biz hamımız bir məqsədə qulluq edirik. Hamımız çalışırıq ki, ölkəmizin bayrağı qaldırılsın. Hamımız çalışırıq ki, ölkəmizin dövlət himni səslənsin. Bu həm ölkəmizə şərəf gətirir, həm də ölkəmizi dünyada tanıdır, eyni zamanda göstərir ki, Azərbaycan nəyə qadirdir.

Azərbaycanın çox güclü potensialı var və çox güclü idman potensialı var. Əlbəttə, istəyirik ki, bu potensial tam şəkildə işə düşsün. Xüsusilə, Azərbaycanın bölgələrində çox istedadlı gənclər var. O gəncləri idmana cəlb etmək üçün bölgələrdə də müasir idman infrastrukturu yaradılmalıdır. Burada qeyd olundu və hamımız da bunu bilirik ki, bu istiqamətdə işlər görülübdür. Mən bunlar haqqında çox danışmaq istəmirəm. Amma sirr deyil ki, Azərbaycanda son dörd il ərzində müxtəlif rayonlarda tikilib istifadəyə verilmiş idman qurğuları bu gün çox böyük səmərə ilə işləyir. Orada həm idmançılar, həm də, ümumiyyətlə, gənclər, uşaqlar, yeniyetmələr məşğul olur, məşq edirlər. Bu da çox vacibdir. İdmanın kütləviliyi hər bir ölkə üçün vacib məsələdir. Biz istəyirik ki, yetişən gənc nəsil həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam olsun. Əlbəttə, bunu etmək üçün şərait lazımdır, şərait olmalıdır. Təkcə paytaxtda deyil, bölgələrdə də şərait olmalıdır.

Bilirsiniz ki, mən respublika prezidenti vəzifəsinə seçiləndən sonra da regional inkişaf proqramı mənim fəaliyyətimdə çox böyük yer tutur. Deyə bilərəm ki, bu proqramı idman müstəvisində hələ 1997-ci ildən həyata keçirməyə başlamışdım. Çünki

çox gözəl bilirdim və bilirəm ki, Azərbaycanın hərtərəfli, uğurlu inkişafı üçün onun hər bir bölgəsi inkişaf etməlidir. Azərbaycanın hər bir vətəndaşı, yaşadığı yerdən asılı olmayaraq, yüksək səviyyəli xidmətlərlə təmin olunmalıdır. Regionlarda tikilib istifadəyə verilmiş idman qurğuları bu gün çox uğurla fəaliyyət göstərir. Onlar həm şəhər və rayonlara yaraşıq verir, çünki çox yüksək zövqlə tikilibdir, həm də gənc nəslə xidmət edir.

Onu da qeyd etmək istəyirəm ki, əgər belə demək mümkündürsə, qeyri-idman sektorunda da regionlarda böyük canlanma gedir. Yəni iş yerləri açılır, müəssisələr, infrastrukturlar, sənaye obyektləri yaradılır və bütün bunlar ölkəmizi daha da gücləndirir. Bizim də məqsədimiz budur ki, Azərbaycan daha da güclü olsun, Azərbaycan dünyada, beynəlxalq aləmdə daha da möhkəm yeri tuta bilsin, Azərbaycanda insanlar daha da yaxşı yaşasınlar və sağlam olsunlar.

Mən çox şadam, görülən işlər göstərir ki, biz düz yoldayıq. İdman Azərbaycanın ictimai, siyasi həyatının artıq çox vacib bir amilidir. Çox şadam ki, Azərbaycanda idmançılara ənənəvi olan hörmət də yüksək səviyyədədir. İdmançı olmaq artıq çox şərəfli bir işdir. İdmançılara, idman veteranlarına göstərilən münasibət də, əlbəttə, cəmiyyətdə öz əksini tapır. Biz bu məsələyə də daim diqqət göstəririk. Çünki idmançılar yaxşı bilir ki, idman ömrü çox qısa olur və təkcə Azərbaycanda deyil, bütün başqa ölkələrdə də idmançı idmandan gedəndən sonra bəzi çətinliklərlə üzləşir, elə bil ki, yeni həyata başlayır. Bu həyata uyğunlaşması da bəzən çox çətin keçir. Ona görə biz çalışırıq ki, idmandan gedən insanlara daha da böyük qayğı göstərək, onların problemlərini həll edək, onlara şərait yaradaq. Ümumiyyətlə, idmançılara, idman mütəxəssislərinə qayğı daim bizim diqqət mərkəzimizdədir. Biz idmançıların mənzil problemləri ilə məşğul oluruq, mükafatlar veririk. Mən onların hamısını bu gün demək istəmirəm, çox vaxt aparar. Onu demək istəyirəm ki, gələcəkdə də bu siyasət davam etdiriləcəkdir.

Son Afina Olimpiya Oyunları bir daha göstərdi ki, ümumiyyətlə, dünyada, müxtəlif ölkələrdə idmana diqqət daha da artır.

Yəni hamı üçün aydın olur ki, idman hər bir ölkənin çox vacib sahəsidir. Ölkəni dünyada tanıdan, bəlkə də, ən başlıca bir vasitədir. Çünki yalnız idmanda, olimpiya oyunlarında ölkələr bir-biri ilə rəqabət aparır və bu rəqabətin nəticəsində reytinqlər də tutulur. Hər bir ölkə istəyir ki, onu təmsil edən idmançı daha da yüksək yerə layiq olsun. Bu, dünyada gedən ümumi prosesdir. Biz çox şadıq ki, Azərbaycan bu prosesin içindədir və bəlkə də, başqa ölkələrlə müqayisədə biz bu sahəyə daha tez diqqət göstərməyə başladıq. Bu gün heç kəs üçün sirr deyil ki, Beynəlxalq Olimpiya Komitəsi Azərbaycan Milli Olimpiya Komitəsini başqa ölkələrə örnək kimi təqdim edir, nümunə kimi göstərir və tövsiyə edir ki, bizim təcrübəmiz başqa ölkələrdə də tətbiq olunsun.

Doğrudan da, Azərbaycanda idman sahəsində bir çox yeniliklər baş verir. İlk növbədə, federasiyalar möhkəmlənir, federasiyalara ölkədə tanınmış şəxslər prezidentlər seçildi ki, onlara tapşırılan sahəyə, idman növünə diqqət göstərsinlər, məşğul olsunlar və idmançılara lazımi şəraiti yaratsınlar. Bu gün başqa, qonşu ölkələrdə görürük ki, bizim yolumuzla gedənlərin sayı artır. Nəyə görə? Çünki bizim yolumuz artıq dünyada sübut etdi ki, bu, düzgün yoldur.

Mən çox sadam ki, idmana son illər ərzində yaranmış meyllər güclənir. Son olimpiya oyunları onu bir daha təsdiq etdi ki, Azərbaycanda idman güclənir, onun potensialı artır. Afina Olimpiya Oyunları bir daha göstərdi ki, bizim nə qədər güclü idmaçılarımız var. Azərbaycan idmançıları 5 medal qazandılar. Daha iki-üç medal da qazanıla bilərdi, amma hardasa bəxt gətirmədi, hardasa hakimlərin ədalətsizliyi buna imkan vermədi. Hər halda, bu, böyük bir potensialdır və təkcə biz tərəfdən deyil, bütün idman aləmi tərəfindən qəbul edilir və buna böyük rəğbətlə yanaşılır.

Bilirsiniz ki, mənim də həyatımın bir hissəsi idmanla bağlıdır. 1997-ci ildə Azərbaycanın idman ictimaiyyəti mənə etimad göstərdi, Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçdi və gördüyünüz kimi, bu vəzifəni bu günə qədər icra edirəm. Düz-

dür, dünyada belə təcrübə var ki, dövlət başçısı, eyni zamanda Olimpiya Komitəsinin prezidenti olsun. Amma deyə bilərəm ki, əksər hallarda onlar dövlət başçısı olandan sonra Olimpiya Komitəsinin prezidenti olurlar. Mən isə əksinə, idmandan dövlət başçısı vəzifəsinə gəlmişəm. Ona görə, demək olar ki, ölkə prezidenti idmançıların nümayəndəsidir. Belə desək, səhv eləmərik.

Doğrudan da, bu vəzifə mənim üçün çox əzizdir və həyatımda da çox mühüm rol oynamışdır. Çünki, birincisi, bu elə bir vəzifədir ki, əgər adamda istək varsa, doğrudan da məsuliyyət hissi varsa, burada nəticə əldə etmək mümkündür. Nəticə təkcə medalların sayı ilə ölçülmür. Ümumiyyətlə, ölkəmizdə idman sahəsində gedən inkişaf hərtərəflidir. Mənim üçün bəlkə də, necə deyərlər, ən böyük sevinc gətirən məqamlar bunlardır ki, gənclər, balaca uşaqlar idman bölmələrinə gedirlər. Çünki bu, Azərbaycanın gələcəyidir, Azərbaycanın gələcək nəslinin sağlamlığıdır.

Mən bu vəzifəyə 1997-ci ildən çox böyük məsuliyyətlə yanaşıram. ümumiyyətlə, bütün tapşırılan vəzifələrə, o cümlədən bu vəzifəyə də. Prezident seçiləndən sonra demişdim ki, mən bu vəzifədən imtina etməyəcəm və bu gün də imtina etmirəm. Bundan sonra da idmançılarla birlikdə olacağam. Ümumiyyətlə, idmançılarla, idman mütəxəssisləri ilə, idman veteranları ilə ünsiyyətdə olmaq, deyə bilərəm ki, çox böyük məktəbdir. Çünki bu, tam başqa bir aləmdir. İdmançı elə bir insandır ki, onun mənəvi xüsusiyyətləri də çox yüksək olur. Əsl idmançı heç vaxt pis işlərlə məşğul olmaz, heç vaxt ona yaraşmayan işlərə qoşulmaz. Əsl idmançı həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam insandır. Mən çox şadam ki, Azərbaycanda məhz belə idmançılar mövcuddur və bizi təmsil edən, beynəlxalq yarışlarda Azərbaycan bayrağını qaldıran gənclər həm peşəkar idmançılardır, həm də böyük mənəvi xüsusiyyətlərə malik olan idmançılardır. Mən ümid edirəm ki, yetişən gənc nəsil də bizim tanınmış idmançılardan ibrət dərsi götürəcək, onlar gənc nəsil üçün də nümunədir. Uşaqları, yeniyetmələri idman bölmələrinə

cəlb etmək üçün, əlbəttə ki, bizim idman qəhrəmanlarımız olmalıdır və onlar da var. Siz də onları yaxşı tanıyırsınız, Azərbaycan ictimaiyyəti də onları yaxşı tanıyır.

Bu fürsətdən istifadə edib, son 7 il ərzində mənimlə bərabər bu sahədə işləyən, çalışan bütün insanlara birgə fəaliyyətimizə görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu birgə fəaliyyətimizdən razıyam. Çox razıyam ki, bizim səylərimizin nəticəsində ölkədə idman sahəsində inkişaf, irəliləyiş var. Çox sevinirəm ki, yeni açılan idman komplekslərinə güclü axın var. Xüsusilə, Olimpiya oyunlarından sonra bu axın daha da çox hiss olunur. Əminəm ki, bundan sonra da hiss olunacaqdır.

Gələcəkdə yeni olimpiya komplekslərinin tikintisi nəzərdə tutulubdur. Artıq 4 yerdə idman kompleksi tikilir və bəyan etdiyimiz kimi, gələcəkdə Azərbaycanın hər bir bölgəsində idmanla məşğul olmaq üçün gözəl şərait olacaqdır.

Milli Olimpiya Komitəsinin fəaliyyəti də çox müsbət olubdur. Azərbaycanda olimpiya hərəkatı güclənibdir. Bizim bu sahədəki işlərimiz də yüksək səviyyədədir. Bu gün son dörd ilə yekun vuraraq, bir daha deyə bilərəm ki, bizim nəzərdə tutduğumuz bütün planlar həyatda öz əksini tapıbdır. Biz nəyi planlaşdırmışıqsa, onu da etmişik. Əminəm ki, bizim böyük idman ailəsində bundan sonra da mehribanlıq, əməkdaşlıq olacaqdır. Biz – idmançılar, məşqçilər, idman mütəxəssisləri, federasiyalar, idman cəmiyyətləri, nazirlik, Olimpiya Komitəsi həmişə olduğu kimi, yenə də bir ailə kimi qalacağıq. Azərbaycana ləyaqətlə xidmət edəcəyik, Azərbaycanın idman şöhrətinin ucaldılması üçün əlimizdən gələni əsirgəməyəcəyik. Çalışacağıq ki, bundan sonra da beynəlxalq yarışlarda, Olimpiya oyunlarında bizim milli bayrağımız daim yüksəkdə olsun. Bu işdə sizin hamınıza uğurlar arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Baş məclisdə Afina Olimpiya Oyunlarında qızıl medal qazanmış güləşçi Fərid Mansurova «Mersedes -320S» markalı avtomobilin açarlarını təqdim etdi. Məşhur idmançılara, məşqçilərə və tanınmış idman xadimlərinə yeni mənzillərin orderləri verildi.*

*Bildirildi ki, Azərbaycan prezidentinin sərəncamı ilə bir neçə idmançı Sumqayıt şəhərində mənzil almışdır.*

*Beynəlxalq Olimpiya Xartiyasına əsasən, MOK-un yeni icraiyyə komitəsi seçildi. Respublika Gimnastika Federasiyasının prezidenti Mədəni Olimpiya Komitəsinin sədri Mehriban Əliyeva, Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun rəisi Natiq Əliyev və voleybol üzrə qadınlardan ibarət yığma komandanın Baş məşqçisi Faiq Qarayev MOK-un İcraiyyə Komitəsinə yeni üzv seçildilər.*

### *Azərbaycan prezidenti İlham Əliyevin respublika televiziyasının müxbirinə verdiyi müsahibə:*

**S u a l: Cənab Prezident, son dörd ildə Azərbaycan Milli Olimpiya Komitəsi Beynəlxalq Olimpiya Komitəsi və dünya idman federasiyaları ilə sıx əməkdaşlığını daha da möhkəmləndirmişdir. Milli Olimpiya Komitəsinin prezidenti kimi, Siz bu fəaliyyəti necə qiymətləndirirsiniz?**

**C a v a b:** Yüksək qiymətləndirirəm. Milli Olimpiya Komitəsi doğrudan da Azərbaycanda çox böyük işlər görür. İdmanın inkişafında, Olimpiya hərəkatının inkişafında Milli Olimpiya Komitəsinin fəaliyyəti çox yüksək səviyyədədir. Bunu təkcə biz deyil, bütün beynəlxalq idman ictimaiyyəti də bilir və buna təqdirlə yanaşır. Biz çalışmalıyıq ki, bundan sonra da idmançılara, məşqçilərə, idman veteranlarına gözəl şərait yaradaq ki, Azərbaycan idmançıları həmişə olduğu kimi, ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil etsinlər.

Bilirsiniz ki, idmanın maddi-texniki bazasının güclənməsi istiqamətində də böyük işlər görülübdür. Müxtəlif yerlərdə müa-

sir, gözəl idman qurğuları tikilib istifadəyə verilib və bu tikintilər davam edir. Azərbaycanın hər bir bölgəsində yeni idman komplekslərinin tikintisi nəzərdə tutulur. Baxmayaraq ki, idmanın kütləviliyi bilavasitə olimpiya hərəkatının səlahiyyətində deyil, amma biz buna çox böyük diqqət yetiririk. Uşaqlar, yeniyetmələr, gənclər idmanla məşğul olsalar, həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən güclü olacaqlar.

Son dörd il ərzində Azərbaycanda idman sahəsində inkişaf sürətlə gedib – həm medallar çoxdur, həm də, ümumiyyətlə, idmanda digər məsələlər də öz həllini tapır. Azərbaycanda keçirilmiş müxtəlif beynəlxalq yarışlar, dünya, Avropa çempionatları bir daha göstərir ki, biz idman ölkəsi kimi dünyada artıq yüksək yerə malikik.

**S u a l: Cənab Prezident, Sizin bir neçə il əvvəl dediyiniz sözlər idman ictimaiyyətinin yaddaşında dərin iz buraxmışdır: növbəti Olimpiya oyunlarına cəmi üç il qalır...**

**C a v a b:** Bəli, mən bunu bu gün də dedim – təxminən, cəmi dörd il qalır. Əlbəttə, bu elə prosesdir ki, dayanmaq olmaz, hansısa uğurları əldə edib onlarla kifayətlənmək olmaz. Daimi proses getməlidir. Əgər biz istəyiriksə ki Azərbaycan beynəlxalq yarışlarda daim yüksək yerləri tutsun, idmançılarımız qələbə qazansınlar, onda bu proses daim getməlidir. Federasiyalar, idman cəmiyyətləri, nazirlik, Milli Olimpiya Komitəsi, idmançılar, idman mütəxəssisləri – hamımız birlikdə çalışmalıyıq. Ancaq bu təqdirdə uğurlar olacaqdır. Bu birlik Azərbaycanda var. Başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda idmanla məşğul olan bütün qurumlar vahid proqram çərçivəsində fəaliyyət göstərirlər. Əminəm ki, bizim uğurumuzun əsas səbəbi də məhz bundadır. Çində keçiriləcək Olimpiya oyunlarına hazırlıq artıq başlayıbdır. Mən ümid edirəm ki, idmançılarımız ölkəmizi Çində keçiriləcək Olimpiya oyunlarında da ləyaqətlə təmsil edəcəklər.

## AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN IV BAŞ MƏCLİSİNDƏ YEKUN NİTQİ

Bizim Baş Məclisimiz başa çatır. Mən bir daha qeyd etmək istəyirəm ki, son 4 il ərzində Azərbaycanın idman ictimaiyyəti çox səmərəli işləyibdir, biz qarşımızda duran bütün məsələləri, vəzifələri ləyaqətlə yerinə yetirmişik. Ümid edirəm ki, Milli Olimpiya Komitəsi bundan sonra da, növbəti dövr ərzində səmərəli işləyəcəkdir.

Mən xatırlayıram, 4 il bundan əvvəl, Sidney Olimpiya oyunlarından sonra ilk yığıncaqda demişdim ki, növbəti Olimpiya oyunlarına cəmi dörd il qalır. Bu fikri təkrarlamaq istəyirəm. Növbəti Olimpiya oyunları daha da gərgin şəraitdə keçəcəkdir. Buna şübhə yoxdur, çünki ildən-ilə rəqabət artır. Müxtəlif ölkələrdə güclü idmançılar yetişir. Bəzən ölkələr özləri üçün ənənəvi olmayan idman növlərində də güclü idmançılar hazırlayırlar. Bütün bunları nəzərə alaraq, biz gərək gündəlik fəaliyyətimizdə məsələyə daha da ciddi yanaşaq. Yəni Pekində keçiriləcək Olimpiya oyunları rəqabət baxımından daha da çətin olacaqdır. Amma mən şübhə etmirəm ki, bizim idmançılarımız – bu gün fəaliyyət göstərən və o vaxta qədər yetişəcək idmançılarımız ölkəmizi Pekin Olimpiya oyunlarında da layiqincə təmsil edəcəklər.

Amma o vaxta qədər, əlbəttə ki, hələ beynəlxalq yarışlar – turnirlər, Avropa, dünya çempionatları olacaqdır. Əminəm ki, Milli Olimpiya Komitəsi, Gəncələr, İdman və Turizm Nazirliyi, müvafiq federasiyalar və idman cəmiyyətləri həmişə olduğu kimi, bütün qüvvələrini birləşdirəcək, idmançılarımızın uğurlu çıxışlarını təmin etmək üçün öz səylərini əsirgəməyəcəklər. Mən buna şübhə etmirəm və əminəm ki, Azərbaycan idmanı ənənəvi olaraq daim yüksək zirvələrdə olacaqdır.

Bu fürsətdən istifadə edib sizin hamınızı qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, bundan sonra da biz hamımız doğma Vətənimizə ləyaqətlə xidmət edək. Sağ olun.

* * *

*Dekabrın 28-də MOK-un yeni İcraiyyə Komitəsinin ilk yığıncağı keçirildi. Azərbaycan prezidenti, MOK-un prezidenti İlham Əliyev İcraiyyə Komitəsinin üzvlərinə gələcək işlərində bir daha uğurlar arzuladı.*

*MOK İcraiyyə Komitəsinin üzvləri prezident İlham Əliyev ilə xatirə şəkli çəkdirdilər.*

## ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPUNA YÜKSƏK DÖVLƏT MÜKAFATLARININ VƏ FƏXRİ ADLARIN TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident sarayı*

*29 dekabr 2004-cü il*

Mən ilk növbədə, sizin hamınızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etmək istəyirəm.

Müxtəlif vaxtlarda siz dövlətimizin ən yüksək ordeninə və fəxri adlara layiq görülmüsünüz. Mən də istərdim ki, yeni il ərəfəsində bunları sizə təqdim edim.

Bilirsiniz ki, Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyevin mədəniyyət, incəsənət, elm xadimlərinə diqqəti daim yüksək olubdur. O şəxsən özü bütün məsələlərlə məşğul olurdu, çalışırdı ki, maksimum dərəcədə diqqət göstərilsin, qayğı göstərilsin. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ilk illərin çətinliklərinə baxmayaraq, bu sahəyə də daim diqqət göstərilirdi.

Mən də öz növbəmdə, çalışıram ki, bu ənənələri davam etdirəm. Seçkilərdən əvvəl ziyalılarla görüşdə də bunu bəyan etmişdim.

Hesab edirəm ki, 2004-cü il bu baxımdan da mühüm olubdur. Latın qrafikası ilə çapdan çıxmış yeni kitablar ölkəmizin gənc nəslinin yetişməsində mühüm rol oynayacaqdır. Mənim yadımdadır, ziyalılarla görüşdə Anar müəllim bu məsələni qaldırdı. Mən də söz vermişdim ki, əgər bu vəzifəyə seçilsəm, bunu edəcəyəm və bunu etdik. Bir il ərzində böyük işlər görüldü.

2005–2006-cı illərdə də yeni kitabların, dərsliklərin və lüğətlərin nəşri nəzərdə tutulubdur.

Əlbəttə, biz hamımız çalışmalıyıq ki, başqa sahələrdə də mədəniyyət, incəsənət xadimlərinə diqqət daim artsın. Mənə çoxlu müraciətlər olmuşdur, ərizələr daxil olmuşdur və hər bir müraciətə reaksiya verilmişdir. Xüsusilə mədəniyyət və incəsənət xadimlərindən gələn ərizələrə böyük diqqətlə baxılmışdır. Orada göstərilən problemlərin, demək olar ki, tam əksəriyyəti öz həllini tapmışdır.

Gələn il, 2005-ci ildə də bu sahədə işlər görüləcəkdir. Mən Nazirlər Kabinetinə göstəriş vermişəm ki, bizim mədəniyyət ocaqlarının vəziyyəti dərindən öyrənilsin. Bilirəm ki, teatrlarımızın, muzeylərimizin vəziyyəti o qədər də yaxşı deyildir. Yəni onların təmirə ehtiyacı vardır. Göstərişlər artıq verilibdir. Mən özüm şəxsən gedib baxacağam. İstəyirəm ki, 2005-ci ildə biz bu sahədə də böyük bir proqramı həyata keçirək.

Bizim mədəniyyət ocaqlarımız yüksək səviyyədə olmalıdır. Bütün bu sahəyə diqqət gərək yüksək olsun. İndi dövlətin, hökumətin nəyə imkanı çatırsa, bunu edirik. Bu işdə özəl təşkilatlar da iştirak etməlidirlər. Bu bizim ümumi işimizdir. Məsələn, mən rayonlarda bu sahəyə diqqət göstərildiyini görəndə sevinirəm. Bu yaxınlarda Lənkəranda olarkən orada teatrın təmirdən sonra açılışını qeyd etdik. Çox yüksək səviyyədə təmir olunubdur. Naxçıvanda olarkən gördük ki, orada teatr təmir edilib və yüksək standartlara cavab verir. İndi Bakı bu baxımdan bir az geridə qalıbdır. Gərək biz bu vəziyyəti düzəldək.

Böyük iqtisadi layihələr həyata keçirilir. Bu gün insanlarımızın sosial təminatının yaxşılaşdırılması istiqamətində növbəti addımlar atılıbdır, fərmanlar, göstərişlər verilibdir. Amma demək istəyirəm ki, mədəniyyət, incəsənət sahəsinə də diqqət daim yüksək olacaqdır. Mən istəyirdim, bunu sizə deyəm, öz fikirlərimi sizə çatdıram. İndi isə təltif mərasiminə keçə bilərik.

* * *

*Dövlətimizin başçısı İlham Əliyev xalq şairi Nəbi Xəzriyə «İstiqlal» ordeni, Əkrəm Əylisliyə «İstiqlal» ordeni və «Xalq yazıçısı» fəxri adı, Anara və Maqsud İbrahimbəyova «Xalq yazıçısı» fəxri adı, Fərhad Xəlilova «Xalq rəssamı» fəxri adı təqdim edərək, onları bir daha təbrik etdi.*

**A n a r:** Cənab Prezident, fəxr edirik ki, bu adları bizə Siz təqdim edirsiniz. Mən bu adı hörmətli, unudulmaz Heydər Əliyevin imzası ilə 1998-ci ildə almışam. Bu bir daha onu təsdiq edir ki, o bizim ədəbiyyatımıza, incəsənətimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstəribdir. Mən çox şadam ki, Siz bu sahədə onun yolunu davam etdirirsiniz. Məsələn, kitabların latın qrafikası ilə çap olunması haqqında yanvarın 12-də imzaladığınız fərman çox böyük boşluğu aradan qaldırmaq üçün tarixi bir sənəddir. Bu il Sizin göstərişinizlə Yazıçılar Birliyinin Tərcümə Mərkəzi üçün və digər məsələlərlə əlaqədar vəsait ayrılmışdı. Bütün bunlara görə mən Sizə bir daha təşəkkür edirəm.

**F ə r h a d  X ə l i l o v:** Cənab Prezident, mən Sizə bütün rəssamların minnətdarlığını çatdırıram. Qarşıdan gələn bayramlar münasibətilə Sizi təbrik edirik. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən fəxri ad almağıma görə özümü xoşbəxt sayıram. Ulu öndərin tarixi xidmətləri çoxdur. O dəfələrlə rəssamları yüksək mükafatlarla təltif etmişdir. Sizin, cənab Prezident, bu ənənəni davam etdirməyiniz və ölkəmizdə mədəniyyət ocaqlarının yenidən qurulması istiqamətində təşəbbüsünüz və fəaliyyətiniz yüksək qiymətləndirilir.

**İ l h a m  Ə l i y e v:** Xoş sözlərə görə təşəkkür edirəm. Bilirsiniz, təqaüdlərin verilməsi də çox vacibdir. Çünki bilirsiniz ki, keçmişdə, Sovet İttifaqı zamanı yazıçılara, rəssamlara, ümumiyyətlə, mədəniyyət xadimlərinə həm maddi, həm də mənəvi baxımdan həmişə diqqət olubdur. Bütün kitablar sovet məkanında satılırdı, tərcümə olunurdu. Əlbəttə, maddi təminat da pis deyildi. Amma sistem dağılandan, biz yeni sistemə keçən-

dən sonra elə bil ki,  bu sahə bir az unuduldu. Necə deyərlər, bu ədalətsizliyi aradan götürmək üçün cənab prezident Heydər Əliyev xüsusi təqaüdlər təsis etdi və digər məsələlər də nəzərdə tutuldu. Düzdür, bu onları tam mənada təmin edə bilməz. Amma yenə də, hesab edirəm ki, böyük dəstək olar. Əvvəl təqaüdlərin sayında məhdudiyyət var idi, ancaq 250 nəfər nəzərdə tutulmuşdu. Biz o məhdudiyyəti götürdük, bunu 400 nəfərə çatdırdıq. Gələcəkdə bu bizim iqtisadi imkanlarımızdan asılı olacaqdır. İmkanlar yaxşı olsa, bunun həm məbləğini  qaldırmaq olar, həm də sayını artırmaq olar. Mən həmişə yaradıcı  insanlara  kömək etməyə hazıram.

## BİR QRUP YÜKSƏK RÜTBƏLİ HƏRBÇİYƏ VƏ HÜQUQ-MÜHAFİZƏ ORQANLARI ƏMƏKDAŞINA «AZƏRBAYCAN BAYRAĞI» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident sarayı*

*29 dekabr 2004-cü il*

Mən, ilk növbədə, sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm.

Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən orduya, ordu quruculuğuna daim böyük diqqət göstərilirdi. Bu diqqətin nəticəsində bizim ordumuz son illər ərzində daha da güclənibdir və orduda gedən proseslər onu göstərir ki, indi qarşımızda duran bütün məsələlər öz həllini tapa bilər. Ordumuz ildən-ilə daha da güclənir, onun maddi-texniki bazası möhkəmlənir. Bu istiqamətdə işlər davam etdirilir. Bilirsiniz ki, orduya ayrılan vəsaitin həcmi də ildən-ilə artır və gələn ilin büdcəsində yenə də artım nəzərdə tutulubdur, ayrılan vəsait təxminən 30 faiz artacaqdır.

Bizim məqsədimiz ondan ibarətdir ki, ordumuz daha da güclü olsun, daha da nizami olsun və qarşımızda duran bütün vəzifələri həll edə bilsin. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində işlər görülür, danışıqlar aparılır. Amma o da sirr deyil ki, güclü hərbi potensial danışıqların gedişatına ciddi təsir göstərə bilər və göstərir. Ümumiyyətlə, bu gün Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edir, iqtisadi potensial güclənir və bu da bizə imkan verir ki, orduya diqqət daha da böyük olsun. Ayrılan vəsaitin həcmi daha da böyük ol-

sun ki, maddi-texniki baza güclənsin və beləliklə, regionda Azərbaycan ordusu böyük gücə çevrilsin. Bunu etmək üçün bizim həm iqtisadi cəhətdən, həm də siyasi cəhətdən imkanlarımız var. Cəmiyyətimizdə bu məsələ ilə əlaqədar fikir ayrılığı yoxdur və aparılan siyasət Azərbaycan xalqı tərəfindən bəyənilir və dəstəklənir.

Mən prezident seçiləndən sonra ordu hissələrinə baş çəkmişdim, vəziyyətlə şəxsən özüm tanış olmuşdum və bütün uğurları da, çatışmayan cəhətləri də bilirəm və görürəm. Əlbəttə ki, nöqsanların aradan qaldırılması istiqamətində daha da ciddi işlər aparılmalıdır. Amma biz onu da bilməliyik  və Azərbaycan xalqı da bilməlidir ki, ordumuz günü-gündən güclənir. Orduda qulluq edən zabitlər də hazırlıq baxımından öz səviyyələrini yüksəldirlər, təkmilləşdirmə prosesi sürətlə gedir. Bu istiqamətdə görülən işlər məni qane edir. Əlbəttə, mən istəyirəm və biz hamımız – bütün Azərbaycan xalqı istəyir ki, müsbət meyllər daha da güclənsin və mövcud olan nöqsanlar tezliklə aradan qaldırılsın.

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi, mən  bundan sonra da orduya diqqət göstərəcəyəm, bu sahə gündəlik fəaliyyətimdə çox böyük yer tutur. Hamımız çalışmalıyıq ki, Azərbaycan ordusu güclü olsun və mütəşəkkil olsun.

Siz müxtəlif vaxtlarda Azərbaycan dövlətinin yüksək ordeni – «Azərbaycan Bayrağı» ordeni ilə təltif olunmusunuz. Mən istərdim ki, bu gün, yeni il ərəfəsində bu ordenləri sizə təqdim edim. (*Dövlətimizin başçısı təltif olunanların hər birinə Azərbaycan Bayrağı» ordenini təqdim etdi).*

* * *

**İ l h a m   Ə l i y e v**:  Bu gün polis, prokurorluq orqanlarının nümayəndələri də təltif olunublar. Ümumiyyətlə, qeyd etməliyəm ki, Azərbaycanda bütün hüquq-mühafizə orqanlarının fəaliyyəti çox yüksək səviyyədədir. Mən çox şadam ki, Azərbaycanda bu sahədə böyük uğurlar var. Bu uğurlar da xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Hamımız

yaxşı xatırlayırıq ki, ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gələndə ölkədə, demək olar, böhran hökm sürürdü. Demək olar ki, ordu yox idi, bunun əvəzində, ayrı-ayrı silahlı dəstələr fəaliyyət göstərirdi. Hüquq-mühafizə orqanlarının fəaliyyəti də çox aşağı səviyyədə idi. Peşəkarlıq çox aşağı səviyyədə idi. Ümumiyyətlə, ictimai-siyasi vəziyyət imkan vermirdi ki, hüquq-mühafizə orqanları tam gücü ilə işləsinlər, Azərbaycan xalqına xidmət etsinlər. Əksinə, ayrı-ayrı adamlara xidmət edirdilər və bunun nəticəsində Azərbaycan çox çətin vəziyyətlə üzləşmişdi.

1993-cü ildən başlayaraq, ardıcıl siyasət yürüdülərək, Heydər Əliyevin rəhbərliyi altında hüquq-mühafizə orqanları inkişaf etmiş və ən yüksək səviyyəyə çatmışdır. 10 il ərzində görülən işlər bunu deməyə əsas verir. Bundan sonra da dövlət, prezident tərəfindən bu sahəyə daim diqqət göstəriləcəkdir.

Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik bizim bugünkü və gələcək uğurlarımızın başlıca şərtidir. Regionda Azərbaycan ən sürətlə, dinamik inkişaf edən dövlətdir və bunun başlıca səbəbi yenə də ölkədə hökm sürən ictimai asayişdir. Asayişin, sabitliyin qorunmasında hüquq-mühafizə orqanlarının rolu böyükdür.

Azərbaycan cəmiyyəti öz seçimini 1993-cü ildə edibdir, birmənalı şəkildə Heydər Əliyev siyasətini dəstəkləyibdir. Bu dəstək bu gün də var və getdikcə daha da güclənir. Böyük xoşbəxtlikdir, böyük nailiyyətdir ki, – bunu təkcə biz deyil, Azərbaycana, Bakıya xaricdən gələn hər bir qonaq da deyir – paytaxtda, ümumiyyətlə, ölkəmizin şəhərlərində insanlar rahat yaşayırlar. Qayda-qanun var. Məsələn, axşam, gecə saatlarında insanlar küçələrə sərbəst çıxırlar. Hamımız yaxşı xatırlayırıq ki, 10-11 il bundan əvvəl günün günorta çağında da insanlar küçəyə çıxmağa qorxurdular. İndi isə bu sabitlik, aşayiş nəticəsində insanlarımız rahat yaşayırlar. Hər bir cəmiyyət üçün, hər bir ölkə üçün bu, ən vacib məsələlərdən biridir. Bu, Azərbaycanda var və biz hamımız sabitliyi bundan sonra da qorumalıyıq, saxlamalıyıq və gücləndirməliyik.

Sizin hamınızı bu yüksək ordeni almağınız münasibətilə bir daha təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

**S ə f ə r Ə b i y e v** (*Müdafiə naziri, general-polkovnik*): Cənab Prezident, mən təltif olunanlar adından Sizə təşəkkürümü bildirirəm. Bu ada ümummilli liderimiz Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən layiq görülməyimizdən fərəh hissi keçiririk. Cənab Prezident, biz Sizin əsgərlərinizik. Torpaqlarımızın erməni işğalçılarından azad olunması üçün Ali Baş Komandanın əmrini hər an gözləyirik. 2005-ci ilin dövlət büdcəsində Silahlı Qüvvələrimizə ayrılan vəsaitin həcmi təqribən 30 faiz artmışdır. Bu da ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi işində imkanlarımızı daha da artıracaqdır.

Biz də Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirik.

**İ l h a m Ə l i y e v:** Təltif olunanlara uğurlar arzulayıram. Sizlərin bundan sonra da Azərbaycanın iqtisadi-siyasi, hərbi potensialının güclənməsi istiqamətində Vətənə ləyaqətlə xidmət edəcəyinizə əmin olduğumu bildirirəm.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ ELMLƏR AKADEMİYASININ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ

*30 dekabr 2004-cü il*

*Muzeyin direktoru, MEA-nın müxbir üzvü Nailə Vəlixanlı, Baş nazirin müavini Abid Şərifov Azərbaycan prezidenti İlham Əliyevi binanın önündə səmimiyyətlə qarşıladılar.*

**N a i l ə   V ə l i x a n l ı:** *Cənab Prezident, icazənizlə məlumat vermək istərdim ki, vaxtilə Hacı Zeynalabdin Tağıyevin mülkü olmuş bu binada yerləşən muzey ilk tamaşaçılarını 1920-ci ildə qəbul etmişdir. Binanın özü isə 1895–1901-ci illərdə tikilmişdir. Burada Azərbaycan tarixinin bütün dövrlərinə aid zəngin ekspozisiya ilə yanaşı, xalqımızın bir çox görkəmli şəxsiyyətlərinin təhsil almasına yardımçı olmuş Tağıyevin həyatına dair fotoşəkillər, fəaliyyəti ilə bağlı tarixi sənədlər və qiymətli əşyalar, eləcə də muzeyin tarixi ilə bağlı elmi əsərlər, məcmuələr toplanmışdır.*

*Muzeydə müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli liderimiz Heydər Əliyevin xarici ölkələrə səfərlərini, beynəlxalq sammitlərdə iştirakını, dünyanın görkəmli siyasətçiləri ilə görüşlərini əks etdirən guşə də yaradılmışdır.*

*Hazırda muzeydə 130-dan çox işçi çalışır. Burada saxlanılan əşyaların bərpası üçün laboratoriya vardır. Bu ilin fevralında tariximizin ən qədim zamanlardan XIX əsrə qədər olan dövrünü əhatə edən ekspozisiyanın açılışı olmuşdur.*

**İ l h a m   Ə l i y e v:** *Mən görürəm ki, bir əsrdən çox yaşı olan binanın vəziyyəti o qədər də yaxşı deyil, onun əsaslı təmirə ehtiyacı vardır.*

**A b i d   Ş ə r i f o v:** Cənab Prezident, Sizin tapşırığınıza və göstərişinizə əsasən, binada əsaslı bərpa və təmir işlərinin apa-

rılması üçün lazımi işlər görülür. Bir neçə layihə hazırlanmışdır. Burada Şərq memarlığına xas çox incə və zəngin naxışlar olduğuna görə, yerli mütəxəssislərin belə zərif bərpa işləri aparmağa imkanları yoxdur. Ona görə də Şirvanşahlar sarayının bərpasında işləyən tanınmış İtaliya şirkətinin nümayəndələrini dəvət etmişik. Onlar Almaniyada, İtaliyada, Fransada, Böyük Britaniyada və digər Avropa ölkələrində sırf bu işlə məşğul olurlar. Onların gücü ilə bütün binanı yox, yalnız bir hissəni, 5-6 otağı təmir etmək nəzərdə tutulur. Artıq təkliflərini veriblər, müsabiqə elan olunacaqdır. Burada bir neçə məsələ ilə əlaqədar Sizin məsləhətinizə ehtiyac vardır. Binada kondisioner sisteminin olmaması müəyyən çətinliklər yaradır. Hazırda zirzəmidə möhkəmləndirmə işləri görülür. İndiyədək bir-iki dəfə aparılan yüngül təmir zamanı otaqların ilkin görünüşü tamamilə dəyişdirilmişdir. Amma hazırladığımız layihəyə əsasən, otaqların əvvəlki vəziyyəti qaytarılacaqdır.

*Azərbaycan prezidenti İlham Əliyev keçmişdə Tağıyevə məxsus binanın qonaq, yataq, yeməkxana, uşaq otaqları ilə tanış oldu. Əsasən, Şərqdən gələn qonaqları qəbul etmək üçün nəzərdə tutulan dəbdəbəli Şərq salonunu, onun incə naxışlarını nəzərdən keçirdi, hər bir otağın ilkin görünüşünü, binanın ümumi fasadını əks etdirən şəkillərə, ev əşyalarına baxdı.*

**İlham Əliyev:** Çalışın ki, təmir zamanı hər bir memarlıq elementi qorunub saxlanılsın. Mən 7 ay bundan əvvəl bir neçə dəfə bu muzeyə nümayəndələr göndərmişəm ki, gəlib vəziyyətlə maraqlansınlar. Demək olar ki, hazırlıq işləri görülübdür. Hesab edirəm, Yeni ilin ilk günlərindən təmir işlərinə başlaya bilərik. Mən bütün bunları büdcədə nəzərdə tutmuşam. Yəqin ki, bunun bir hissəsini xarici mütəxəssislər, bir hissəsini isə yerli mütəxəssislər həyata keçirəcəkdir. İşlər paralel getməlidir. Çalışmalıyıq ki, bu işləri bir ilə olmasa da, il yarıma başa çatdıraq. Bütün işlər yüksək səviyyədə görülməlidir və buna nəzarət olunmalıdır. Əsas odur ki, binanın orijinal görkəmi saxlanılsın.

*Prezident İlham Əliyev bərpa işlərinə xüsusi həssaslıqla yanaşmağı bir daha tapşırdı, binanın istilik sistemi ilə də maraqlandı və müvafiq göstərişlər verdi.*

*Dövlətimizin başçısı Hacı Zeynalabdin Tağıyevin indiyədək saxlanılan kitabxanasına baxdı, buradakı o dövrün qanunlar toplusu ilə maraqlandı.*

*Sonra Azərbaycan prezidenti muzeyin ən qədim dövrlərdən bəri xalqımızın tarixini əks etdirən etnoqrafiya, arxeologiya, qiymətli metallar, təsviri incəsənət fondları ilə yaxından tanış oldu, Azıx mağarasında tapılan qiymətli eksponatlara, zərif şəkildə işlənmiş əşyalara böyük maraqla baxdı.*

*Prezident İlham Əliyev iki min il bundan əvvəl Azərbaycan şəhərlərində mühəndis texniki qurğuların olduğunu göstərən eksponatlarla da tanış oldu.*

**İlham Əliyev:** Bu cür qədim tariximiz var. Belə zəngin tarixi irsi olan bir millət üçün dünyaya nəyisə sübut etməyə ehtiyac yoxdur. Milli tariximizin bu zəngin abidələri qorunmalı, ciddi mühafizə olunmalıdır.

**Nailə Vəlixanlı:** Cənab Prezident, muzeylərin yenidən bərpası üçün təşəbbüs göstərdiyinizə, bu işlərə diqqət ayırdığınıza, şəxsən maraqlandığınıza görə Sizə təşəkkür edirik. Xalqımızın ümummilli liderı Heydər Əliyev də mədəniyyət obyektlərinin yüksək səviyyədə olmasını daim diqqətdə saxlamış, bir neçə dəfə bu muzeyə gəlmişdir.

Cənab Prezident, təmir işləri başa çatdıqdan sonra Hacı Zeynalabdin Tağıyevin vaxtilə yaşadığı otaqların bir neçəsində onun ev-muzeyini yaratmaq fikrindəyik.

**İlham Əliyev:** Mən hələ bir neçə il bundan əvvəl onun Mərdəkandakı qəbrini abadlaşdırdım. O vaxt mənə heç müraciət də olunmamışdı. Özüm gedib ora baxanda gördüm ki, çox pis, bərbad vəziyyətdədir. Biz oranı çox gözəl abadlaşdırdıq. İndi növbə onun evinə gəlib çatıbdır. Belə gözəl bina indi bərbad vəziyyətdədir.

*Prezident İlham Əliyev sonra Hacı Zeynalabdin Tağıyev küçəsindən bu tarixi binanın xarici görünüşünü də seyr etdi, bərpa işlərinin tam başa çatdırılması istiqamətində müvafiq göstəriş və tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ ELMLƏR AKADEMİYASININ NİZAMİ GƏNCƏVİ ADINA AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNDƏ

*30 dekabr 2004-cü il*

*Muzeyin direktoru, Milli Məclisin deputatı Rafael Hüseynov, əməkdaşlar dövlətimizin başçısını binanın önündə böyük mehribanlıqla və hərarətlə qarşıladılar. Prezident İlham Əliyevə gül dəstəsi təqdim olundu.*

**Rafael Hüseynov:** Cənab Prezident, son 40 ildə dördüncü dəfədir ki, Azərbaycan dövlətinin rəhbəri muzeyə gəlir. Ümummilli liderimiz Heydər Əliyev üç dəfə burada olmuşdur. Heydər Əliyev Azərbaycan ədəbiyyatını, xüsusilə muzeyimizi çox sevirdi. Növbəti gəliş isə Sizinkidir. Biz girəcəkdə binanın tarixçəsini yazmışıq. Bu, 150 yaşı olan bir binadır. Bakı quberniyasının memarı Qasım bəy Hacıbababəyovun layihəsi əsasında XIX əsrin ortalarında tikilmişdir. O vaxt bu, birmərtəbəli bir bina idi. Sonradan yeni layihə əsasında daha bir mərtəbə artırılıb, «Metropol» mehmanxanasına çevrilmişdi.

1918-ci ilin sentyabrında Bakı ermənilərdən və bolşeviklərdən azad edildikdən sonra Gəncədən Bakıya köçən Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti – Fətəli xan Xoyskinin başçılığı ilə ilk Nazirlər Kabineti bu binada yerləşirdi. 1939-cu ildə Nizaminin 800 illik yubileyi ilə əlaqədar Nazirlər Soveti Ədəbiyyat Muzeyinin yaradılması haqqında qərar qəbul edir. Mikayıl Hüseynov və Sadıq Dadaşovun layıhəsi əsasında bina yenidən qurulur və indiki görkəmini alır. Amma muzeyi açmaq mümkün olmur, müharibə başlanır. Muzey yalnız 1945-ci il mayın 14-də açılır.

Cənab Prezident, indi Sizin təşəbbüsünüz və qayğınız sayəsində bu binanın həyatında yeni bir dövr başlanacaq və o, ən azı 60–70 il insanların zövqünü oxşayacaqdır.

Siz prezident seçkiləri ərəfəsində və dövlət başçısı seçildiyiniz ilk günlərdə söz vermişdiniz ki, əsas qayğılarınızdan biri mədəniyyətə, ədəbiyyata, ziyalılara yönələcəkdir. Siz verdiyiniz bütün sözləri yerinə yetirirsiniz. Buraya gəlişiniz də bunun bir ifadəsidir. Həm muzey işçısı, həm də Azərbaycan ədəbiyyatının nümayəndəsi olaraq, bu diqqətə görə Sizə dərin təşəkkürümü bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Mən bir müddət əvvəl Abid Şərifova göstəriş vermişdim ki, gəlib burada vəziyyətlə tanış olsunlar və biz bu muzeyi ən yüksək səviyyədə bərpa edək, faktiki olaraq yenidən quraq. Çünki bu bizim tarixi sərvətimizdir, Azərbaycan xalqının yaratdığı çox görkəmli bir əsərdir. Həm muzey kimi, həm də bir bina kimi, buranın çox böyük tarixi əhəmiyyəti vardır. İndi Azərbaycanda abadlıq, quruculuq işləri gedir. Mədəniyyətə xüsusi diqqət göstərilir. Mən istədim ki, Yeni il ərəfəsində özüm buraya gəlim, tanış olum və 2005-ci ilin əvvəlindən burada böyük quruculuq işlərinə başlayaq.

**R a f a e l  H ü s e y n o v:** Cənab Prezident, bir daha xatırladım ki, 1918-ci ildə Fətəli xan Xoyskinin, Əlimərdan bəy Topçubaşovun, Nəsib bəy Yusifbəylinin və başqalarının iştirakı ilə Nazirlər Kabinetinin iclasları burada keçirilmişdir. Bu bir tarixdir. Mən məşhur rəssamımız Altay Hacıyevə sifariş etdim ki, bir rəsm əsəri hazırlayıb bu otağı əbədiləşdirək. Amma görürsünüz ki, bu otaq nə kökə düşübdür.

**A b i d  Ş ə r i f o v:** Cənab Prezident, məlumat verim ki, Sizin tapşırığınızla layihələr hazırlanıb, binanın işıq sistemi yeniləşdiriləcək, kondisionerlə təchiz edəcəyik, istilik sistemləri də quraşdırılacaqdır.

**İ l h a m  Ə l i y e v:** Bütün naxışlar bərpa olunmalıdır, digər işlər də tam görülməlidir.

*Dövlətimizin başçısı yenidənqurma işlərini əks etdirən maketlərlə tanış oldu, sonra muzeyin eyvanına çıxaraq ətrafı seyr*

*etdi, binanın qarşısındakı ərazidə aparılacaq yenidənqurma işləri ilə əlaqədar tövsiyələrini də verdi, bütün işlərin bir il müddətində başa çatdırılması zərurətini vurğuladı.*

*Rafael Hüseynov muzeyin sifarişi ilə nəfis şəkildə hazırlanmış və dahi Azərbaycan şairi Füzuliyə həsr olunmuş bədii vazanı Heydər Əliyev Fonduna hədiyyə etdi. O bildirdi ki, ümummilli liderimiz Heydər Əliyev Füzulinin yaradıcılığını çox sevirdi. Dahi şairin yubileylərindəki çıxışları və onun yubileylərinin yüksək səviyyədə keçirilməsinə nail olması ümummilli liderimizin Azərbaycan ədəbiyyatına göstərdiyi böyük qayğı və diqqətin təzahürü idi. Vaza üçün düzəldilmiş altlıqda Heydər Əliyevin Füzuli ilə bağlı iki fikri yazılmışdır. Bunların birincisində o deyir ki, mən uşaqlıq illərində – 1930-cu illərin ortalarında məktəbimizdə şagirdlərin rəsm əsərlərindən ibarət müsabiqə keçirilərkən Füzulinin portretini çəkdim və müsabiqədə I yeri tutdum. İkinci fikir isə dünya ədəbiyyatında Füzulinin yeri, öz yaradıcılığı ilə özünə abidə qurması və insanlıq tarixində qalan bir zirvə olması barədədir. Bu sözlərin altında ümummilli liderimiz Heydər Əliyevın imzası qoyulmuşdur.*

***Muzeylə tanışlıqdan sonra jurnalistlərin suallarına verdiyi cavab:***

**S u a l: Cənab Prezident, sabah Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bununla əlaqədar arzularınızı bilmək olarmı?**

**C a v a b:** Mən dünyada yaşayan bütün azərbaycanlıları bu bayram münasibətilə təbrik edirəm. İstəyirəm ki, 2005-ci il bizim hamımız üçün uğurlu olsun, Azərbaycan dövləti möhkəmlənsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın. Əminəm ki, belə də olacaqdır. İndi bizim ölkəmiz çox sürətlə inkişaf edir, qarşıda duran bütün məsələlər öz həllini tapır. Əminəm ki, növbəti illərdə də Azərbaycan dövləti daha da sürətlə inkişaf edəcəkdir.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müzakirələr davam etdirilir. Siz bu müzakirələri necə qiymətləndirirsiniz?**

**C a v a b:** Müzakirələr gedir. Hesab edirəm ki, bu müzakirələrin formatı indi münasibdir. Bilirsiniz ki, Praqa prosesi adlandırılan proses mövcuddur. Bu prosesin əsas mahiyyəti ondadır ki, burada mərhələli həll nəzərdə tutulur. Biz dəfələrlə demişik ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında həll oluna bilər və bu yöndə addımlar atılmalıdır. Mərhələli həll yeganə mümkün olan çıxış yoludur. Şadam ki, beynəlxalq təşkilatlar da bu məsələyə daha diqqətlə yanaşırlar.

Sizi bir daha qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm, hamınıza xoşbəxtlik və cansağlığı arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev Nizami meydanında Yeni il qabağı gəzintiyə çıxmış paytaxt sakinləri ilə görüşüb onlara xoş arzularını bildirdi. Şəhər sakinləri dövlətimizin başçısına Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə səmimi təbriklərini çatdırdılar.*

*Meydanda qurulmuş Yeni il yolkalarının ətrafında şənlənən insanlar prezident İlham Əliyevi mehribanlıqla və hərarətlə salamladılar. Dövlətimizin başçısı Şaxta baba ilə görüşdü, buraya toplaşmış böyükləri və uşaqları bayram münasibətilə təbrik etdi, onlara Yeni ildə firavanlıq, xoşbəxtlik və cansağlığı arzuladı.*

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Mən sizi Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

2004-cü il Azərbaycanın müasir tarixində çox böyük əhəmiyyətə malik bir il idi. 2004-cü ildə Azərbaycanın inkişafının yeni mərhələsi başlanmışdır. Bu bizim hamımız üçün, mənim üçün, Azərbaycan xalqı üçün sınaq ili idi. Biz bu ili xalqımızın ümummilli lideri Heydər Əliyevsiz yaşamışıq. Çox vacib idi ki, Azərbaycanda son 10 il ərzində əldə edilmiş bütün nailiyyətlər, uğurlar davam etdirilsin, Azərbaycan inkişaf etsin, xalqımız rahat, firavan yaşasın.

Mən əlimdən gələni etməyə çalışırdım ki, Azərbaycan inamla inkişaf etsin, ölkəmiz güclənsin, Azərbaycan xalqı rahat yaşasın, ölkəmizdə əmin-amanlıq, sabitlik, sülh olsun, tərəqqi olsun. Deyə bilərəm ki, bütün istiqamətlərdə, bütün sahələrdə 2004-cü il Azərbaycan üçün uğurlu il olubdur. Azərbaycan öz beynəlxalq mövqelərini möhkəmləndiribdir. İkitərəfli münasibətlərdə, regional əməkdaşlıq məsələlərində ölkəmiz böyük uğurlar əldə edibdir. Azərbaycanın dünyadakı mövqeləri güclənib, beynəlxalq təşkilatlarla əməkdaşlığımız möhkəmlənibdir.

Azərbaycan üçün, region üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də irəliləyiş əldə edilibdir. Artıq beynəlxalq ictimaiyyət bu məsələyə daha da ciddi yanaşır. ATƏT-in Minsk qrupu öz fəaliyyətini gücləndiribdir. Digər beynəlxalq təşkilatlar – Avropa İttifaqı, Avropa Şurası, Birləşmiş Millətlər Təşkilatı bu mə-

sələyə dair öz mövqelərini açıq şəkildə ortaya qoyurlar. Heç kəs üçün sirr deyil ki, 2004-cü ildə bu məsələdə dönüş yarandı. O mənada ki, Azərbaycanın ərazi bütövlüyü məsələsi artıq danışıqlar predmeti, danışıqlar mövzusu deyildir. Mən dəfələrlə bəyan etmişdim ki, Azərbaycan ərazi bütövlüyü məsələsində heç vaxt güzəştə getməyəcək, biz bu məsələni heç vaxt müzakirə etməyəcəyik. Danışıqlar yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında aparılmalıdır.

Mən çox şadam ki, beynəlxalq təşkilatlar, bu məsələ ilə bilavasitə məşğul olan qurumlar və geniş beynəlxalq ictimaiyyət artıq bu mövqeyi qəbul edir və bu mövqe daha da yüksək diqqətə layiqdir. Mən əminəm, biz hələ ki, bu məsələni yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında həll edə bilərik. Eyni zamanda, Azərbaycan öz Silahlı Qüvvələrini də gücləndirməlidir.

Bilirsiniz ki, mən bu il ərzində bölgələrə etdiyim səfərlər çərçivəsində hərbi hissələrə də baş çəkirdim, orada olan vəziyyətlə şəxsən maraqlanırdım, onu öyrənirdim, görürdüm. Görürdüm ki, bizim ordumuz günü-gündən güclənir. Bu məsələyə çox böyük diqqət göstəririk, orduya ayrılan xərclər artır. 2004-cü ilin büdcəsində artım nəzərdə tutulmuşdu və biz ilin ortalarında büdcəyə dəyişiklik edərək, orduya ayrılan xərclərin həcmini artırdıq. 2005-ci ilin büdcəsində artım təxminən 30 faiz civarında nəzərdə tutulubdur və biz ildən-ilə orduya ayrılan xərcləri artıracağıq. Bizim ordumuz daha da güclü olmalıdır, qarşıda duran bütün məsələləri həll etməlidir.

Biz Dağlıq Qarabağ məsələsini sülh yolu ilə həll etmək istəyirik və bu siyasətə sadiqik. Amma eyni zamanda, biz heç vaxt torpaqlarımızın itirilməsi ilə barışmayacağıq, öz doğma torpaqlarımızı istənilən yolla azad edəcəyik. Bunu etmək üçün ordumuz güclü olmalıdır. Ordunun güclü saxlanılması üçün, bu gücü yaratmaq üçün Azərbaycanın iqtisadiyyatı inkişaf etməlidir. Təsadüfi deyil ki, 2004-cü ildə iqtisadi inkişafa böyük diqqət göstərilirdi. Sosial-iqtisadi inkişaf, regional inkişaf proqramları – bütün bu proqramların məqsədi Azərbaycanı daha da güclən-

dirmək, iqtisadi potensialı artırmaq və beləliklə, ölkənin qüdrətini qaldırmaqdır.

Mən çox şadam ki, bu istiqamətdə də nəticələr göz qabağındadır. Ümumi daxili məhsul təxminən 10 faiz artıbdır. Azərbaycana böyük həcmdə investisiyalar qoyulur. Azərbaycana təxminən 4 milyard dollara qədər xarici sərmayə qoyulubdur. Regionlarda 110 mindən artıq yeni iş yeri açılıbdır. Bu da 8 milyon əhalisi olan ölkə üçün dünyada analoqu olmayan bir haldır. Çox şadam ki, mənim təşəbbüsümlə başlanan regional inkişaf proqramı öz bəhrəsini verir və artıq hamımız görürük ki, biz qarşıda duran bütün məsələləri həll etməyə qadirik, verilən bütün vədlərə sadiqik. 110 min iş yeri onu göstərir ki, 110 min insan işlə təmin olunubdur, ailəsinə maaş gətirir, əmək haqqı gətirir. Ailəsinə daha da böyük diqqətlə yanaşır. Eyni zamanda, bizim iqtisadi potensialımız güclənir. Gələn il də iş yerlərinin açılması üçün önəmli tədbirlər görüləcək və mən əminəm ki, biz verdiyimiz bütün vədləri icra edəcəyik.

Sosial məsələlərə böyük diqqət göstərilir. Bu il ərzində əmək haqları, pensiyalar, təqaüdlər, digər sosial ödəmələr, onların həcmi dəfələrlə artırılıbdır. Bu istiqamətdə işlər davam etdiriləcəkdir. Minimum əmək haqqının artırılması istiqamətində böyük işlər görülübdür. Bu yaxınlarda imzaladığım Sərəncama əsasən, 2005-ci ildən minimum əmək haqqı növbəti dəfə 25 faiz artacaqdır. Bu bizim siyasətimizin prioritet məsələsidir.

Mən dəfələrlə bəyan etmişəm ki, baxmayaraq, Azərbaycan iqtisadiyyatı bu gün bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir, biz sosial məsələlərə daim diqqət göstərməliyik. Əlbəttə, sosial cəhətdən ən az müdafiə olunan soydaşlarımızın – qaçqınlarımızın, köçkünlərimizin problemlərinin həlli bizim üçün çox vacibdir. Biz bu istiqamətdə də işlər görürük. Qaçqınlar, köçkünlər üçün yeni şəhərciklər salınır, Dövlət Neft Fondundan vəsait ayrılıbdır və biz bunu gələcəkdə də davam etdirəcəyik.

Neft Fondu Azərbaycanın iqtisadiyyatı üçün, iqtisadi potensialının güclənməsi üçün, sosial məsələlərin həlli üçün böyük rol oynayır. Bu Fond da xalqımızın ümummilli lideri Heydər

Əliyev tərəfindən yaradılmışdır və demək olar ki, bu gün Azərbaycanın valyuta ehtiyatları 1 milyard 800 milyon dollara bərabərdir. Neft Fondunun vəsaiti hesabına çoxlu sosial proqramlar həyata keçirilir. Əlbəttə, 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə neft strategiyasına başlanmasaydı, Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla tikilməsəydi, «Əsrin müqaviləsi» uğurla icra edilməsəydi, bu gün iqtisadi uğurlardan, ümumiyyətlə, danışmaq mümkün olmazdı. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan hərtərəfli inkişaf edir, Azərbaycan inamla inkişaf edir.

2005-ci ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinin başa çatması, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin uğurla tikilməsi bizə imkan verəcək ki, yaxın zamanlarda, bir neçə ildən sonra Azərbaycanın iqtisadi potensialı çox böyük həcmdə artacaqdır. Bu da bizə imkan verəcək ki, biz qarşıda duran bütün məsələləri, sosial problemləri, infrastruktur layihələrini, ümumiyyətlə, bütün məsələləri uğurla həll edək və doğma Vətənimizi daha da gücləndirək.

Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

2004-cü il mənim üçün çox vacib il idi. Prezident kimi, mənim birinci ilim olubdur. Mən çox çalışırdım əlimdən gələni edim ki, Azərbaycan xalqına, doğma Vətənə ləyaqətlə xidmət edim, öz əməyimlə, öz fəaliyyətimlə ölkəmizin güclənməsinə töhfəmi verim. Mən buna nə dərəcədə müvəffəq oldum, onu siz deyə bilərsiniz. Hər halda, çalışırdım və çalışacağam əlimdən gələni edim ki, Azərbaycan daha da güclənsin, ölkəmizin nüfuzu daha da artsın, Azərbaycan xalqı, Azərbaycan vətəndaşları daha da rahat, firavan yaşasınlar.

Bu gün eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Mən sizi bu münasibətlə də təbrik edirəm. Dünyada yaşayan bütün azərbaycanlıları birliyə, həmrəyliyə dəvət edirəm.

Sizi qarşıdan gələn Yeni il bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik, ailə səadəti arzulayıram.

Yeni iliniz mübarək olsun!

## RESPUBLİKA TƏHLÜKƏSİZLİK ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 yanvar 2005-ci il*

Yanvarın 3-də Prezident sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilmişdir.

İclasda ölkədə 2004-cü ildə ictimai-siyasi, iqtisadi, sosial və digər sahələrdə əldə olunmuş uğurlar, 2005-ci ildə qarşıda duran vəzifələr, görüləcək işlər və digər məsələlər müzakirə olunmuşdur.

Azərbaycan prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında çıxış edərək demişdir: *Çox şadam ki, 2004-cü ildə biz hamımız çox səmərəli işləmişik. Hərə öz yerində Azərbaycanı çox inamla idarə etmişik. Əsas odur ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti dəyişməz olaraq qaldı. Bu da gələcək uğurlarımızı təmin edəcək vacib bir amildir.*

Regionların sosial inkişafı üçün mühüm addımlar atıldığını, korrupsiyaya qarşı mübarizəyə dair qanun qəbul edildiyini vurğulayan dövlətimizin başçısı yeni iş yerlərinin açılması, dinamik inkişaf sahəsində işlərin uğurla davam etdiyini bildirmişdir.

Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində proseslərin əlverişli istiqamətdə getməsinə nail olduğunu vurğulayaraq demişdir: Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində yeni mərhələ, demək olar ki, artıq başlanmışdır. Praqa prosesi adlandırılan proses mövcuddur, mən artıq bəyan etmişəm, bu, mərhələli həll deməkdir, buna nail olmaq asan məsələ deyildir. Əlbəttə, mən demək istəmirəm ki, bu məsələ artıq öz həllini

tapıbdır. Danışıqlar gedir və bu danışıqları bizi qane edən məcrada inkişaf etdirmək üçün bütün vasitələrdən istifadə edirik. Geniş beynəlxalq ictimaiyyətin bu məsələyə cəlb edilməsi, başqa təşkilatlarda, yəni bu məsələ ilə bilavasitə məşğul olmayan təşkilatlarda məsələnin müzakirə edilməsi – baxmayaraq ki, ermənilər buna çox etiraz edirlər, çox güclü müqavimət göstərirlər – biz buna nail olduq və ümid edirəm ki, bu da danışıqların aparılmasına müsbət təsir edəcəkdir.

*Azərbaycan prezidenti 2005-ci ilin Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin başa çatacağı, regional layihələrin, o cümlədən nəqliyyat layihələrinin həyata keçirilməsi istiqamətində işlərin uğurla davam edəcəyi il olacağını bildirərək demişdir: 2005-ci ilə, demək olar ki, nikbinliklə baxmaq olar. Əlbəttə, bu bizim fəaliyyətimizdən, işimizdən asılı olacaqdır. Ümid edirəm ki, həmişə olduğu kimi, biz hamımız – hökumət, ümumiyyətlə, iqtidar bu işləri layiqincə aparacağıq.*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAMUEL ŞMİDƏ**

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 3 yanvar 2005-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV İCMASINA

Əziz həmvətənlər!

Sizi, Azərbaycanın bütün pravoslav xristianlarını İsa Məsihin mövludu ilə əlamətdar olan müqəddəs Milad bayramı münasibətilə səmimi təbrik edir, hər birinizə xoşbəxtlik, cansağlığı və əmin-amanlıq arzulayıram.

Bəşər tarixində yeni bir dövrün təməlini qoyan Milad günü bütün dini bayramlar kimi, mərhəmət duyğusu oyadan ruhu ilə əsrlər boyu dostluq, mehribanlıq və həmrəylik rəmzi olmuşdur.

Şərin dəf edilməsi, xeyrin zəfəri və azadlıq amalı ideyaları ilə aşılanmış bu bayram hər il bütün dünya xristianları tərəfindən böyük təntənə ilə qeyd olunur. Azərbaycanda ikiyüzillik tarixi olan pravoslav icması da öz dini dəyərlərinə sadiqliyini nümayiş etdirərək, insanlar arasında səmimiyyət və mehribanlığı artıran Milad bayramı günlərində xüsusi mərasimlər təşkil edir, bayramı layiqli şəkildə qeyd etmək üçün müxtəlif tədbirlər keçirir.

Unikal geosiyasi məkanda yerləşən Azərbaycanın tarixində və mədəniyyətində bütün dünya dinlərinin yüksək mənəvi dəyərləri əks olunmuşdur. Azərbaycanda tarixən formalaşmış tolerantlıq və dözümlülük cəmiyyətimizi səciyyələndirən gözəl ənənəyə çevrilmişdir.

Təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət–din münasibətləri konsepsiyasının uğurla həyata keçirilməsi nəticəsində bu ənənə daha da inkişaf edərək zənginləşmişdir.

Ölkəmizin bərabərhüquqlu vətəndaşları olan pravoslav xristianlar müstəqil Azərbaycan Respublikasının hərtərəfli inkişafı yolunda gedən proseslərdə fəal iştirak edirlər. İnanıram ki, Azərbaycanın daha güclü olması naminə ölkəmiz qarşısında du-

ran vəzifələrin yerinə yetirilməsində pravoslav həmvətənlərimiz bundan sonra da əllərindən gələni əsirgəməyəcəklər.

Qoy bu bayram hər birinizə uğurlar, ailələrinizə səadət və əmin-amanlıq gətirsin!

*Bayramınız mübarək olsun!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 yanvar 2005-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN «ROSSİYA» TELEKANALININ «SABAHIN XEYİR, RUSİYA!» PROQRAMI VERİLİŞİNƏ MÜSAHİBƏSİ

*8 yanvar 2005-ci il*

**J u r n a l i s t:** Sabahınız xeyir, İlham Heydər oğlu! Siz Yeni ilin sehrli günlərində ürəklərdə tutulan bütün arzuların çin olacağına inanırsınızmı?

**İ l h a m Ə l i y e v:** Düzünü desək, inanmıram.

**J u r n a l i s t:** Bəs nə üçün?

**İ l h a m Ə l i y e v:** Arzunun çin olması üçün bir neçə amil gərəkdir. Birincisi, arzu real olmalıdır. İkincisi, onun həyata keçirilməsinə çalışmaq lazımdır. Bu arzunu nə vaxt – gecə, Yeni il qabağı gecəsi və ya səhər niyyət etməyin fərqi yoxdur. Məqsədə çatmaq istəyi olduqda və bu məqsədin fantaziya deyil, tam real olması şərtilə, hər hansı diləyi həyata keçirmək mümkündür.

**J u r n a l i s t:** Sirr deyilsə, Azərbaycan prezidenti Yeni ildə nə arzulayır?

**İ l h a m Ə l i y e v:** Prezident elə bir vəzifədir ki, o, arzulamağa, təəssüflər olsun, çox az vaxt verir. Öz fəaliyyətimlə ölkənin rifahı, xalqın firavanlığı üçün yaxşı iş görmək, müstəqil dövlət kimi, Azərbaycanı inkişaf etdirmək, möhkəmləndirmək, insanların daha yaxşı yaşaması, ölkənin iqtisadi və siyasi cəhətdən daha müasir dövlətə çevrilməsi, dünyada daha möhkəm mövqelər tutması üçün arzular, niyyətlər, məqsədlər vardır. Bu mənim prezident kimi, məqsədim və Azərbaycan xalqı qarşısında məsuliyyətimdir. Şadam ki, cəmiyyətimizdə bu məsələ barə-

də tam konsensus vardır. Azərbaycan düzgün istiqamətdə çox inamla irəliləyir.

**J u r n a l i s t:** Cənab Prezident, Siz ötən ili Azərbaycanın Rusiya ilə qarşılıqlı münasibətləri baxımından necə qiymətləndirirsiniz?

**İ l h a m  Ə l i y e v:** Sizə belə bir fakt gətirə bilərəm. Zənnimcə, o, çox əlamətdardır. 2004-cü ildə biz Bakıdan Moskvaya və geriyə aviareyslərin sayına görə nəinki sovet dövrünün səviyyəsinə çıxmışıq, hətta onu ötüb keçmişik. Yadımdadır, 3-4 il əvvəl həftədə cəmi bir reys vardı. İndi isə təkcə Moskvaya 8-9 reys vardır. Mən hələ Rusiyanın digər şəhərlərinə uçuşları demirəm. Bu, uğurlu əməkdaşlığın başlıca göstəricilərindən biridir. İndi insanlar – biznesmenlər də, sadə adamlar da, siyasətçilər də bir-birinin yanına, bir-birinə qonaq gedirlər. Biz Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafından razıyıq və buna çox böyük əhəmiyyət veririk.

**J u r n a l i s t:** Cənab Prezident, sağ olun. Vaxt tapıb, suallarımıza cavab verdiyinizə görə Sizə təşəkkür edirik.

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Ananızın – Lüksemburqun böyük hersoginyası Jozefina Şarlottanın vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizə və bütün Lüksemburq xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*10 yanvar 2005-ci il*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YUŞŞENKOYA**

Hörmətli Viktor Andreyeviç!

Sizi Ukrayna Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirəm.

Əminəm ki, ənənəvi dostluq əlaqələrimiz, strateji tərəfdaşlıq xarakteri alan dövlətlərarası münasibətlərimiz xalqlarımızın mənafeləri naminə, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*11 yanvar 2005-ci il*

**FƏLƏSTİN MUXTARİYYƏTİNİN BAŞÇISI**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAHMUD ABBASA**

Zati-aliləri!

Fələstin Muxtariyyətinin Başçısı vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Əminəm ki, dostluq və əməkdaşlıq münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Fələstin xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*13 yanvar 2005-ci il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB STEPAN MESİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Xorvatiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Xorvatiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*17 yanvar 2005-ci il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə uğurlar arzulayıram.

Bu mübarək gündə islamın bir din kimi tamamlanıb insanlara bəxş edilməsi dünya sivilizasiyasının inkişafına həlledici təsir göstərmiş mühüm hadisə olmuşdur.

Müsəlman xalqları uzun əsrlər boyu bu İlahi hikmətdən faydalanaraq yaşayıb yaratmış, bəşəriyyətin mənəvi dəyərlər xəzinəsinə öz layiqli töhfələrini vermişlər.

Qurban bayramı həm də müsəlmanların bütün insanlara şəfqət və mərhəmət göstərmək, mürəkkəb məqamlarda düzgün mövqe seçmək, yüksək amallar naminə hər cür fədakarlığa hazır olmaq qabiliyyətini nümayiş etdirir.

Öz milli-mənəvi və dini dəyərlərinə həmişə sadiq olan Azərbaycan xalqı bütün dünya müsəlmanları ilə birlikdə müqəddəs Qurban bayramını qardaşlıq, humanizm və bərabərlik rəmzi kimi, hər il böyük sevinc və təntənə ilə qeyd edir.

Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini bu müqəddəs bayram günlərində ehtiramla yad edərək onlara Allahdan rəhmət diləyir, yaxınlarına və bütün xalqımıza səbir arzulayıram.

Bayram təbriklərimi bütün müsəlman bacı və qardaşlarımıza, o cümlədən ölkəmizin hüdudlarından kənarda yaşayan hər bir soydaşımıza çatdırıram. Qoy doğma Azərbaycanımızın çiçəklənməsi naminə bayram günlərində edilən arzu və diləklər gerçəkləşsin, mübarək Qurban bayramı hər obaya, hər evə ra-

hatlıq və əmin-amanlıq gətirsin, cəmiyyətdə həmrəyliyin daha da möhkəmlənməsinə öz töhfəsini versin!

*Bayramınız mübarək olsun!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 yanvar 2005-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB AVUL PAKİR CEYNULABDİN ƏBDÜL KALAMA**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və Sizin simanızda bütün Hindistan xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiqəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Hindistan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 19 yanvar 2005-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB MANMOHAN SİNQHƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Respublika günü münasibətilə Sizə və bütün Hindistan xalqına ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan – Hindistan əlaqələri daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 19 yanvar 2005-ci il*

**AVSTRALİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON UİNSTON HOVARDA**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Avstraliya günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq münasibətlərinin, ikitərəfli əlaqələrimizin inkişafı üçün səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 19 yanvar 2005-ci il*

# Q E Y D L Ə R

**1. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5–18,35,36,38,40,41,43,44,50,51,55,56,58, 62,63,64,66,69,70,71,73,74,76,79,80,81,82,84,95,97,98,102,111, 112,114,115,117,119,120,124,125,160,169,171,172,173,174,176, 177,182,186–188,189,195,198,208,210,250,251,253,257,262,264, 267,268,277,278,282,283,293,295,296,297,298,300,303,304,306,311,317.

**2. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 6,118, 155.

**3. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə

istifadəyə verilmişdir. – 6,8,24,32,66,97,106,119, 120,155,171,176,207,209,224,231,311,313.

**4. İpək Yolu**, Böyük İpək Yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 8,91,106,219.

**5. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza

mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 9,97.

**6. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 9,10,11,15,55,59,73–78,95,102–103,152–153,181–182, 185,207,208,245,247,318–319.

**7. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 12,21,24–25,32.

**8. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 12.

**9. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 12,25,29,32,34,41,52,60,69, 70,81,91,105, 107,123,125,126,134,136–137,138,139,140,157,158,166,179, 193,194,200,201,202,204,205,207,213,223,229, 243,244,297,306, 309,313.

**10. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 12,13, 25,32,136,200,206.

**11. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta– avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 13,200,205,206.

**12. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 13,123,136,166, 200,201.

**13. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 13,52,123,138–140,147,166,200,201,244.

**14. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi.

Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 17,304.

**15. SSRİ,** Sovet Sosialist Respublikaları İttifaqı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 17,196,202.

**16. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 2,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı – Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 19,20,141.

**17. Şeyx Məktum bin Rəşid** (1943–2006) – 2 dəfə Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri (1971–1979,1990–2006) olmuşdur. – 19.

**18. Zayid Bin Sultan əl-Nəhəyyan** (1949–2004) – Əbu–Dabi Əmirliyində 250 il hökmranlıq etmiş ən-Nəhəyya sülaləsinin 14-cü hakimi olmuşdur. – 19,20.

**19. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon

nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 21,36,37,233,234.

**20. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 21–23,59,190–232,302.

**21. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 42, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 24,98,106, 156,171,209,311.

**22. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 24–25.

**23. Monserrat Kabalye** (d.1933) – məşhur ispan opera müğənnisi, belkanto ustası. Norma («Norma» V.Bellini) partiyasının ən yaxşı ifaçısı. – 26.

**24. Azərbaycan Dövlət Opera və Balet Teatrı** – Respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1

iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 26.

**25. Anqola,** A n q o l a  R e s p u b l i k a s ı – Cənub–Qərbi Afrikada dövlət. Sahəsi 1246,7 min km$^2$, əhalisi 11,9 milyon nəfərdir. Paytaxtı Luanda şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. – 27.

**26. Duş Santuş,** J o z e  E d u a r d u (d.1942) – Anqolanın prezidenti və MPLA-nın sədri – 1975-ci ildən nazir vəzifələrində olmuşdur. Ordu generalıdır. Azərbaycan Neft və Kimya İnstitutunda (Azərbaycan Dövlət Neft Akademiyası) təhsil almışdır. – 27.

**27. NATO (**Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 28–29,193,198.

**28. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderlandiya siyasi xadimi. – 28–29.

**29. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 28,198.

**30. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 10442 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 30–31, 238–239.

**31. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 30,31.

**32. Stiven Mənn –** amerikan diplomatı. 2001–2009-cu illərdə ABŞ Dövlət katibinin köməkçisi. 2004–2006-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri. – 32.

**33. Rino Harniş** – diplomat. 2003–06-cı illərdə Azərbaycanda ABŞ-ın Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 32.

**34. Əfqanıstan,** Əfqanıstan İslam Dövləti – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və 2 tabe mərkəzi mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 33.

**35. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. Kərzayi Əfqanıstanı 200 il idarə etmiş tanınmış Populzay qəbiləsindən olan puştu klanının nümayəndəsidir. – 33.

**36. BMT-nin «Ümumdünya Ərzaq Proqramı»** – ərzaq məhsullarının istehsalında və ticarətdə beynəlxalq əməkdaşlığı koordinasiya etmək məqsədilə BMT-nin tərkibində yaradılmış orqan. 1975-ci ildən fəaliyyət göstərir. Katibliyi Roma şəhərindədir. – 34–35.

**37. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil qərargahı Maniladadır (Filippin). Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük auksionerləri Yaponiya, ABŞ, Çindir. – 36–37.

**38. Tadao Çino (1934–2008) –** 1999–2005-ci illərdə Asiya İnkişaf Bankının prezidenti olmuşdur. – 36–37.

**39. Azərbaycan Elmlər Akademiyası** – respublikanın ali elm ocağı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarca elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 38.

**40. Yusif Məmmədəliyev adına Neft Kimyası Prosesləri İnstitutu** (NKPİ) – elmi-tədqiqat müəssisəsi, Bakıdadır. 1959-cu ildə yaradılmışdır. İnstitutda əsasən, neft kimyası, neft emalı texnologiyasının təkmilləşdirilməsi, neft məhsullarının keyfiyyətinin yüksəldilməsi, neftin səmərəli emalı üsullarının işlənib

hazırlanması və sənayeyə tətbiq edilməsi sahəsində tədqiqatlar aparılır. İnstitutun işləyib hazırladığı onlarca kimyəvi proses yalnız respublikada deyil, xarici ölkələrin neft və kimya sənayesində də geniş tətbiq edilir. – 38–39.

**41. Astara rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib Lənkəran rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Cənubda və qərbdə İranla həmsərhəddir. Sahəsi 616 $km^2$, əhalisi 87,4 min nəfərdir. – 40–47,65.

**42. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – gömrük xidməti general–polkovniki. 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 46.

**43. İsmət Abasov,** İ s m ə t D u r s u n o ğ l u (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008-ci ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 47.

**44. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 $km^2$, əhalisi 146,9 min nəfərdir. – 48–53,65.

**45. Lənkəran Dövlət Dram Teatrı,** N ə c ə f b ə y V ə - z i r o v a d ı n a – XIX əsrin ortalarından Lənkəranda həvəskar tamaşalar göstərilmiş, 1905-ci ildə H.Ərəblinskinin iştirakı ilə N.Vəzirovun «Müsibəti Fəxrəddin» pyesi oynanılmışdır. Keçən əsrin 30–40-cı illərində burada dram teatrı, sonralar xalq teatrı fəaliyyət göstərmişdir. İndiki Lənkəran Dövlət Dram Teatrı 1973-cü ildə yaradılmışdır. Repertuarına Azərbaycan və xarici ölkə dramaturqlarının əsərləri daxildir. – 48,49.

**46. Masallı rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 292 km$^2$, əhalisi 178,8 min nəfərdir. – 54–61,65.

**47. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 55,133–134,157–158,263,302.

**48. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 55,96–101,104–107,124–126,129–130,155,203,209, 223,224,248,256–257.

**49. NATO Parlament Assambleyası (NATO PA)** – 1955-ci ildə yaradılmışdır. NATO PA Şimali Atlantika İttifaqının konsultativ parlamentlərarası təşkilatı ilə birgə fəaliyyət göstərir. NATO PA Şimali Atlantika İttifaqının bütün üzv – dövlətlərin qanunverici orqanları, NATO və onun üzv ölkələrinin parlamentləri arasında əməkdaşlıq əlaqələri yaradır.

NATO PA-da NATO-nun 28 üzv dövlətinin 257 nümAyəndəsi var. Assambleyanın rəhbər orqanı Daimi Komitetdir. Onun tərkibinə hər bir nümayəndə heyətinin rəhbəri daxildir.

«Soyuq müharibə»yə son qoyulduqdan sonra Assambleya Mərkəzi və Şərqi Avropa, həmçinin başqa ölkələrlə, NATO ilə sıx əlaqə yaratmağa çalışır. Hazırda Assambleyanın prezidenti Almaniyadan Karl A. Lamersdir. Mənzil-qərargahı Brüsseldədir. – 60.

**50. Cəlilabad rayonu** (*1967-ci ilədək Astraxanbazar rayonu*) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Qərbdə İranla həmsərhəddir. Sahəsi 1441 km$^2$, əhalisi 175,9 min nəfərdir. – 62–66,65.

**51. İslam Rzayev** (d.1934–2006) – Azərbaycan Respublikasının Xalq artisti, muğam ifaçısı. Uzun müddət Azərbaycan Dövlət Filarmoniyasında və «Azkonsert»də çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 67.

**52. Ramazan bayramı –** müsəlman aləmində oruclua bitəndən sonra keçirilən bayram. Qurani-kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. Bu bayram bir fərdin deyil, bütün cəmiyyətin mənəvi sevinci, bu həyəcanın hamıya çatması, bütün müsəlmanları qəlbdən qardaş sanmaqdır. – 68–72,79–82,93–94.

**53. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 69,147,148.

**54. Sankt-Peterburq** – Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. 1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. – 73–78,250.

**55. Valentina Matviyenko,** V a l e n t i n a İ v a n o v n a (d.1949) – Rusiya dövlət xadimi. 1998–2003-cü illərdə Rusiya Federasiyası Baş nazirinin birinci müavini, 2003-cü ildən Sankt-Peterburqun qubernatoru. – 73–78.

**56. P u t i n V l a d i m i r V l a d i m i r o v i ç** (d.1952) – 2000–08-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 73,207,208.

**57. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti – YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək; Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək; Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq məqsədidir.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası fəaliyyət göstərir. Fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 74,102,182,306.

**58. 1993-cü il iyun hadisələri –** Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, xalqın tələbilə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 82,197.

**59. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı

idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə, 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 83,196,322.

**60. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının sədri (Fələstin dövlətinin prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 83,322.

**61. Yasir Ərəfat** (1929–2004) – 1969-cu ildən Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri, 1996-cı ildən Fələstin milli administrasiyasının rəhbəri və Fələstin hərbi qüvvələrinin Baş komandanı olmuşdur. Nobel mükafatı laureatıdır. – 83.

**62. Livan,** L i v a n  R e s p u b l i k a s ı – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km$^2$, əhalisi 3,8 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. İnzibati cəhətdən 5 muhafazaya bölünür. Dövlət başçısı prezidentdir. Qanunvericilik orqanı birpalatalı parlamentdir. – 86.

**63. Emil Ləhhud** (d.1936) – 1998–2007-ci illərdə Livanın prezidenti olmuşdur. – 86.

**64. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 87.

**65. Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991–95-ci illərdə Polşa Seyminin deputatı, 1995–2005-ci illərdə Polşa Respublikasının prezidenti olmuşdur. – 87.

**66. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 2530 min nəfərdir. İnzibati ərazisi 26 rayona (qəza) bölünür. Dövlət

başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 88.

**67. Vayra Vike–Freyberq** (d.1937) – Latviya dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının prezidenti. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. – 88.

**68. Oman,** O m a n  S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 212,4 min $km^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı Məskət şəhəridir. – 89.

**69. Qabus Bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan Bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. Qabus öz administrasiyasını müdhiş korrupsionerlərdən təmizləmiş, əhalinin həyat səviyyəsini xeyli qaldırmışdır. – 89.

**70. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 91,92,106,133,134, 166,248.

**71. TRASEKA,** T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i -z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 92,210.

**72. Q u r a n i – Ş ə r i f ,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 93.

**73. ORT** – Rusiya İctimai Televiziyası. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB -də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 95.

**74. İTAR** – **TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 95.

**75. Qusman Mixail Solomonoviç** (d.1950) – jurnalist. İTAR–TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. – 95.

**76. Ümid körpüsü,** H ə s r ə t k ö r p ü s ü – Araz çayı üzərində körpü (uz. 286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nin keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. – 97.

**77. Mixail Davıdov** (d.1947) – Rusiya Onkologiya Elmi Mərkəzinin direktoru. Mixail Davıdov Rusiyada və xaricdə elmi və praktiki fəaliyyətində ağciyər xərçənginin, qida borusu, mədə,

divararası şişlərin yeni və təkmilləşmiş üsulla əməliyyat edilməsində görkəmli alim kimi tanınmışdır.

M.Davıdov REA-nın və Rusiya Tibb Elmləri Akademiyasının və bir sıra xarici ölkə akademiyalarının akademikidir. – 102–103.

**78. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 103,161,181–182,250–251, 278.

**79. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 105,256.

**80. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. P.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuş-

dur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində AKP təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 105,256.

**81. Mavritaniya,** Mavritaniya İslam Respublikası – Cənub–Qərbi Afrikada dövlət. Sahəsi 1030,7 min km$^2$, əhalisi 2,3 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşotdur. – 108.

**82. Müaviyə Uld Sidi Əhməd Təyya** (1941–2005) – 1981–84-cü illərdə Baş nazir, 1984–2005-ci illərdə Mavritaniyanın prezidenti olmuşdur. – 108.

**83. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 109.

**84. Alfred Moisiu (**d.1929) – Albaniya dövlət və siyasi xadimi. 2002-ci ildən Albaniyanın prezidentidir. – 109.

**85. Bosniya–Hersoqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikası tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında şaziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə, Birləşmiş Bosniya–Hersoqovinadan ibarət federativ respublika yarandı. – 110.

**86. Süleyman Tiniç** (d.1951) – Bosniya siyasi xadimi, hakim Demokratik Hərəkat Partiyasının yaradıcılarından biri. 2007–2008-ci illərdə Bosniya–Hersoqovina Rəyasət Heyətinin sədri olmuşdur. – 110.

**87. Neft Daşları** – Abşeron yarımadasından 42 km cənub–şərqdə, açıq dənizdə polad dirəklər üzərində salınmış «neft» şəhəri. Bu ərazi oradakı daşların (təqribən 20 ədəd) bəzilərində neft-qaz nişanələrinin olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft Daşları rayonunda geoloji kəşfiyyat işlərinə 1946-cı ildən başlanmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahilə nəql edilir. – 111–123.

**88. Yavər Camalov** (d.1949) – mühəndis. Azneft İstehsalat Birliyinin Baş direktoru olmuşdur. Hazırda Müdafiə Sənayesi naziridir. – 111–115.

**89. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t  B a ğ ı  o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 111–115.

**90. Natiq Əliyev,** N a t i q  A g a ə l i  o ğ l u (d.1947) – 1993–2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 111–115,221–224.

**91. Ömər Eldarov,** Ö m ə r  H ə s ə n  o ğ l u (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının müxbir üzvü. Heykəltəraşlığın müxtəlif janrlarında (monimental abidə, portret, büst, qorelyef və

s.) əsərlər yaradır. 1995-ci ildən Milli Məclisin deputatıdır. Azərbaycan Respublikasının «İstiqlal»ordeni ilə təltif olunmuşdur. – 112.

**92. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 113,120, 121,122,171,216,221–224,226,228, 263.

**93. İqtisadi Əməkdaşlıq Təşkilatı**. – Qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 135.

**94. Asxat Orazbay** (d.1960) – fövqəladə və səlahiyyətli səfir. 1992-ci ildən Qazaxıstan Xarici İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə çalışır. 2004–2006-cı illərdə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi olmuşdur. – 135.

**95. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil–qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 136–137.

**96. Rumıniya** – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 142,240.

**97. İon İliyesku** (d.1930) – Rumıniyanın siyasi və dövləт xadimi. 1989-cu ildə N.Çauşesku rejimi devrildikdən sonra ölkənin və dövləтin büтün məsuliyyəтini öz üzərinə göтürən Milli Dirçəliş Cəbhə Şurasına başçılıq edib. Azərbaycan Respublikasının «İsтiqlal» ordeni ilə тəlтif edilmişdir. 1992–96 və 2000–2004-cü illərdə Rumıniyanın prezidenтi olmuşdur. – 142.

**98. Tailand,** T a i l a n d  K r a l l ı ğ ı – Cənub–Şərqi Asiyada dövləт. Sahəsi 514 min km$^2$, əhalisi 60 milyon nəfərdir. Dövləт başçısı kraldır. Qanunverici orqanı ikipalaтalı Milli Assambleyadır. İnzibaтi cəhəтdən 73 çanqvaтa (əyaləтə) bölünür. Payтaxтı Banqkok şəhəridir. – 143,144.

**99. Fumibol Adulyadea** (d.1927) – 1946-cı ildən Tailand prezidenтi. – 143.

**100. Qəтər,** Q ə т ə r  d ö v l ə т i – Cənub–Qərbi Asiyada dövləт. Sahəsi 11 min km$^2$, əhalisi 59 min nəfərdir. Dövləт başçısı əmirdir. Payтaxтı Dohə. – 145–151.

**101. Həməd Bin Xəlifə əl-Tani** (d.1952) – 1995-ci ildən Qəтər əmiri, 1997-ci ildə regionda – ilk dəfə Qəтərdə qadınlara seçkilərdə işтirak eтmək hüququ verdi. – 145–151.

**102. Elman Araslı** (d.1933) – ərəbşünas. Filologiya elmləri namizədi. Xarici ölkələrdə diplomaтik vəzifələrdə çalışmışdır. Moskvada Soveт Dosтluq cəmiyyəтləri və Xarici Ölkələrlə Mədəni Əlaqələr Birliyi Yaxın və Orтa Şərq ölkələri şöbəsinin müdiri işləmişdir. Əvvəl Səudiyyə Ərəbisтanı Krallığında, hazırda isə Qəтərdə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyəтli səfiridir. – 145.

**103. Ekmələddin İhsanoğlu** (d.1946) – Türk diplomaтı, тarix elmləri dokтoru, professor. Ana Vəтən Parтiyasının üzvü. 2005-ci ildən İslam Konfransı Təşkilaтının Baş kaтibidir. – 147.

**104. Mixail Margelov** (d.1964) – hazırda Rusiya Federasiya Şurasının Beynəlxalq Məsələlər üzrə Komiтəsinin sədridir. Mixail Margelov AŞ PA-da Avropa demokraтlar qrupunun üzvü və sədri olmuşdur. – 152–153.

**105. Avropa Şurasının Parlamenт Assambleyası** (AŞ PA) – 2004-cü ildə тəşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 depuтaтı fəaliyyəт gösтərir. – 152–153.

**106. Finlandiya,** Finlandiya Respublikası – Şimali Avropada dövləт. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibaтi ərazisi 11 lyaniyə (əyaləтə) bölünür. Aland adaları isə muxтar ərazidir. Dövləт başçısı prezidenт, qanunverici orqanı parlamenтdir. Payтaxтı Helsinki şəhəridir. – 154.

**107. Tarya Halonen** (d.1943) – Finlandiyanın icтimai və siyasi xadimi. Müxтəlif illərdə – Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq eтmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidenтidir. – 154.

**108. *bp,*** «Briтiş Peтroleum», – dünyanın ən iri nefт şirkəтlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə nefтin kəşfiyyaтı, çıxarılması, emalı və saтışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyəт gösтərir. Hazırda ABƏŞ-in əsas operaтorudur. – 155,231–232.

**109. «*bp*– Azərbaycan»** – nefт şirkəтi. 1994-cü ildə yaradılmışdır. Hazırda ABƏŞ-in əsas operaтorudur. – 155–156.

**110. Devid Vuqvord** (d.1946) – nefтçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkəтinin prezidenтi. Bir çox ölkələrdə – Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da «*bp*» şirkəтinin nümayəndəsi vəzifələrində işləmişdir. İngilтərənin «Müqəddəs

Mixail və Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 155–156.

**111. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 155,221–224, 231,245.

**112. Keniya,** K e n i y a R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət. Sahəsi 582,6 min km$^2$, əhalisi 29,5 milyon nəfərdir. İnzibati ərazisi 7 əyalətə və paytaxt mahalına bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Nayrobidir. – 159.

**113. Kibaki Mvai** (d.1931) – Keniya dövlət və siyasi xadimi. 2002-ci ildən Keniya prezidenti. – 159.

**114. Burkina–Faso –** (1984-cü ilə qədər Yuxarı Volta Respublikası) – Qərbi Afrikada dövlət. Sahəsi 274,4 min km$^2$, əhalisi 10,6 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Xalq Deputatları Assambleyasıdır. Paytaxtı Uaqaduqu şəhəridir. – 162.

**115. Bleis Kompaore** (d.1951) – Burkina–Fasonun dövlət və siyasi xadimi. 1987-ci ildən Burkina-Fasonun prezidenti. – 162.

**116. Bəhreyn,** B ə h r e y n d ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 0,69 min km$^2$, əhalisi 598 min nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manamadır. – 163.

**117. Şeyx Həməd Bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2001-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 163.

**118. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı – prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 164.

**119. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 164.

**120. Niger,** Niger Federativ Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 103,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 165.

**121. Mamadu Tandca** (d.1938) – 1999-cu ildən Nigerin prezidenti. – 165.

**122. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 173,177,194,225,226,267,310,311.

**123. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km$^2$, əhalisi 101,6 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 173.

**124. Nəbi Xəzri,** Nəbi Ələkbər oğlu Babayev (1924–2007) – Azərbaycanın Xalq şairi, dramaturq, ictimai xadim

. Əsərlərində müasirlərimizin zəngin mənəvi aləmi, təəssübkeşlik, doğma Vətən təbiətinin gözəllikləri tərənnüm edilir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyinin katibi, Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. «Azərbaycan Dünyası» Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti, Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 183–184,295.

**125. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 185.

**126. Vahid Ələkbərov**, Vahid Yusif oğlu (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan «LUKoyl»un prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 185.

**127. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 186–188.

**128. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 186–188.

**129. Murtuz Ələsgərov,** Murtuz Nəcəf oğlu (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor.

Respublikanın əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 186–188.

**130. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 186–188.

**131. London** (Böyük London) – Böyük Britaniyanın paytaxtı. Dünyanın ən böyük şəhərlərindən və limanlarından biri. Əhalisi 7 milyon nəfərdir. İdarəçilik funksiyalarının çoxunu Böyük Londonun Bələdiyyə Şurası və dairə şuraları həyata keçirir. XI əsrin sonu XII əsrin əvvəlində London rəsmən İngiltərənin paytaxtı oldu. – 190–232,242.

**132. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi, prezident

İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krasnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talessimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığına və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 190,192,227–228, 241,289.

**133. E l i z a b e t II** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqin ölümündən sonra taxt-taca sahib olmuşdur. – 191.

**134. Toni Bleyr,** Entoni Çarlz Linton (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 191,229.

**135. Ceff Hun** (d.1953) – Böyük Britaniya siyasətçisi. Keçmiş Müdafiə naziri. Nəqliyyat və hərbi məsələlər üzrə Dövlət katibi də olmuşdur. – 193.

**136. Lord Hörd**, Duqlas Hörd (d.1930) – «Chatham House» klubunun Baş məsləhətçisi və keçmiş prezidenti. Hazırda klub sədrinin müavini, Bestminster abbatlığının başçısıdır. O, 1974–97-ci illərdə deputat olmuş, 16 il isə hökumətin tərkibində – Daxili İşlər naziri (1985–89) və Xarici İşlər naziri (1989-95) işləmişdir. Lord Hörd, həm də məşhur yazıçıdır. 1998-ci ildən Lord Hörd bədii ədəbiyyat üzrə Bukkerov mükafatının sədridir. –195–214.

**137. İraq,** İraq Respublikası – Cənub–Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 196.

**138. Abxaziya** – Gürcüstan Respublikasının tərkibində Muxtar Respublika. 1921-ci ildə təşkil olunmuşdur. Sahəsi 8,6 min km$^2$, əhalisi 501 min nəfərdir. Paytaxtı Suxumi şəhəridir. – 202.

**139. Cənubi Osetiya** – Cürcüstan Respublikasının tərkibində Cənubi Osetiya Muxtar Vilayəti. 1922-ci ildə yaradılmışdır.

Sahəsi 3,9 min km$^2$, əhalisi 99 min nəfərdir. Mərkəzi Sxinvali şəhəri. – 202.

**140. Dövlət Duması** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 207,245.

**141. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 215–226.

**142. Abid Şərifov,** Abid Qoca oğlu (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. – 221–224,301–303.

**143. Con Braun** (d.1948) – «Britis Petroleum» şirkətinin prezidenti. 1969–83-cü illərdə Alyaskada, Nyu-Yorkda, Londonda neft və qazın çıxarılması və kəşfiyyatı istehsalı ilə məşğul olan böyük şirkətlərdə müxtəlif məsul vəzifələrdə çalışmışdır.

Bütün tapşırıqları əla yerinə yetirdiyinə görə 36 yaşında «*bi-pi*» qrupunun xəzinədarı və «*bi-pi*» şirkətinin Finance İnternationalının Baş direktoru təyin edilir. 1987-ci ildən isə Standard Oil of Ohio «*bi-pi*» ilə işbirliyindən «*bi-pi*» Amerika təmsilçisi üzrə maliyyə üzrə vitse prezidenti və Standard Oil of Ohionun başçısı təyin edilir. – 231–232.

**144. Dzünitiro Koidzumı** (d.1942) – 2001–2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 233.

**145. Akihiтo** (d.1933) – 1989-cu ildən Yaponiya imperaтoru. İmperaтor Hirohiтonun oğlu. – 234.

**146. Moldova,** Moldova Respublikası – Cənub–Şərqi Avropada dövləт. Sahəsi 33,7 min $km^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibaтi ərazisi 40 rayona bölünür. Dövləт başçısı prezidenт, qanunverici orqanı birpalaтalı parlamenтdir. Payтaxтı Kişinyov şəhəridir. – 236–237.

**147. Troyan Basesku (d.1951) –** 2004-cü ildən Rumıniya prezidenтi. – 240.

**148. Leyla Əliyeva,** Leyla İlham qızı (d.1986) – «Baku» jurnalının Baş redakтoru, Heydər Əliyev Fondunun viтse-prezidenтi, Azərbaycan Respublikasının prezidenтi İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövləт Beynəlxalq Əlaqələr İnsтiтuтunun magisтraтurasında oxumuş və bu insтiтuтda oxuyan azərbaycanlı тələbələrin nümayəndəsi kimi fəaliyyəт gösтərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 241.

**149. İran,** İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövləт. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Payтaxтı Tehran şəhəridir. İnzibaтi cəhəтdən 24 osтana bölünür. Ali qanunverici hakimiyyəт orqanı 4 il müddəтinə seçilən Xalq Şurası Məclisidir. Hökuməтi Baş nazir тəşkil, prezidenт isə тəsdiq edir. – 243,244,254–255,258–259.

**150. Ukrayna,** Ukrayna Respublikası – Cənub–Şərqi Avropada dövləт. Ərazisi 603,7 min $km^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın тərkibinə 24 vilayəт və Krım

Respublikası daxildir. Dövləт başçısı prezidenт, qanunverici orqanı – Ali RADA-dır. Payтaxтı Kiyev şəhəridir. – 247,321.

**151. Mixail Kroтov** (d.1950) – 1992-ci ildən MDB Parlamenтlərarası Assambleyası Şurası kaтibliyinin başçısı, 1994-cü ildən isə Baş kaтibidir. –250–251.

**152. «Tavriya» sarayı** – Sankт-Peтerburqda rus klassisizmi abidəsi (1783–89, memar İ.J.Sтarov), knyaz Q.A.Poтyomkin üçün тikilmişdi. Tənтənəli qəbullar və bayram şənlikləri üçün nəzərdə тuтulan Tavriya sarayı üç müsтəqil korpusa bölünür. Saray səkkizbucaqlı günbəzli zaldan və ikiqaт sırasüтunlu böyük qalereyadan ibarəтdir. – 251.

**153. Səudiyyə Ərəbisтanı,** Səudiyyə Ərəbisтanı Krallığı – Cənub–Qərbi Asiyada dövləт. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 18,4 milyon nəfərdir. Payтaxтı ər-Piyaddır. İnzibaтi cəhəтdən 4 əyaləтə bölünür.

Səudiyyə Ərəbisтanı müтləq тeokraтik monarxiyadır. Dövləт başçısı kraldır. Ölkədə büтün hakimiyyəт krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral тəyin edir və ona başçılıq edir. Hökuməтin nəzdində Məşvərəт Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbisтanındadır. – 252–253.

**154. Fəhd Bin Əbdüləziz,** Al Səud (1922–2005) – 1982–2005-ci illərdə iki müqəddəs ocağın xidməтçisi və Səudiyyə Ərəbisтanının kralı. Azərbaycan Respublikasının «İsтiqlal» ordeni ilə тəlтif olunmuşdur. – 252.

**155. Xaтəmi,** Seyid Məhəmməd Xaтəmi (d.1943) – İranın siyasi, icтimai və dövləт xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyəт və İslam Orijenтasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenтi olmuşdur. – 258,259.

**156. Siyəzən rayonu** – Azərbaycan Respublikasında inzibatı rayon. 1940-cı ildə təşkil edilmişdir. 1959-cu ildə ləğv olunaraq ərazisi Dəvəçi rayonunun tərkibinə qatılmış, 1992-ci ildə yenidən bərpa edilmişdir. Sahəsi 703,4 km$^2$, əhalisi 32,2 min nəfərdir. – 262–269.

**157. Dəvəçi (**hal-hazırda «Şabran»**)**– Azərbaycan Respublikasında inzibatı rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Abşeron rayonuna verilmişdir. 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1739 km$^2$, əhalisi 59,9 min nəfərdir. – 263.

**158. Xaçmaz** – Azərbaycan Respublikasında inzibatı rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1045 km$^2$, əhalisi 148,4 min nəfərdir. – 263.

**159. Quba** – Azərbaycan Respublikasında inzibatı rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 km$^2$, əhalisi 140,0 min nəfərdir. – 263.

**160. Qusar** (1938-ci ilədək Hil rayonu) – Azərbaycan Respublikasında inzibatı rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1542 km$^2$, əhalisi 83,0 min nəfərdir. – 263.

**161. Nepal,** N e p a l  K r a l l ı ğ ı – Cənubi Asiyada dövlət. Sahəsi 140,8 min km$^2$, əhalisi 15 milyondan çoxdur. İnzibatı cəhətdən 14 zonaya bölünür. Nepal konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqan Milli Pançayatdır. Paytaxtı Katmandudur. – 270.

**162. Qvanendra Bir Bikram Şah Dev** (d.1947) – Nepal kralı. 2006-cı ildə ölkədə olan bir sıra etiraz tətillərinə görə Nepal kralı ölkənin bir çox vəzifələrindən məhrum edilmişdir. – 270.

**163. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 271–272.

**164. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon $km^2$, əhalisi 953 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 273,326,327.

**165. Əbdül Kalam** (d.1931) – 2002–2007-ci illərdə Hindistan Respublikasının prezidenti. Əbdül Kalam Hindistanda raket və yerətrafı peyk proqramının yaradıcılarındandır. 1980-ci ildə onun başçılığı ilə birinci hind SLV–3 yerətrafı süni peyki kosmosa göndərilmişdir. – 273,326.

**166. İndoneziya,** İndoneziya Respublikası – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min $km^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 274.

**167. Susilo Bambanq Yudhoyono** (d.1949) – İndoneziya dövləт və siyasi xadimi; 2004-cü ildən İndoneziya prezidenтidir. – 274.

**168. Şri-Lanka,** Şri-Lanka Sosialisт Demo-kraтik Respublikası – Cənubi Asiyada dövləт. Milləтlər Birliyinə daxildir. Sahəsi 65,6 min km$^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibaтi ərazisi 25 əyaləтə bölünür. Dövləт və hökuməт başçısı prezidenт, qanunverici orqanı parlamenтdir. Payтaxтı rəsmi olaraq Cayavar Denapurakoттe, fakтiki isə Kolombodur. – 275.

**169 Çandrika Kumaraтunqa** (d.1945) – 1994-cü ildə Şri-Lankanın Baş naziri, 1994–2005-ci illərdə isə Şri-Lankanın prezidenтi olmuşdur. Onun aтası və anası (1956–1959) Şri–Lankanın Baş nazirləri olmuşlar. – 275.

**170. Maldiv,** Maldiv Respublikası – Cənubi Asiyada dövləт, Maldiv adalarında. Sahəsi 298 min km$^2$, əhalisi 266 min nəfərdir. Milləтlər Birliyinə daxildir. Dövləт və hökuməт başçısı prezidenт, qanunverici orqanı birpalaтalı Xalq Şurasıdır. – 276.

**171. Məmun Əbdül Qəyyum** (d.1937) – 1978–2008-ci illərdə Maldiv adalarının prezidenтi. Dikтaтor üsul-idarəsinə görə həmişə тənqid edilmişdir. – 276.

**172. Naxçıvan Muxтar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Soveт Sosialisт Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxтar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxтar Soveт Sosialisт Respublikası, 1990-cı ildən Naxçıvan Muxтar Respublikası) – Azərbaycan Respublikasının тərkibində muxтar dövləт.

Muxтar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibaтi rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli) bölünmüşdür; 4 şəhəri (Nax-

çıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 277.

**173. Sudan,** Sudan Respublikası – Şimal–Şərqi Afrikada dövlət. Sahəsi 2,5 milyon km$^2$, əhalisi 31 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartumdur. – 280.

**174. Ömər Həsən əl-Bəşir** (d.1944) – Sudan hərbi və dövlət xadimi, prezident. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyətə gəlmişdir. – 280.

**175. Kuba,** Kuba Respublikası – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11,1 milyon nəfərdir. Paytaxtı Havana şəhəridir. Dövlətin ali orqanı birpalatalı Milli assambleyadır. Dövlətin və hökumətin başçısı – Dövlət Şurasının sədridir. – 281.

**176. Fidel Kastro,** Kastro Rus (d.1926) – 1960–2008-ci illərdə Kuba Respublikası Dövlət Şurası və Nazirlər Sovetinin sədri, 1965-ci ildən Kuba KP MK-nin Birinci katibi və Kuba Silahlı qüvvələrinin Baş komandanı. 1953-cü ildə Batista diktaturasına qarşı silahlı üsyana başçılıq etmişdir. – 281.

**177. Əbülfəs Qarayev,** Əbülfəs Mürsəl oğlu (d.1956) – fəlsəfə elmləri namizədi. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse–prezidentidir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmişdir. – 282.

**178. Beynəlxalq Olimpiya Komitəsi (BOK)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un tərkibində 200 üzvü (70 ölkədən artıq) var idi. BOK-u 200-ə yaxın Milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 283,286,289.

**179. Fərid Mansurov,** F ə r i d S a l m a n o ğ l u (d.1982) – Yunan –Roma güləşi üzrə Əməkdar idman ustası. 2002-ci ildə dünya çempionatında ikinci yeri, 2004-cü il olimpiadasında isə birinci yeri tutmuşdur. 2007–08-ci illərdə isə dünya çempionu olmuş, Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 289.

**180. Faiq Qarayev** (d.1959) – SSRİ idman ustası, Azərbaycanın Əməkdar məşqçisi, Azərbaycanın «Əməkdar bədən tərbiyəsi və idman xadimi», 2002-ci ildən qadınlardan ibarət Milli yığma voleybol komandamızın Baş məşqçisi və Azərbaycan Voleybol Federasiyasının vitse-prezidentidir. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 289.

**181. Əkrəm Əylisli,** N a i b o v Ə k r ə m N ə c ə f o ğ- l u (d.1937) – Azərbaycan Respublikasının Xalq yazıçısı. Azərbaycan komsomolu və M.F.Axundov adına mükafatları laureatı, II çağırışı Milli Məclisin deputatı olmuşdur. Ə.Əylisli Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 295.

**182. Anar,** R z a y e v A n a r R ə s u l o ğ l u (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin deputatı və mədəniyyət məsələləri komissiyasının sədri, 1987-ci ildən Azər-

baycan Respublikası Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 295.

**183. Maqsud İbrahimbəyov,** M a q s u d M ə m m ə d i b- r a h i m o ğ l u (d.1935) – görkəmli nasir, dramaturq, ssenarist, ictimai xadim, Azərbaycan Xalq yazıçısı. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. Respublikada və xaricdə nəşr edilən onlarla povest və hekayələrin müəllifidir. Onun pyesləri keçmiş SSRİ məkanında onlarla teatrlarda tamaşaya qoyulmuşdur. Ssenariləri əsasında bir çox film çəkilmişdir. Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədridir. 1995-ci ildən Milli Məclisin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 295.

**184. Fərhad Xəlilov,** F ə r h a d Q u r b a n o ğ l u (d.1946) – Xalq rəssamı. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi. Azərbaycan Rəssamlar İttifaqının sədri. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 295.

**185. Səfər Əbiyev,** S ə f ə r A x u n d b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. – 300.

**186. Azərbaycan tarixi muzeyi** – 1920-ci ildə yaradılmışdır. Muzeyin müxtəlif fondlarında Vətən tarixini yaşadan 300 minədək maddi-mədəniyyət nümunəsi qorunur. Muzeyin kitabxanasında 80 mindən artıq XIX–XX əsrlərin əvvəllərində nəşr olunmuş nadir kitab, jurnal və qəzet toplanmışdır. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş materiallar qorunub saxlanılır. – 301–303.

**187. Nailə Vəlixanlı,** N a i l ə M ə m m ə d ə l i q ı z ı (d.1940) – tarixçi–şərqşünas alim. Tarix elmləri doktoru. MEA-

nın həqiqi üzvü və AMEA-nın vitse-prezidenti, Azərbaycan tarixi muzeyinin direktoru. Elmi əsərlərində Azərbaycanın orta əsrlər tarixinin mənbəşünaslıq problemləri, regionun Ərəb Xilafəti tərkibində mövqeyi, sosial-iqtisadi münasibətlər, siyasi-mədəni tarix və tarixi coğrafiya məsələlərinə aydınlıq gətirmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 301–303.

**188. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər, «millətin başçısı, atası», Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə, kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» borusunu çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 301–303.

**189. Azıx mağarası,** Azıx kahası – Azərbaycanda ən böyük karsт mağarası. Füzuli rayonundan 14 km şimal–qərbdə, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 m hündürlükdədir. Mağarada bir-biri ilə dar keçidlərlə birləşən 6 salon var. Ən böyüyü 3-cü salondur (sahəsi 104 $m^2$). Salonlar sтalakтiт və sтalaqmiтlərlə zəngindir.

Azıx mağarası Aşağı Paleoliт dövrünə aid nadir mağaralardan biridir. 1968-ci ildə Aşöl dövründə yaşamış ibтidai insanın çənə sümüyünün bir hissəsi тapılmışdır. Bu, Azərbaycanın qədim insanların formalaşdığı əraziyə daxil olduğunu sübuт edir. Azərbaycan ərazisində тəqribən milyon il bundan əvvəl yaşayış olduğunu sübuт edən Azıx mağarası arxanтropların və daha qədim adamların məskəni və ibтidai emalaтxanası olmuşdur. – 303.

**190. Azərbaycan Ədəbiyyaтı Muzeyi,** Azərbaycan Respublikası MEA Nizami adına Azərbaycan Dövləт Ədəbiyyaтı Muzeyi – 1945-ci ildə Nizaminin həyaт və yaradıcılığını əks eтdirən muzey kimi, Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyaтının inkişaf yolu əks eтdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, nadir kiтab, yazıçıların xaтirə əşyaları, porтreт, heykəl, illüsтrasiya, miniaтür, bədii işləmə və s. eksponaтlar nümayiş eтdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazma nüsxələri ən qiyməтli eksponaтlardır. Muzeyin qədim və orтa əsrlər Azərbaycan ədəbiyyaтı, 1919–20-ci illər Azərbaycan ədəbiyyaтı ekspozisiyaları və elmi fondlar, bədii тərтibaт, elmi-küтləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiyməтli əşya qorunub saxlanılır. –304–307.

**191. Rafael Hüseynov** (d.1955) – ədəbiyyaтşünas, publisisт. Azərbaycan Respublikası Milli Məclisinin depuтaтı, Nizami adına Ədəbiyyaт Müzeyinin direkтorudur. – 304–307.

**192. Fətəli Xan Xoyski (**1875–1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918–20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, Daxili İşlər, Ədliyyə və Xarici İşlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 304,305.

**193. Mikayıl Hüseynov,** M i k a y ı l Ə l ə s g ə r o ğ l u (1905–1992) – Azərbaycan memarı və memarlıq tarixçisi. Müasir Azərbaycan memarlığının banilərindən biri. Memarlıq doktoru, professor. Azərbaycan və SSRİ EA-nın həqiqi üzvü. M.Hüseynovun layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində, eləcə də Moskva, Düşənbə və s. yerlərdə yaşayış, ictimai və mədəni-məişət binaları tikilmişdir. Bakıda M.F.Axundov adına Milli Kitabxana, EA şəhərciyi kompleksi, Bakı metropoliteninin «Hərimanov», «Nizami», «Elmlər Akademiyası» stansiyaları Hüseynovun ən görkəmli əsərlərindəndir. M.Hüseynov Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı və Sosialist Əməyi Qəhrəmanıdır. – 304.

**194. Sadıq Dadaşov,** S a d ı q Ə l ə k b ə r o ğ l u (1905–1946) – Azərbaycan memarı, memarlıq tarixçisi. Azərbaycan memarlığının banilərindən biri. Professor. SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, Azərbaycan MEA-nın akademiki. SSRİ Dövlət mükafatı laureatı. Əsas işləri: Azərbaycan Politexnik İnstitutu, «Nizami» kinoteatrı, Azərbaycan Dövlət Konservatoriyası, Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi, Alimlər evi. Sadıq Dadaşov Azərbaycan memarlıq irsinin ilk elmi tədqiqatçısıdır. – 304.

**195. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist,

ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 304.

**196. Əlimərdan bəy Topçubaşov** (1865–1934) – Görkəmli hüquqşünas, siyasi və dövlət xadimi, diplomat, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri. Paris (Versal) sülh konfransında (1919–20) Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 305.

**197. Nəsib bəy Yusifbəyli,** U s u b b ə y o v N ə s i b b ə y Y u s i f o ğ l u (1881–1920) – Azərbaycanın görkəmli dövlət və siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü və 5-ci hökumət kabinələrinə başçılıq etmişdir.

Bakının Qırmızı ordu tərəfindən işğalından və ADP süqutundan sonra N.B. Usubbəyli faciəli surətdə qətlə yetirilir. – 305.

**198. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 306.

**199. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il

müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 315.

**200. Samuel Şmid** (d.1947) – İsveçrə dövlət və siyasi xadimi. 2005-ci ildən İsveçrə prezidenti. – 315.

**201. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 316.

**202. RTR, Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası** (ÜDTRVK) – 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişləri təşkil edir. 1998-ci il bazasında yaradılmış ÜDTRVK dövlət media holdinqı federal «Rossiya» və «Kultura» telekanalları, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradiokompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 318–319.

**203. Lüksemburq,** Böyük Lüksemburq Hersoqluğu – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 415 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar palatasıdır. Paytaxtı Lüksemburqdur. – 320.

**204. Anri** (d.1955) **–** 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 320.

**205. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 321.

**206. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,8 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 323.

**207. Mesiç Stepan** (d.1934) – hüquqşünas. 2000–08-ci illərdə Xorvatiya Respublikasının prezidenti. – 323.

**208. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zil-hiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahının bağışlanması günü kimi qeyd edirlər. – 324–325.

**209. Manmohan Sinqh** (d.1932) – 2005–2006,2006–2009-cu illərdə Hindistanın 14-cü Baş naziri olmuşdur. – 327.

**210. Avstraliya,** A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 7,7 milyon km$^2$, əhalisi 18,3 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 328.

**211. Con Hovard** (d.1939) – 1996-cı ildən Avstraliyanın Baş naziri. Avstraliya Liberal Partiyasının lideri. – 328.

## Şəxsi adlar gösтəricisi


| | |
|---|---|
| **Abasov İsməт** | – 47 |
| **Adulyadea Fumibol** | – 143 |
| **Akihiтo** | – 234 |
| **Aqo Pieтro** | – 157–158 |
| **Al Saud Fəhd** | – 252 |
| **Anar** | – 295 |
| **Anderson Donald** | – 194 |
| **Anri** | – 320 |
| **Araslı Elman** | – 145 |
| **Aтaтürk Musтafa Kamal** | – 257 |
| **Bardakoğlu Əli** | – 256–257 |
| **Basesku Troyan** | – 240 |
| **Bin Səid Qabus** | – 89 |
| **Bleyr Toni** | – 191,229 |
| **Boniver Marqariтa** | – 133–134 |
| **Braun Con** | – 231–232 |
| **Buş Corc** | –24–25 |
| **Camalov Yavər** | – 111–115 |
| **Caparidze Tedo** | – 271–272 |
| **Cəfər Əli Həsən** | – 252–253 |
| **Çino Tadao** | – 36–37 |

| | |
|---|---|
| **Dadaşov Sadıq** | – 304 |
| **Davıdov Mixail** | – 102–103 |
| **Dev Qvanendra** | – 270 |
| **Dəmiröz Şenol** | – 129–130 |
| **Duş Sanтuş** | – 27 |
| **Eldarov Ömər** | – 112 |
| **Elizabeт** | – 191 |
| **Əbdül Kalam** | – 273,326 |
| **Əbdül Qəyum Məmun** | – 276 |
| **Əbdürəhmanov Əbdüqafur** | – 68–72 |
| **Əbiyev Səfər** | – 300 |
| **Əl-Bəşir Ömər** | – 280 |
| **Əl-Xəlifə Şeyx Həməd** | – 163 |
| **Əl–Məктum Bin Rəşid** | – 19 |
| **Əl–Nəhəyyan Zayid Bin Sulтan** | – 19,20 |
| **Əl–Nəhəyyan Xəlifə Bin Zayid** | – 20,141,235 |
| **Əl-Nəhəyyan Sulтan Bin Zayid** | – 19,20,141 |
| **Əl-Tani Həməd** | – 145–151 |
| **Ələkbərov Vahid** | – 185 |
| **Ələsgərov Murтuz** | – 186–188 |
| **Əliyev Heydər** | – 5–18,35,36,38,40,41,43, 44,50,51,55,56,58,62,63, 64,66,69,70,71,73,74,76, 79,80,81,82,84,95,97,98, |

102,111,112,114,115,117,
119,120,124,125,160,169,
171,172,173,174,176,177,
182,186–188,189,195,198,
208,210,250,251,253,257,
262,264,267,268,277,278,
282,283,293,295,296,297,
298,300,303,304,306,311,
317

**Əliyev Naтiq** – 111–115,221–224

**Əliyev Nəriman** – 59

**Əliyeva Leyla** – 241

**Əliyeva Mehriban** – 190,192,227–228,241,
289

**Ərdoğan Rəcəb Tayyib** – 105,256

**Əsgərov Rövşən** – 161

**Əylisli Əkrəm** – 295

**Fəттuh Rauhi** – 83

**Freyzer Piтer** – 192

**Füzuli Məhəmməd** – 306

**Hacıbababəyov Qasım bəy** – 304

**Hacıyev Alтay** – 305

**Halonen Tarya** **– 154**

**Harniş Rino** – 32

**Heydərov Kəmaləddin** – 46
**Hovard Con** – 328
**Hörd Duqlas** – 195–214
**Hun Ceff** – 193
**Hüseynov Mikayıl** – 304
**Hüseynov Rafael** – 304–307
**Xaтəmi Məhəmməd** – 258,259
**Xəlilov Fərhad** – 295
**Xodırev Gennadi** – 10,11
**Xoyski Fəтəli xan** – 304,305
**İbrahimbəyov Maqsud** – 295
**İhsanoğlu Ekmələddin** – 147
**İliyesku İon** – 142
**Kabalye Monserraт** – 26
**Kasтro Fidel** – 281
**Kərzai Həmid** – 33
**Kibaki Mvai** – 159
**Koidzumi Dzüniтiro** – 233
**Kompaore Bleis** – 162
**Kornaq Paтrik** – 192
**Kroтov Mixail** – 250–251
**Kumaraтunqa Çandrika** – 275
**Kvasnevski Aleksandr** – 87
**Qarayev Əbülfəs** – 282

**Qarayev Faiq** – 289
**Qasımov Balaş** – 160
**Qumberidze Zurab** – 260–261
**Qurbanov Səid** – 189
**Qusman Mixail** – 95
**Lamuru Fransua** – 90–92
**Lenmarker Qoran** – 136–137
**Lemyer Jan** – 225–226
**Ləhhud Emil** – 86
**Lubberq Ruud** – 138–140
**Lukaşenko Aleksandr** – 30,31
**Mahmud Abbas** – 83,322
**Makdonald Con** – 190
**Malтsev Leonid** – 238–239
**Mansurov Fərid** – 289
**Margelov Mixail** – 152–153
**Maтviyenko Valenтina** – 73–78
**Mehdiyev Ramiz** – 186–188
**Mesiç Sтepan** – 323
**Məmmədov Məşkur** – 55
**Mənn Sтiven** – 32
**Mironov Sergey** – 250
**Moisiu Alfred** – 109
**Nağdəliyev Zeynal** – 50

| | |
|---|---|
| **Nazarbayev Nursulтan** | – 164 |
| **Nəbi Xəzri** | – 183–184,295 |
| **Nizami** | – 304 |
| **Orazbay Asxaт** | – 135 |
| **Özkök Hilmi** | –126 |
| **Paşazadə Allahşükür** | – 186–188 |
| **Puтin Vladimir** | – 73,207,208 |
| **Rasizadə Arтur** | – 186–188 |
| **Rayninger Piтer** | – 221–224 |
| **Rzayev İslam** | – 67 |
| **Savori Maykl** | – 227–228 |
| **Sekombe** | – 191 |
| **Sezər Əhməd Necdəт** | – 105,256 |
| **Sxeffer Yaap** | – 28–29 |
| **Sidorski Sergey** | – 30–31,238 |
| **Sinqh Manmohan** | – 327 |
| **Sтro Cek** | – 230 |
| **Süleymani Əfşar** | – 254–255 |
| **Şevardnadze Eduard** | – 210 |
| **Şərifov Abid** | – 221–224,301–303 |
| **Şider Piтer** | – 153 |
| **Şinavaтra Taksin** | – 144 |
| **Şmid Samuel** | – 315 |
| **Tağıyev Hacı Zeynalabdin** | – 301–303 |

**Tandca Mamadu** – 165

**Təyya Uld Sidi** – 108

**Topçubaşov Əlimərdan bəy** – 305

**Tuniç Süleyman** – 110

**Türkeri Fevzi** – 124–126

**Tüzmən Gürşad** – 104–107

**Umsumi Yoşio** – 131–132

**Vəlixanlı Nailə** – 301–303

**Vike-Freyberq Vayra** – 88

**Vudvord Devid** –155–156

**Yasir Ərəfaт** – 83

**Yudhoyono Susilo** – 274

**Yusifbəyli Nəsib bəy** – 305

**Yusifzadə Xoşbəxт** – 111–115

**Yuşşenko Vikтor** – 321

**Zahir Şərif** – 34–35

## Coğrafi adlar gösтəricisi


**Abxaziya** – 202

**Afina** – 286,289

**Ağdam** – 173

**Ağsтafa** – 32

**Alar (*Cəlilabadda kənd*)** – 62

**Albaniya** – 109

**Almaniya** – 21,22,263,302

**Amerika (qiтə)** – 278

**Amerika Birləşmiş Şтaтları** – 12,21,24–25,32

**Anqola** – 27

**Aralıq dənizi** – 207

**Asiya** – 149

**Asтara** – 40–47,65

**Avropa** – 91,133,153,196,208,209, 210,232,278,302

**Avsтraliya** – 328

**Bakı** – 15,19,20,21,23,25,26,27, 30,33,39,49,50,67,68,83, 85,86,87,88,89,92,94,102, 103,108,124,127,128,129, 131,135,137,141,142,143, 144,154,159,160,162,163,

164,182,184,233,234,235,
237,240,270,273,274,275,
276,277,279,280,281,304,
315,317,323,325,326,327,
328

**Barselona** – 26

**Belarus** – 30–31,238–239

**Belçika** – 22

**Bəhreyn** – 163

**Bərdə** – 139

**Biləsuvar** – 139

**Birləşmiş Ərəb Əmirlikləri** – 20,235

**Bolqarısтan** – 55

**Bosniya–Hersoqovina** – 110

**Böyük Briтaniya** – 21–23,59,190–232,302

**Brüssel** – 28,92,206

**Burkina – Faso** – 162

**Cenevrə** – 127,131,132,138,139

**Cəlilabad** – 62–66,65

**Cənub-Şərqi Asiya** – 273,274,275,276

**Cənubi Asiya** – 273,274,275,276

**Cənubi Qafqaz** – 91,126,157,206,209,223

**Cənubi Oseтiya** – 202

**Çin** – 290

| | |
|---|---|
| **Dağısтan** | – 189 |
| **Dağlıq Qarabağ** | – 12,25,29,32,34,41,52,60, 69,70,81,91,105,107,123, 125, 126,134,136–137,138, 139,140,157,158,166,179, 193,194,200,201,202,204, 205,207,213,223,229,243, 244,297,306,309,313 |
| **Dəvəçi** | – 263 |
| **Dnesтryanı** | – 202 |
| **Dohə** | – 145–151 |
| **Əbu–Dabi** | – 20 |
| **Əfqanısтan** | – 33 |
| **Fələsтin** | – 83,196,322 |
| **Finlandiya** | – 154 |
| **Fransa** | – 302 |
| **Gəncə** | – 9,304 |
| **Gürcüsтan** | – 15,32,55,155,202,203, 209,210,246,247,260–261 |
| **Hindisтan** | – 273,326,327 |
| **Xaçmaz** | – 263 |
| **Xəzər dənizi** | – 8,111,156,197,207,208, 210 |
| **Xorvaтiya** | – 323 |

**İndoneziya** – 274
**İraq** – 196
**İran** – 243,244,254–255,258–259
**İsveçrə** – 315
**İтaliya** – 55,133–134,157–158, 263,302
**Keniya** – 159
**Kuba** – 281
**Qafqaz** – 21,222
**Qaqauziya** – 236–237
**Qazaxıстan** – 164
**Qəтər** – 145–151
**Quba** – 263
**Qusar** – 263
**Laтviya** – 88
**Lənkəran** – 48–53,65
**Livan** – 87
**London** – 190–232,242
**Lüksemburq Hersoqluğu** – 320
**Maldiv** – 276
**Masallı** – 54–61,65
**Mavriтaniya** – 108
**Moldova** – 202,236–237

**Moskva** – 7,77,102,207,213
**Naxçıvan** – 9,97
**Naxçıvan MR** – 277
**Nepal** – 270
**Niger** – 165
**Nijni-Novqorod (*RF-da vilayəm*)** – 10,11
**Oman** – 89
**Orтa Asiya** – 21,55
**Paris** – 213
**Praqa** – 222,244,307,313
**Polşa** – 87
**Rumıniya** – 142,240
**Rusiya** – 9,10,11,15,55,59,73–78, 95,102–103,152–153,181–182,185,207,208,245,247, 318–319
**Sankт-Peтerburq** – 73–78,250
**Səudiyyə Ərəbisтanı** – 252–253
**Sidney** – 282,291
**Siyəzən** – 262–269
**Sтepanakerт** – 212
**Sudan** – 280
**Şri-Lanka** – 275
**Tailand** – 143,144

**Türkiyə** – 55,96–101,104–107,124–126,129–130,155,203,209, 223,224,248,256–257
**Türkmənisтan** – 210
**Ukryana** – 247,321
**Vaşinqтon** – 213
**Yaxın Şərq** – 196,243
**Yaponiya** – 21,36,37,233,234
**Yerevan** – 212
**Yunanısтan** – 209
**Zabraт** – 9

MÜNDƏRİCAT

«PREZİDENT HEYDƏR ƏLİYEV» TANKERİNİN İSTİSMARA VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ
*3 noyabr 2004-cü il……………………………………………5*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRLİYİNİN HÖKMDARI ƏLAHƏZRƏT ŞEYX MƏKTUM BİN RƏŞİD ƏL MƏKTUMA
*3 noyabr 2004-cü il……………………………………………19*

ƏBU-DABİ ƏMİRLİYİNİN HÖKMDARI ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL NƏHƏYYANA
*3 noyabr 2004-cü il……………………………………………20*

«AZSTANDARTSERVİS» LABORATORİYASININ AÇILIŞI MƏRASİMİ
*3 noyabr 2004-cü il……………………………………………21*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA
*4 noyabr 2004-cü il……………………………………………24*

DÜNYA ŞÖHRƏTLİ MÜĞƏNNİ MONSERRAT KABALYEİLƏ GÖRÜŞ
*4 noyabr 2004-cü il……………………………………………26*

ANQOLA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA
*4 noyabr 2004-cü il……………………..………………27*

NATO-nun BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERLƏ GÖRÜŞ
*5 noyabr 2004-cü il……..……………………………...28*

BELARUS RESPUBLİKASININ BAŞ NAZİRİ SERGEY SİDORSKİ İLƏ GÖRÜŞ
*5 noyabr 2004-cü il……………………..………………30*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRİ SƏFİR STİVEN MƏNN İLƏ GÖRÜŞ
*5 noyabr 2004-cü il……………………..………………32*

ƏFQANISTAN İSLAM DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ
*8 noyabr 2004-cü il…………….………………………33*

BMT-nin «ÜMUMDÜNYA ƏRZAQ PROQRAMI»NIN AZƏRBAYCANDAKI SABİQ NÜMAYƏNDƏSİ ŞƏRİF AMİN ZAHİR İLƏ GÖRÜŞ
*8 noyabr 2004-cü il…………..…………………………34*

ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ TADAO ÇİNONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*8 noyabr 2004-cü il…………………………..…………36*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ YUSİF MƏMMƏDƏLİYEV ADINA NEFT–KİMYA PROSESLƏRİ İNSTİTUTUNA
*8 noyabr 2004-cü il………………………………………….38*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKANIN CƏNUB BÖLGƏSİNƏ SƏFƏRİ
*9 noyabr 2004-cü il………………………………………….40*

«AZƏR-CƏNUB» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN BEYNƏL-XALQ YÜK TERMİNALININ AÇILIŞI
*9 noyabr 2004-cü il………………………………………….46*

«ASTARA ÇAY-2» AÇIQ TİPLİ SƏHMDAR CƏMİYYƏTİNİN YENİ İSTEHSAL SAHƏSİ İLƏ TANIŞLIQ
*9 noyabr 2004-cü il………………………………………….47*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LƏNKƏRAN ŞƏHƏRİNDƏ
*9 noyabr 2004-cü il………………………………………….48*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MASALLIDA
*9 noyabr 2004-cü il………………………………………….54*

«NOR-M»MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN YENİ İSTEHSAL SAHƏLƏRİ İLƏ TANIŞLUQ
*9 noyabr 2004-cü il………………………………………….59*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏLİLABADDA
*9 noyabr 2004-cü il……………………………………………….62*

XALQ ARTİSTİ İSLAM RZAYEVƏ
*10 noyabr 2004-cü il……………………………………………….67*

MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN BAŞÇILARI İLƏ GÖRÜŞ
*10 noyabr 2004-cü il……………………………………………….68*

SANKT-PETERBURQUN QUBERNATORU VALENTİNA MATVİYENKO İLƏ GÖRÜŞ
*10 noyabr 2004-cü il……………………………………………….73*

MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AÇILMIŞ İFTAR SÜFRƏSİNDƏ NİTQ
*11 noyabr 2004-cü il……………………………………………….79*

FƏLƏSTİN MUXTARİYYƏTİNİN MÜVƏQQƏTİ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB RAUHİ FƏTTUHA

FƏLƏSTİNİN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD QUREİYƏ

FƏLƏSTİN AZADLIQ TƏŞKİLATI İCRAİYYƏ KOMİTƏSİNİN BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA
*11 noyabr 2004-cü il……………………..………………....83*

KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*11 noyabr 2004-cü il…………………………………..…....84*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMİL LƏHHUDA
*11 noyabr 2004-cü il……………………………………....86*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEK-SANDR KVASNEVSKİYƏ
*11 noyabr 2004-cü il……………………………………....87*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM VAYRA VİKE-FREYBERQAYA
*11 noyabr 2004-cü il…………………………..…………....88*

OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ
*11 noyabr 2004-cü il…………………………..…………....89*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ NƏQLİYYAT VƏ ENERGETİKA ÜZRƏ BAŞ DİREKTORU FRANSUA LAMURUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*13 noyabr 2004-cü il…………………………..…………....90*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*13 noyabr 2004-cü il…………………..………………….93*

RUSİYA İNRAF AGENTLİYİNİN – İTAR-TASS-ın VƏ RUSİYANIN ORT TELEKANALININ BİRGƏ İSTEHSALI OLACAQ «HAKİMİYYƏT FORMULU» FİLMİNİN YARADICI HEYƏTİNİN RƏHBƏRİ, İTAR-TASS-ın BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANA MÜSAHİBƏ
*16 noyabr 2004-cü il…………………...…………………95*

AZƏRBAYCAN–TÜRKİYƏ BİZNES FORUMUNDA NİTQ
*18 noyabr 2004-cü il………………..…………………….96*

RUSİYA FEDERASİYASI TİBB ELMLƏRİ AKADEMİYASI ONKOLOGİYA ELMİ MƏRKƏZİNİN BAŞ DİREKTORU MİXAİL DAVIDOV İLƏ GÖRÜŞ
*18 noyabr 2004-cü il………………..…………………102*

TÜRKİYƏNİN İQTİSADİYYAT ÜZRƏ DÖVLƏT NAZİRİ GÜRŞAD TÜZMƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*18 noyabr 2004-cü il……………………………………..104*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MÜAVİYƏ ULD SİDİ ƏHMƏD TƏYYAYA
*18 noyabr 2004-cü il…………………….……………108*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALFRED MOİSİUYA
*18 noyabr 2004-cü il…………………..………………109*

BOSNİYA-HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN TİHİÇƏ
*18 noyabr 2004-cü il……………………………….110*

ƏFSANƏVİ NEFT DAŞLARININ 55 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ MƏRASİM
*22 noyabr 2004-cü il…………………..………………111*

NEFT DAŞLARININ 55-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQİ
*22 noyabr 2004-cü il……………………………….116*

TÜRKİYƏNİN JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI, ORDU GENERALI FEVZİ TÜRKERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*24 noyabr 2004-cü il…………………..………………124*

«QLOBAL İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI – 2004» BAKI KONFRANSINA
*24 noyabr 2004-cü il…………………..………………127*

TÜRKİYƏNİN TRT TELEVİZİYASININ SƏDRİ ŞENOL DƏMİRÖZ İLƏ GÖRÜŞ
*25 noyabr 2004-cü il…………………..………………129*

BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ YOŞİO UTSUMİ İLƏ GÖRÜŞ
*25 noyabr 2004-cü il……………………..………………131*

İTALİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MARQARİTA BONİVER İLƏ GÖRÜŞ
*25 noyabr 2004-cü il……………………..………………133*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ CƏNAB ASXAT ORAZBAYA
*26 noyabr 2004-cü il……………………..………………135*

ATƏT-in PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENMARKER İLƏ GÖRÜŞ
*26 noyabr 2004-cü il……………………..………………136*

BMT-nin QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI RUUD LUBBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*26 noyabr 2004-cü il……………………..………………138*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX
XƏLİFƏ BİN ZAYİD ƏL NƏHHƏYYANA
*27 noyabr 2004-cü il……………………..………………141*

RUMINİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İON İLİYESKUYA
*27 noyabr 2004-cü il……………………………………142*

TAİLANDIN KRALI ƏLAHƏZRƏT FUMİBOL ADULYADEAYA
*29 noyabr 2004-cü il…………………………..…………143*

TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TAKSİN
ŞİNAVATRAYA
*29 noyabr 2004-cü il……………………..………………144*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏTƏR DÖVLƏTİNƏ RƏSMİ SƏFƏRİ
*30 noyabr 2004-cü il……………………..………………145*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANI ARASINDA GÖRÜŞ
*30 noyabr 2004-cü il……………………..………………146*

AZƏRBAYCAN–QƏTƏR SƏNƏDLƏRİNİN İMZALANMASI
*30 noyabr 2004-cü il……………………..………………149*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏTƏR DÖVLƏTİNƏ RƏSMİ SƏFƏRİ
*1 dekabr 2004-cü il…………………………………………151*

RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ BEYNƏLXALQ MƏSƏLƏLƏR

KOMİTƏSİNİN SƏDRİ MİXAİL MARGELOV İLƏ GÖRÜŞ
*1 dekabr 2004-cü il…………………………………………152*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ
*2 dekabr 2004-cü il…………………………………………154*

«bp–AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORD İLƏ GÖRÜŞ
*3 dekabr 2004-cü il…………………………………………155*

İTALİYANIN ALİ MÜDAFİƏ ELMLƏRİ MƏRKƏZİNİN DİREKTORU PİETRO ERKOLE AQO İLƏ GÖRÜŞ
*3 dekabr 2004-cü il…………………………………………157*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MVAİ KİBAKİYƏ
*4 dekabr 2004-cü il…………………………………………159*

«NƏ? HARADA? NƏ VAXT?» ZƏKA OYUNU ÜZRƏ 2004-cü İLİN DÜNYA ÇEMPİONATINDA QALİB GƏLMİŞ VƏ BU OYUN ÜZRƏ MÜTLƏQ ÇEMPİON OLAN AZƏRBAYCAN KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ
*4 dekabr 2004-cü il…………………………………………160*

BURKİNA–FASONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BLEİS KOMPAOREYƏ
*4 dekabr 2004-cü il…………………………………………162*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ
*7 dekabr 2004-cü il…………………………………………163*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
NURSULTAN NAZARBAYEVƏ
*7 dekabr 2004-cü il…………………………………………164*

NİGER RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAMADU TANDCAYA
*7 dekabr 2004-cü il…………………………………………165*

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLLƏR KABİNETİNİN 2004-cü İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASDA NİTQ
*7 dekabr 2004-cü il…………………………………………166*

MDB ÜZRƏ YƏHUDİ CƏMİYYƏTLƏRİ FEDERASİYASININ İSRAİL–RUSİYA KOMMERSİYA TİCARƏT PALATASININ PREZİDENTİ LEV LEVAYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*9 dekabr 2004-cü il…………………………………………181*

XALQ ŞAİRİ NƏBİ XƏZRİYƏ
*10 dekabr 2004-cü il………………………………………183*

RUSİYANIN «LUKoyl» NEFT ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ
*11 dekabr 2004-cü il………………………………………185*

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR
*11 dekabr 2004-cü il…………………………………………....186*

DAĞISTAN DÖVLƏT ŞURASI SƏDRİNİN MÜŞAVİRİ SƏİD QURBANOV İLƏ GÖRÜŞ
*12 dekabr 2004-cü il…………………………………..……….189*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LONDONA RƏSMİ SƏFƏRİ
*12 dekabr 2004-cü il……………………………….…………..190*

BÖYÜK BRİTANİYA KRALİÇASININ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ
*13 dekabr 2004-cü il……………………………….…………..191*

BÖYÜK BRİTANİYANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞ
*13 dekabr 2004-cü il……………………………….…………..193*

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN XARİCİ ƏLAQƏLƏR VƏ MÜDAFİƏ KOMİTƏLƏRİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ
*13 dekabr 2004-cü il……………………………….…………..194*

«CHATHAM HOUSE» KLUBUNDA GÖRÜŞ
*13 dekabr 2004-cü il………………………………………………195*

«AZƏRBAYCANDA TİCARƏT VƏ SƏRMAYƏ» KONFRANSINDA NİTQ
*14 dekabr 2004-cü il………………………………………………215*

«ŞAHDƏNİZ» KREDİT SAZİŞİNİN İMZALANMAMƏRASİMİ VƏ AZƏRBAYCAN PREZİDENTİİLHAM ƏLİYEVİN MƏTBUAT KONFRANSI
*14 dekabr 2004-cü il………………………………………221*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ (AYİB) PREZİDENTİ JAN LEMYER İLƏ GÖRÜŞ
*14 dekabr 2004-cü il………………………………………225*

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ LONDON ŞƏHƏRİNİN MERİ ADINDAN VERİLƏN ZİYAFƏT
*14 dekabr 2004-cü il………………………………………227*

BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ TONİ BLEYR İLƏ GÖRÜŞ
*14 dekabr 2004-cü il………………………………………229*

BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT KATİBİ CEK STRO İLƏ GÖRÜŞ
*14 dekabr 2004-cü il………………………………………230*

bp ŞİRKƏTİNİN PREZİDENTİ CON BRAUN İLƏ GÖRÜŞ
*14 dekabr 2004-cü il………………………………………231*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ
*15 dekabr 2004-cü il………………………………………233*

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA
*15 dekabr 2004-cü il………………………………………234*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX

XƏLİFƏ BİN ZAYİD ƏL NƏHƏYYANA
*15 dekabr 2004-cü il…………………………………………235*

MOLDOVA RESPUBLİKASI QAQAUZİYA MUXTAR ƏRAZİ QURUMUNUN
BAŞQANI CƏNAB GEORGİ TABUNŞİKƏ

MOLDOVA RESPUBLİKASI QAQAUZİYA MUXTAR ƏRAZİ QURUMU XALQ MƏCLİSİNİN SƏDRİ CƏNAB STEPAN YESİRƏ
*15 dekabr 2004-cü il…………………………………………236*

BELARUS RESPUBLİKASINI MÜDAFİƏ NAZİRİ LEONİD MALTSEV İLƏ GÖRÜŞ
*15 dekabr 2004-cü il…………………………………………238*

RUMINİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TROYAN BASESKUYA
*16 dekabr 2004-cü il…………………………………………240*

BAKI ŞƏHƏRİ, SƏBAİL RAYONU «İNTELLEKT» MƏKTƏB-LİSEYDƏ YERLƏŞƏN 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏ
*17 dekabr 2004-cü il…………………………………………241*

MBD PARLAMENTLƏRARASI ASSAMBLEYA ŞURASININ BAŞ KATİBİ MİXAİL KROTOV İLƏ GÖRÜŞ
*17 dekabr 2004-cü il…………………………………………250*

SƏUDİYYƏ ƏRƏBİSTANININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏLİ HƏSƏN ƏHMƏD CƏFƏR İLƏ GÖRÜŞ
*20 dekabr 2004-cü il…………………………………………252*

İRAN İSLAM RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏFŞAR SÜLEYMANİ İLƏ GÖRÜŞ
*20 dekabr 2004-cü il……………………………………………254*

TÜRKİYƏ RESPUBLİKASININ DİNİ İŞLƏR VƏQFİNİN SƏDRİ PROFESSOR ƏLİ BARDAKOĞLU İLƏ GÖRÜŞ
*21 dekabr 2004-cü il……………………………………………256*

İRAN İSLAM RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ ƏLİ ŞAMXANİ İLƏ GÖRÜŞ
*22 dekabr 2004-cü il……………………………………………258*

GÜRCÜSTANIN SƏFİRİ, RESPUBLİKAMIZDAKI DİPLOMATİK KORPUSUN DUAYENİ ZURAB QUMBERİDZE İLƏ GÖRÜŞ
*23 dekabr 2004-cü il……………………………………………260*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SİYƏZƏN RAYONUNDA
*24 dekabr 2004-cü il……………………………………………262*

SİYƏZƏN RAYON MƏRKƏZİ KLİNİKİ XƏSTƏXANASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*24 dekabr 2004-cü il……………………………………………264*

NEPALIN KRALI ƏLAHƏZRƏT QYANENDRABİR BİKRAM ŞAH DEVƏ
*27 dekabr 2004-cü il……………………………………………270*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ DAİMİ BEYNƏLXALQ KATİBLİYİNİN BAŞ KATİBİ TEDO CAPARİDZE İLƏ GÖRÜŞ
*27 dekabr 2004-cü il……………………………………………271*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ƏBDÜL KALAMA
*27 dekabr 2004-cü il……………………………………………273*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA
*27 dekabr 2004-cü il……………………………………………274*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA BANDARANAYKE KUMARATUNQAYA
*27 dekabr 2004-cü il……………………………………………275*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA
*27 dekabr 2004-cü il……………………………………………276*

DÜNYA AZƏRBAYCANLILARINA
*27 dekabr 2004-cü il……………………………………………277*

SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ
*27 dekabr 2004-cü il……………………………………………280*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTRO RUSA
*27 dekabr 2004-cü il……………………………………………281*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN (MOK) IV BAŞ MƏCLİSİNDƏ NİTQ
*28 dekabr 2004-cü il……………………………………………282*

AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN IV BAŞ MƏCLİSİNDƏ YEKUN NİTQİ
*28 dekabr 2004-cü il……………………………………………291*

ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPUNA YÜKSƏK DÖVLƏT MÜKAFATLARININ VƏ FƏXRİ ADLARIN TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ
*29 dekabr 2004-cü il……………………………………………293*

BİR QRUP YÜKSƏK RÜTBƏLİ HƏRBÇİYƏ VƏ HÜQUQ-MÜHAFİZƏ ORQANLARI ƏMƏKDAŞINA «AZƏRBAYCAN BAYRAĞI» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ
*29 dekabr 2004-cü il……………………………………………297*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ ELMLƏR AKADEMİYASININ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ
*30 dekabr 2004-cü il……………………………………………301*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ ELMLƏR AKADEMİYASININ NİZAMİ GƏNCƏVİ ADINA AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNDƏ
*30 dekabr 2004-cü il……………………………………………304*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*31 dekabr 2004-cü il……………………………………………308*

RESPUBLİKA TƏHLÜKƏSİZLİK ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ
*3 yanvar 2005-ci il………………………………………………313*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAMUEL ŞMİDƏ
*3 yanvar 2005-ci il……………………………………………315*

AZƏRBAYCANIN PRAVOSLAV İCMASINA
*4 yanvar 2005-ci il………………………………………….316*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «ROSSİYA» TELEKANALININ «SABAHIN XEYİR, RUSİYA!» PROQRAMI VERİLİŞİNƏ MÜSAHİBƏSİ
*8 yanvar 2005-ci il……………………………………………318*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ
*10 yanvar 2005-ci il…………………………………………320*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YUŞŞENKOYA
*11 yanvar 2005-ci il…………………………………………321*

FƏLƏSTİN MUXTARİYYƏTİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA
*13 yanvar 2005-ci il…………………………………………322*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STEPAN MESİÇƏ
*17 yanvar 2005-ci il…………………………………………323*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*19 yanvar 2005-ci il…………………………………………324*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CEYNULABDİN ƏBDÜL KALAMA
*19 yanvar 2005-ci il………………………………………………326*

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB MANMOHAN SİNQHƏ
*19 yanvar 2005-ci il………………………………………………327*

AVSTRALİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB CON UİNSTON
HOVARDA
19 yanvar 2005-ci il………………………………………………*328*

QEYDLƏR……………………………………………………….*329*

Şəxsi adlar göstəricisi…………………………………………….*375*

Coğrafi adlar göstəricisi…………………………………………*382*

| | |
|---|---|
| **Kiтabı çapa hazırlayan** | ***Tofiq Babayev*** |
| | |
| **Texniki redakтoru** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operaтor** | ***İlhamə Kərimova*** |
| **Kompüтer тərтibaтı** | ***Məhəbbəm Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,5.
Uçot vərəqi 26,0. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.